# AZƏRBAYCAN

**3'2015**

**1923-cü ildən çıxır**

**AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN**
**AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI**

| | |
|---|---|
| **Baş redaktor:** | **İntiqam QASIMZADƏ** |
| **Baş redaktor müavinləri:** | **Südabə AĞABALAYEVA**<br>**Əsəd CAHANGİR** |
| **Məsul katib:** | **Tofiq MAHMUDOV** |

***REDAKSİYA HEYƏTİ:*** **Ağasəfa, Vilayət Quliyev, Firuzə Məmmədli, Məmməd Oruc, Vaqif Bəhmənli, Vahid Əziz, Seyran Səxavət, Saday Budaqlı, Əli Əmirli, Yaşar, Asim Yadigar, Elçin, Əjdər Ol, Musa Yaqub, Afaq Məsud, Rüstəm Kamal, Ənvər Əhməd, Kamil Əfsəroğlu, Vaqif Yusifli, Fəxri Uğurlu, Paşa Əlioğlu, Əli İldırımoğlu**

| **Redaksiyanın ünvanı:** | **Çapa imzalanıb:** | **E-mail:** |
|---|---|---|
| Bakı - Az1000<br>Xaqani küçəsi, 25 | 27.02.2015<br>**Sifariş 706**<br>Tiraj 800 | **intigam.gasimzade@gmail.com** |
| **Telefonlar:**<br>*Redaksiya –*<br>498-78-10<br>493-28-32<br>493-28-34<br>*Mühasibat –*<br>493-29-41 | **Kağız formatı**<br>70x108 1/16 - 6,5<br>kağız vərəqi<br>12 çap vərəqi<br>16,8 şərti çap vərəqi | **Qiyməti**<br>**1 manat 50 qəpik**<br><br>**Bakı şəhəri, "Azərbaycan" nəşriyyatının mətbəəsində ofset üsulu ilə çap olunur** |

**Çap olunmuş yazılar qəbul edilmir.**
**Əlyazmalara rəy verilmir.**

## BU SAYIMIZDA:

### P o e z i y a


CAMAL YUSİFZADƏ - Şeirlər...................................................... 3
SABİR SARVAN - Şeirlər............................................................. 61
HƏYAT ŞƏMİ - Şeirlər............................................................... 123
NAZİLƏ GÜLTAC - Şeirlər........................................................ 130
SABİR YUSİFOĞLU - Şeirlər.................................................... 137
FƏRİD HƏSƏNZADƏ - Şeirlər................................................. 143
DAYANDUR SEVGİN - Şeirlər................................................ 147
GÖYƏRÇİN KƏRİMİ - Şeirlər.................................................. 158
NURANƏ NUR - Şeirlər............................................................ 162


### N ə s r


SEYRAN SƏXAVƏT - Qaçaqaç (roman-memuar-əvvəli).............. 11
MÜBARİZ CƏFƏRLİ - Halə (povest).......................................... 70


### N i s ə B ə y i m i n 6 0 y a ş ı


NİSƏ BƏYİM - Şeirlər................................................................ 104


### D ə y i r m i M a s a


Anar belə dedi... ......................................................................... 109


### Ə k b ə r A ğ a y e v - 1 0 0


VAQİF YUSİFLİ - Ustad tənqidçi, gözəl tərcüməçi..................... 132


### D ü n y a , s ə n d ə n k i m l ə r k e ç d i . . .


QƏŞƏM NƏCƏFZADƏ - Şəkillər.............................................. 150
ƏLİ RZA XƏLƏFLİ - Sözün ucalığında...................................... 153


### T ə n q i d v ə ə d ə b i y y a t ş ü n a s l ı q


ELNARƏ AKİMOVA - Müasir poeziyada çöküş fəlsəfəsi........... 167
ASİF RÜSTƏMLİ - İstiqlal poeziyamızın Daisi.......................... 179


### K i t a b l a r , r ə y l ə r


GÜNAY QARAYEVA - "Gözəl dünyadı, vallah..."..................... 185

K i t a b r ə f i ...................................................................190

◆ **P o e z i y a**



## *Camal YUSİFZADƏ*

### DÜNYAYA QORXUNUN GÖZÜYLƏ BAXMA

*Vaqif Səmədoğluna*

Dünya bir pəncərədi -
Baxsan da, baxmasan da.
Çay axır, vaxt aparır,
Axsan da, axmasan da -
Dünyaya qorxunun gözüylə baxma!
Dünyaya qorxunun gözüylə baxma,
Dərin olmaz,
Sərin olmaz,
Yarın olmaz qara ağac kölgəsi!
Qara daş,
Qara qum,
Duz göyərəndə,
Çiynində qanadlı mələk görəndə
Dünyaya qorxunun gözüylə baxma.
Ruhun həbsdəsə,
Kədər xəstəsə,
Bəd xəbər kəssə -
Dünyaya qorxunun gözüylə baxma.
Nə mən arzunun sonuyam,
Nə sən sevdanın ilki.
Dünyaya qorxunun gözüylə baxma -
Dünyaya özümüz gəlməmişik ki!
Dünyaya qorxunun gözüylə baxma -

Ya qul olacaqsan,
Ya da ki quldar.
Beş günlük dünyanın feilinə uyma.
Qanı laxtalanmış azadlıq da var.
Sevən sevilmirsə,
Bəxtin kəmdirsə,
Sarı sarı deyil,
Yaşıl nəmdirsə,
Qürub qanqırmızı batan qəmdirsə -
Dünyaya qorxunun gözüylə baxma!
İçində izin azalsa,
Dizində dözüm azalsa,
Tanrıdan izin azalsa,
Dünyaya qorxunun gözüylə baxma.
Gec tapdın,
Tez itirdin?
Atam oğlu, fərq eləməz!
Nə isə tapılmalı,
Nə isə itməlidi -
Əzəli bir kələkdi;
Nə vaxtsa ötməlidi.

Qanadlı şəlaləyə,
Al badə lalələrə,
Zeytun gözlü dənizə,
Gümüşü balıqlara,
Kül altında közərən
Müqəddəs eşqə görə,
Zərli kəpənəklərə,
Kəhkəşanlı göylərə,
Allı-güllü payıza,
Quşbaşı qara görə
Dünyaya qorxunun gözüylə baxma!
Milçəkdən fil düzəlsə,
Fahişələr mələyə,
İblislər bütə dönsə -
Qorxunun gözüylə dünyaya baxma!
Eh, nə isə,
Eh, nə qəm,
Ölüm haqsa, qəmin kəm -
Dünyaya qorxunun gözüylə baxma.

***13.08.2014***

## XOŞBƏXTLİK

Mənim xoşbəxtliklə
Nə işim var ki?

O öz dünyasında,
Öz aləmində -
Əlləri upuzun, gözləri xumar,
Təmtaraq, çal - çağır,
Çılpaq ehtiras!..
Mənim bu sarıdan bəxtim gətirib -
Mənimki kəmdi.
Özgə havasına,
Qan bahasına büsat quranın
Sevinci nəmdi,
Vicdani dəmdi!
Kədərli olsa da, ağır olsa da,
Mənə kədərimin,
Ümidlərimin külü qalacaq!..
Xoşbəxtlik əbədi olmayır ancaq.

***20.01.2014***

## ALLAHDAN QORXAN YOXDUR

***Seyran Səxavətə***

Kimsə kimdənsə qorxur,
Kimsə nədənsə qorxur!
Hərə bir şeydən qorxur! -
Bu nə qorxudu, ey va!?
Quzu qurddan,
Qurd çobandan,
Adəm adamdan qorxur!
Cəllad baş kötüyündən,
Hakim hökmündən qorxur,
Məhəbbət sarmaşıqdan,
Leyli Məcnundan qorxur!
Qorxunun gözü yekə,-
Çeşmək dərdi böyüdür -
Hamı dərdindən qorxur!-
Bu nə bəladı, ey va!?
Kimi gözdən,
Kimi sözdən,
Kimi bizdən,
Kimi sizdən,
Satqın özündən qorxur!
Məkri - zənən qorxusu,
Şəri - şeytan qorxusu,
Quru böhtan qorxusu!..
Əli Vəlidən qorxur,
Ağıllı ağıllıdan,
Dəli dəlidən qorxur,

Hökmdar kölgəsindən,
Oğru Ay işığından,
Koma bayquş səsindən,
Yaltaq belindən qorxur.
Pişiklər ağacdadı,
İlan yerin təkində,
Arxadan gələn kimdi?

Qapının o üzündə
Nə var görəsən indi?
Mən bir şeydən qorxuram;
Deyimmi, deməyimmi?
Deməsəm yaxşı olar-
Yuxularım dağılar!
Əzrayıl can axtarır,
Hamı sabahdan qorxur,
Allahdan qorxan yoxdur!!!
Bəndəyi - həqirə. Külli - aləmə
Allahlıq eləmək
çətindi, Allah!!
çətindi, Allah!!!

***13.05.2012***

## RUHUNU DƏLİ SAYMIRSA

Bir kişiyçin geyinmirsə,
Bir kişiyçin soyunmursa,
Ruhunu dəli saymırsa -
Qadın, vallah, qadın deyil!

Sevda gözündə yanmırsa,
İçin-için oyanmırsa,
Özünü mələk sanmırsa -
Qadın, vallah, qadın deyil!

Tər nəfəsdən uçunmursa,
Yuxudan ətir ummursa,
Xəyalında ovunmursa -
Qadın, vallah, qadın deyil!

Ehtirasdan közərmirsə
içindəki xəzinə,
Əl qonmursa sinəsinə, dizinə,
Yana-yana çəkilmirsə özünə -
Qadın, vallah, qadın deyil!

Eh, bilirsə yaşını,
Sürmə belə cilvələməz

Gözlərini, qaşını.
Bir dəlisov məhəbbətdən
İtirmirsə başını-
Qadın, vallah, qadın deyil!

*6.04.2012*

## SALAM OLSUN

***Üstümüzdə namaza***
***Duranlara salam olsun.***
***Yunis İmrə***

Yuyulmayan günahın
Yuyanın nə vecinə?
Tövbə qapısı açıq -
Yalana salam olsun!

Baxmağa üz yoxdusa,
Güzgü nəyə gərəkdi?
Bir başı, iki üzü
Olana salam olsun!

Şahlıq İblis xisləti -
Toy içində mavi yas?
Ölümün kölgəsinə
Cücərən göbələyə -
Qalana salam olsun!

Azadlıq bəhanədi
Torpaq üstə ölənə!
Başı kəsik soxanı
Alana salam olsun!

Onsuz da bu həyatdan
Sağ çıxmayacaq heç kim!
Sevə-sevə ölənə, -
Solana salam olsun!

Keçmişdən gələcəyə -
Dan üzünə boylanan
Həyat adlı yuxuya -
Hər ana salam olsun!

Dünya bir pəncərədi
Xəyalların önündə,
Özünə, keçmişinə
Dalana salam olsun!

Seçim Allah rizası,
Cəhənnəm qələbəlik!
Bəndəsini cənnətə
Alana salam olsun!

***09.07.2013***

## SEVİLƏN XƏSTƏLİK

Yaranışdan
Gözəl hissdi məhəbbət -
Sevildikcə qatılaşan xəstəlik!
Bir nəvadı,
Bir havadı,
Bir dəva -
Tanrı bilir məhəbbətin rəngini!
Uzun- uzun gecələrdən,
Qısa - qısa yuxulardan
Yorulsa da, bezsə də,
Üzüldükcə üzsə də,
Tapılsa da məlhəm qoyan təbibi,
Təsəllisi - həbibi
Tənhadır ki,
Tənhadır ki,
Tənhadı!
Tənha ağac kölgəsi tək,
Kölgəsi də aladı,
Boz səhrada yaşıl sahə,
Biçilməmiş taladı,
Qara daşı göyərməyən,
Sevilən bir bəladı!
Bəni - insan istəmir ki,
İstəmir ki,
Bu yuxudan,
Bu bəladan ayıla!

***18.06.2013***

## TANRIYA SÖZÜMÜZ VAR

"Sındırmaga qozumuz,
Cırmağa bezimiz var"!
Yalamağa duzumuz,
Öpməyə dizimiz var!

Sevişməyə gözümüz,
Yandırmağa közümüz,

Üfüqlərdə izimiz,
Ruh kimi üzümüz var!

Səhra sonsuz və susuz,
Mən gedirəm, sən də gəl!
Tanrıya sözümüz var,
Tanrıya sözümüz var!

***07.04.2012***

## GET ÜZÜ DAN ÜZÜNƏ

***Südabə Ağabalayevaya***

Özgə kədərinə bənzəyən üfüq
Alışıb - yandı yenə -
Uç üzü dan üzünə!
Uç hey, uç hey, uç ha uç!
Qanad salsan
En yerə - yer üzünə,
Yüyür, yüyür, yüyür get.
Tükənsə, avazdısa
ayağında taqətin
Tapın həyat eşqinə -
İçində zamanı öt,
Yeri, yeri, get ha get!
Yeriyə də bilməsən,
Sürün, sürün,
Sürün get dan üzünə.
Bu yol içindən keçən,
İtən sevda yoludur,
Ötən arzu yoludur,
Bitən ömür yoludur -
Get üzü dan üzünə!
Dan üzü daş saxlamaz,
Yer üzü yas saxlamaz,
"Kirpiklər yaş saxlamaz" -
Çəkil, qapan özünə -
Öndə ölüm də olsa,
Get üzü dan üzünə!
Havalan!
Yüyür!
Yeri!
Sürün, sürün, sürün get -
Get üzü dan üzünə!
Üfüq uzaq - qürbət el,
Yetsən əgər

Üzünü sürən dan üzünə,
Ordan mənə əl elə,
                                        elə belə!

***20.11.2013***

## KEÇMİŞDƏN QORXAN ADAM

Hər möminin keçmişi var,
Hər qatilin cəzası!..
Ağır olur,
Soyuq olur
İtən günün qəzası!..
Keçmişindən qorxan adam
Gələcəyə gedən yolda ölürdü,
Dirəmişdi kürəyini palıda,
Gözlərini buluda,
Önündə xəyalları.
Becərməyə torpağı yox,
Uyumağa koması,
Bağlamağa qapısı,
Ayrılmağa kölgəsi!
Yüyürəsi düzü yox,
Baş qoymağa dizi yox!
Kimdi ona ağlayan? -
İslanmayan dərdi çox!
Bu dünyada sevilmədi - sevmədi,
Cəhənnəmdə inanma ki sevilə!
Rəhmin gəlsin, İlahi,
Qanadlı bir mələk göndər,
Gözlərini qapasın,
Kilidləsin qapısın!..
Alnı səcdəyə,
Ruhu vidaya gəlməyən adam
İnanmırdı nə mələyə, nə cinə,
Keçmişindən qorxa-qorxa,
Çiçəkləri nəvalanmış payızda
                          çəkilirdi içinə!
Bilirdi ki, vəssalam;
Sabah gələn gələcək,
Ta sabah gəlməyəcək!

***26.08.2012***

## ◆ X a t i r ə l ə r

*Seyran SƏXAVƏT*

# QAÇAQAÇ



◆ *Roman-memuar*

***Keçən əsrin 70-ci illərində, altmışıncılardan dərhal sonra ədəbiyyata gəlmiş Azərbaycanın tanınmış yazıçısı - nasiri və şairi (şair təbli nasiri də demək olar) Seyran Səxavət artıq 70 yaşını haqlamaqdadır. 60 yaşının tamamından sonra o, keçdiyi həyat yolunu, bu yolda rastlaşdığı insanları, maraqlı hadisələri qələmə almaq, necə deyərlər, memuarlarını yazmaq qərarına gəlib. O vaxtdan Seyran "Qaçaqaç" adlandırdığı xatirələrini yazır və 2009-cu ildən etibarən də "Azərbaycan" jurnalı müəyyən fasilələrlə onları dərc edir. Bu sayımızdan başlayaraq, hələ də yazılmaqda olan həmin memuarların ayrı-ayrı fəsillərini diqqətinizə çatdırırıq.***

## *Xurşud banu Natəvan, İlyas Əfəndiyev və yol sərgüzəşti*

- Alo… əleyküm-salam. Bəli… oldu, indi gəlirəm.

Zəng eliyən Yazıçılar İttifaqının katibi Elçin Əfəndiyev idi.

«Ulduz» jurnalında işləyirdim; bir-iki ay ancaq olardı. Redaksiyamız da Xaqani küçəsi 25-də Yazıçılar İttifaqına məxsus binanın birinci mərtəbəsində yerləşirdi. Otaqdan çıxıb qapının yanına vurulmuş balaca lövhəni bir də oxudum: «Seyran Səxavət Nəsr şöbəsinin müdiri» və öyündüm. Orasını da boynuma alıram ki, hər gün işə gələndə və işdən gedəndə bu lövhəni oxuyub ləzzət alırdım, elə bilirdim ki, dünya mənimdi, özümündü, şərikim-zadım da yoxdu. Ancaq beş-altı ay keçəndən sonra bu adətimi tərgitdim… İndi ən çox iş otağıma girməmişdən əvvəl sağ tərəfdəki qapının böyrünə vurulmuş lövhəni oxuyurdum: «Yusif Səmədoğlu Baş redaktor» - bir azdan o da unuduldu getdi…

Tez bir siqaret yandırdım, «Trakiya» çəkirdim; axıra qədər sümürüb səbbimi alandan sonra çölə çıxdım. Bir ay qabaq Yazıçılar İttifaqının limiti ilə aldığım, «Jiquli-03» markalı, «95-46 AJA» nömrəli maşınımı redaksiyanın

qapısının ağzında saxlamışdım: bir xeyli də ona tamaşa eləyəndən sonra qəfil yadıma düşdü ki, axı Elçin müəllim məni gözləyir. Tez-tələsik ikinci mərtəbəyə, onun otağına qalxdım. Qapını açan kimi dedi:

- Gəl, Seyran, gəl, keç otur…

Elçin müəllimin stolunun üstü kitablarnan doluydu və elə həmişə beləydi. Hal-əhval tutandan sonra dedi:

- Maşının nə təhər işləyir?

- Nə yatıb ki, nə də yuxu görə… təzə maşındı də…

- Hə… lap yaxşı… sənnən bir xahişim olacaq, - dedi.

- Buyurun, Elçin müəllim, eşidirəm.

O, gülümsəyib dedi:

- Bilirsən də, İlyas müəllimin əsərinin qızğın məşqləri gedir…

- Bilirəm, - dedim. - Natəvanın məşqləri…

- Hə… məsələ burasındadı ki, mənim maşınım təmirdədi… beş-on günlük işi var.

- Noolub ki? - soruşdum.

- Heeç… tərs kimi Timuçinin də maşını işləmir. Gərək hər gün İlyas müəllimi evdən götürüb aparasan teatra…

- Gözüm üstə, - dedim.

- Məşqdən də sonra teatrdan götürüb gətirəsən evə… Mən indi Yusifə deyərəm, - dedi və telefona baxdı, - evi tanıyırsan də?

- Niyə tanımıram ki… Domsovetin yanında…

- Hə… De görüm işlərin necədi, təzə vəzifənə öyrəşirsən? - gülümsədi.

- Hər şey yaxşıdı, - dedim.

Qalxıb getmək istəyəndə Elçin müəllim dedi:

- İşində diqqətli ol, kompromisə getmə.

Diqqətli olmağı başa düşdüm, ancaq kompromisin nə olduğunu qandırmadım.

Elçin müəllimin otağından çıxıb aşağı düşdüm. Əhəd Muxtar redaksiyamızın qapısının ağzında dayanıb siqaret çəkirdi. Ona çatan kimi dedim:

- Əhəd, kompromis nədir?

Əhəd Muxtar ağzını açmadan üz-gözünü elə turşutdu, elə bozardı ki, elə bil ondan borc pul alıb qaytarmamışam və təzədən borc istəyirəm. Ancaq sağ olsun, dilləndi:

- Bu yaşa gəlmisən, kompromisin mənasını bilmirsən? - üzümə baxdı, nəsə inandı ki, doğrudan bilmirəm, dedi:

- Kompromis, yəni güzəşt, - gülümsədi və oldu əsl Əhəd Muxtar.

Ürəyimdə ani də olsa fikirləşdim ki, görəsən Elçin müəllim niyə güzəşt yox, kompromis deyir? Niyəsini çox tez unutdum, ancaq dediyini bu günə qədər unutmamışam - unutsaydım, yazmazdım ki…

Əhəd Muxtarın «əsli»ni tüstüləyə-tüstüləyə çöldə qoyub içəri girəndə az qaldım Vidadi Məmmədovla toqquşam. O, salamsız-kalamsız dedi:

- Ay Sarı (o, məni belə çağırırdı), küçə hərəkəti qaydalarına riayət eləmək lazımdı, basıb əzmişdin bizi, noolub? - təəccüblə üzümə baxdı.

- İşim var… tələsirəm.

- Gedirsən?

- Hə…

- Hara?

- İlyas Əfəndiyev məni gözləyir. - Fəxrlə dilləndim, bir az da elə bil ki, özümü dartdım. O vaxtlar adamın özünü dartması üçün səbəb də az olurdu - nadir hallarda və mən də əlimə düşən bu fürsətdən yetərincə yararlandım - başqa heç nə yox idi ortada…

Vidadi bu görüşün mahiyyətinə varandan sonra ətrafa göz gəzdirib mütləq bir ehtiyatla, özünə xas olmayan ciddi bir görkəm alıb dedi:

- Sənə bir məsləhət…
- Ehtiyacım yoxdu, - dedim.
- Sonra peşman olarsan, Sarı, - əl çəkmədi.
- Yaxşı, de görüm…

Vidadi yenə özünə xas olmayan ciddi görkəmini aldı:

- Qulaq as, gör nə deyirəm. İlyas müəllim səni danışdırsa-danış, yox, danışdırmasa-danışma, dilini qoy qarnına.
- Niyə ki? - təəccübləndim.
- Qohum mənimdisə, nə deyirəm onu elə. O kişinin zəvzək adamlardan xoşu gəlmir.

Zəvzək sözünü öz ünvanıma götürüb pis olduğumu büruzə verməsəm də, Vidadi bunu hiss eləyib gülə-gülə dedi:

- Sarı, axşam səni bir yaxşı yerə aparacam, - könlümü almaq istəyirdi, - təzə bir «qaz» tapmışam, yol ki, yolasan… yolduqca xoşallanır ee… Özün görəzsən də… Şeir yazır bədbəxt… özü də dokdurdu, dokdur.
- Mən getdim, - dedim və elə dedim ki, guya desəydi ki, getmə, getməyəcəkdim.

Vidadi şəhadət barmağını sağ gicgahına dirəyib susdu, müdrikanə bir görkəm alıb dedi:

- Sənnən soruşsa ki, əsərlərimi oxumusan, denən ki, hamısını oxumuşam.
- Doğurdan hamısını oxumuşam, - dedim.
- Sənnən soruşsa tamaşalarıma baxmısan, denən hamısına baxmışam.
- Doğurdan hamısına baxmışam.
- Soruşsa ki, hansı əsərim xoşuna gəlir, denən hamısı.
- Yaxşı, - dedim.

Vidadi məni xeyli təlimatlandırandan, indiki dillə desək, testdən keçirdəndən sonra bu mövzunu yekunlaşdırdı:

- İndi gedə bilərsən, sənnən arxayın oldum, - dedi.

İlyas Əfəndiyevin adını beşinci-altıncı sinifdə oxuyanda ilk dəfə valideynlərimdən eşitmişəm. Əlli neçənci illər idi. O vaxt kənddə işıq yox idi. Ancaq radio çəkmişdilər. Kəndimizdəki dünyanın xeyli təmiz və sadəlövh vaxtı idi. Hətta bir qadın bulağa gəlib səhəngini növbədənkənar doldurmaq istəyəndə qız-gəlinə demişdi ki, tələsirəm, iradionu evdə tək qoyub gəlmişəm - elə bil südəmər körpəsini tək qoyub gəlmişdi. Əlqərəz, o vaxtlar idi və İlyas Əfəndiyevin əsərləri radioda səslənəndə atam-anam bəh-bəhlə və fəxrlə qulaq asırdılar. Bizi də radionun, əslində isə İlyas Əfəndiyevin başına yığırdılar. Biz bir şey başa düşməsək də veriliş qurtarana qədər cınqırımızı da çıxartmırdıq. Veriliş qurtaran kimi ikisi də uşaq kimi sevinə-sevinə deyirdi ki, İlyas Əfəndiyev müəllimimiz olub və bu, hər dəfə təkrar olurdu. Valideynlərimin hər dəfə verilişdən sonra İlyas Əfəndiyevin onların müəllimi olduğunu təkrar eləməsi mənə qətiyyən çatmırdı, mənə elə gəlirdi ki, bir sözü bir dəfə deyərlər; ancaq üzlərinə vurmurdum, o vaxt böyüyün üzünə durmaq, Allahın üzünə durmaq kimi dəyərləndirilirdi - biz bunu qanmasaq da, hiss eləyirdik.

Bir dəfə yenə bu vəziyyət təkrar olanda mən atama dedim:

- Qağa, o sizə nədən dərs deyib?

İkisi də birdən dilləndi:

- Coğrafiyadan…

Anam müəllimə olduğuna görə üzümü ona tutdum:

- Bajı, bizim sinifdə niyə coğrafiya keçmirlər?
- Yeddinci sinifdə keçəcəklər, - anam səbrlə cavab verdi.

- Bizim coğrafiya müəllimi də sizin müəllim kimi yazandı?

- Yoox… - anam gülümsədi, - mənim kitablarımın içində İlyas müəllimin kitabı var, «Kənddən məktublar» - istəyirsən verim oxu.

- Yoox… yekələndə oxuyaram, - dedim və bu məsələ bağlandı.

Bizim kənddə iki kitabxana vardı; biri kolxozunku idi, biri də bizim evdəki - anam gəlin gələndə özü ilə şəhərdən gətirmişdi - Makarenkonun «Pedaqoji poemaları», Marksın, Engelsin, Leninin, Stalinin və müasir Azərbaycan yazıçılarının əsərləri - mən o kitablardan birinin də arasını açmamışdım.

Anam İlyas Əfəndiyevin sinifdə onlara dediyi sözü ömrünün axırına kimi yeri düşdükcə təkrar eləyirdi:

- İlyas müəllim həmişə deyirdi ki, heç vaxt ağ köynək geyib qara tut ağacının altında durmayın.

Bir dəfə bu sözləri növbəti dəfə anamdan eşidəndə ona dedim:

- Bajı, ağ urbaşqa geyib qara tutun altında duranda noolur ki?

Anam bu sualın cavabını mənim İlyas Əfəndiyevi mütaliə etmək məsələm kimi sonraya saxladı:

- Yekələndə başa düşərsən, - dedi.

- Yekəlmişəm dana, altıda oxuyuram.

- Hələ cıqqılısan, - anam gülümsədi.

- Cıqqılı-zad deyiləm, - əl çəkmirdim.

Anam başqa çıxış yolu görməyəndə səbrlə dedi:

- İlyas müəllim demək istəyir ki, qara tutun altında durma, yoxsa urbaşqan bulanar, ləkə tökər.

- İndi başa düşdüm. Düz deyir dana, urbaşqa bulansa, sən hirsdənərsən axı…

O vaxt mən şeir yazırdım, Moskvadan, Qızıl Meydandan, Lenindən, Bakıdan, Sumqayıtdan, bir də öz kəndimizdən; demək istəyirəm ki, mövzu dairəm çox geniş idi. Yazılarımı da konvertə qoyub birbaşa Yazıçılar İttifaqına göndərirdim; ordan da cavab gəlirdi ki, «bədii cəhətdən zəifdi». Mən yenə göndərirdim, onlar da kişinin sözü bir olar məsəlinə sədaqət nümayiş etdirirdilər - beləcə qarşılıqlı əlaqələrimiz davam eləyirdi. Hiss eləyirdim ki, Yazıçılar İttifaqından bir şey çıxmayacaq. Odur ki, İlyas Əfəndiyevə «xod» axtarmağa başladım və axtara-axtara gəlib çıxdım yazıçımızın Füzuli (o vaxt Qaryagin) şəhərindəki ata yurduna. Hətta bir dəfə anama belə bir sual da vermişdim:

- Bajı, İlyas Əfəndiyev qağamı görsə tanıyar?

- Nə bilim, vallah, - anam cavab vermişdi.

- Bəs səni görsə tanıyar?

- Nə bilim, vallah… neynirsən ki?

- Heç, - demişdim.

İlyas Əfəndiyevin atası Məhəmməd bəyin torpaqlarını Şura hökuməti əlindən almışdı, sonra da satmışdı camaata. O torpaqlardan yeddi-səkkiz sotunu da ana babam almışdı, öz əlilə orda kürsülü ev tikmişdi. İlyas Əfəndiyevin ata evi dörd-beş sot torpağın içində qalırdı. O evdə Məhəmməd bəyin qızı Məhluqə xanım öz ailəsi ilə yaşayırdı - Çingiz Əlioğlunun anası. Biz də onlarla çəpər qonşuları idik. Məhəmməd bəyin müsadirə olunmuş torpağında təxminən on-on iki ailə ev tikdirib yaşayırdı. Mahnur həkim, boyaqçı Kərim, müfəttiş erməni Avetisov, maqazində işləyən Mirmehdi kişi, bandit İsmayıl və xatırlamadığım başqaları. O vaxt Məhəmməd bəyin nəvəsi, İlyas Əfəndiyevin bacısı oğlu, səkkizinci sinif şagirdi Çingiz Əliyevin Çingiz Əlioğlu olmağına hələ otuz il qalırdı…

Hər həftə nənəmgilə gəlirdim. Çingiz böyük qardaşım Xanlarla yaşıd idi, məndən iki yaş böyük idi. Arıq, uzun, sısqanın biriydi. Biz tanış idik - uşaqlar necə tanış olarlarsa, bax heylə. And içməyi sevirdi. Əsasən iki cür and-aman

eləyirdi. Birincisi «Allahın birliyinə and olsun», ikincisi isə «mənim İlyas dayımın canı haqqı». Xoşbəxtlik, səadət bu qədər yaxın ikən mən niyə onu uzaqlarda axtarmalı idim. İlyas Əfəndiyevə «xod» tapmaq məsələsi gündəlikdə qalsa da ikinci plana keçdi. İndi günümün ən vacib məsələsi Çingizlə ünsiyyətə girib onun hörmətini, inamını qazanmaq idi. Ancaq bu, o qədər də asan məsələ deyildi. Çünki Çingizin təkəbbürünün içində bir iddia da var idi. Bəlkə də bu iddia idi Çingizi, indi hamının tanıdığı Çingiz Əlioğluna çevirən - nə bilim, vallah.

Çingizin atgetməz işləri də vardı. Məsələn, gedirdi Füzuli şəhər mərkəzi kitabxanasına, ordan Marksın «Kapital» əsərini götürüb vururdu qoltuğuna, düşürdü şəhərin canına. Yaşından asılı olmayaraq ona rast gələnlər soruşurdular:

- Çingiz, o nə kitabdır?
- Çingiz, İlyas Əfəndiyevin kitabıdır?
- Çingiz, dayının təzə kitabı çıxıb?
- Çingiz, dayının kitabıdırsa, ver biz də oxuyaq…

Çingizin bütün bu suallara bir cavabı vardı:

- Karl Marksın «Kapital» əsəridir, sizdik deyil!

Və üstündən bir həftə keçmirdi, bütün şəhər danışırdı ki, Çingiz Marksın «Kapital»ını oxuyur. Marksın da o vaxtlar kəsdiyi başa sorğu-sual yox idi axı… dünya proletariatının üç-dörd atasından biri idi kişinin oğlu.

Ağzı söz tutan da deyirdi ki, bu uşağın gələcəyi var. Bəziləri isə bu mətləbi bir az da dəqiqləşdirirdi: yəqin, dayısına oxşayıb… xas igid dayısına oxşayar… və sair.

Çingiz, bax beləcə şəhər camaatının gözünə kül üfürürdü. Ədalət naminə deməliyəm ki, mən də kəndimizin camaatının gözünə kül üfürürdüm. Bir ucdan Yazıçılar İttifaqına göndərdiyim şeirlərin cavabı, üstünə böyük hərflərlə «Azərbaycan Yazıçılar İttifaqı» yazılmış böyük konvertdə gəlirdi. Kəndimizin poçtalyonu Balağa kişi o konverti mənə verəndə deyirdi ki, oxu görüm nə yazıblar. Mən «bədii cəhətdən zəifdir» cümləsini oxumurdum, o qədər öyrəşmişdim ki, cümləni elə şəklindən tanıyırdım. Və poçtalyona belə bir mətn təqdim eləyirdim, yazıblar ki, «Seyran, sən yekələndə böyük adam olazsan, Bakıya gələndə məni taparsan, səni instituta özüm düzəldəcəm, hörmətlə, Mirzə İbrahimov».

Və üstündən bir həftə keçmirdi ki, bütün kənd danışırdı ki, Mirzə İbrahimov Əsgərin oğlu Seyrana məktub yazıb - əlbəttə ki, hər kəsin xoş məramlı əlavələri ilə: «instituta düzəldəcəm»dən başqa, işə düzəldəcəm, ev verəcəm, bəziləri lap dərinə gedib deyirdi ki, toyunu da özüm eləyəcəm - bax belə…

Çingiz şəhərdə kül üfürürdü, mən də kənddə; Çingizin on beş yaşı vardı, mənim on üç. Üfürhaüfür idi; Allah rayon camaatına versin…

Bu mənada, ünsiyyət qurmaq məsələsində daş qayaya rast gəlmişdi. Ancaq indiki vəziyyətdə, yuxarıda dediyim kimi, daşınan qayanın əxlaq qohumluğu da vardı ki, bu da az əhəmiyyət kəsb etmirdi və ümid verirdi…

Mənə elə gəlirdi ki, yox ee, mən möhkəm inanırdım ki, əgər Çingizlə dil tapa bilsəm, gedəcəm ee qabağa, beş kişinin biri olacam.

Bəli, şənbə günü tezdən durub tərpəndim şəhərə, nənəmgilə, daha doğrusu, Çingizlə görüşməyə. Novruz bayramına üç-dörd gün qalmışdı. Yay günəşi yavaş-yavaş camaatın da, torpağın da qırışığını ütüləyirdi. Bir həftə müddətində hıqqına-hıqqına oturub bir şeir də yazmışdım. Evdən çıxanda istədim Çingizə bir litr inək südü aparam, ancaq nədənsə bu fikrimdən vaz keçdim; evdə boş şüşə də var idi.

- Ay Çingiz, ay Çingiz, ay Çingiz! - Dil qəfəsə qoymadan qışqırırdım.

Anası qapını açıb bayırda görünən kimi salamsız-kalamsız dedim:

- Məhluqə xala, Çingizə denən bəri dursun, işim var.

- Bəs salamın harda qaldı?.. Zərif nə təhərdi? - Anamı soruşdu.
- Salam! Salam! Salam! Məhluqə xala, bajım yaxşıdı…
- Zərif də gəlib?
- Yox, özüm gəlmişəm… Çingizə denən bəri dursun, işim var.

Anası içəri keçən kimi Çingiz çıxdı, gəlib mənimlə üz-üzə dayandı - aramızda nimdaş bir çəpər vardı, babat külək əssəydi, götürüb aparardı.

Çingiz məndən xeyli uzun idi; o, mənə yuxarıdan baxırdı, mən də ona aşağıdan yuxarı. Sizə deyim ki, bu, mənim indiki vəziyyətimə çox uyğun idi - çünki ümidlə baxanda mütləq yuxarı baxırsan, aşağılarda heç nə yoxdu, heç nə olmur.

- Xanlar evdə? - Çingiz öz tay-tuşunu, böyük qardaşımı soruşdu.
- Neynirsən ee Xanları? - dedim.
- Yaxşı, mənnən nə işin var?

Əlimi qoltuq cibimə atıb çaşdım, sonra şalvar cibimdən qatlanmış, arxasında vurma cədvəli olan on iki vərəq dəftəri çıxardıb dedim:

- Şeir yazmışam… istəyirəm oxuyam, görəsən qəşəng şeirdi, yoxsa.

Çingiz xeyli təəccübləndi, bir az da pis oldu, elə bil qara xəbər eşitmişdi. Düzünü deyim ki, mənə nənəmgilin qonşusu Çingizin fikri yox, İlyas Əfəndiyevin bacısı oğlu Çingizin fikri lazım idi.

- Şeir yazırsan?
- Hə! Yazıram. Noolsun? Yaxşı eləyirəm yazıram! Kənddə olanlara şeir yazmaq olmaz ki?

Çingizin bir az səbbi alındı. Fikirləşdim, yəqin, qardaşıma görə mülayimləşdi.

- Yaxşı, oxu görək nə yazmısan? - Çingiz dedi.

Dəftərimi açıb oxumağa başladım.

- Səhər çağı hava xoşdu,
Könüllər qaynadı coşdu,
Qədimalının başı boşdu,
Bahar gəldi, bahar gəldi.

- Dayan! - Çingiz yuxarıdan dedi.
- Niyə? - Mən aşağıdan soruşdum.
- Əvvəldəki iki sətri kitabdan köçürtmüsən.

And içdim, aman elədim, inanmadı. Əvəzində dedi:

- Qədimalının başı niyə boşdu ki?
- Boşdu dana… Onun qara toyuqları var, axı onların yumurtası bərk olur. O günü evimizdən beş dənə yumurta götürüb getdim onlara. Dedim Qədimalı əmi, ala bu beş yumurtanı, qara toyuğun yumurtasından ikisini ver maa, yumurta döyüşəndə udum, vermədi.
- Bəs nə dedi? - Çingiz yaramın üstünə duz səpdi.
- Dedi ki, sürük burdan.
- Bəs sən nağayırdın?
- Mən də sürükdüm…
- Ondan sonra da yazdın ki, Qədimalının başı boşdu?
- Hə… bəs neyniyeydim? Dalın da oxuyum?
- Yox!
- Niyə?
- Get dərslərini yaxşı oxu, əlaçı ol, sonra baxarıq…

Mən ondan soruşdum:

- Sən şeir yazırsan?
- Yox, - dedi, - yazmıram, ancaq yazacam.

Öz aləmimdə onu haqlı hesab elədim. Bəlkə də fikirləşirdi ki, bu sarı gədə kənddən qalfeyi şalvarda gəlib şəhərdə mənə şeir oxuyursa, mən niyə şəhərin göbəyində yaşaya-yaşaya yazmayım…

İlyas Əfəndiyevə tapdığım «xod» od oldu, məni yandırdı, puça çıxdı. Yazıçılar İttifaqından əlimi üzmüşdüm, İlyas Əfəndiyevdən də əlim belə üzüldü.

Bütün bunları ona görə yazdım ki, İlyas Əfəndiyev mənim üçün necə əlçatmaz, ünyetməz idisə, bu gün də eləcə əlçatmaz, ünyetməz nəhəng bir yazıçıdır. İndiki ağlımla deyirəm ki, İlyas Əfəndiyevin «Söyüdlü arx» romanı dünya nəsrində çox böyük hadisədir - hələ başqa romanlarını, pyeslərini, publisistik yazılarını demirəm. İlyas Əfəndiyevin dili nəsrimizdə xalqdan mayalanmış, cücərmiş, boy göstərmiş, şaxələnmiş, ana südü qədər şirindir. Orası da məlumdur ki, yalnız şirin dillə böyük, bəşəri mətləbləri dilə gətirmək olar, yoxsa yazıçının dili söz tutmaz, heç nə yaza bilməz, yazsa da qəbul olunmaz. Doğma dilimizin yaradanı, sahibi, cilalayanı, qoruyucusu olan Xalq nahaq yerə demir ki, «dilini şirin elə…» Bu, çox vacibdir. Azərbaycanda nə qədər desən Şirindil adlı adam tapmaq olar; elə biri bizim ədəbiyyatşünas, tənqidçi Şirindil Alışanov. Bəşəriyyətin ən böyük ehtiyacı şirin dilədi, çünki insan olaraq çox acılar yaşayırıq. Yazıçının dilinin şirin olması isə bir başqa möcüzədir - İlyas Əfəndiyev möcüzəsi kimi…

Mən sevimli yazıçımızın əsərlərindən çoxlu-çoxlu misallar da çəkə bilərəm; ancaq İlyas Əfəndiyev əsərlərindən, onun dilindən misal çəkməyin vaxtı çoxdan keçib və yersiz görünər - görünən kəndə bələdçilik eləmək istəyən kimsənin vəziyyətinə düşmək istəmirəm.

Tanıyanlar bilir ki, mən boğazdan yuxarı söz istehsal eləyə bilmirəm, ümumiyyətlə, mənim boğazdan yuxarıdakı ərazim söz istehsal eləmək üçün qeyri-münbitdi, bomboz səhra kimidi, heç nə bitirmir. Bir az da sərrast desək, boğazdan yuxarı ərazimlə dilimin arasında heç bir yol, əlaqə yoxdu - yaranışdan beləyəm. Əvəzində isə, təyyarəçilərin dili ilə desək, ürəyimlə dilim arasındakı məsafəni bir anın içində qət edəcək birbaşa reys mən doğulan gündən açılıb və hər an xidmətinizdəyəm… Yuxarıda yazdığım boğazdan aşağı sözləri də xırda-xuruş ağzıgöyçəklər üçün dilimə gətirdim, nəsə keyfim belə istədi, bağışlayın…

Əlqərəz… Axı İlyas Əfəndiyev məni gözləyir.

Deyilən vaxta on beş dəqiqə qalmış İlyas müəllimin Hökumət Evinin yanındakı mənzilinin qapısının ağzında idim. Saata bir də baxdım və qərara gəldim ki, düz on beş dəqiqədən sonra qapı zənginin düyməsini basaram, tez olmaz.

Liftin böyrünə söykənib fikirləşdim ki, görəsən Timuçinin maşını niyə xarab olub? Bir yandan da fikirləşdim ki, əgər o iki qardaşın maşınları eyni vaxtda xarab olmasaydı, mən indi burda dayanmazdım. Nəsə maşınların eyni vaxtda müvəqqəti sıradan çıxması, açığını deyim ki, bir az da xoşuma gəldi - o vaxt gənclərin yaşlılara münasibəti belə idi.

İlyas müəllimgilə gələndə Məzahir adlı bir köhnə tanışımla görüşdüm. Məndən üzr istədi ki, gərək o vaxt belə hərəkət eləməyəydim - mən də onu bağışladım. Şeir yazırdı, ara-sıra dövri mətbuatda da görünürdü. Mən universitetin şərqşünaslıq fakültəsinin birinci kursunda oxuyanda o, filologiya fakültəsinin beşinci kursunda idi. Qəbahət eləmişdi. Əslən Qarabağdan olan bir tərəkəmə şairə (o da beşinci kursda idi) xəbər vermişdi ki, Seyran deyir ki, onnan nə şair olar, nə də kişi. Universitetin birinci mərtəbəsində Sergey Mironoviç Kirovun üç metrlik heykəlinin qabağında dayanıb o tərəkəmə şairlə söhbət eləyirdik. O, məndən incidiyini deyirdi. Mən isə and-aman eləyirdim ki, vallah, belə söz deməmişəm… əgər sənin haqqında bu fikirdə olsaydım, gəlib elə sənin üzünə deyərdim də, burda nə var ki? Elə bu heyndə Məzahiri gördüm, onu yanımıza çağırdım və dedim:

- Məzahir, mən sənə nə vaxt elə söz demişəm?

O, çıxılmaz vəziyyətə düşmüşdü, tüpürdüyünü də yalamaq istəmirdi:

- Deməsən, demərəm, - dedi və at kimi üzümə dirəndi. İndi də mənim çıxış yolum qalmamışdı; onun çənəsindəki balaca çökəyə karlı bir yumruq ilişdirdim - allahsız, nahaq danışdığına görə. Başı Sergey Mironoviçin «ayağına» dəydi və bunu qan götürdü. Tərs kimi universitetin prorektoru burdan keçirmiş. Başqalarının da köməyi ilə bizi tutub apardılar, aləm qarışdı. Tərəkəmə şair o saat aradan çıxmışdı. Məni universitetdən qovmaq istəyirdilər. O vaxt universitet komsomol komitəsinin katibi, Süleyman Rəhimovun oğlu Aqil Rəhimova Füzulidə ərdə olan bacısının - Şəfiqə xanımın adını verdim - nənəmgilin qonşuları idi. Aqil qanımın arasına girdi, baxılmaq üçün mənim işimi fakültə komsomol komitəsinə tövsiyə elədi və dedi ki, bundan artıq kömək eliyə bilmərəm. Bərk qorxurdum. Hamı, tanıyan-bilən deyirdi ki, səni qovacaqlar. Dünya dar papaq kimi başımı sıxırdı, özümə yer tapa bilmirdim, necə deyərlər, dərdi çox, həmdərdi yox…

İki gün keçdi. Dərsə getmirdim, qovulandan sonra nə edəcəyim barədə planlar qururdum. Üçüncü gün fakültədə mənim işimə baxırdılar. Komsomolun büro üzvləri hamısı burda idi - yuxarı kursun tələbələri idilər. Büro üzvləri bu qərara gəldilər ki, məni universitetdən xaric eləsinlər, çünki mən fakültənin adını batırmışam. Məni də dinlədilər. Bir nəfər qarayanız, şirin bir oğlan mənə diqqətlə qulaq asırdı. Çıxışım bitəndən sonra bir nəfər büro üzvü dedi ki, bəlkə, üzr istəsin. Mənim sözüm kəsə oldu:

- Heç vaxt, - dedim, - haqq nahaqdan üzr istəməz!

Otaqdan çıxmaq istəyəndə mənə diqqətlə qulaq asan, qarayanız, şirin oğlan dedi:

- Bir dəyqə dayan!

Dayandım. O, gülə-gülə büro üzvlərinə baxıb dedi:

- Vallah bu, - məni göstərdi, - kişi adama oxşayır, gəlin ona töhmət verək, qalsın dərsini oxusun. Belə olmaz!

Elə bil qurbağa gölünə daş atdılar, məclisə su ələndi. Bu qarayanız, şirin oğlan kim idisə, sözü keçən adama oxşayırdı. Çünki hamının səbbi alınmışdı, vəziyyətim ağır olsa da, canımnan əlləşsəm də bunu duyurdum.

Ərəb şöbəsinin üçüncü kursunda oxuyan, mənim ən çox qovulmağımı istəyən Abbas adlı birisi fıs-fıs fısıldayırdı. Uzun illərdən sonra eşitdim ki, o, öz rayonunda kolxoz sədri olub.

Qarayanız, şirin oğlan mənə dedi:

- Yaxşı, sən get… Sabahdan dərslərinə davam elə, - gülümsədi, - bir də heç nəyi dava ilə həll eləmə.

- Yaxşı, - deyib çıxdım.

Beş-altı gündən sonra öyrəndim ki, bu qarayanız, şirin oğlan İlyas Əfəndiyevin oğlu, bu gün filologiya elmləri doktoru, professor Timuçin Əfəndiyevdi. Nə qədər hərləndim-fırlandım bu kişiliyinə görə ona bir qonaqlıq verəm, razı olmadı. Sonradan dostlaşdıq, bu gün də bir-birimizə hörmətimiz var. Hər görüşəndə də deyir ki, sənin o qonaqlığın da qaldı ee…

Mənim məsələm həll olunandan sonra Timuçin komsomolun büro üzvlərinə deyib ki, yaxşı eləyib döyüb, deməyəydi, döyülməyəydi. Mən olsaydım, onu lap ayağımın altına salardım… Alçaq.

Onun sözlərini bir-iki aydan sonra eşitdim, mənə ləzzət verdi.

Bu qalmaqaldan iki-üç ay keçəndən sonra İlyas Əfəndiyevin balaca qardaşı, bir neçə kitabın, o cümlədən «Prokuror» romanının müəllifi Tofiq Əfəndiyev məni ilk dəfə Azərbaycan televiziyasında gənc şair kimi ekrana çıxartdı. Büro üzvü Abbas (onun təxəllüsü də vardı, özüm yazmadım) məni televiziyada görəndə uşaqlara deyib ki, belələrinin işi həmişə yaxşı gedir, bu hələ çox oyunlardan çıxacaq…

İlyas müəllimdən xahiş eləsəm ki, mən də məşqlərə baxım... Vidadi Məmmədovun məni təlimatlandırmağı yadıma düşən kimi, daşı ətəyimdən tökdüm...

Xurşud banu Natəvan... Nənəm qalalı qızı idi, o, həmişə dəyərdi ki, «Natəvan mənim yerlimdi». Nənəmə ilişirdim:

- Ay nənə, - deyirdim, - heylə demə.

- Bəs nə təhər deyim, yerlimdi də... axtaran olsa, bəlkə, qohumluğumuz da çatar, nə təhər deyim? - Nənəm hikkə göstərirdi, mən də onun hikkəsindən çəkinib-eləmirdim:

- Deynən ki, mən Natəvanın yerlisiyəm. Axı o, xan qızıdı.

- Noolsun xan qızıdı... mənim də atam tacir olub.

- Yaxşı, nənə, xan böyükdü, yoxsa tacir?

- Xan böyükdü, - nənəm yavaş-yavaş yumşalırdı, - ancaq sənin baban da yaxşı kişi olub, axı...

- Allah rəhmət eləsin! - deyirdim və nənə-nəvə arasında «atəşkəs» qüvvəyə minirdi.

Nənəmin dediyi kimi, axtaran olsa və Natəvanla onun qohumluğu sübuta yetsə, deməli, İlyas Əfəndiyevi məşqlərə aparıb-gətirməklə həm də Natəvana hörmət eləmiş oluram dəə... elə çıxır...

Yəqin ki, möhtəşəm bir tamaşa olacaq, mən də tamaşaçılar arasında oturub baxanda fikirləşəcəm ki, bu işdə mənim də köməyim olub. Hə...

Cəfər Cabbarlı bu dünya ilə salam-əleyküm kəsəndən sonra Məşədi Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının əsas ağırlığı İlyas Əfəndiyevin çiyinlərinə düşüb. Bu isə əndazəyə gəlməyən, heç nə ilə ölçülməyən, ancaq sözlə ölçülə bilən ağırlıqdır. İndi ölçə bilirsinizsə, gedin ölçün...

İlyas Əfəndiyev Azərbaycan Yazıçılar İttifaqının səksən illik tarixində bu təşkilatda katib vəzifəsində işləyən, Kommunist partiyasının üzvü olmayan yeganə yazıçıdır. Bəs, Kommunist partiyası onun atası Məhəmməd bəyin bütün var-yoxunu əlindən alanda bilmirdi ki, oğlu İlyas o partiyanın üzvü olmayacaq? Bilmirdi, ancaq gərək biləydi. O da intiqamını belə alırdı...

İlyas Əfəndiyev yazıb-yaratdığı və Yazıçılar İttifaqında işlədiyi müddətdə çoxistiqamətli və çoxşaxəli intriqaların heç birinə qoşulmayıb, heç kəsə yox, özünə məxsus olub... başını aşağı salıb öz işilə məşğul olub - yazıb, Azərbaycan sözünün, Azərbaycan dilinin ömrünü uzatmaqla məşğul olub, sözü ucaldıb. Dilin ömrünü uzatmaqla öz ömrünü uzadıb, sözü ucaltmaqla özünü ucaldıb... Ucalıqdan da baxanda dünyanı ovcunun içi kimi görürsən; axırda da sənə deyirlər dünyagörmüş kişidi. İlyas Əfəndiyev kimi...

Bu, mənim İlyas müəllimlə təkbətək ikinci görüşüm olacaq; birinci dəfə isə 1974-cü ildə mən «Ədəbiyyat və incəsənət» qəzetinin teatr və kino şöbəsində işləyəndə görüşmüşdük. Mən ondan Azərbaycan teatrının problemləri ilə bağlı çox ciddi, həm də sərt bir müsahibə almışdım. O vaxt bu müsahibə səs salmışdı. Əgər o yazını təkrar çap eləsələr, bu gün üçün də çox aktual və gərəkli olardı.

İndi qapının ağzında dayanıb vədəmi gözləyəndə Çingiz Əlioğluya «xod» tapmaq istəyim yadıma düşdü və öz-özümə uğunub getdim. Axırda isə bu qərara gəldim ki, Çingiz Əlioğlu çox da döşünə döyməsin; mən on üç yaşlı kənd uşağı Azərbaycan poeziyasında plagiatla məşğul olanda, şəhərin göbəyində yaşayan Çingiz hələ şeir yazmırdı...

O illərdən də, lap elə başqa illərdən də qayıdıb İlyas Əfəndiyevin qapısının ağzında peyda oldum. Saata baxdım. Vaxt tamam idi. Zəngin düyməsini basdım. Qapı açıldı, İlyas müəllim şux geyinmişdi, səliqə-sahmanı da öz yerində. Saatına baxdı, yüngülvari gülümsəyib dedi:

- Ay Seyran, sən lap nemessən ki...

Mən dinmədim, gülümsədim və üzümdəki təbəssümü təxminən belə tərcümə etmək olardı: «necə məsləhətdi…»

- Gedək, - dedi.

Liftlə aşağı düşdük, maşına minib tərpəndik. Hələ həyətdən çıxmamış İlyas müəllim soruşdu:

- Maşının təzədi?

- Bəli, İlyas müəllim.

- Çoxdan maşın sürürsən, yoxsa təzə örgənirsən?

Hiss elədim ki, İlyas müəllim ehtiyat eləyir. Onu arxayın eləmək üçün qırmızı yalan dedim:

- On ildən çoxdu…

Halbuki iki-üç ay olardı. Əslində heç sürücülük vəsiqəm də yox idi. SSRİ Yazıçılar İttifaqının üzvü idim. Vəsiqəmizin üstündə Leninin başı həkk olunmuşdu. Milisə göstərəndə qabağımızda mil dururdular, qorxusu yox idi.

- On ildən çoxdu?

- Bəli.

- Onda təcrübəlisən də.

- Bəli.

İlyas müəllimi tam arxayın elədim, o, arxayın olandan sonra özüm də arxayın oldum.

İlyas müəllim bir az da yerini rahatlayıb arxayın-arxayın dedi:

- Heç kəndə gedirsənmi, yoxsa… buralarda…

- Gedirəm, İlyas müəllim.

- Yaxşı eləyirsən, kəndnən əlaqəni heç vaxt kəsmə, kənd dəryadı, min il yazsan, qurtarmaz.

İstədim böyük yazıçının xoşuna gəlmək və özümü savadlı göstərmək üçün deyəm ki, İlyas müəllim, sizin də ilk kitabınız «Kənddən məktublar»dı, demədim. Daha doğrusu, demək istəyirdim, Vidadi Məmmədov qoymadı.

- Bəri bax, sizin kənd hansıdı? - Çevrilib üzümə də baxdı.

- Yağlıvənd, - dedim, - Yuxarı Yağlıvənd.

- Həəə… Sizin kəndin camaatı qoçaq camaatdı.

- Bəli, - dedim.

- Sən tanıyarsan sizin kənddən… Sovet hökuməti təzə qurulan vaxtı, qaçaq Rəşid olub, qaçaq Səfəralı olub…

- Eşitmişəm…

- Hə… Araz boyunda da qaçaq Süleyman vardı.

Dinmədim.

- Qoçaq adamlar çoxdu sizin kənddə… O vaxt Yağlıvənddilərin kəsdiyi başa sorğu-sual yox idi. Bizim də o kənddən qonaqlarımız vardı. Sizin kənddə bir Məşədi Paşa olub, çox qoçaq imiş. Qasım bəy Zakirin bir şeiri var ee… - üzümə baxdı, - məşhur şeirdi…

Bu dəfə Vidadi Məmmədov mənə mane ola bilmədi və dedim:

- Fisqu-füğur həddən aşıb Şişədə,
Erkəyi, dişisi yaman peşədə,
Mənəm qalan həmən bu əndişədə,
Zəmanə dönübdü qovğaya bir bax.

İlyas müəllim sözümü kəsdi:

- Yoox… onu demirəm, o da yaxşı şeirdi. Hə… yadıma düşdü. Deyir ki, «Zərgər, Dilağarda aləmi aşkar, bir ucdan oğurlar, bir ucdan satar». Yadına düşdü?

- Bəli, İlyas müəllim.

- Bax, həmən o Qasım bəy Zakir Yağlıvəndli Məşədi Paşanın qorxusundan sizin kəndin adını o şeirə salmayıb, elə Zərgərnən, Dilağardaynan kifayətlənib.

Bu dəfə də Vidadi Məmmədovdan icazəsiz soruşdum:

- İlyas müəllim, bizim kəndin adını o şeirə salsaydı, noolardı ki?

- Noolardı? Məşədi Paşa gejəynən Qasım bəy Zakiri arvadının yanından oğurlayıb gətirərdi kəndə… Heylə qoçaq adam olub ee… - üzümə baxdı, diqqətlə, - sən də qoçaq oğlana oxşayırsan.

Çap olunmuş hekayələrim haqqında bil kəlmə deməsə də, məni qoçaq oğlana oxşatmağından xeyli məmnun oldum.

- Niyə burdan döndün ki? - İlyas müəllim irad tutdu.

- Bu yol yaxındı, - dedim. - Erməni kilsəsinin yanından Hüsü Hacıyev küçəsinə, ordan da teatra… sağa…

- Yoox ee… Elçinin şoferi o tərəfdən gedirdi. Yaxşı, gedək… Bəri bax, Ağabala Abdullayevin oxumağı xoşuna gəlir?

- Çox yaxşı oxuyur, mamamın əridi, - dedim.

- Mamanın əri olduğuna görə tərifləyirsən, - gülümsədi.

- Yox, vallah. O, radioda «Zabul» oxuyanda Füzuli camaatı ağlaşma qurur, - dedim və Vidadi Məmmədovu təmiz unutmuşdum.

- Düz deyirsən, yaxşı oxuyandı. Sən uşaq olarsan, yadına gəlməz. Müharibə vaxtı Qaryagində Musiqili Dövlət Dram teatrı vardı. Ağabala Məcnunu oynayırdı, Kərəmi oynayırdı… Vallah, yer-göy lərzəyə gəlirdi, - gözləri bir an yol çəkdi, sözünə davam elədi, - Qaryagində teatr olanda, o vaxt Qaryagin deyirdilər, Gəncədə, Ağdamda, Naxçıvanda teatr yox idi. Bax o həmzəyevlər var idi, Zəroş-zad, onlar Qaryagin teatrında işləyirdilər… Əri də…

İlyas Əfəndiyevin qapısının ağzında durduğum dəqiqələrə baxanda indi xeyli sərbəst və azad idim. Bu sərbəstlik və mini azadlıq mənə bir rahatlıq da gətirmişdi. Ağzımı açmaq istəyirdim ki, İlyas müəllim dedi:

- Seyran, atan-anan var də…

- Bəli…

- Nə iş görürlər?

- Atam hesabdardı, anam da müəllim.

- Yağlıvənddə kimlərdənsən?

- Bizə Hacı Muradxanlılar deyərlər, onlardanam.

- Bəri bax, atanın adı nədi?

- Əsgər, - dedim, - İlyas müəllim, siz mənim atama da, anama da dərs demisiniz…

- Yox əşşi? - Elə bil İlyas müəllim sevinən kimi oldu.

Sonra anamın tez-tez işlətdiyi qara tut və ağ köynək məsələsini İlyas müəllimə xatırladanda o, əməlli-başlı sevindi və gözləri yol çəkib qurtarandan sonra dedi:

- Həə… düzdü… mən o sözləri tez-tez işlədirdim… Gör nə təhər yadında saxlayıb ee… hələ sənə də deyib…

- İlyas müəllim, anamın da adı Zərifdi, onlar yadınıza düşür?

- Düzünü desəm, yadıma sala bilmirəm. Ancaq onu düz dedin… mən o sözləri tez-tez işlədirdim. Deməli, dərs demişəm.

Və Allahıma şükür elədim ki, yaxşı ki, o vaxtlar atamı Bakıya, İlyas Əfəndiyevin yanına göndərməmişəm, onu tanımasaydı, atam pərt olardı, mən də bu gen dünyada özümə yer tapa bilməzdim.

- İlyas müəllim, məndə sizə qarşı məhəbbəti atam-anam oyadıb, sizinlə necə öyünürlər, fəxr eləyirlər.

- Sağ olsunlar, mənnən salam deyərsən. Bir də sonra yadıma salarsan, təzə kitablarımdan bir-ikisini avtoqrafla verərəm, göndərərsən onlara, - üzümə baxdı, - salam bir az şifahidi, ancaq kitab əldə faktdı də…

- Çox sevinərlər, - dedim, - sağ olun.

Ümumiyyətlə, bizim ailə, elə tayfamız da, tanıdıq-tanımadıq hər kəsin gözəl, saleh əməlləri ilə fəxr eləyirik, bunu bacarırıq. Gözümü açandan belə eşitmişəm, belə görmüşəm. Deyəsən, bu fəxr eləmək məsələsi bizdə nəsillikcəndi. Fəxr eləyirik, eləyirik... bir də görürük ki, elə arada-bərədə bizinən də fəxr eləyən tapılır - adda-budda olsa da...

O vaxt da mənə elə gəlirdi, indi də o fikirdəyəm ki, fəxr eləyə bilməyən insan ölər - nə gözlərini bağlayan olar, nə də çənəsini çəkən - mundar olar...

- Bu niyə şalman kimi bitib əə yolun ortasında...Yavaş, - İlyas müəllim narahat oldu.

Lenin adına kitabxana ilə bir sırada olan erməni kilsəsinin böyründəki məşhur balıq dükanının qabağında idik. Bir yük maşını dalını balıq dükanının qabağına vermişdi, balıq boşaldırdılar. Yük maşınının qabağından keçib gedə bilərdik. Ancaq bizim keçib gedə biləcəyimiz yolda uzun, arıq birisi dayanmışdı. Mən siqnal verib yol istədim, o, heç qımzanmadı da - elə bil ya kar idi, ya da ki, bizi vecinə almırdı. Bir də siqnal verəndə biz tərəfə baxıb əlini yellədi - deməli kar deyildi, qalınqabırğa idi. Başını maşının pəncərəsindən çıxarıb ucadan dedim:

- Xalaoğlu, yoldan çıx də, keçib gedək...

O, yenə əlini yellədi.

Mən bir də təkrar elədim, bu dəfə heç əlini də yelləmədi. İlyas müəllim bərk narahat olub mənim bu birtərəfli dialoquma qulaq asırdı. Geriyə yol yox idi, «protiv» sayılırdı, sağa dönmək olmazdı, solda da o vaxt adı şəhər sakinləri tərəfindən pis hallanan «Parapet» bağı idi. Əlacsız qalıb maşından düşdüm, yolkəsənə yaxınlaşdım, ehmalca qolundan tutub səkiyə tərəf çəkdim ki, dur burda, biz keçib gedək. Maşına qayıdıb əyləşəndə gördüm ki, yolkəsən yenə qayıdıb həmin yerdə bitib. Xəcalətimdən İlyas müəllimin üzünə baxa bilməsəm də, hiss eləyirdim ki, kişi əməlli-başlı gərgindi. Bir qərara gəlməli idim. Natəvan İlyas Əfəndiyevi gözləyirdi, İlyas Əfəndiyev məni, mən də bu gədəni. Cin atına minib sürdüm bu gədənin üstünə. Qolundan tutub səkiyə tərəf çəkmək istəyəndə müqavimət göstərdi, tərslik elədi. Özümdən asılı olmayaraq baxdım və gördüm ki, bu arıq, uzun oğlanın çənəsi beşinci kursda oxuyan şair Məzahirin çənəsinə oxşayır - hətta çənəsinin ucunda çeçələ barmağın ucu boyda bir çalacıq da var idi. Sonra da qeyri-iradi düyünlənmiş yumruğuma baxdım - həmənki idi. Ani olaraq İlyas Əfəndiyevin səsi gəldi qulağıma, bir az əvvəl dediyi sözlər: «Sizin camaat qoçaq camaatdı», «Qaçaq Rəşid, qaçaq Səfəralı», «Yağlıvəndlilər kəsdiyi başa sorğu-sual yox idi», «Məşədi Paşa», «Sən özün də qoçaq oğlana oxşayırsan...». Gözlərim qızmışdı. İlyas Əfəndiyevin yuxarıda dediyi sözləri doğrultmağın əsl vaxtı yetişmişdi. Bir də universitetdə oxuyanda idman müəllimimiz Baxşəliyev həmişə deyirdi ki, çənənin qurtaracağına yumruğu sürüşdürməklə birini ilişdirsən, o adam yerindən qalxa bilməz. Yolkəsənə yaxınlaşıb ona bir Baxşəliyev yumruğu tutuzdurdum. Əvvəlcə çökdü, sonra da tirtab uzandı yolun ortasına. Mən onun çiyinlərindən yapışıb sürüyə-sürüyə səkinin üstünə uzatdım, sonra da kardondan olan balıq yeşiklərindən birini götürüb tapdaladım, gətirib yolkəsənin başının altına qoydum ki, rahat uzansın və bununla İlyas Əfəndiyevə qoçaqlığımı, ətrafa toplaşanlara humanistliyimi nümayiş elətdirib «işimi» yekunlaşdırdım.

Maşına əyləşib onu işə salmaq istəyəndə qığıltı səsi gəldi, sən demə, maşın işləyirmiş və mən əsəbimdən sizlərə məlum olan bu «əməliyyatı» maşın işləyə-işləyə həyata keçirmişəm. Düz deyiblər ki, heç vaxt mərdimazar axtarma, özü gəlib çıxacaq, tezi-geci var.

Bütün bunlar bir qırağa, hələ orası da məlum deyildi ki, İlyas Əfəndiyev mənim bu hərəkətimə necə qiymət verəcək - bu, məni bərk narahat eləyirdi.

Bayaq İlyas müəllimə dediyim kimi, balıq dükanının qabağından dik qalxıb Hüsü Hacıyev küçəsində sağa döndüm. İlyas müəllim susurdu. Arada bir yanpörtü çönüb mən tərəfə baxdı, vəssalam. Və onun bu baxışlarından heç nə anlaya bilmədim. Bu məni daha çox narahat elədi - hələlik bu ovqatda idim və məni bu vəziyyətdən çıxara biləcək yeganə adam İlyas müəllim idi ki, o da bunu eləmədi.

Teatrın xidməti giriş darvazasının qabağında dayanıb siqnal verdim. Hannan-hana gözətçi qarşı tərəfdə göründü. Əlimin hərəkəti ilə onu başa saldım ki, qapını aç də. O, da gözünü mənə zilləyib əli ilə mənə başa saldı ki, olmaz. Sonra mən əlimlə ona İlyas müəllimi göstərən kimi qaça-qaça gəlib darvazanı açdı, deyəsən, götürdüyü sürətdən başı bir balaca darvazaya dəydi və fikirləşdim ki, eybi yoxdu, başı daşa dəysə yaxşıdı…

Maşını içəri salıb tələsik düşdüm, İlyas müəllim oturan tərəfdən qapını açdım, əlimi ona tərəf uzadıb kömək eləmək istədim, ancaq o, özü düşdü.

- İlyas müəllim, gözləyim? - sualım özümə də mənasız görünsə də, bundan yaxşısı ağlıma gəlməmişdi.

- Yox, - dedi.

- Saat neçədə gəlim dalınızca?

- Elçinə zəng eləyib deyərəm.

- Yaxşı, sağ olun, mən getdim.

- Get, - çox könülsüz dedi və getdi.

İlyas müəllim içəri girən kimi gözətçi mənə yaxınlaşdı:

- Sən Allah, bağışlayın… İlyas müəllim həmişə başqa maşınla gəlir… Sizin maşını tanımadım, ona görə… bir az gec oldu.

- Mənə niyə deyirsən? İlyas müəllimə deyəydin də… mən kiməm?! - əsəbiləşdim.

- Mən ona elə söz deyə bilərəm? - gözləri bərəldi, - çox ağır kişidi, yox… yox…

- Yaxşı! Yaxşı! Mən nəyəm sənin üçün? Mən ağır kişi deyiləm, hə?! Yüngüləm? Aç qapını!

- Baş üstə!

- Tez ol!

- Açıram, açıram…

Teatrın həyətindən çıxıb sola döndüm, bir az aşağı düşüb sağ tərəfdəki qadın bərbərxanasının - indi gözəllik salonu deyirlər, qabağında saxladım. «Bu nə işdi durduğum yerdə başıma gəldi? Oğraş!» Maşından çıxmadım, yarım saata qədər hara gedəcəyimi fikirləşdim. Vidadi Məmmədovun sözləri gəldi:

- Sarı, axşam səni bir yaxşı yerə aparajam.

Bu sözlərə üz vermədim, necə deyərlər, üzlərinə baxmadım - necə gəlmişdilərsə, elə də sıralanıb çıxıb getdilər.

Nə qədər qadın girib-çıxırdı bu bərbərxanaya? Orasını da deyim ki, çıxanlar gözəgəlimli, qəşəng idilər, girənlərin isə çoxusu yaman gündə, lap əntər idilər.

Bərbərxananın qapısı içəridən açılan kimi özümdən asılı olmayaraq ora baxırdım, öz aləmimdə həm onlara qiymət verirdim - tarif şurası kimi, - həm də vaxtımı öldürürdüm. Ətrafım, üstüm-başım ölü dəqiqələrlə dolu idi - ölülər…

Qapı yenə içəridən açıldı, orta yaşlı bir qadın çıxdı, ətrafa boylandı və mənə tərəf gəlməyə başladı, yetişən kimi sir-sifətinə, qamətinə yaraşmayan yoğun səslə dedi:

- Boşsan?

- Mən taksiyə oxşayıram?

- Tay nöş hirsdənirsən… Aaaa… onda burda nöş dayanmısan?

- Qaynanamı gətirmişəm bura, - başımın işarəsi ilə bərbərxananı göstərdim, - onu gözləyirəm… olmaz?!

- Nöş olmur. Ancaq içəridə elənçik adam gözümə dəymədi axı…
- Get yaxşı-yaxşı bax, görərsən! - dedim.
- Aaaa… nəyimə lazımdı… - dedi və çıxıb getdi.

Mənə elə gəldi ki, bu orta yaşlı bəzəkli xanım, bayaq bizim yolumuzu kəsən o dəyyusun bacısıdı.

İşə çatanda gördüm ki, Vidadi Məmmədov kəsdirib qapının ağzını. Elə bil bayaq mənə öyüd-nəsihət verib İlyas müəllimgilə yola salandan bəri içəri girməyib, elə durub məni gözləyir. Mən maşından düşən kimi dedi:

- Oooo! Sarı! Sarı! Ağlıma bir yaxşı fikir gəlib… Hətta dahiyanə fikir də demək olar… qiymət verən olsa…
- De görüm.
- Siz varlı-karlı, böyük nəsilsiniz də…
- Tutaq ki… - dedim.
- Ağlıma gəlib ki, bəlkə, sən bunu, - maşını göstərdi, - mənə bağışlayasan, mən də şəhərin küçələrində bir şeşəllənəm… nə təhər fikirdi?
- Vidadi!
- Can!..
- Vidadi, get tullan!

İçəri girdim. Vidadi təəccüblə dalımca baxdı:

- Bııy… Bu niyə belə eləyir əəə… - dedi və, deyəsən, dalağı nə isə sancmışdı.

Arxamca birbaşa surhaylayıb içəri girdi.

- Sarı… noolub?

Üzümə süni mayalanma yolu ilə başa gələn qılıqlı bir ifadə verdim:

- Bəs sənə demədim?
- Yox, - dedi.
- Dedim axı…
- Vallah demədin, - Vidadi and içdi.
- Dedim… dedim ki, get tullan!

Vidadi yumurtası tərs gəlmiş toyuq kimi vurnuxurdu və hər şeyi bilmək istəyirdi. Mən ona hər şeyi desəydim və o da, hər şeyi bilsəydi, belə deyəcəkdi:

- Sarı, şələ-şüləni də yığışdır get Yağlıvəndə, kolxoza… heç olmasa, orda kəndinizin bir nömrəli yazıçısı olarsan… səninki bitdi.

Vidadinin belə deyəcəyinə o qədər inandım ki, ürəyimdə dedim:

- Cəhənnəmə bitsin.

Ancaq Timuçin olsaydı, deyərdi:

- Lap yaxşı eləmisən… gərək onu salaydın təpiyinin altına.

İndi Timuçini hardan alım…

Çingiz Əlioğlu isə deyərdi:

- Seyran, düz eləməmisən də… İlyas müəllimin gözünün qabağında…
- Bəs neyləyəydim, ay Çingiz, başqa əlacım yox idi.
- Gərək İlyas müəllimdən icazə alıb sonra vuraydın.

«İcazə alıb vuraydın.» Bu da Çingiz. Kim kimi vuranda icazə alıb ki… Elə mənim başımda görünüb?.. Təxminən belə də:

- İcazə verin filankəsə bir təpik vurum, zəhmət olmasa…

Şükür məsləhətinə, ilahi!

Və mənim belə həyəcan keçirməyim, özümə yer tapa bilməməyim sizə qəribə gəlməsin. İndikilərə ağlınız getməsin; o vaxt böyük-kiçik məsələsi hər şeydən vacib və müqəddəs olmaqla heç vaxt gündəlikdən düşmürdü.

Biz də o mühitin uşaqlarıydıq, yoxsa noolmuşdu ki… Özüm də görürəm ki, mən o yolkəsəni vurub yerə sərəndən sonra dünya dağılıb-eləmədi, Yer kürəsi də oxu ətrafında fırlana-fırlana özünü günə verir.

Bir yerdə tikiş tutmayan Vidadi Məmmədov əlindəki kirli və çürük ipə bağlanmış açarı fırlada-fırlada içəri girdi:

- Sən dediyini elədim, Sarı.

- Mən nə dedim ki?

- Demişdin ki, get tullan, mən də getdim 26-lar bağında tullandım, qayıtdım gəldim. Başqa, yəni daha ağlabatan bir təklifin varsa, buyurunuz. Var?

- Yox.

- Üç saatdan sonra, - Vidadi saatına baxdı, - gedirik iki qardaş, gedirik qaz yolmağa.

O, bir az da mənə yaxınlaşdı:

- Bax, Sarı, cənub bölgəsindən Yaşılbaş ləvəngisi balığıynan bir yerdə, Qazaxdan zoğal arağı, Gəncədən qaymaq, göy-göyərti, yanında da Hövsan soğanı…

- Seeeyran… - Baş redaktorumuz Yusif Səmədoğlu içəri girən kimi Vidadi əlindəki açarı dürtdü cibinə, - bəəri bax, o Sssüleyman Vəəliyevin povesti nəə yerdədi? - məndən soruşdu.

- Az qalmışam, iki gündən sonra hazır olacaq.

- Yaaxşı, ootur, - Yusif Səmədoğlu bu dəfə də üzünü Vidadiyə tutdu, - bu Seeyranın qanı niiyə qaradı?

- Yusif müəllim, - Vidadi dedi, - siz narahat olmayın, keçin otağınıza… Elə mən də onu bilmək istəyirəm, məsələdən hali olan kimi gəlib sizi məlumatlandıracam.

Yusif Səmədoğlunun getməyiynən qayıtmağı bir oldu və yenə üzünü Vidadiyə tutub başını bulaya-bulaya gözünü ona zillədi. Vidadi dedi:

- Yusif müəllim, bilirsiniz də, Seyranın babası Qarabağın pambıq bəylərindən olub. Qarabağda gəmiçiliyin inkişafı onun adıyla bağlıdı, xüsusilə dağlıq hissədə. Həmən o babası Seyrana bir gəmi bağışlamışdı, o gəmi Bakı-Həştərxan-Krasnovodsk marşrutu ilə işləyirdi. Mən özüm də bir-iki dəfə o gəmiyə minmişəm. Yarım saat qabaq zəng eləyiblər ki, bəs gəmi batıb, yəni sularda qərq olub; ona görə də qanı qaradı, başqa bir şey yoxdu…

Yusif müəllim Vidadiyə dedi:

- Məən gedirəm ootağıma, nəə kömək lazım olsa, deyərsiniz, Seeyran…

- Oldu, Yusif müəllim, - Vidadi razılıq elədi.

Yusif Səmədoğlu gedən kimi Vidadi dedi:

- Sarı, darıxma, ürəyini də buz kimi saxla, bu boyda kişi, - hər iki əlini Yusif müəllimin kabinetinə tərəf atdı, - işə qarışırsa, hər şey yaxşı olar, - dedi.

- Çıxaq havada bir siqaret çəkək, - Vidadiyə dedim və mənim bu təklifim onun üçün göydəndüşmə oldu.

- Bax, buna deyərəm təklif… əla…

Çölə çıxdıq, qapının ağzında adama bir siqaret yandırdıq. Bir-iki qüllab vurandan sonra Vidadi qoluma girib başı ilə qarşı tərəfə işarə elədi:

- Bəlkə, bağa keçək. Çoxdandı orda olmamışam, - dedi, - 26-lar bağı… pah… mərhumların da ruhunu yüngülvari bir ziyarət eləyərik, yüngülvari bir salavat çevirərik…

Yazıçılar İttifaqı ilə üzbəüz olan 26-lar bağında dinməz-söyləməz bir dəfə dövrə vurandan sonra Vidadi məni təzəcə rənglənib qurumuş, işım-işım işıldayan bir skamyanın yanına gətirdi:

- Gəl bir az oturaq, - dedi, özü də keçib yanımda əyləşdi.

Bir az da susduq - bu sükut məni darıxdırırdı; elə bil ki, dil qəfəsə qoyma-yan, bütün günü danışan Vidadi Məmmədov qəfil çökmüşdü. O, qəfil də ayağa durub qarşımda dayadı, aşağı əyilib sağ əlini çiynimə qoydu, gözümün içinə elə doğma baxdı ki, bu baxışların ürəyimə necə damcıladığını eşidirdim. O, dedi:

- Seyran, sən Xanların canı, noolub?

Sizə məlum olan hadisəni bütün təfərrüatı ilə, bitdə-bitdə ona nağıl elədim.

- Düz eləmisən! Yaxşı eləmisən! Kişi adamsan! Seyran elə ona görə Seyrandı də, ay Sarı. - Vidadi dedi, deməyiynən də qucaqlayıb üzümdən öpdü, - vecinə alma, mən deyirəm sənə… bu sözləri sənə İlyas Əfəndiyevin ən istedadlı qohumu deyir… Adama bir dənə də tüstülədəkmi?

Bir də gördük ki, Əhəd Muxtar redaksiyanın qabağından ağına-bozuna baxmadan qışqırır:

- Seyran, Seyran, Seyran, Vidadi!

Biz ona tərəf baxan kimi o, əlavəsini də elədi:

- Əə karsınız?! Tez gəlin buraaa!

Elə bil bu dağdan o dağa adam çağırırdı, yoldan keçənlərə də məhəl qoymurdu. Biz yolu keçib onun yanına gələn kimi Vidadi Əhəd Muxtara dedi:

- Əhəd, sənin səsin mənə yaman tanış gəldi, bu səsi bir dəfə eşitmişəm.

- Nə boş-boş danışırsan əə, harda eşitmisən, - Əhəd elə bil ki, bir az özünü itirmişdi.

Vidadi sözün əsl mənasında necə ciddi görkəm aldısa, Əhəd Muxtar da eyni ciddiliklə ona qulaq kəsildi, Vidadi dedi: - Bilirsən, bu səsi harda eşitmişəm?

- Mən nə bilim, - Əhəd Muxtarın sifəti kütləşdi.

- Mən bu səsi Kərim xan Zend, Ağaməhəmməd Şah Qacarı uşaq vaxtı yüngülvari əməliyyat eləyəndə eşitmişdim.

- Nə boş-boş danışırsan, - sonra üzünü mənə çevirdi, - Elçin müəllim telefona çağırır, tez ol, kişi bayaqdan gözləyir.

Vidadi başını buladı. Mən öz otağıma keçdim, telefonun böyrünə qoyulmuş dəstəyi qaldırdım. Elçin müəllim gülə-gülə dedi:

- Seyran, gəl yanıma, zəhmət olmasa!

Qalxdım yuxarı, Elçin müəllimin otağına girən kimi o başladı gülməyə. Onun təklifiylə keçib səhərki yerimdə oturdum.

- Hə… necəsən… nə təhər getdiniz İlyas müəllimnən?

- Çox yaxşı, - dedim, - ancaq ləzgilər demiş, bir balaca qanqaralıq oldu.

- Noolub ki?

Vidadi Məmmədova danışdığımı təzədən, bitdə-bitdə, heç nəyi artırıb-əskiltmədən Elçin müəllimə nağıl elədim. Hətta başının altına karton yeşiyi ayaqlayıb qoyduğumu da unutmadım.

Elçin müəllim telefon aparatına baxıb dedi:

- İlyas müəllim zəng eləmişdi, - yenə güldü.

- Nə deyirdi… Ancaq Elçin müəllim, xahiş eləyirəm, necə deyibsə, nə deyibsə, hamısını eşitmək istəyirəm.

- Yaxşı, sənin üçün belə maraqlıdırsa, ağzından nə çıxıbsa, hamısını olduğu kimi sənə deyəcəm. «Hə… zəng elədi, mənə əsəbiləşdi. Dedi ki, sən o kabinetdə nə oturmusan?.. O boyda Yazıçılar İttifaqında bir ağıllı adam tapmadın dalımcan göndərəsən? Dedim, ay İlyas müəllim, axı noolub? Noolajax dedi, bu Seyrandı-nədi, əməlli-başlı dəliymiş ki? Dedim, ay İlyas müəllim, Seyran ağlı başında, mərd bir oğlandı, özü də talantdıdı. Dedi onun talantı-zadı maa lazım deyil, maşınnan düşməyiynən oğlana nə təhər tutuzdurdusa, oğlan bu il ölmüsən bildir. Sonra da balıq yeşiyini gətirib qoyur başının altına. O, əvvəllər idmançı-zad olub ki? Voobşem, tay o maa lazım deyil. Bu, təmiz dəliymiş. Əəə, indi o zaman deyil ee…» Hə, Seyran, sonra da sənin mənə dediklərini o mənə danışdı. Vəssalam.

Elçin müəllim İlyas Əfəndiyevin dediklərini əvvəldən axıra kimi mənə gülə-gülə danışdı, lap axırda da dedi ki, olan şeydi, fikir vermə…

Elçin müəllimin dedikləri mənə bəs elədi, necə deyərlər, səbbim alındı, fikir vermə, vermə də, lap yaxşı…

Amma mən yenə də öz fikrimdə möhkəməm ki, hər kəslə öz dilində danışmaq lazımdır; ingilislə ingiliscə, rusla rusca, ərəblə ərəbcə, yolkəsənlə yolkəsən dilində və s.

Təsəvvür eləyin ki, mən ona deyirəm:

- Əziz və hörmətli vətəndaş, zəhmət olmazsa yoldan çıxın, biz də çıxaq gedək işimizin dalınca.

O, yoldan çıxardı? Çıxmazdı!

Kimsə onu yoldan çıxartmalıydı? Çıxartmalıydı! Bunu kim eləməliydi? Mən eləməliydim? Mən də elədim, çünki bu işi mənə tapşırmışdılar!

İlyas Əfəndiyev məşqlərə getməliydi? Getməliydi! Getdi də!.. Vəssalam də, burda nə var ki?

Pyesin ilk tamaşasında mən də var idim. Anşlaq idi. İlyas Əfəndiyev öz lojasında əyləşmişdi. Tamaşa hələ başlamamışdı. Hamı başını döndərib İlyas Əfəndiyevə maraqla baxırdı. Elə baxırdılar ki, elə bil tamaşanı səhnədə yox, İlyas müəllim əyləşdiyi lojada göstərəcəkdilər. Bir azdan salonun işıqları əvvəlcə soldu, sonra da kömür kimi qaraldı və tamaşa başlandı. Birinci hissənin sonunda teatrın pərdələrini tamaşaçıların gurultulu alqışları bağladı…

Fasilədə teatrın bufetinə girib yüz qram konyak içdim, pulunu verəndə bildim ki, zəhrimar çox baha imiş - məndən iki arağın pulunu almışdılar. 1974-cü ildə İlyas Əfəndiyevin evinə gedib müsahibə alanda da o, bir şüşə «Şirvan» konyakını stolun üstünə qoyub məndən soruşmuşdu:

- Qanyağ içirsən?

- Mən içən deyiləm, çox sağ olun, - dedim. O, mənə inanmadı…

Bufetdən çıxıb foyedə gəzişmək istəyəndə qapıda bir nəfərlə yüngülvari toqquşduq.

- Bağışlayın, - mən dedim.

- Bağışlayın, - o, dedi.

Bu, həmin oğlan idi - yolkəsən. Mən onu tanıdım, o, məni tanımadı. Ancaq içimdə bir ümid vardı ki, nə vaxtsa, bax, elə bu teatrda, o da məni tanıyacaq…

## *Yaxşılığın altı, üstü və haqqın qapısı…*

Neçənci il olduğu dəqiq yadımda deyil, onu bilirəm ki, «Ədəbiyyat və incəsənət» qəzetində işləyirdim. O dövran idi ki, respublikamızda təmtəraqlı, səs-küylü toy eləyənlərə qarşı sərin münasibət vardı. Xüsusilə vəzifəli şəxslər təm-təraqlı toy məclisi qurub övladını evləndirəndə onları bağışlamırdılar. Mərkəzi Komitənin orqanı olan «Kommunist» qəzeti bu işdə daha çox canfəşanlıq eləyir, qudurğan, harın məmurların sovet adamının əxlaq kodeksinə yaraşmayan hərəkətlərini ifşa etməklə, onların axırına çıxırdı. Kimliyindən asılı olmayaraq, «Kommunist» qəzetində adı hallanan adamın ələyi ələnib, xəlbiri isə göydə fırlanırdı - onu heç kəs xilas eləyə bilməzdi. Çünki onu xilas etmək istəyənin özünü də xilas etmək qeyri-mümkün idi. Mərkəzi Komitənin başladığı kampaniyanın qabağında heç kəs duruş gətirə bilməzdi - bu, çox təhlükəli idi.

Kommunistlərin baxdığı yerdən bu cür harın mənsəb sahibləri meşşan cildində göründüyünə görə, sosializm cəmiyyətinin bünövrəsini qazıb, ora tank əleyhinə mina basdıran adamlar kimi qəbul olunurdu, bağışlanmırdı və «Kommunist» qəzeti, Sovet Azərbaycanı mətbuatının baş mollası kimi onların fatihəsini öz avazında oxuyurdu.

Açığını deyim ki, Mərkəzi Komitənin başladığı və həyata keçirdiyi bu əməliyyat xalqın ürəyincə idi, camaatın ürəyindən tikan çıxarırdı. O vaxt mən özüm də bu hadisələrin içində olduğuma görə hər şeyi yaxşı xatırlayıram. Bu,

mənə də xoş gəlirdi. Hətta o da yadımdadır ki, bu mövzuda «Ət taxtası» adlı bir hekayə yazıb çap olunmaq üçün «Bakı» qəzetinə vermişdim, demişdilər ki, bir aya-zada çıxar… Mən də gözləyirdim…

Mən «Ət taxtası» hekayəmin çap olunmasını gözlədiyim günlərin birində, redaksiyadakı otağımın qapısı hikkə ilə açıldı, uşaqlıq dostum Zeynal içəri girdi, salamsız-kəlamsız gəlib düz gözümün qabağında bitdi:

- Nənəmin goru haqqı, öldürəjəm! Öldürəjəm! Bu, allahsızlıqdı! Axı, sən özün də orda olmusan! Öldürməsəm, mənnən alçaq adam yoxdu! Seyran, nənəmin goru haqqı, öldürəjəm, - dedi, qapıya tərəf boylanıb tapançanı stolun üstünə qoydu, sonra yenə qapıya tərəf baxıb stolun üstündən götürdü, arxadan kəmərinə taxdı.

Mən özümü itirmişdim. Zeynal əsim-əsim əsirdi, elə bil titrətmə tutmuşdu, danışdıqca ağzı köpüklənirdi. Tapançanı görəndən sonra vəziyyətin ciddi, qəliz olduğunu o saat başa düşdüm. Mən onun öhdəsindən gəlib sakitləşdirə bilmirdim, tuturdum tutulmurdu, vururdum vurulmurdu. Onunla doğmalaşdığım iyirmi ildə onu heç vaxt bu vəziyyətdə görməmişdim və nə vaxtsa görəcəyimi də ağlıma gətirə bilməzdim. Nə deyirdimsə, tərsinə qəbul eləyirdi. Necə deyərlər, bütün imkanımı, bacarığımı, istedadımı, ərkimi ortalığa qoysam da, bir şey çıxmırdı. Tutuquşuya dönmüşdü:

- Nənəmin goru haqqı, öldürəjəm!

Bütün imkanlarım tükənmişdi. Kimi və niyə öldürəcəyini də demirdi, elə deyirdi öldürəcəm.

Bütün ümidlərimi itirəndən sonra, ayağa durub yaxınlaşdım, onu qucaqlayıb bağrıma basan kimi başını çiynimə qoyub hönkürdü. Biz beləcə, iki heykəl kimi qucaqlaşmışdıq. Hönkürtü yavaş-yavaş hıçqırtıya çevrilirdi və, deyəsən, bu hıçqırtı onu sakitləşdirəcəkdi - ümidim vardı, belə də oldu.

- Yaxşı, de görüm nə məsələdi, - mən heç vaxt ona belə məhrəm və doğma olmamışdım.

- Sən də orda olmusan, axı… - Köməksiz, çarəsiz gözlərini silə-silə pıçıldadı.

- Harda? Nə deyirsən? - Doğma olsaq da özümü ona bir az da məhrəm göstərməyə cəhd elədim və bunun nə dərəcədə alındığını aydınlaşdıra bilmədim.

Zeynal «Məhsul» kənd idman cəmiyyətinin klassik güləş növü üzrə əlli üç kilo çəki dərəcəsində respublika çempionu idi. Özünün ən böyük məğlubiyyətini heç vaxt unutmur, tez-tez dilinə gətirirdi; cavanlığında azərbaycanlı hakimlərin onu, o vaxtın məşhur güləşçilərindən olan erməni əsilli Armais Sayadova xal hesabı ilə necə uduzdurduqlarını yadına salanda dəli kimi olurdu, ədalət yoxdu deyirdi.

Zeynal Qarabağın Tuğ kəndindən olan Məşədi Həmzə bəyin nəvəsi, el arasında «revizor Əvəz» kimi tanınan çox yaxşı bir kişinin oğluydu. Babası Məşədi Həmzə bəyi general Duro Tuğ meşəsində güllələmişdi. Atası Əvəz kişi İkinci Dünya müharibəsində 516-cı Taqanroq diviziyasında batalyon komandiri olmuşdu. Onun gülllədən deşilmiş metal cildli qeyd dəftərçəsi hərbi-vətənpərvərlik muzeyində saxlanırdı. Beş il tələbə olduğum müddətdə günüm onlarda keçib. Belə bir deyim var, deyirlər ki, filankəs məni öz övladlarından seçmir - ancaq Əvəz kişi seçirdi, fərq qoyurdu, Zeynala beş manat verəndə, mənə on manat verirdi, həm də mənimlə fəxr eləyirdi və bu gün elə bir məqam yetişmişdi ki, onun mənə olan münasibətini, inamını doğrultmalıydım.

O vaxt redaksiyamız erməni Avakyanın adını daşıyan, Bakının ən böyük küçələrindən birində yerləşən «Kommunist» nəşriyyatının doqquzuncu mərtəbəsində idi. Mən ondan atalıq gördüyümə görə ata dediyim Əvəz kişinin ümidini doğrultmaq, bir növ də ona olan borcumun çox cüzi bir hissəsini

ödəmək üçün ikinci mərtəbəyə endim, «Bakı» və «Baku» axşam qəzetlərinin baş redaktoru Nəsir İmanquliyevin qəbul otağında əyləşən qıza salam verib dedim:

- Nəsir müəllim yerindədi?
- Nəsir müəllim məşğuldu. - Qız üzümə də baxmadı.
- Onda mən gözləyirəm, - dedim.
- Gözlə də... - yenə üzümə baxmadı və mən onun dediyini belə qəbul etdim: «İstəyirsən lap səhərəcən gözlə...»

İçim yavaş-yavaş qaynara düşürdü.

- Nəsir müəllimin yanında adam var?
- Xeyr...
- Siz məni tanıyırsınız?
- Tanıyıram... noolsun?
- Siz Nəsir müəllimə deyə bilərsiniz ki, onunla görüşmək istəyirəm?
- Xeyr...
- Bəs onda mən neyləyim?
- Gözləyin...
- Vaxtım yoxdu axı...
- Vaxtınız yoxdu? - Bayaqdan bəri ilk dəfə üzümə baxdı, - onda gedin...
- İşim var axı...
- Onda gözləyin... - Stəkandakı çayın axırıncı qurtumunu da hortdatdı.

Telefon zəng çaldı, tez dəstəyi götürdü:

- Bəli, Nəsir müəllim... gəldim...

Qız qalxıb Nəsir müəllimin yanına girdi, qapını da örtdü. Bu, o qədər tez oldu, ona deyə bilmədim: «Nəsir müəllimə deyin ki...». Bu şans da əlimdən çıxdı. Üç-dörd saniyə vaxtım vardı, nə qədər qız qayıtmayıb qərar qəbul eləməliydim, elədim də... Nəsir müəllimin qapısını açıb içəri girəndə qız hələ onun böyük, uzun kabinetindəki stola təzəcə çatmışdı. Qız məni görən kimi doğrayıb-tökdü:

- Nəsir müəllim, mən buna demişdim... demişdim ki, siz məşğulsunuz... Olmaz...
- Seyrana olar, - Nəsir müəllim gülə-gülə deyəndə qızın üzündə təxminən belə boz bir ifadə əmələ gəldi: «Olar, olar də... mənim nə borcuma?..»

Qız otaqdan çıxanda mənə bir qıyqacı baxış atsa da, vecimə almadım, indi də mən onun üzünə baxmadım və iki daşın arasında əvəz çıxırdım.

Katibəsi ilə «münaqişəli» olduğum məqamda Nəsir müəllimin məni gülər üzlə qarşılaması bir tərəfdən ləzzət verirdi, digər tərəfdən də ümidim artırdı ki, xahişə gəldiyim məsələ həll olunacaq. Ancaq orasını da fikirləşəndə ki, «noolsun, bu kişi səni həmişə belə qarşılayıb də...» - bax, onda narahat olurdum.

Nəsir müəllim həmişəki kimi kreslosundan qalxdı, gəlib mənimlə üzbəüz oturdu. Mən gələndə o, həmişə belə eləyirdi. Fikirləşirdim ki, bu boyda kişi niyə belə eləyir? Onun bu hərəkətinə məna vermədiyimə görə heç kimdən də soruşmurdum. Uzun illər keçəndən sonra bildim ki, bu, hörmət əlaməti imiş. Və özümə söz verdim ki, nə vaxtsa böyük vəzifəm olsa, mən də öz kreslomdan durub yanıma gələn adamla üzbəüz oturacam - Nəsir müəllim kimi...

- Hə, Seyran, nə var, nə yox, rayona gedirsənmi, atangil necədi?
- Çox sağ olun, Nəsir müəllim, keçən şənbə-bazar rayonda idim... yaxşıdılar.
- Yenə öz yerində işləyir, hesabdardı?
- Bəli... Sizin haqqınızda atama da danışmışam, demişəm belə böyük bir dostum var. Deyir ki, bir dəfə Nəsir müəllimi qonaq gətir.

- Noolar, bir dəfə gedərik... Burdan Füzuliyə nədi ki, üç saatlıq yoldu. Bir dəfə gedərik, yazağzı, oraların yaxşı vaxtı olur...

- Qağam maa deyir ki...

- Siz də qağa deyirsiniz? - Nəsir müəllim ərklə sözümü kəsdi.

- Hə, qağa deyirik... deyir ki, o boyda kişi hara, sən hara? Axı, sən onun yanında uşaqsan...

- Bəs, sən nə dedin?

- Dedim, ay qağa, vallah, elə Nəsir müəllim də uşaq kimidi.

- Yaxşı demisən, - Nəsir müəllim elə bil sevinən kimi oldu, - məni düz tanımısan.

Nəsir müəllimin belə deməsi özümə arxayınlığımı bir az da artıran kimi dedim:

- Qağam mənim sözümdə səhv tutdu.

- Nə dedi ki?

- Qağam dedi ki, o boyda kişi uşaq ola bilməz, yəqin, böyüynən böyükdü, uşaqıynan da uşaq... Sən də uşaqsan dana...

- Qağan da yaxşı deyib, - Nəsir müəllim münasibətini ortalığa qoydu.

Belə şirin, məhrəm söhbətin içində bura nəyə görə gəldiyimi unutmuşdum. Məni qınamağa çalışmayın, bilənlər bilir ki, böyük kişilərnən üzbəüz qalanda adam bütün dərdi-sərini yadından çıxarır. Böyük kişilərnən üzbəüz qalanda yaşından asılı olmayaraq hər kəs dünyanın böyüklüyünə qovuşur və bu qovuşuqda nə dərd ola bilər ki?..

- Təzə nə yazırsan? - Nəsir müəllim qəfil mövzunu dəyişdi.

- Təzə roman yazıram, adı da «Daş evlər»di. İki ildi başlamışam, bir-iki aya qurtaracam.

Nəsir müəllimin əvvəlcə gözləri güldü, sonra dodaqları qaçdı:

- Sən yazarsan, - dedi, - yaz, yaz. Çox gözəl.

Mənə elə gəldi ki, əvvəlcə insanın gözləri gülür, sonra dodağı qaçır, axırda da təbəssümə çevrilib onun sifətinə hopur. Bax, indicə Nəsir müəllimdə belə oldu.

- Lap yaxşı... neçə səhifə olar, neçə çap listi?

- Təxminən iyirmi beş çap listi olacaq, - dedim.

- Böyük əsərdi. Kitabı çap eləyəndə çətinliyin-zadın olsa, deyərsən.

- Çox sağ olun, Nəsir müəllim, mən bilən çətinlik olmaz, əgər... görək də... - Hər təsadüfə qarşı bir ayaq yeri də qoydum, dünyanın işini nə bilmək olar ki?..

Nəsir müəllim oturduğu yerdən uzun qolunu uzadıb düyməni basan kimi katibə qız içəri girdi.

- Bəs bizə çay vermirsən, - üzünü mənə çöndərdi, - dostum gəlib, axı... - dedi.

Qız tələsik çıxdı. Armudu stəkanda çay gətirib qabağımıza qoyanda baxışlarımız toqquşdu: «Bax, belə ipə-sapa yatarsan ee...» Ürəyimdən keçənlər gözlərimdə yazılmışdı və, deyəsən, qız da oxumuşdu. Bu, mən gələndən qızın aldığı ikinci «zərbə» idi.

Nəsir müəllim cavanların fikirləri ilə, onların həyat tərzi, əxlaqi prinsipləri ilə həmişə maraqlanırdı. Nəsir müəllim söhbət vaxtı bizə verdiyi sualların cavabını çoxdan tapıb oturuşmuşdu. Böyük təcrübə öz sözünü çoxdan demişdi, bərkimişdi. Elə isə mənim kimi birisinin fikirləri onun nəyinə lazım idi? Mənə elə gəlirdi ki, o, bizdən eşitdikləri ilə öz bildiklərini müqayisə eləyir və bununla da bizləri daha dərindən, hərtərəfli tanımaq istəyir ki, görsün bizə arxayın olmaq olar, yoxsa yox? Bəs, bizdən arxayın olmaq onun nəyinə lazım idi? Sonralar dərk elədim ki, bizlərdən arxayın olmaqla, Nəsir müəllim millətin gələcəyindən arxayın olmaq istəyirmiş. Bu istək onda hər şeydən güclü idi...

- Nəsir müəllim, yanınıza bir xahişə gəlmişəm, - qəfil dedim.
- Bəlkə, burda yazını-zadını ləngidirlər? - Nəsir müəllim soruşdu.
- Yox, - dedim, - tamam başqa məsələdi, heç bilmirəm deyim, deməyim, qalmışam belə…

Nəsir müəllim sir-sifətimin, əhvalımın bir anın içində dəyişdiyini elə dəyişiklik anındaca duyub narahat oldu:

- Noolub, - dedi, - evdə-eşikdə salamatlıqdı?
- Salamatlıqdı… - deyəsən, səsim qırıldı, - utanıram da deməyə.
- Niyə utanırsan? Dost dosta söz deyəndə utanmalıdı ki?..
- Elə dostuma görə gəlmişəm bura.
- Lap yaxşı də… bir dostuna görə başqa bir dostunun yanına gəlmisən, burda nə var ki… sözünü de, eşidirəm. - Nəsir müəllim bu sözləri deyəndə o qədər səmimi, istiqanlı idi ki, mən ürəkləndim, dedim:
- Nəsir müəllim, mənim bir dostum var, on-on iki yaşından bir yerdəyik… iyirmi ildi. Əsilləri biz tərəfdəndi, Bakıda yaşayırlar. Biz dost olanda rayondaydılar. Mən onun atasına ata, anasına da ana demişəm, elə indi də heylədi. Məni çox istəyirlər. Dünyaca doğmalaşmışıq. Bizim hesabımıza ailələrimiz də qaynayıb-qarışıb… Hə… On gün bundan qabaq dostumun bacısının toyu idi, dördüncü mikrorayonda. Sizin işçilərdən iki nəfər, toy başlayandan bir az sonra gəlib çıxıblar ora, arada nə söhbət olubsa, gedib felyeton yazıblar… Ona görə gəlmişəm…

Əqidəsinin qulu, əqidəsizlərin ağası kimi tanıdığım Nəsir İmanquliyevin bir göz qırpımında aldığı ciddi görkəmi məni qorxutsa da, mənim varlığıma belə bir qorxunun hopduğunu açıq-aşkar hiss etsə də, heç nəyi nəzərə almadan dedi:

- Seyran, cavan olsan da mən sənə inanıram, etibar eləyirəm. İndi de görüm, sən o cür toyun tərəfdarısan, yoxsa?..
- Tərəfdarıyam…

Cavabım Nəsir müəllim üçün gözlənilməz olsa da, o, başını bulayıb dedi:

- İnanmaram! - Nəsir müəllim cavabımdan nəinki narazı qalmışdı, deyəsən, lap inciyən kimi də olmuşdu. - İnanmaram ki, sən…
- Nəsir müəllim, niyə inanmırsınız ki? Boğazıma diri ilan salsalar da, sizə heç vaxt yalan demərəm. O toyda cəmisi həştad nəfər adam olub… Mən elə toyun niyə tərəfdarı olmayım ki? Özüm də ordaydım…
- Nə?! - Nəsir müəllim sifətindəki vahiməli ciddilik təəccübünün altında qalıb görünməz oldu, - sən nə danışırsan, Seyran, axı, felyetonda yazıblar ki, dörd yüz nəfər adam iştirak eləyib… - Üzümə baxdı.
- Mənə inanmırsınız? - dedim.
- Qalmışam belə. - Nəsir müəllim dedi.
- Nəsir müəllim, - dedim, - o toy olan yerə uzaq başı yüz əlli adam sığışa, sığışmaya? Həştad nəfər qonağımız olub cəmisi - çox sadə bir toy oldu, Allah xoşbəxt eləsin… elə bilirəm, bajımdı, özü də əlaçıdı…

Nəsir müəllim bir az fikrə gedəndən sonra dedi:

- Başım çıxmır bu nə məsələdi, - üzümə baxdı, elə bil məndən cavab istəyirdi.
- Nəsir müəllim, istəyirsiniz mən deyim nə məsələdi?
- De görüm, - o, diqqətlə mənə gözünü zillədi.
- Nəsir müəllim, elə jurnalistlər var ki, nəfslərinin öhdəsindən gələ bilmirlər, camaata xox gəlib vəsiqə göstərirlər, pul alırlar. Biz qəzet işçiləri onlara ad da qoymuşuq: süləngi-müxbirlər…

Nəsir müəllim mənə bir az da diqqətlə qulaq asdığına görə mən bir az da dərinə getdim:

- Hə… indi Mərkəzi Komitənin başladığı bu kampaniyadan sonra o müxbirlər düşüb bu toy evlərinin canına; onları maraqlandıran əsas məsələ toy

yiyəsinin kim olmağı, hansı vəzifədə işləməyidi? Bunlar da gediblər çıxıblar biz toy elədiyimiz yerə, yəqin ki, bir-iki gün əvvəl, hə... toy yiyəsi kimdi - bəs, Azərittifaqda təftiş komissiyasının sədr müavinidi - böyük vəzifədi, deməli, pul bundadı. Qabaqcadan gəlib yerini müəyyənləşdirirlər, toy günü də kəsdirirlər qapının ağzını ki, müxbirik, gəlmişik, bizi yola salın - bax, belədi... O günü nəşriyyatdan çıxanda sizin o iki müxbirdən biri qapının ağzında dayanıb kiminləsə, özü də ucadan söhbət eləyirdi. Mən də dayanıb taksi gözləyirdim; deyirdi ki, əəə, belə şey olar, Azərittifaqın bazasına andatra papaq gəlib bizim xəbərimiz yoxdu. İstədim ona bir az da yaxınlaşıb deyəm ki, Azərittifaqın bazasına andatra papaq gəlməyinin sənə nə dəxli var? Demədim, qoy rədd olsun! Öz qulağımnan eşitdim.

- Kişinin adı nədi? - Nəsir müəllim elə bil qəsdən bu sualı verdi ki, onun üçün ağır olan bu iyrənc söhbəti başqa yerə yönəltsin.

- Əvəz... Zeynalov Əvəz... Nəsir müəllim, bu kişi doqquz may Qələbə bayramında, müharibə görmüş adamdı da, bütün orden-medallarını taxıb ailəsi ilə bərabər gəzintiyə çıxır dəniz qırağında. Hamı ona tamaşa eləyir, qurşaqdan xirtdəyəcən orden-medaldı, pencək alışıb-yanır. İş yoldaşları onun haqqında çoxlu lətifələr danışırlar. Şeirə-sənətə, teatra, musiqiyə çox bağlı adamdı. Qeyri-adilikləri də var, uşaq kimi sadəlövhdü, kövrəkdi, özü də yetim böyüyüb...

Əvəz Zeynalov haqqında çox şey bilirdim və Nəsir müəllim özünəməxsus böyük səbr, nəzakət, hörmətlə əvvəldən-axıra mənə qulaq asdı.

Mən susan kimi dedi:

- Bəs oğlu... sənin dostun nə işə baxır? - Zeynalla maraqlandı.

- Dostumun adı Zeynaldı. Çox hərtərəfli istedad sahibidi: rəssam, heykəltəraş, muğam bilən, tarçalan, Səməd Vurğunun o boyda «Vaqif» pyesinə parodiya yazan, açılmayan qapıları qadınların saçındakı adi sancaqla açan, butalar haqqında dərin biliyə malik, yaxşı idmançı, çempion, lağlağı, zarafatcıl, təpədən-dırnağa yumor, aktyor... nə bilim ee. Hüseyn Cavidin əsərində İblisin monoloqunu elə desin ki... Ancaq özündə olan bütün bu keyfiyyətlərə son dərəcə qeyri-ciddi, bivec yanaşan birisidi... Məclis qurmağı, tost deməyi də çox xoşlayır. Belə də... Dostluqda da alınmaz qaladı... həm də qəşəng oğlandı.

- Sən kefdəsən, Seyran... belə dostun var. - Nəsir müəllim üzünün bütün nurunu bu sözlərin üstünə tökdü.

- Çox sağ olun, Nəsir müəllim. Mən çox imkanlı adamam - Zeynal kimi dostum, Əvəz kimi atam var.

- Ay Seyran, sənin neçə atan var ki? - güldü.

- Deyim də, Nəsir müəllim... qağam Əsgər bir, məktəbdə oxuyanda ilk yazılarımın orasını-burasını düzəldən Ənvər müəllim iki. Qasım Qasımzadə üç, Əvəz Zeynalov dörd... - Barmağımın dördünü qatlamışdım, - elə siz də mənim atamsınız, beş, - deyib baş barmağımı da qatladım.

- Çox sağ ol, Seyran, üzün ağ olsun... - Nəsir müəllim bu dəfə də üzünün nurunu bu sözlərin üstünə tökdü.

- Əsas məsələ qalıb bir tərəfdə... - Nəsir müəllim dedi və qalxıb öz yerinə keçdi.

Düyməni basıb qarşısındakı mikrafona - əslində isə katibəyə dedi:

- Şamil müəllimi təcili yanıma çağır. - Üzümə gülümsədi, - nə qəribə gün oldu. Bir çay da içəkmi?

- İçək, - dedim.

- Həəə... əzizim Seyran, belə-belə işlər. - Asta-asta başını bulayıb sağ əlini yüngülvari sol əlinin üstünə çırpdı və bir müddət elə də qaldı - əlləri bir-birinin üstündə.

«Bakı» və «Baku» axşam qəzetlərinin əbədi və zəhmətkeş məsul katibi və fədaisi Şamil Şahməmmədov içəri girib əlindəki bir üzü ağ olan qəzet səhifələrini Nəsir müəllimin stolunun üstünə düzüb dedi: - Buyurun, Nəsir müəllim.

- Bəs Seyranla görüşmədin?

Salamlaşdıq.

- Necəsən, Seyran, nə var, nə yox?

- Çox sağ olun, Şamil müəllim, siz necəsiniz?

Şamil Şahməmmədov yaxşı adamdı, Nəsir müəllimin mənə olan isti münasibətindən də xəbəri vardı. Bir neçə dəfə, işin axırında Nəsir müəllimin otağına gəlib xudahafizləşəndə, bizi çay içə-içə söhbət eləyən görmüşdü. Deyəsən, bir az da təəccüblənmişdi ki, ortada o boyda yaş fərqi olan bu iki nəfərin söhbəti necə tutur.

İnsan ya heç nəyi başa düşmür, ya da ki, yavaş-yavaş başa düşür. Yenə sonralar başa düşdüm ki, Nəsir müəllim Şamil Şahməmmədova deyəndə ki, «bəs, Seyranla görüşmədin» - sən demə, məni saydırırmış…

Nəsir müəllim tələm-tələsik baxandan sonra səhifələri səliqə ilə üst-üstə qoyub tən ortadan qatladı və məsul katibə uzatdı: - Al, - dedi.

Bayaqdan bəri nəzərlərini Nəsir müəllimdən çəkməyən Şamil Şahməmmədov dedi:

- Bəs qol çəkmədiniz, axı… qəzet çapa getməlidi.

- Şamil, o felyetonu çıxarmaq lazımdı.

- Nəsir müəllim, niyə?

- Məsləhət deyil, - Nəsir müəllim dedi.

- Onu çıxartmaq aşağısı iki saat çəkəcək, gərək matritsa sökülsün… - Təəccüblə Nəsir müəllimə baxırdı.

- Sökün də.

- Qəzet gecikər, axı…

- Geciksin də…

Şamil Şahməmmədov Nəsir müəllimlə birgə işlədiyi bu illərdə ondan qəzetə belə münasibəti birinci dəfə görürdü. Çox təəccüblənmişdi:

- Axı, yuxarıdan bizə söz gələcək…

- Elə yuxarının göstərişidi də, - Nəsir müəllim gözucu mənə qımışıb səbrlə dediyinə əlavə də etdi, - Şamil, birincisi, yuxarıdan söz yuxarıya gəlir də, nə desələr, mənə deyəcəklər, sənə deməyəcəklər ki… mən cavab verərəm. İkincisi… - Nəsir müəllim sözünün dalını demədi.

Bayaqdan bəri iki ayağını bir başmağa dirəyən Şamil müəllim sözünün keçmədiyinə əmin olandan sonra başqa bir başmaq tapıb bu dəfə də ayaqlarını ora dirədi:

- Nəsir müəllim, sökdürməyinə sökdürərəm ee…

- Sökdür də… - Nəsir müəllim dedi, - nə çətinlik var ki?

- Məsələ burasındadır ki, «zaqon»da materialımız yoxdu o həcmdə.

- Var. - Bunu da mən qəfil dedim.

İkisi də maraqla mənə baxırdı. Mən dedim:

- Nəsir müəllim, mənim «zaqon»da yığılmış hekayəm var, «Ət taxtası», həcmi də uyğundu, mövzusu da…

Nəsir müəllim Şamil Şahməmmədovun üzünə baxan kimi o, dedi:

- Hə, Seyranın hekayəsi var, yığılıb.

- Lap yaxşı da, felyetonu çıxart, Seyranın hekayəsini qoy onun yerinə.

- Oldu, Nəsir müəllim.

Şamil Şahməmmədov səhifələri də götürüb çıxmaq istəyəndə Nəsir müəllim onun boynuna bir minnət də qoydu:

- Gördün, Seyran bizi nə təhər vəziyyətdən çıxartdı… yenə mənim dostum kara gəldi, - dedi və gülümsəyib gözlərini yumub-açdı.

Uçmağa qanadım olmasa da uçurdum; belə vəziyyətdə uçmaq üçün adama qanad-zad lazım deyildi, vicdan gərəkdi.

Nəsir müəllimin nəhəngliyi qarşısında vergül boyda görünürdüm. O kişi mənim xahişimdən sonra iri, güclü qanadlarını açıb haqqın qapısına tərəf uçdu, uçdu, uçdu, yetişən kimi də haqqın qapısını açdı - qanadlandı uçmağa, haqq qapısın açmağa!.. Açdı da!

Nəsir müəllimin ürəkdən gələn bu cəhdini xeyirxahlıq kimi qiymətləndirə bilmərəm, bu, naxış olsa da, yanlış olardı. Çünki haqqı qorumaq xeyirxahlıq eləməkdən dəfələrlə çətindi - Nəsir İmanquliyev haqqı qorumuşdu!!!

Mən ona təşəkkür eləyib getmək istəyəndə o, bu fikrimi qırımımdan hiss eləyib soruşdu:

- Tələsmirsən ki? - Çox həssas adam idi, axı.

- Tələsirəm, - dedim. Əslində mən deməliydim ki, hara tələsirəm, ay Nəsir müəllim, istəyirsinizsə, lap səhərəcən oturum sizin yanınızda… kişi o boyda iş görmüşdü, - Zeynal gözləyir, - dedim, - indi bağrı partlayır…

- Harda gözləyir?

- Yuxarıda, redaksiyadadı, mənim otağımda, - dedim.

- Başqa işin yoxdursa, getmə, zəng elə, qoy gəlsin bura.

- Bura?! - Çox gözlənilməz oldu.

- Hə… bura… Gəlsin görüm sənin Zeynalın nə təhər oğlandı. Bəlkə, mən də dost oldum elə…

Bəlkə də onu tanıyanların çoxusuna qəribə gələcək, ancaq bu, mənim tanıdığım Nəsir İmanquliyevdi - bu, Nəsir İmanquliyevin əsli idi. Bu yerdə bəzi sənədlərə qoyulan dərkənar yadıma düşdü: əsli ilə düzdür. Nəsir İmanquliyev bütün ömrü boyu əsli ilə düz olub, düz olduğuna görə də çox əyriləri kəsib. «Düz əyrini kəsər» deyiblər, axı…

Otağıma zəng elədim. İş yoldaşım götürdü dəstəyi.

- Seyrandı… orda qonağım var, telefonu ver ona, - dedim.

- Çağır də… - Bir az gözləməli oldum.

- Alo. - Zeynalın səsi elə bil dəstəkdən yox, quyunun dibindən gəlirdi.

- Zeynal, - dedim, - düş ikinci mərtəbəyə, gəl baş redaktorun otağına.

- Əəə, de görüm nooldu, ürəyim partdayır bayaqdan?

- Narahat olma, hər şey qaydasındadı…

Telefonun o başında nə təhər qışqırdısa, bu başında sağ qulağımın pərdəsi titrədi.

Dəstəyi üstünə qoydum:

- Gəlir, - dedim.

Ordan bura gəlmək beş dəqiqəlik olsa da gecikirdi. Narahat olmağa hazırlaşırdım ki, katibə içəri girdi, qapını örtdü:

- Nəsir müəllim, - dedi, - bayaqdan bir nəfər gəlib deyir ki, məni baş redaktor çağırıb.

- Burax gəlsin də…

- Jurnalistə-zada oxşamır, axı… - qız təkid elədi.

- Dəvət elə içəri… denən, buyurun keçin… Üç stəkan da çay gətir.

Qız çıxdı, Zeynal gəldi. Sir-sifətindən açıq-aydın görünürdü ki, hələ özünə gəlməyib. Qapını arxasınca örtüb dayanmışdı. Bu, başqa Zeynal idi. Onun şirin sırtıqlığından, yetənə ərk eləmək xüsusiyyətindən əsər-əlamət qalmamışdı. Bunların hamısını bir su içim saatda duydum.

- Keç, keç… - Nəsir müəllim də təəccübləndi, çünki mənim təsvir elədiyim Zeynalla qapının ağzında dayanan Zeynalın arasında dağ-dərə fərqi vardı.

Zeynal stola yaxınlaşdı, Nəsir müəllim ona əl verdi:

- Otur, - dedi, - özünü Əvəz Zeynalovun kabinetindəki kimi hiss elə…

Ancaq Zeynal gərgin olaraq qalırdı. Nəsir müəllim Zeynalın bu vəziyyətini yüngülləşdirmək, bəlkə də onun bu halına son qoymaq üçün dedi:

- Seyran deyir rəssamsan…
- Bəli.
- Mənim portretimi çəkə bilərsən?
- Elə indi?

Nəsir müəllim gülümsədi:

- Yox… indi yox, başqa bir vaxt.
- Çəkərəm… Ancaq sizin portretinizi, - Zeynal Nəsir müəllimin üzündə baxışlarını gəzdirdi, - karandaşla çəkmək lazımdı.
- Niyə rəngli boya ilə alınmaz ki? - Nəsir müəllim maraqlandı.
- Alınar ee… ancaq karandaşla daha yaxşı çıxar… bilirsiniz, sizin üzünüzdə zərif cizgilər, o cizgilərdən törəmə alt qatda olan daha zərif cizgilər çoxdu. Belə sifəti işləmək üçün karandaşın misli yoxdu - ucu tük kimi nazik karandaş. Rənglə işləmək mənim üçün çox asandı, ancaq karandaşla işləmək iynəynən qəbir qazmaq kimidi, ağırdı… Seyran görüb, evdə papamın portretini karandaşla işləmişəm, özü desin də...
- Çox əladı! - dedim.

Nəsir müəllim deyəsən zarafat eləmirdi, dedi:

- Mənim portretim neçə vaxta hazır olar?
- Rənglə işləsəm… belə gecə-gündüz işləsəm, beş-altı gün, karandaşla çəksəm beş-altı ay… - Zeynal cavab verdi.
- Yaxşı, Zeynal, bu barədə sonra danışarıq. Seyran mənim dostumdu. Felyeton iki saatdan sonra çap olunurdu. Qoymadım getsin, çıxartdım. Bir-iki söz soruşmaq istəyirəm. Siz toy elədiyiniz yer böyükdü?
- Böyük də demək olmaz, balaca da… Təxminən yüz iyirmi, yüz əlli adam tutar.
- Neçə nəfər çağırmışdınız?
- Bilirsiniz, - Zeynal dedi, - mənim papam qorxağın biridi. Deyir maa yaraşmaz, cəmisi həştad adam çağırmışdı, onun da səkkizi gəlməmişdi.
- Papan nədən qorxur ki?
- Çox qanunpərəstdi ee… nə bilim, vallah, yetim oğlan olub, gözüqıpıq böyüyüb, bəlkə, onnandı, - Zeynal cavab verdi.
- Müxbirlər gələndə sən orda olmamısan?
- İçəridə olmuşam, Seyrannan bir yerdə. Papamı çağırtdırıblar çölə, papam da deyib ki, keçin içəri, oturun, toydu də, bir tikə çörək yeyin. İki nəfər imişlər. Biri deyib ki, biz buraya yeməyə gəlməmişik, müxbirik, «Bakı» qəzetindən gəlmişik, bizi yola sal, gedək…
- Zeynal, bir şeyi də de görüm, bəs papan hardan bilib ki, onun haqqında felyeton yazıblar?
- Toydan bir-iki gün sonra o müxbirlərdən biri zəng eləyib deyib ki, üç-dörd gün vaxtınız qalır, əgər bizi görməsəniz, felyeton çıxacaq qəzetdə… bax belə olub. Mən də gəldim Seyrana dedim. Yazıq kişi dəli kimi gəzir. Deyir o qəzet çıxsa, gərək ömür boyu oturam evdə, bayıra çıxmayam. Biabır olajam deyir… Onun tayları dəvəni dəngiynən udur… Nə də deyirsən, deyir ki, yox, bu, maa yaraşmaz. Ancaq felyeton yaraşdırmaq istəyirdilər ona… - Zeynal kövrəldi və dik qalxdı, varlığının bütün səmimiyyəti ilə Nəsir müəllimə baxıb dedi:
- İcazə verin, əlinizdən-ayağınızdan öpüm, - və Nəsir müəllimə tərəf yeridi. Nəsir müəllim pis olmuşdu. O, böyük əllərini göyə qaldıran kimi Zeynal dayandı, günahkar adamlar kimi başını aşağı saldı. O, elə donmuşdu ki, elə bil bir də heç zaman yerindən tərpənməyəcək. Nəsir müəllim yerindən qalxıb Zeynala yaxınlaşdı, sol əlini Zeynalın kürəyinə qoyub onu özünə tərəf çəkdi. Bala atasına qısılan kimi Zeynal onun gen sinəsinə sığındı. Bir su içim saat bu

vəziyyətdə qalandan sonra Nəsir müəllim Zeynalın kürəyinə vurub qolundan tutdu, onu oturtdu, başını sığalladı.

Mən çox pis olmuşdum. Qurğuşun kimi ağır, qılınc kimi iti sükut ortalıqda at oynadırdı. Bu sükutu qovmaq üçün beynimi ələk-vələk eləyib söz axtarırdım, tapa bilmirdim; demək istədiyim söz ya məndən qaçırdı, ya da, ümumiyyətlə dilimizdə belə bir söz yox idi. Mənim söz axtarışım uğursuzcasına davam elədikcə üzülürdüm. Yenə Nəsir müəllim kömək əlini uzatdı:

- Zeynal, - dedi, - İblisin monoloqunu söyləyə bilərsən?

Zeynal ayağa qalxdı, bir-iki dəqiqə otaqda var-gəl eləyəndən sonra tən ortada dayandı, gözlərini döyə-döyə nəyisə axtarmağa başladı və tapan kimi dedi:

- Mən İblisin monoloqunu «Bakı» qəzetinin o iki müxbirinə həsr eləyirəm - cüt İblisə… onlar da İblisdi, - və başladı.

Bayaqdan bəri bu qəribə oğlandan gözünü çəkməyən Nəsir müəllim Zeynalın monoloqdan qabaqkı «ön sözündən» sonra bütün görkəmilə ona diqqət kəsildi.

Monoloq sona yetirdi:

«…Cümlə xəyanətlərə bais! Bəs hər kəsə xain olan İnsan nədir? İbliiis!!!»

Nəsir müəllim elə bil Məşədi Əzizbəyov adına Akademik Dram Teatrında birinci sırada əyləşib Abbas Mirzə Şərifzadənin ifasında İblisin monoloquna qulaq asmışdı.

Zeynalın bu uğurlu «çıxışından» sonra bayaqkından fərqli olaraq xoş, həzin, meh kimi yumşaq, məhrəmanə bir sükut ortada idi. Sükut gülürdü. Adam bu sükutu pozmağa qıymırdı…

Deyəsən, üçümüz də eyni fikirdə idik; heç kəs bu sükuta qıymadı, bir azdan özü sorulub getdi…

Nəsir müəllim üzünü Zeynala tutdu:

- Seyran deyir ki, əlindən gəlməyən iş yoxdu…

- Gördüyünü deyir də… düzdü.

- Məsələn… - Nəsir müəllim maraqlandı.

- Məsələn… bax, televizor xarab oldu, özüm düzəldirəm, tar çalıram, heykəltəraşam, xam adamları dolayıram, at çapıram, ağacdan, daşdan fiqurlar düzəldirəm, yaxşı üzürəm, belə də…

- Elə bu? - Nəsir müəllim dedi.

- Niyə? Genə var… Fokus göstərirəm, Armais Sayadovu yıxmışdım, sudyalar hesaba almadı, qələbəni verdilər erməniyə, sonra… qəşəng rəqs eləyirəm, seyf açıram, memaram… başınızı ağrıtmayım də… nə desəniz, eliyə bilərəm…

- Harda işləyirsən?

- Xırdalanda «Detmir»in direktoru idim, - çönüb gülə-gülə mənə baxdı, - bir də görürdüm ki, Seyran başında bir dəstə şair-yazıçı gəlib ki, qardaş, darıxmışam. Gedirdik Sarayda bir restoran var, ora. Başqa dostlarım da gəlirdilər. Seyran lap tez-tez «darıxırdı». Belə-belə, bir də gördüm beş min manat kəmim çıxıb. Papamın hesabına qurtardım, işdən çıxdım, ticarət mənlik deyil ee… otuzdan çox satıcım vardı… Hə… yaxşı nizə atıram, ovçuyam - quşu gözündən vurram, məclis xoşlayıram… belə də, çoxu yadımdan çıxıb…

- Bəs bir belə işi nə təhər çatdırırsan, necə vaxt tapırsan? - Nəsir müəllim mat qalmışdı.

- Mən, - Zeynal dedi, - o dediyim işlərnən keyfim istəyəndən-istəyənə məşğul oluram ee, həmişə yox…

Nəsir müəllimin yüzlərlə tələbəsini, onunla çiyin-çiyinə işləyənləri - qısası, onu yaxından tanıyanları necə inandıra bilərəm ki, o, həm də beləydi. Görünür Nəsir müəllim varlığının bu qapısını mənim üzümə açmışdı. Bu, mənim

qismətimdi. Bax, Nəsir müəllimin mənim üzümə açdığı qapıdan o, belə görünürdü…

İnanan inansın, inanmayan inanmasın - mən bir də bu məsələyə qayıtmayacam.

Zeynal qəfil Nəsir müəllimə dedi:

- Olar papamı sizinən tanış eliyim?

- Olar… niyə olmur ki?.. Özüm də istəyərdim.

- Mamam bir Tuğ qurqudu bişirər…

- Nə bişirər? - Nəsir müəllim onun sözünü kəsdi.

- Qurqud… - Zeynal təəccübləndi.

- Qurqudu biz tərəflərdə də bişirirlər… - Nəsir müəllim dedi, - qurqud qədim yeməkdi, elə bil yeməklərin bayatısıdı.

Nəsir müəllimlə Zeynal yüz ilin tanışları kimi menyunu da dəqiqləşdirdilər. Ancaq boynuma alıram ki, mən də Nəsir müəllimi bu qədər bilmirdim - Nəsir müəllim nə qədər imiş?!

Nəsir müəllim bəynən plov yeyən kişi deyildi; ona görə yox ki, plovu xoşlamırdı, ona görə ki, bığının yağa bulaşmasını istəmirdi. Ancaq Zeynalgildə qurqud yeməyi özünə rəva bilirdi.

- Zeynal, - Nəsir müəllim dedi, - bəlkə, gəlib bizim qəzetdə rəssam işləyəsən… Özün də bekarsan.

- Yox… yox… çox sağ olun, çox var olun…

- Axı, niyə? Özünə arxayın deyilsən?

- Yox… yox… Özümə arxayınam ee… Ancaq tezdən işə gəlib axşamacan bura bağlanmaq mənnik deyil, avaragorun biriyəm.

Bəlkə də Zeynal, Nəsir müəllim boyda kişinin iş təklif eləyib imtina cavabı eşitdiyi ilk adam idi. Çünki hamı Nəsir müəllimlə işləməyi özü üçün böyük şey hesab eləyirdi - şərəf bilirdi. Zeynalın «avaragorun biriyəm» deyib elədiyi imtina, əslində Nəsir müəllimin xoşuna gəlmişdi, çünki bu imtinanın kökündə, bir növ, özünü aşağılamaq hesabına başa gələn səmimiyyət dayanırdı.

- Zeynal, - Nəsir müəllim özünü bizim tay-tuşumuz kimi aparmaqda davam eləyirdi, - Seyrannan necə dost olmusunuz?

Zeynal üzümə baxıb soruşdu:

- Olduğu kimi deyim?

- De… olduğu kimi de… - Nəsir müəllim mənim əvəzimə cavab verdi və onun bu ərki xoşuma gəldi.

Zeynal elə bil iyirmi il əvvələ qayıtdı, gülümsəyib dedi:

- Belə olub də… Mən şəhər uşağı olmuşam, - məni göstərdi, - bu kəndçi idi. Bunnar kənddən şəhərə gəlib bir stəkan limonad içirdilər, kəndə qayıdannan sonra da birinin üstünə beşini qoyub danışırdılar. Biz şəhər uşaqları kənddən gələn tay-tuşlarımızı tutub mal kimi döyürdük. Bir gün gördüm bir sarı gədə Orta Kəhrizin qabağından keçir. Biz iki nəfər idik. Ona yaxınlaşıb dedim ki, kənddən gəlib şəhərdə nə lotuluq eləyirsən? Dedi ki, yaxşı eləyirəm. Mən birin deyəndə bu, ikisini deyirdi. Nə qədər elədim ki, dilini saxlasın, olmadı. Dedim gedək dalaşmağa, dedi gedək. Apardıq bunu raykomun dalına, mal kimi çırpdıq, orda da qoyub getdik. Bir gün klubda Axundovun yubileyi idi, o «Hacı Qara»nı yazan kişinin. Papam məni də özüynən aparmışdı. Birdən iclası aparan kişi qayıtdı ki, «indi də Mirzə Fətəli Axundova həsr elədiyi şeirini oxumaq üçün söz verilir Yağlıvənd kənd orta məktəbinin yeddinci sinif şagirdi Seyran Xanlarova». Bir də gördüm mən döydüyüm o sarı gədə, bu… Əl-qolunu ölçə-ölçə şeirini oxudu, camaat buna çəpik çaldı. Mən də əl çaldım. Sonra bunu güddüm, çıxanda tanış olduq… O vaxtdan da bir yerdəyik.

- Bəs sonra nooldu, əvəzin çıxmadı? - Nəsir müəllim dedi.

- Bu, ikinci kursa keçib gəlmişdi Bakıdan. Mən hələ rayonda olurdum. Yay idi də, getdik Kəlbəcər İstisuyuna, Bağırovun sanatoriyasında qalırdıq. Bir gün məni içirtdi, dolaşdırdı, bərk döydü, səhər duranda özümü tanımadım. Dedim əclaf, məni niyə bu günə salmısan? Dedi: yadındadı raykomun dalı?.. Əl-qolum düşdü yanıma…

Bu söhbətlər, görəsən, Nəsir müəllimin nəyinə lazım idi? Onun üzünə baxdım, məmnun görünürdü, deyəsən, Nəsir müəllim istirahət eləyirdi - mənə belə gəldi…

- Yaxşı ki, Allah buna bir qırnıq istedad verib, yoxsa qalardı ortalıqda, əlinnən-zadınnan bir iş gəlmir, axı. Allahın bir mismarını divara vura bilməz; bir də gördün qara xəbər gəldi ki, bəs barmağının mayasını çəkicnən vurub əzib. - Zeynal dedi və divardakı saata baxdı, - bəlkə bizə icazə verəsiniz yavaş-yavaş gedək? - Nəsir müəllimə dedi.

- Tələsirsən?

- Yoox… papam gözləyir…

- Zəng elə qoy gəlsin o da… həm də tanış olarıq, mən də üzrxahlıq eləyərəm, onların əvəzinə…

- Bu gün gələ bilməz, iclasları var, partkomdu, axı...

Yalnız Zeynalın bu sözlərindən sonra Nəsir müəllim dedi:

- İclaslar ölkəsidi də… iclas quruları, iclas nə qədər olar? Axırda bu ölkənin axırına elə iclaslar çıxacaq… Zeynal, hərdən gəl söhbət-zad eləyək.

- Gələrəm, - Zeynal ayağa qalxa-qalxa dedi, - Seyrannan gələrəm. Ölüncən sizə borcluyuq, özü də nəsillikcən… Biz heç vaxt sizin bu yaxşılığınızın altından çıxa bilmərik.

- Yaxşılıq, altından çıxmaq üçün deyil ki… elə altında qalmaq üçündü. - Nəsir müəllim neçənci dəfə öz müdrikliyini göstərdi.

Biz katibə qıza sağ ol deyib, cavab eşitmədik. Dəhlizə çıxan kimi Zeynal dedi:

- Nə yaxşı kişidi, əəə, bu?! Elə bil mənnən bir baxçaya gedib-gəlib, elə bil Keçəllər məhləsində bir yerdə böyümüşük… Halal olsun! Mənnən tay-tuş kimi danışırdı, ee… Pah! Nənəmin goru haqqı, mən belə şey görməmişəm! O boyda kişi… Maşallah, boy-buxun da verib ee, Allah… Heykəlli kişidi… Heç ona heykəl qoymaq lazım deyil, elə özü heykəldi. Səni də yaman çox istəyir…

- Nə bildin?

- Gördüm dana… Yaxşı tanımır da səni, elə bilir sən də bir kişisən…

Birinci mərtəbəyə düşüb çölə çıxmaq istəyəndə Zeynalın gözü divardakı avtomat telefona sataşdı:

- Seyran, iki qəpikliyin var?

- Olmalıdı, - dedim və cibimdən yarım ovuc xırda pul çıxardıb onun qabağına tutdum, - bax, gör, - dedim.

- Papama zəng eləyirəm, - dedi, - yazıq kişi durduğu yerdə zibilə düşmüşdü də… Allah o kişinin… Seyran, o kişinin adı nəyidi?

- Nəsir müəllim, Nəsir İmanquliyev, - dedim və bir az da incidim ki, o boyda kişini tanımır.

- Hə… - Zeynal davam elədi, - Allah Nəsir müəllimin yeddi arxa dönəninə rəhmət eləsin… Allah Nəsir müəllimin balalarını, nəvələrini, nəticələrini, kötükcələrini, yadıcalarını… elə birinci özünü salamat eləsin. - Zeynal bütün bunları telefonun dəstəyi qulağında ola-ola deyirdi; gendən baxan elə bilirdi ki, o, telefonla danışır.

Zeynal dəstəyi asıb dedi:

- Cavab vermir! - və elə bil ki, bir az da əsəbiləşdi, gərginləşdi, - otur yerində də… Atasının dalınca deyindi, bir az da donquldandı…

Zeynal «Kommunist» nəşriyyatının birinci mərtəbəsindəki geniş foyedə məni bir kənara çəkdi, xoflu adamlar kimi ətrafa boylanıb arxayın olandan sonra dedi:

- Seyran, gör nə deyirəm. İndi oturub taksiyə gedirik «Azərittifaq»a, papamın yanına…

- Gedək də, - dedim, - kişi narahatdı, axı, - onun qolundan tutdum.

- Dayan, - o, dartındı, - gör nə deyirəm… Papama deyəcəm ki, bu işin beş yüz manat xərci var…

- Nəəəə?! - Gözüm kəlləmə çıxdı.

- Yaxşı dörd yüz…

- Olmaz!

- Üç yüz.

- Sənin başın xarab olub?!

- İki yüz.

- O kişinin çörəyi burnumdan gələr, ee!

- Yüz…

- Alçaq!

Zeynal gördü ki, iki ayağımı bir başmağa dirəmişəm, tərs damarım tutub, gülə-gülə dedi:

- Mən alçaq deyiləm… Heç sən də hündür deyilsən… - ifadəli baxışlarını üzümə zillədi. - Səni sınayırdım, - dedi, - halal olsun sənə, - çiynimə vurdu.

- Gözünün içinə qədər yalan deyirsən… Məni sınayana bax, ee… Denən sən öl səni sınayırdım, - dedim.

- Sən öl! Sən öl səni sınamırdım. - Sırtıq-sırtıq üzümə baxıb şirin-şirin güldü.

- Alçaq! - dedim.

- Hündür! - dedi.

Zeynalı beş barmağım kimi tanıyırdım. Bu da Zeynal idi, ancaq məsələ başqa cürdü. O, bu gen dünyada heç kimə kələk gəlməzdi, atasından başqa. Əslində isə Zeynalın qurduğu kələyin mayasında böyük ərk dayanırdı - ata-bala ərki. Və günlərin bir günü, bu kələyin üstü açılsaydı, heç bir qorxusu yox idi; doğma ərk bu işin təhlükəsizliyinə tam təminat verirdi. Bu səbəbdən də Zeynalın atmaq istədiyi bu addımın risk dərəcəsi sıfıra bərabər idi - tam arxayınlıq, yəni kriminal yox idi.

O vaxt taksi tapılmırdı ki… ancaq biz gözləyirdik. Birdən dedim:

- Zeynal, beş yüz manat alsaydın, mənə nə qədər verəcəkdin?

Zeynal maraqlandı:

- Yarıbayarı, iki yüz…

- Bez yüzü ikiyə böləndə iki yüz eləyir? - dedim.

- Yaxşı, iki yüz əlli… - üzündə key ifadə əmələ gəlmişdi, - özümə ona görə üç yüz götürürdüm ki, ideya müəllifi mənəm, axı. Bir də mən başqasına kələk gəlmirəm ki… öz «radnoy» dədəmdi də…

Birdən elə bil ki, Zeynal qəfil ayıldı, gülümsəyib dedi:

- A biji-biji, indi də sən məni sınayırsan? Keçməz…

Zeynal ilə aramızda pərdə-filan yox idi, elə bil heç əvvəldən olmayıb; bunun əvəzində böyük ərk var idi. Bir-birimizə istədiyimiz kimi müraciət eliyə bilirdik - hər ikimiz bunu qazanmışdıq, bu, bizim halal qazancımız idi və bu «qazanc»ın hesabına çönüb bir adam olmuşduq.

Mən Zeynalı yenə sınaq imtahanına çəkdim, ovqatımın belə məqamı idi:

- Ancaq… ancaq, iki yüz desəydin, bəlkə də razılaşardım, - dedim.

- İndi deyirəm də, qurd keçinin nəyin yeyib ki? Heç harasını…

- Gecdi… - dedim.

- Niyə gecdi ee?

- Gec deyil ee, çox gecdi. Ortada əxlaq, vicdan məsələsi var.

- Yaxşı, - Zeynal dedi, - bu söhbəti qurtaraq, girəvəydi də…
- Bu söhbət bayaq, sən öz ideyanı verəndə qurtarmışdı.
Zeynal özü təklif elədi, özü də söhbəti dəyişdi:
- Seyran, - dedi, - Nəsir müəllim haralıdı?
- Bilmirəm. Mən belə məsələlər üzrə mütəxəssis deyiləm. - Quru adamlar kimi cavab verdim, - əslində isə bilirdim.
- Bilmirsən, dostun haralıdı? - təəccübləndi.
- Bilmirəm. Ancaq onu bilirəm ki, Tuğlu deyil.
- Seyran, Nəsir müəllim bayaq bir söz dedi, maa o qədər də çatmadı…
- Nə dedi ki, - soruşdum.
- Dedi ki, yaxşılığın altından çıxmaq lazım deyil, yaxşılığın altında qalmaq lazımdı, maa çatmadı…
- Çatdırım? - Müdrikanə bir görkəm aldım.
- Çatdır…
- Nəsir müəllim dərin söz dedi… Onun iki mənası var: biri odur ki, bu yaxşılıqdısa və bu yaxşılığı mən eləmişəmsə, onun altından çıxmağa heç bir ehtiyac yoxdu… ikinci: Nəsir müəllim çox haqlı olaraq belə hesab eləyir ki, alçağın biri yaxşılığın altında qalsa əvvəl-axır özü də çönüb yaxşı adam olacaq. Başa düşdün, ay tupoy?
- Halal olsun Nəsir müəllimə… sinəmə yatdı bu sözlər… gör haracan fikirləşir ee?.. - Zeynal elə bil ki, bu sözləri öyünə-öyünə dedi, o, iki dəqiqə bundan əvvəl tanıdığı, xoşuna gəldiyi adamlarla fəxr eləyə bilirdi - bu, onda var idi; Allah vermişdi.
- Seyran, - dedi, - Nəsir müəllim sənə dərs deyib?
- Nəsir müəllim mənim müəllimim olub, elə indi də müəllimimdi, həmişə də olacaq, ancaq mənə bir saat da dərs deməyib.
- Bu necə olur ki? - Zeynal gözlərini döyə-döyə üzümdən çəkmədi.
- Sənə deyim də… bir var gəlib sinifdə sənə dərs deyələr, bir də var ki, dərs verələr. Bax, Nəsir müəllim, bu gün ikimizə də dərs verdi, başa saldı ki, haqqı nahaqqın ayağına vermək olmur. Zeynalsan da, təsəvvür elə ki, Nəsir müəllim iki yerdə dərs deyir, bir universitetin jurnalistika fakültəsində, bir də həyatda; fakültədə mühazirə oxuyub savad verir, əsas iş yeri olan həyatda isə dərs verir. Kənddə kimsə yolunu azanda, kəndin sayılıb-seçilən, müdrik adamına nə deyirlər? Deyirlər, sən Allah, çağır onun dərsini ver, bax, heylə. İndi bizim Nəsir müəllim də həm dərs deyir, həm də öz əməli, şəxsiyyəti, dünyagörüşü ilə ətrafdakılara dərs verir. Mənə də dərs verib dəfələrlə, hesab eləyirəm ki, onun tələbəsiyəm, o da mənim müəllimimdi.
- Çox yaxşı dedin, - Zeynal məmnun görünürdü.
- Qulaq as… Dərs deyən müəllim uzağı beş il çəkir, ancaq dərs verən müəllim ömürlükdü; Nəsir müəllim belə müəllimdi - ömürlük.
- Bu da xoşuma gəldi, filosofsan də…
- Sözün qısası, Nəsir İmanquliyev «İbrət dərsi» fənnindən dərs verir, bu sahə üzrə ixtisaslaşıb…
- İndi lap yaxşı başa düşdüm, el arasında deyillər ee, filankəs bəhmənkəsə ibrət dərsi verdi, bax, heylə. - Zeynal dedi, - deməli, əsas ibrət dərsidi!
- Düzdü, əsas ibrət dərsidi. Əsas ibrət dərsi olduğuna görə də Nəsir İmanquliyev əsas müəllim hesab olunur. Var əsas, bir də var əsasın ətrafındakılar… Zeynal, sən «İbrət dərsi» kitabın görməmisən?
- Heylə kitab var ki?
- Var! - dedim. - Özü də o kitabı beş nəfər yazıb, müəlliflərdən biri də Nəsir İmanquliyevdi, beş kişinin biri…
- O kitabdan səndə vaar?
- Var, - dedim, - sən də o kitabı görmüsən.

- Görməmişəm.
- Görmüsən! - dedim, - bir az varaqlamısan da…
- Harda gördüm onu?
- Nəsir müəllimin otağında… - dedim.
- Şkafdaydı?
- Yox.
- Bəs hardaydı? - Zeynal bu kitabı yadına salmağa çalışırdı.
- Özü də kitab biziynən çay içirdi.
- Kitab çay içər? - Zeynal bir an fikrə getdi, - həə… başa düşdüm, o kitab Nəsir müəllim özüdü də.
- Düzdü! Bax, indi oldun adam.

Zeynal qolundakı saatı mənə göstərdi:

- Papamgilin iclası başlayıb, - dedi, - aşağısı iki saat çənə döyəcəklər. Ora getmək tezdi…
- İstəyirsən qalxaq bufetdə çay içək? - soruşdum.
- Gedək, - razılaşdı.

Bufetdən bir çaynik çay götürüb pəncərənin qabağında əyləşdik. Zeynal qaynar çaydan bir qurtum alıb yerinə qoydu, dedi:

- Seyran, Nəsir müəllim bayaq mənə dedi ki, hərdən gəl, söhbət eləyək…
- Noolar deyəndə?
- Sözümün canı var…
- Eşidirəm… - dedim.
- Sözümün canı odur ki, Nəsir müəllim haqqında bir az danışasan, məlumatım olsun də, heç olmasa onu bir az tanıyım də, bilim ki, kimiynən söhbət eləyirəm. Elə yaxşı oldu taksi gəlmədi, - dedi, çaydan bir qurtum da alıb stəkanı əlində saxladı, gözünü də mənə zillədi, üç-dörd dəfə kirpik çalandan sonra nə isə demək istəsə də, fikrindən döndü.
- Bilirsən, Zeynal, - dedim. - Allah adamı yaradıb körpə kimi atır yer üzünə, həddi-buluğa çatana qədər ondan daha çox muğayat olur. Özünü tanıyandan sonra isə hər şey düşür uşağın öz boynuna. Yavaş-yavaş böyüyür, təhsil alır, görüb-götürür, formalaşır, cəmiyyətin diqqətini cəlb eləyir. Bu etapdan sonra insan özü özünü təşkil eləməyə başlayır. Bax, Nəsir müəllim də belə olub - o, özü özünü təşkil eləyib, özü özünün memarı olub. Bax, bu mənada Nəsir İmanquliyev elə özü təkbaşına böyük bir təşkilatdır. Elə adam var ki, heç özü ola bilmir, ancaq Nəsir müəllim mənim aləmimdə nəhəng bir nazirlikdi…
- De görüm, onun əsas üstün cəhəti nədir? - Zeynal özünə çay süzə-süzə dedi.
- Mən onun heç bir cəhətini ayırıb deyə bilmərəm ki, bax, əsas budu. Əslində, insan xırda-xırda cəhətlərdən ibarətdi. Özünü yüksək səviyyədə təşkil eləmiş insanda bu xırda cəhətlər zaman keçdikcə bir-birinə hopub birləşir, vahid bir xasiyyətə çevrilir və heç vaxt insanı tərk etmir, ona hörmət-izzət gətirməyə başlayır. Bax, bu məqamda da Böyük İnsan olmağa doğru yol açılır - nəticədə adi insan çönüb olur Böyük İnsan. Bu cür adamlar ömrünün sonuna qədər böyüyə-böyüyə yaşayır - Nəsir İmanquliyev kimi. Böyük İnsanı Allah da xırdalaya bilməz, çünki burda Allahın razılığı olub. Allah da özü razılıq verdiyi Bütövü heç vaxt xırdalamaq istəməz, axı…
- Bəs xırda adamların vəziyyəti nə təhərdi? - Zeynal nadir hallarda mənə belə cidd-cəhdlə qulaq asardı, hər şeyi lağ-lüğaza çevirməyi xoşlayırdı.
- Böyük İnsan ola bilməyən, yaxud da olmaq istəməyən xırda adamların vəziyyəti çox sadədi. Yəni, ticarət dilində - sənin dilində deyəcəm. Elə bil ki, bir adamın xasiyyəti bir kağız manatlıqdan ibarətdi. Sonra bu bir manatlıq xırdalanıb olur iki dənə əlli qəpiklik, sonra iki dənə əlli qəpiklik xırdalanıb olur beş dənə iyirmi qəpiklik, beş dənə iyirmi qəpiklik xırdalanıb olur on dənə on

qəpiklik, on dənə on qəpiklik də xırdalanıb olur iyirmi dənə beş qəpiklik, iyirmi dənə beş qəpiklik də xırdalanıb olur əlli dənə iki qəpiklik, əlli dənə iki qəpiklik xırdalanıb olur yüz dənə bir qəpiklik. Xırdalanma prosesi dirənir dalana - bax, ona deyirlər bir qəpiklik adam… Zeynal, qoy bunu da deyim.

- De, de… hələ vaxtımıza var.

- Bax, bir var cibində diri yüzdüyün ola, bir də var ki, diri yüzlüyü bir torba dəmir pula xırdalayıb atırsan çiyninə, hansı yaxşıdı?

- Əlbəttə, diri yüzdük. O günü taksidən düşəndə diri yüzdüyü çıxardıb şoferə uzatdım ki, pulunu çıx, dedi xırdam yoxdu, düş get.

- Zeynal, insanın pul xırdalamağa ixtiyarı var, ancaq özünü xırdalamağa ixtiyarı yoxdu. Yaratdıqlarının içində Allahın ən çox xoşuna gələn İnsandı, bəs, sən Allahın xoşuna gələni niyə xırdalayıb korlayırsan? Sən kimsən, axı?!

- Çox düz deyirsən, qardaş, halaldı sənə… öpürəm.

- Bir şey də deyim sənə… «Koroğlu» operası tamaşaya hazırlananda bədxahlar ortada meydan sulamağa başlayırlar, pəlxəşlik qatıb işi pozmaq istəyirmişlər, otuz səkkizinci ildə. Özün bilirsən də, nədən korluğumuz olsa da, bədxahlardan heç vaxt korluq çəkməmişik. O vaxt Nəsir müəllim, səhv eləmirəmsə, «Yeni yol» qəzetində məsul katib işləyirmiş. Operanın ilk tamaşasının güclü təbliğatını aparıb, bülletenlər çap eləyib. Üzeyir Hacıbəyov yazır ki, «Koroğlu»nun anşlaqla keçməsində qəzetin redaktoru Qulam Məmmədlinin və Nəsir İmanquliyevin rolu danılmazdır. Sonralar «Yeni yol» bağlananda Nəsir müəllim bərk sarsılır. Çünki həyatını jurnalistikasız təsəvvür edə bilməyən bu adam qəzetin nə zamansa bağlanacağını ağlına sığışdıra bilmirdi. Ona elə gəlirdi ki, bağlanan qəzet deyil, onun bəxtidi… Səni başqa nə maraqlandırır?

- Nəsir müəllim haqqında gen-bol məlumat, - Zeynal dedi.

- Bax, muğamatı, xalq musiqisini çox sevir. Bir dəfə mənə dedi ki, «Segah» ürəyimə yağ kimi yayılır. Ən çox sevdiyi mahnı isə «Qurban adına».

- Zövqü əladı, - Zeynal münasibət bildirdi.

- Başqa nə deyim? Məmurlar üçün arzuolunmaz adamdı, qorxu-ürkü bilməz, xeyir-şər adamıdı, çox adamın elçiliyin eləyib, tanıdıqları cavanların hamısına ata kimi qayğı göstərib. Bu baxımdan Nəsir müəllimə çoxuşaqlı ata da demək olar. Sifarişnən işə adam götürmür. O, ancaq istedadın tapşırığına baxır… Zeynal, günlərnən onun haqqında danışmaq olar… Müharibə iştirakçısı, 416-cı Taqanroq diviziyasında da olub…

- Bəlkə də papanı tanıyar eee? - Zeynal sevincək olub üzümə baxdı.

- Ola bilər… - deyib ona bir az ümid də verdim və bu ümid onu bir az da sevindirdi.

- Ola bilər niyə? - Zeynalı ümidləndirməyim onun inamını əməlli-başlı artırmışdı.

- Əəə, diviziyada bilirsən nə qədər adam olur? - nə isə, onun bu inamını qəsdən zədələmək istədim.

- Noolsun? - Zeynal dedi, - papam elə bir adam olmayıb ki… Batalyon komandiri kapitan Zeynalov! - Xüsusi pafosla dedi.

- Yaxşı ki, general-zad olmayıb… - ərk dolu istehza ilə dedim.

- General da olardı, əgər yaralanıb davadan yarımçıq qayıtmasaydı, - gözləri ani yol çəkdi, üzünə işıqlı sevinc hopdu. - Mənnən soruşanda ki, bala, sən kimin oğlusan, deyərdim ki, Əvəzin; soruşanda ki, hansı Əvəzin, deyərdim ki, general Əvəzin… - güldü.

- Romantiksən də… - dedim.

- Romantikəm… hamımız romantikik, nəsillikcən… Tuğ dünya romantikasının paytaxtıdı! Mənə də Tuğlu Məşədi Həmzə bəyin nəvəsi Zeynal deyərlər!

- Tutman tutdu yenə?

- Yooox… deyirəm vaxtımız tez keçsin də… - Saatına baxdı, - lazım olmayanda vaxt elə can çəkə-çəkə gedir ki…

Vaxt ləng getdikcə Zeynal sürətlə darıxırdı, bu onun üz-gözündən tökülürdü. İndi o, darıxmağın lap zirvəsində idi və oradan mənə əl eləyib dedi:

- Seyran, Nəsir müəllim nəynən vuruşub nemesdərə qarşı, avtomatnan?

- Yoox… - dedim.

- Tanknan?

- Yox! Nəsir müəllim qələmiynən vuruşub…

- Qələmiynən? - Zeynal təəccübləndi.

- Qələmiynən! Bəlkə də Nəsir müəllim qələmiynən bir tankın işini görüb, - onun üzünə baxıb qəsdən əlavə elədim, - bəlkə də bir batalyonun; müharibədə tankın öz yeri, qələmin də öz yeri var. Tankın döyüşməsi müharibə qurtarana qədərdi… qələm isə həmişə vuruşur, xüsusilə Nəsir müəllim kimi kişilərin qələmi…

- Üzümə niyə heylə baxırsan ki? Yüz faiz razıyam, - Zeynal qımışdı.

- Ciddi deyirəm, tankların müharibəsi gec-tez sona yetir, ancaq qələmin müharibəsi heç vaxt bitmir! Qələm heç vaxt sülh şəraitində yaşamır, onun üçün müharibə də müharibədi, sülh də… Beyninə yerrəşdi?

- Yerrəşdirrəm… də yavaş-yavaş. - Zeynalın əməlli-başlı şitliyi tutmuşdu və bu şitlik özü sovuşub getməsəydi, heç nəyin xeyri yox idi; hücum-zad burda kara gəlməzdi.

Birdən Zeynal bayaq bağladığımız mövzunu təzədən açıb dedi:

- Yaxşı… beş yüzdən üç yüzə yendim, üç yüzdən iki yüzə, iki yüzdən də yüzə… heç nə çıxmadı. Başqa təklifim var…

- Yenə təklif? - mən bozardım.

- Yoox ee... sənin də xoşuna gələcək.

- Çətin ağlım kəsir, - dedim.

- Açıq deyim də… bu təklifi də bəyənməsən, demək sən heç adam deyilsən…

- Yaxşı, uzatma, - dedim.

- Uzatmıram. Rast ki, mən deyənlərin heç birisi olmadı, onda papama deyək, bizə bir yaxşı qonaqlıq versin.

Zeynalın bu təzə-tər təklifi ürəyimcə olsa da, o saat razılaşmadım. Açığını deyim ki, bir az da özümü elə dartdım ki, guya Zeynalın mənə çox ciddi bir işi düşüb və hər şey də mənim razılığımdan asılıdı. O, mənim bu ovqatımı sir-sifətimdən duyub bir balaca özündən çıxdı:

- Əyə… Tay bunnan aşağısı yoxdu ee… Buna da qəmiş qoysan…

- Neyniyəzsən? - soruşdum.

- Nənəmin goru haqqı, üzünə də baxmaram, bu dəqiqə burdan durub gedərəm… bıyy…

- Hara gedərsən?

- Cəhənnəmə-gora… - dedi.

- Bəs sən cəhənnəmə-gora getsən, mən kimiynən gedərəm?

- Hara?

- Qonaqlığa də…

- Bıy sənin daşına dönüm! Bilirsən hara gedərik?

- Hara?

- «Novbahar» restoranına… ordakı jarkonun yerini ceyran kababı da verə bilməz! Nə «zakaz» verək?

- Özün ver də, - dedim.

- Deməli, üç dənə jarko, göy-göyərti, pomidor-xiyar, motal pendiri, limonad, çörək… pah, az qalmışdı yadımdan çıxa, iki dənə də araq… Üzümə niyə heylə

baxırsan ki? Qanımızı qaraltma də. Özün də bilirsən ki, üç adama bir araq heç nədi?.. Niyə yeyib-içdiyimizi zəhər eləyirsən axı?..

- Yaxşı, hələ birin içək, sonra baxarıq, - dedim.

- Bıy sənin başına dönüm, bilirdim ki… - Zeynal öz aləmində ikinci arağı da boynuma qoydu, - hə… bir də «Mirzəhüseyn segahı» zakaz verərik, on manat eləyir. Papamın da xoşuna gəlir. Araq içib «Mirzə Hüseyn»ə qulaq asandan sonra, bəlkə, cibimizə pul da qoydu… Oğlan da yaman oxuyur ee… elə bil fırt eləyib Yaqubun burnundan düşüb.

- Doğurdan yaxşı oxuyur! - mən dedim.

- Hə… - Zeynal dil qəfəsə qoymurdu, - Nəsir müəllimin sağlığına içərik, tostu da mən deyərəm…

- Sən?!

- Yaxşı, papam desin…

- Papan?!

- Yaxşı, sən deyərsən, - Zeynal elə razılaşdı ki, guya mən deyən olmasaydı, bu iş pozula bilərdi, - tostu sən deyərsən, papamnan mən də əlavə eləyərik…

- Baxarıq, - dedim.

Tuğluları yaxşı tanıyanların hamısı bilir ki, onlara çörək vermə, ancaq söz ver; danışsınlar, ürəklərini boşaltsınlar. Çünki Tuğ camaatı dolu camaatdı və boşalmayanda özlərini çox pis hiss eləyirlər - əsl diskonfort…

Zeynal cibindən bir manatlıq çıxardıb stolun üstünə atdı. Pul elə əzilib yumrulanmışdı ki, elə bil it ağzından çıxıb - həm də kirli idi.

- Gedək, - dedi, - vaxtdı.

Biz qalxıb aşağı düşdük, taksiyə minib «Azərittifaq»a tərəf yollandıq…

…Bu yazdıqlarım, Nəsir İmanquliyevin ömür kitabında elədiyi yaxşılıqların heç bir abzası da deyildi, bəlkə də bir cümləsi idi. Buna inanın və mənim yazdığım, o qədər də kiçik olmayan bu yazını da bir cümlə hesab eləyin…

- Qəbriniz nurla dolsun, Nəsir müəllim!

Onsuz da Nəsir müəllimin qəbri nurla doluydu. Qəbiristanlığa qaranlıq çökəndə o qəbrin nuru ətrafı işıqlandırırdı. Ürəyimdən keçən başqa bir hissi də sizin nəzərinizə çatdırmaq istəyirəm. Həmişə bu barədə fikirləşəndə mənə elə gəlir ki, həyatda adamların hamısı əməli-saleh olmadığı kimi, qəbiristanlıqdakı bütün qəbirlər də nurla dolu ola bilməz. Bu, istəsək də belədi, istəməsək də - ancaq istəyərdik. Sözümün canı var: mənə elə gəlir ki, ildə bir dəfə Novruz bayramı axşamı Nəsir İmanquliyevin nurlu qəbri, qaranlıq qəbirlərə nur sovqatı göndərir - bayram payı; göndərir ki, onlar bayramı qaranlıqda keçirməsinlər. Bir az şairanə olsa da, mən buna möhkəm inanıram - şairlərə inanmayıb kimə inanacağam ki?.. Bu məqamda Nəriman Həsənzadənin siması bütün mükəmməlliyi ilə gözümün qabağında zühur elədi - şair simasını yadınıza salın, siz də inanın, inam yaxşı şeydi.

Bu yazının son cümləsi:

Nəsir müəllim bu gün nur payı göndərdiyi kimi, sağlığında da kasıb-kusuba bayram payı göndərərdi - payınız çox olsun, Nəsir müəllim!

## *Kənar adam*

Rauf Soltanı tanıdığım, tapdığım gün yadımda qalmayıb, heç itirdiyim günü də xatırlamıram. Görünür, bu o qədər də vacib deyil, əsas odur ki, tapmışam və itirmişəm. Yerdə qalanlar isə bu ikisinin arasındadı...

İndi isə yerdə qalanlar barədə...

Rauf Soltan məndən bir-iki yaş balaca idi. Saatlıda anadan olub, orta məktəbi rus dilində bitirib. Atası Soltan Saaltı rayonunun səhiyyə şöbəsinin

müdiri olub. Əslən Şəkidən olan anası isə sıravi həkim idi. Ailədə neçə uşaq olduqlarından xəbərim olmasa da, bilirdim ki, tək uşaq deyil. Hündür və sarışın idi. İri addımlarla yeriməyi xoşlayırdı ki, bu da ona xüsusi ləngər verirdi. Uzun saçlarını həmişə arxaya darayırdı. Mən ona deyəndə ki, saçlarını Mayakovski kimi darayırsan, gülürdü, başa düşmək olmurdu ki, bu bənzətmə xoşuna gəlir, yoxsa tərsinədi. Bir dəfə yarıciddi, yarızarafat ondan soruşdum:

- Rauf, Mayakovski ilə qohumluğun-zadın yoxdu ki?

Rişxəndlə gülüb dedi:

- Qəfil adamdan elə şey soruşursan ki, lap bişmiş toyuğun hırtıldamağı gəlir.

- Burda hırtıldamalı nə var ki?

- Niyə yoxdu? Var, - bir az əvvəlki gülüşünü təkrar elədi, - Mayakovski hara, Saatlı hara? Mayakovski ee, - rişxənd elədi, - bəs, sənin Yeseninlə qohumluğun var? - üzümə baxdı.

- Var, - dedim, - Yesenin mənim babamın birinci arvadının bacısı ilə iki ay nişanlı olub, sonra nişanı qaytarıb.

- Nə qədər boş-boş danışırsan sən... həvəs var ee səndə... - Rauf kimi dedi.

Mən də əl çəkməyib özüm kimi dedim.

- İnanmırsan?

- Əlbət ki, inanmıram!

- İstəyirsən gedək Axundov kitabxanasına, mən sənə sübut eliyim, - dedim, əl çəkmirdim.

- Həvəs var də səndə...

Bununla da Raufun Mayakovski, mənimsə Yeseninlə qohumluq əlaqələrimiz haqda söhbətə yekun vuruldu.

Rauf Soltanı, Azərbaycan Politexnik İnstitutunun hansı fakültəsininsə üçüncü kursundan mitilini atmışdılar bayıra - qovmuşdular. Əlbəttə ki, əlaçı olduğuna görə yox, ümumiyyətlə oxumadığına və dərsə getmədiyinə görə - bu, texniki məsələdi; əsas səbəb isə onun mərkəzi mətbuatda bir-birinin ardınca çap olunub ədəbi ictimaiyyətin diqqətini cəlb eliyən gözəl şeirləri oldu. O, qısa bir müddətdə tanınandan sonra poeziyanın ətəyindən yapışıb institutun daşını elə yerə atdı ki, özü də tapa bilmədi, heç axtarmadı da, deyəsən...

Mən "Ədəbiyyat və incəsənət" qəzetində işləyəndə - Zevin küçəsi, dörddə tez-tez yanıma gəlirdi. Hətta bu gəliş o qədər mütəmadi oldu ki, elə bil mənim yanıma yox, işə gəlib-gedirdi.

Bir dəfə ona dedim:

- Rauf, onsuz da gəlib-gedirsən, başqa yazılar da yaz, bir az pul qazan də...

- Heylə olar?

- Niyə olmur, - dedim.

- Qazanaq də... - yenə naməlum əsgərin qəbrinə oxşayan gülüş...

- Bax, elə indi get rus dramasına, burdan beş addımlıqdı. Orda "Komandorun addımları" adlı pyesin tamaşasını hazırlayırlar. Özün də rus məktəbini qurtarmısan. Qızğın məşqlər gedir, bir şey yaz gətir, çap eliyək, pulunu al də...

Durub getməyindən belə başa düşdüm ki, dediyim ağlına batıb. Səhəri gün yazını gətirdi, çap elədik, qonorarını aldı - on beş manat; yeddi kilo yarım donmuş ətin puluydu. Fikirləşdim ki, həvəslənər də, ancaq belə olmadı, bu, onun birinci - axırıncı işi oldu - bir də yazmadı, mən də məcbur eləmədim.

Rauf Soltan səliqə-sahman adamı deyildi, ancaq savadına, dünyagörüşünə, əxlaqına və paklığına söz ola bilməzdi. Özü də çox istiqanlı idi. Zahirən kirli görünsə də, daxilən çox şəffaf, təmiz idi, necə deyərlər,

sünbülündən su damırdı və əksəriyyət, bu damcıları görmürdü. Mən isə çox yaxın olduğumuza görə nəinki görürdüm, hətta bu damcıların səsini eşidirdim. Hərdən mənə deyən də olurdu ki:

- Nə tapmısan ee, bu Raufda?

Mən cavab verirdim:

- Mən Raufda heç nə tapmamışam, mən Raufun özünü tapmışam.

Bu sözdən sonra mübahisə eləyən olanda deyirdim:

- Get tullanmağının dalınca!

O da gedirdi; ancaq bilmirdim tullanmağa gedir, yoxsa başqa yerə.

Onun içində heç kəsə lazım olmayan bir ağayanalıq, bəyzadəlik vardı, gözü-könlü tox adam idi. Bu dünya adamı olmaqdan çox, məclis adamı idi, çünki dünyada darıxırdı, ancaq məclisdə yox; dünyada özünə yer tapa bilmirdi, ancaq məclisdə həmişə yeri vardı. Şəhərdə eyni məkanda gəzib-dolanırdı; Nizami heykəlinin yanında peyda olurdu, "Azərbaycan" kinoteatrının sol böyründən ötüb Dənizkənarı bulvara gedirdi, orda çox duruş gətirmirdi, beş-on dəqiqə ləngiyəndən sonra həmin marşrutla geri qayıdırdı. O qədər uzaq məsafə olmasa da, Natəvanın heykəlinin yanına çatanda artıq tək deyildi - yanında kimsə olurdu, tanışları çox idi. İlin heç bir fəslində başında papaq görən olmayıb. Onun əynindəki boz, keçmişi bahalı, qalın palto da Raufu tanıyan gündən yadımdadır. O qədər də nimdaş görünməyən bu paltonun içində Raufun özü də o qədər nimdaş görünmürdü, bəlkə də bir-birini tamamlayırdı. Əgər o, təzə-tər görünsəydi, paltonun yarımnimdaşlığı, palto təzə olsaydı, Raufun yarımnimdaşlığı adamın gözünə girərdi. Bu mənada, ikisi də bir-birinə oxşayırdı - oxşarların isə fərqi heç vaxt ortada olmur, bilinmir.

Onun cəmisi bir, ya iki kastyumu vardı - onlar da doğulduğu Muğan torpağı kimi bomboz idi və paltosu ilə yaşıd olardı. O, sizə məlum olan Rauf Soltan marşrutu ilə bozara-bozara gəzirdi. Bu yol zahirən oxşamasa da, mahiyyətcə dairəviydi, dairənin isə sonu olmur; milyon il bu yolu tapdasan da qurtaran deyil. Bax bu mənada göyərçin yumurtası boyda dairəvi yolu dünyanın ən uzağı, əlçatmazı, ünyetməzi hesab eləmək olar.

Rauf Soltan adamların qəlbinə dəymək barədə dünyanın ən bacarıqsız insanlarından biriydi. Yer üzündə o cür insanlar az olduğuna görə, əgər belə demək mümkündürsə, onlara "milli azlıq" da demək olardı. Həmişə dözürdü və günlərin bir günü, içində yığılanları adamın sifətinə çırpmağı da vardı. O, adətən boğaza yığılanda, içindəkilər ağzından töküləndə, yəni dolub-daşanda belə eləyirdi. Başqa çarəsi də yox idi: ürəyini boşaldırdı ki, təzədən yığmağa yeri olsun - bu cür şeyləri cibə yığmaq olmur, axı... çünki təyinatı başqadı...

Bir-iki dəfə onun yaşadığı evə getməyə cəhd eləsəm də nəticəsi olmayıb və mən də bu fikrimdən vaz keçmişəm. Hər halda o, bunu bəxtəvərlikdən eləmirdi, hətta mənə elə gəlirdi ki, nədənsə utanır, narahat olur...

Onun gözündəki kədər dupduru olsa da, dibi görünmürdü - dibsiz dərə deyilirsə, dibsiz kədər də deyə bilərik. O, gözündəki kədərlə o qədər doğmalaşmışdı ki, bəlkə də onsuz ölərdi. Görmə qabiliyyəti son dərəcə zəif olan adamlar yerindən eynəksiz tərpənə bilmədiyi kimi, Rauf Soltan da doğmalaşdığı kədərini eynək kimi çıxarsaydı, daha doğrusu, çıxara bilsəydi, bir addım da ata bilməzdi. Bunu duymaq çox ağırdı; baxmayaraq ki, bu kədər zahirən bir cüt gilənar kimi görünürdü...

Bir gün ikilikdə möhkəm və məhrəm bir söhbətimiz oldu. Mən çox istəyirdim ki, o, həyatını dəyişsin - özü dəyişsin, çünki özündən başqa heç kəsin Rauf Soltana gücü çatmazdı. Mənə xeyli vəd verdi və bu vədin içində iynənin ulduzu boyda ümid də görmüşdüm. İndi bu ümidi böyütmək qalırdı - heç olmasa, gilənar boyda olsun. Və mənə verdiyi iynənin ulduzu boyda ümid də, Allahdan olan kimi böyüyürdü; hələlik onu gözlə görmək mümkün deyildi,

ancaq duymaq olurdu. Gözlə görmək üçünsə çox həssas bir mikroskop lazım idi. Bütün bunlara baxmayaraq, ona inandım. İnanmaq məsələsində mənim istəyimin rolu daha böyük idi, nəinki onun; Rauf Soltana qalsaydı çətin ki...

Doxsan doqquz faiz Allaha, bir faiz də Rauf Soltana arxayın olub Bakı-Moskva təyyarəsinə mindim. Onun beş-on şerini də özümlə götürmüşdüm - rus dilinə sətri tərcümələr idi, özü eləmişdi. İl yadımda qalmasa da, o vaxtlar idi ki, Moskvadakı Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun rektoru Yevgeni Sidorov idi. O, sonralar müstəqillik dövründə Rusiya Federasiyasının mədəniyyət naziri də işlədi. Onunla münasibətimiz çox yaxşı idi, hətta bəzi məsələlərdə açıq-saçıq söhbətimiz də olurdu. Sidorov məni Moskva soyuqluğundan uzaq bir istiqanlılıqla qarşıladı və bu, gözlənilməz deyildi. Ümumiyyətlə, Moskvadakı ziyalı həmkarlarımız bizi görəndə sevinirdilər. Bu sevincin kökündə iki məsələ dayanırdı. Birincisi: pak, təmənnasız dostluq; ikincisi: Mərkəzi Ədiblər Evinin məşhur restoranı. Sidorovla münasibətimiz birinciyə aid olsa da, ikincisiz də keçinmirdik, bizə belə xoş idi.

O, Raufun şeirlərini oxuyandan sonra dedi:

- On je velikiy poet! - üzümə baxıb gülümsədi, - naverno on je velikiy durak.

- Tak toçno, tovariş general, - dedim.

Sidorov şeirləri oxumamışdan ona Rauf haqqında ətraflı demişdim. Ona görə də onun yuxarıda dediyini qəribçiliyə salmayın.

Hələ Bakıda Raufla belə qərara gəlmişdik ki, o, qiyabi şöbədə oxuyacaq. Məlumatı olmayanlara deyim ki, bu instituta qəbul olmaq üçün birinci yaradıcılıq müsabiqəsindən keçirsən, sonra da, səhv eləmirəmsə, diktant yazırsan, vəssalam. Burda qardaş respublikalardan, o cümlədən, dünyanın müxtəlif ölkələrindən gəlib təhsil alırdılar. Yəni, əgər babat balıqsansa, bu dəryada böyüyə bilərsən. SSRİ-nin paytaxtı Moskva idisə, müxtəlif dildən-dindən olan on mindən artıq sovet şair-yazıçısının paytaxtı elə Moskvadakı Mərkəzi Ədiblər Evinin restoranı idi. Orda sovet ədəbiyyatının istənilən ölçüdəki korifeylərinə, nəhənglərinə rast gələ bilərdin. Bu restorana ancaq SSRİ Yazıçılar İttifaqının üzvlərini və onlarla birgə gələn qonaqları buraxırdılar. Bura məşhur aktyorlar, müğənnilər və s. də gəlirdi, və yuxarıda dediyim kimi, hansı bir yazıçının, şairinsə qonağı qismində. Burda tanışlıq keçmirdi, istəyirsən lap ordu generalı ol; ancaq bizim üzvlük vəsiqəmiz keçirdi, bu da bizə çox ləzzət verirdi və özümüzü ordu generalından da üstün hesab eliyirdik.

Moskvaya gəlməmişdən qabaq Raufla onun əsas problemi - ailə məsələsi ilə bağlı da ciddi söhbətimiz olmuşdu. Xeyli çənə döyəndən sonra konkret bir qərara da gəlmişdik. Qadın yazıçılarımızdan birinin layihə institutunda işləyən uzaq bir qohumu vardı. Hər cəhətdən Raufa uyğun gəlirdi, savadlı və müasir qadın idi. Hətta ora qədər maraqlanmışdım ki, o qadın Raufdan uşaq doğa bilər, yoxsa yox: cavab müsbət idi. Raufdan da cəmisi ay yarım böyük idi. Beşmərtəbə tərəfdəki ikiotaqlı mənzilində tək yaşayırdı və demək olardı ki, heç kəsi yox idi. Bir gün dördümüz də mənim maşınıma minib Saray kəndindəki restorana getdik. Səmimi söhbətimiz oldu. Bir-birlərini bəyənmişdilər. Qərara gəldik ki, Raufun qəbul imtahanından çıxmağını gözləyək, sonra da təxminən səksən-yüz nəfərlik bir məclis eliyib bu işi xətm eliyək. Qadın yazıçı ordaca söz verdi ki, Rauf instituta girən kimi onu "Gənclik" nəşriyyatında işə də düzəldəcək - redaktor. İkilikdə isə onunla belə bir gizli sövdələşmə olmuşdu: Rauf özü kimi istəsə, mən isə bütün qohumlarımı və ərkim keçən dostlarımın hamısını yığıram, ona sadə bir toy eliyirik, toydan qalan pulların da hamısını veririk təzə bəyə ki, ailə həyatına başlayanda ürəkli olsun - mayalansın. Sonra da baş-başa verib dolanarlar. İdeya müəllifi özüm olduğuma görə demirəm, Raufun vəziyyətində bu, ən gözəl variant idi; ali ədəbiyyat təhsili, həyat yoldaşı, mənzil, iş, yaşamaq, yaratmaq. Yerdə nə qalır ki? Hə, bir də Raufu

Nizami heykəlindən başlayan o dairəvi marşrutundan uzaqlaşdırmaq - araq iyi verən bu marşrutun hər addımında yüz qramlıq təhlükə gizlənirdi... Və bu yüz qramlıq təhlükə növbəti addımların birində onun ayağının altında mina kimi partlayıb hər şeyi məhv edə bilərdi.

Raufla çox yeyib-içmişik. Uzun illər davam eliyən bu məclislərdə onu bir dəfə də sərxoş görməmişəm, həmişə ağlı başında, təmkini yerində, səmimiyyəti göz qabağında olub. İçki dilinə dəyməyən günlərdə nə qədər söhbətcil idisə, içəndə də elə o qədər, yəni qədərində danışardı. Qadınlara biganə deyildi, qırx arşin quyunun dibində olsaydı, yenə gözəllik onun nəzərindən yayına bilməzdi, oğrun, ismətli baxışları ilə bu gözəlliyi qarşılayıb ləyaqətlə də yola salandan sonra üzünə qonan təbəssümlə, elə bil ki, yaradana minnətdarlıq eləyib səbbini almaq üçün, yalnız özünün eşidə biləcəyi iki kəlməni pıçıldayırdı:

- Şükür Allaha!

Hiss eliyirdim ki, onun, gözəlliklə əvvəlcədən danışılmamış qəfil, gözlənilməz qarşılaşmasından sonra halı dəyişirdi, əgər kişi xeylağı haqqında belə demək mümkündürsə, özü də gözəlliyə qovuşub sərxoş olurdu. Bax, onun belə sərxoş olduğunun dəfələrlə şahidi olmuşam. Bu vəziyyətdə o, uzun müddət susurdu. Raufun gözəlliyə münasibəti belə idi. Ancaq mənim uşaqlıq dostum, "Qaçaqaç" romanımda sizlərlə yaxından tanış elədiyim, illər fərqinə baxmayaraq Raufu mənim qədər çox istəyən Zeynal isə şəhərdə gəzdiyimiz yerdə gözəl qadın görəndə deyərdi:

- Off! Nə qəşəng şeydi ee!

Təbii ki, Zeynal bu sözləri yalnız özünün, Raufun və mənim eşidə biləcəyim səslə dilinə gətirərdi. Mənə elə gəlirdi ki, Zeynal gözəl qadına münasibətini belə emosional səviyyədə ifadə etməsəydi, səbbi alınmazdı.

Zeynalın gözəlliyə belə qiymət verdiyini eşidəndə Rauf hər dəfə dilinə gətirə biləcəyi bircə kəlməni yuya biləcək bir ərklə ona deyirdi:

- Nadansan...

- Nadan niyə oluram əə, şair? - Zeynal sözün altından çıxmaq istəyirdi.

- Gözəlliyə belə qiymət vermək olmaz... - Rauf rişxəndlə gülümsəyirdi.

- Niyə ee? - Zeynal əl çəkmirdi.

- Ona görə ki, gözəl qadın, bütün gözəlliklərin ən gözəli, ən dirisidi.

- Noolsun ki?.. - Zeynal arxasını yerə vurmaq istəmirdi.

- Ay nadan, - ərk yenə böyük idi, - o olsun ki, gözəlliyə gərək gözəl yanaşasan... gözəlliyə gözəl yanaşmayanda gözəllik ürkür... ürkütmək olmaz.

- Ürksün dana... noolar ki? - Zeynal soruşdu.

- Gözəllik ürkəndə zədələnir...

- Düz deyirsən, qardaş. - Zeynal razılaşıb onun üzündən öpsə də, bu adətini tərgitmirdi, yenə oxşar vəziyyətdə özünü özü kimi aparırdı, bəzi vaxtlarda isə bir az da irəli gedirdi, "of" sözündəki "f" hərflərinin sayını istədiyi qədər çoxaldırdı. Rauf da özünü özü kimi aparırdı, adətini tərgitmirdi:

- Nadansan... - deyirdi.

Mənə isə hər ikisinin fikrinə hörmətlə yanaşmaq qalırdı və payıma da qane olurdum.

Üçümüz bir yerdə tez-tez olurduq və it əl-ayağı yemiş kimi şəhərin küçələrini ölçməkdən yorulmurduq. Pulumuz olanda restoranda otururduq, olmayanda ya bizə, ya da Zeynalgilə gedirdik, Raufgilə "xodumuz" yox idi - daha doğrusu, "Raufgil" deyilən anlayışın özü yox idi; goru var idi ki, kəfəni də ola?..

Üçümüzdən birimiz olmayanda məclisimiz suyu sovrulmuş dəyirmandı və bir az da hündür, enlikürək, qoluzorlu, ancaq ayağının biri o birindən gödək çolaq bir kişiyə oxşayırdı. Bərkə, düşsə, üçümüzə sacayaq da demək olardı ki,

ayağının biri olmayanda dik dura bilmirdi, yıxılıb böyrü üstə qalırdı. Biz də hamı kimi yıxılmaq istəmirdik... özü də böyrü üstə. Belə bir qarğış da var:

- Səni görüm elə bir böyrü üstdə qalasan!

İnsan da bir böyrü üstündən o biri böyrü üstünə sevrilə bilmirsə, kimə lazımdı ki? Allaha ağır getsə də, iynədən-zaddan vurdurun ağrısı kəssin, ya da ki...

Bir balaca Raufun, Zeynalın və Seyranın münasibətlərinin dərinliyinə baş vurduq, əgər nəfəsiniz tıncıqdısa, qalxaq üzə.

Yenə o ev idi, yenə üçümüz... Zeynalgildə ayrıca otaqda əyləşmişdik. Stolumuzun təkcə bir küncü üçümüzün cibindən zəngin idi. Zeynalın anası Mehriban xanım heç vaxt bizi öz balalarından seçməyib; hətta ifrata varıb deyə bilərəm ki, bəzən bizi dəyişik salırdı - bu, yalnız ayrı-seçkilik olmayanda belə olur, yoxsa analar övladlarını gözübağlı, qoxusundan tanıyırlar...

Zeynal Tuğlu şakəri ilə qaçana-tutana macal vermirdi, bütün tostları özü deyirdi. Əslində nə Raufun, nə də mənim tost deməyə həvəsimiz yox idi; hərdən bizə elə gəlirdi ki, bütün tostları deyib qurtarmışıq - bu da, elə günlərdən biri idi. Bizim bu ovqatda olmağımız isə Zeynala sərf eləyirdi, ona böyük meydan verilmişdi, o da böyük şövqlə burda at oynadırdı. Mən onun qədər tost demək həvəsini bütün ömrüm boyu heç yerdə görmədim, deyəsən, o, tosta şifahi xalq ədəbiyyatının bir qolu kimi yanaşır, onu daha da inkişaf elətdirmək istəyirdi və sizə deyim ki, bəzi hallarda buna nail də olurdu.

Dostluq haqqında dediyi tostun axırını belə yekunlaşdırırdı:

- Nə atom bombası, nə hidrogen bombasını böyük bir kəşf hesab eləmirəm.
- Bəşəriyyətin ən böyük kəşfi dostluqdur.

Hansı mənadasa, Zeynalın bu sözlərini Azərbaycan folklorunu zənginləşdirən bir töhfə kimi qəbul etsək, o, özünü çox xoşbəxt hesab eliyərdi.

Məclisin qaymaqlayan vaxtı idi. Çöldə-bayırda oturanda əksər halda Zeynal Raufa qarmaq atırdı, düşdü məzələnirdi, düşməyəndə isə reallıqla barışıb başqa məqam gözləyirdi. Bu dəfə Zeynal ilk dəfə öz evlərində ona ilişən kimi Rauf ehtiyatsızlıqdan onun qarmağına keçdi. Zeynal uzun illərin təcrübəsindən keçib cilalanmış Qarabağ stilində bu Muğanlı balası ilə onun dözəcəyi yerə qədər məzə qılandan sonra, qarmağı onun xirtdəyindən çıxarıb atdı dəryaya ki, Rauf bilməsə də, xaliq biləcək. Rauf özü də bizə qoşulub gözləri yaşarana qədər güldü. Ancaq Zeynalın ürəyi bununla da soyumadı, dedi:

- Rauf, sənin bir şeirin var ee: "Xəlvətcə bir gülün öpdüm üzündən, bülbüllər eşitsə qırğın düşəcək..."

Şeirlə bağlı söhbət Raufun ən yaralı yeri olduğuna görə məclisimizin ruhuna uyğun gəlməyən ciddi bir görkəm aldı, dedi:

- Hə, var.... noolsun ki?
- Onu dərindən başa düşməmişəm, nə deməkdi?
- Nəyi başa düşməmisən?
- Mənasını... - Zeynal bərk durmuşdu.
- "Xəlvətcə bir gülün öpdüm üzündən, bülbüllər eşitsə qırğın düşəcək..." Mənası elə budu.
- Yenə başa düşmədim, - Zeynal dedi.
- Nadansan də... nəyi başa düşmədin?
- Yaxşıdı ee... gül də qəşəngdi, bülbül də... ancaq məni oxucu kimi bir şey maraqlandırır ki, gülün üzündən öpürsən, yaxşı eliyirsən... ancaq de görüm, niyə xəlvətcə öpürsən? Kişiliyin çatmır, basmarlayasan, yoxsa kimnənsə qorxursan?

Rauf mənə baxıb başını bulayandan sonra Zeynala işarə eləyib dedi:

- Nadandı də...

İşə qarışmalı oldum:

- Zeynal...

Rauf sözümü kəsdi:

- Zeynal yox, nadan.

- Bəlkə, heç mənim onu elə çağırmağıma razı deyil, - dedim.

- Razılaşın də... - Rauf dedi.

- Zeynal müəllim, mənim sizə nadan deyə müraciət etməyimə etirazınız varmı?

- Sözünü de...

- Ay nadan, - dedim, - məsələ belədi, klassik ədəbiyyatımızda gül bülbülün məşuqəsi kimi qəbul olunub - yəni gülün yiyəsi var, sənin dilində desək, gülün əri var, dul deyil. İndi özün o para beynini işə sal; Rauf ona görə gülün üzündən xəlvətcə öpür ki, görüb-eliyən olmasın, yoxsa qan düşər, axı, bu, namus məsələsidi... Belə şeylərin üstündə tutub adamın...

- Ağzın cırallar? - Zeynal sözümü kəsib soruşdu.

- Yoox, bir az da pis... - dedim.

- Həəə... - Zeynal gözlərini döyə-döyə süni bir "fikrəgetmə" mərasiminə qoşulub axdı, - indi başa düşdüm, Rauf düz fikirləşib; belə şeylərə görə tutub adamı... sən ürəyində tutduğun kimi eliyərlər.

- Nadan, - Rauf istehza ilə dedi.

- Təşəkkür eliyirəm, şair... - Zeynal onu cavabsız qoymadı.

Zeynal araq süzüb növbəti tostu demək istəyəndə, onun hələ dilinə gətirmədiyi sözünü bəri başdan kəsdim:

- Zeynal, sən nənəyin goru, qoy bir söz deyim.

- Tost? - üzümə baxdı, əlindəki arağı yerə qoydu.

- Yox, başqa şey deyirəm. Gör Rauf nə gözəl deyib ee...

*Ay nazənin qızlar, ay gözəl qızlar,*
*Siz bu oğlanların həyatısınız.*
*İkiniz bir yerdə Füzuli beyti,*
*Dördünüz bir yerdə bayatısınız.*

- Əladan əla! - Zeynal vəcdə gəldi, - o veriliş var ee, "Klassik irsimizdən" - lap ona oxşayır. Ancaq burda da müəyyən boşluqlar var, var...

Rauf cavab vermək istəyirdi ki, mən onu qabaqladım:

- Nə boşluq var əə, burda? - Səsimi az-maz qaldırdım da, - nə boşluqdu o heylə? - dedim.

- Sizin heç biriniz onu mənim kimi duya bilməzsiniz, siz ancaq yaza bilirsiniz. Qulaq asın, ağlınıza batacaq, - bəri başdan boynumuza qoyurdu.

- Yaxşı, de görək, - dilləndim.

- Bax, - üzünü mənə tutub Raufu göstərdi, - bu gədə yazır ki, "Ay nazənin qızlar, ay gözəl qızlar, siz bu oğlanların həyatısınız". Burda neçə oğlandı, neçə qız? Gərək sayını göstərəydi - bəlkə heç oğlanların sayıynan qızlarınkı düz gəlmiyəcək, bu, birinci boşluq...

- Nadandı də, - Rauf dilləndi.

- Rauf, sən qulaq as, - mən dedim, - hə, davam elə.

Zeynal Raufun dediyini saya salmadı:

- Hə... - dedi, - sonra deyir ki, "İkiniz bir yerdə Füzuli beyti" - bu yaxşıdı... bəs üçü bir yerdə nədi? Onu yazmayıb - bu da boşluqdu. Axırda da deyir ki, "Dördünüz bir yerdə bayatısınız". Bu da yaxşıdı. Onda haqlı olaraq sual olunur: bəs, beşi bir yerdə nədi? Yaxşı, bunlar boşluq deyilsə, bəs nədi? Şair bu kupletin üstündə hələ çox işləməlidi. İndi qandınız? - Növbə ilə ikimizin də üzünə baxsa da, birimiz cavab verdik:

- Nadandı də... - Rauf öz həmişəki yerində idi.

- Yaxşı, Zeynal, Raufun yaradıcılığında mükəmməl bir şeir yoxdu? - soruşdum.
- Yox, - dedi, - mükəmməl şeir yox, ancaq mükəmməl iki misra tapmışam.
- O hansıdı? - soruşdum.
- Ermənilər Şuşanı alanda bir şeir yazmışdı ee, axırda deyir ki, "Kaş elə Məhəmməd Qacar alaydı, İlahi gör kimlər aldı Şuşanı?!" Bu iki misra mükəmməlvaridi...
- Nadandı də... - Yenə Rauf.
- Zeynal, - dedim. Onun evlərində bizim üçün açdığı süfrəni nəzərdən keçirdim, - de görüm, mən əliaçıq oğlanam?
- Əliaçıq olmağına əliaçıqsan, - dedi, - ancaq ovcunda bir şey yoxdu...
- Bəs Rauf?

O sağ əlini Raufun çiyninə qoyub özünə tərəf çəkdi, üzündən maç eləyib dedi:

- Pul barədə Rauf müharibədə iki qolunu da itirmiş naməlum əsgərə oxşayır; qolları olmayanın əlinin açıq olub-olmaması barədə heç nə deyə bilmərəm - mən vicdanlı adamam! - Üzümə baxdı, - bəlkə, sən bu düşük-düşük suallarından əl çəkəsən? İmkanın var?
- Var, - dedim.
- Bilirəm də, sən imkanlı adamsan, - istehza ilə dedi və badəsini götürüb çox uzun bir tost dedi, ixtizavrlardan, dinazavrlardan başlayıb Rauf Soltanda qurtardı:
- Rauf Soltan əsl şairdi! Rauf hamımızın əzizidi, mənim də qardaşımdı.
- Bəs mənim nəyimdi? - dilimi saxlamadım.
- Sənin də bajındı.

Qəhqəhələrimiz dalğalanıb o biri otaqlara yayıldı.

Rauf dedi:

- Nadandı də...

Bu dəfə mən Zeynalın təəssübkeşi kimi işə qarışdım:

- Rauf, niyə heylə deyirsən?
- Görmürsən bunu? Başıma qapaz vurub, ətəyimə qoz tökür? - Rauf üzümə baxıb güldü.
- Saatlıda qoz bitmir ki? - Zeynal soruşdu.
- Yox, - Rauf qısaca dedi.
- Qoz... yaxşı şeydi, əlinə düşsə ye, bala...
- Saatlıda qoz bitmir! Saatlıda Rauf Soltan bitir, - bunu da mən dedim, şair məmnun oldu.

Biz üçlük bir-birimizdən incimirdik. Məclislərimiz də həmişə bu səpgidə keçirdi. Sözümüz bir-birimizin boğazından yüz qram araq kimi çox rahat keçirdi - bundan sonra inciməyə yer qalmır axı... Hətta bir dəfə Zeynal yarızarafat, yarıciddi belə bil söz də demişdi:

- Bizim bu üçlüyümüz Cabbar Qaryağdı üçlüyü kimi bir şeydi - noolsun ki, çalıb-oxumuruq, biz elədiklərimizi də onlar eliyə bilməz.

O vaxt mən, musiqiçilərin dili ilə desək, Zeynala ayaq verib ondan soruşdum:

- Yəqin ki, Cabbar Qaryağdı sən olarsan də?..
- Buna şübhən var ki? - O, üzümə baxdı, - bəli, Tuğlu Məşədi Həmzə bəyin nəvəsi Zeynal, - əlini qabağa verdiyi sinəsinə çırpdı, - Cabbar Qaryağdı, sən tarçalan, - sonra da çönüb Raufa istehza dolu bir təbəssümlə nəzər saldı, - bu, da kamança - Saşa Oqanazeşvili, - dedi, - Rauf, Saatlıda kamançaçalan olub heeç?

Rauf da onun bu sözünü ciddi qəbul etmədən, qeyri-təyinatı üzrə cavab verdi:

- Nadandı də...

Bax, belə...

Rauf o sözü çox işlədirdi - nadan da çox idi, axı... Özü də burda söhbət Zeynal kimisindən getmir ha, o, könüllü nadan idi, qəsdən özünü elə aparırdı ki, Raufdan o sözü eşitsin. Səbəbini mən duysam da, özü daha dəqiq bilirdi. Bəlkə, buna, dünyanı yola vermək kimi də baxmaq olardı...

* * *

Bakı meşələr qoynunda yerləşməsə də, yayın istisi maşınların səsinə, tüstüsünə qarışıb cırcırama kimi zümzümə eləyirdi. Xüsusilə günün duran vaxtı bu zümzümə daha aydın eşidilirdi. Bu "nəğməyə" qulaq asmağa məhkum olunmuş şəhəri qan-tər yuyub aparırdı...

Uşaqlarım rayonda, atamgildə idi. Vaqif əmilərinin Köndələnçay vadisindəki qədim dəyirmanın yanında tüstülənən kababxanasında yeyib-içir, ördək balaları kimi sudan çıxmaq bilmirdilər. Ailəm rayonda olanda çox arxayın olurdum. Necə ki, doğulduğum Füzuli rayonu, külli-Qarabağ yerində olanda, Bakıda arxayın-arxayın gəzirdim...

Bu gün Rauf Soltan işin axırında yanıma gəldi. Gözümə birtəhər dəyirdi.:

- Neyliyək? - dedi.
- Gedək bizə.
- Yox...
- Niyə? - soruşdum.
- Utanıram, - dedi, - gündə-günaşırı...
- Əvvəla, - dedim, - qələt eliyirsən utanırsan... ora sənin öz evindi...
- Yox, yox, - sözümü kəsdi, - üzüm gəlmir.
- Əvvəlanı dedim, qoy dalını da deyim də...
- Yaxşı, de, - könülsüz, yorğun-yorğun üzümə baxdı.

Mən yenə əvvəldən başladım:

- Əvvəla... dedim də bayaq... ikincisi də evdə təkəm.
- Onda gedək, - Rauf tələsik dedi, - bəs uşaqlar hardadı?
- Rayona gediblər, istirahət eliyirlər... Sabirabada...

O, qəhqəhə çəkib güldü:

- Yox, - dedi, - yəqin, Füzulidədilər.
- Əlbət ki, Füzulidədilər, uşaqlarımdan bezməmişəm ki...

Redaksiyadan çıxıb maşınıma oturanda Rauf dedi:

- Bir şey götürək?
- Nə? - Özümü qanmazlığa vurdum.
- Araqdan-zaddan də... - dedi.
- Hə... Araqdan-zaddan... başa düşdüm...
- Mən ala bilərəm, - Rauf üzümə baxdı.
- Sağ ol, - dedim, - evdə hər şey var.
- Yolüstü Zeynalı da götürək də, - Rauf təklif elədi.
- Olmaz, - dedim.
- Niyə?
- Zəhləm gedir onnan... son vaxtlar çox yekə-yekə danışır ee...
- Nə danışır ki? - Rauf təəccübləndi.
- Nə danışırsa, başının "razmerindən" böyük danışır, - əlimi yüngülvari sükana çırpdım, - bəsdi də, nə qədər olar ee...
- Rauf yarı inandı, yarı yox. Mən bunu açıq-aşkar onun sir-sifətindən oxudum. Zeynalgilin evinin yanına qədər susdu, ora çatan kimi dedi:
- Bəlkə, onu amnistiyaya salasan, - Rauf ümidlə üzümə baxdı.
- Mümkün deyil!

- Axı, niyə ee, onsuz nə ləzzəti?
- Ona görə ki, Zeynalın atası Daşkəsəndə yoxlamadadı.
- Bunun məsələyə nə dəxli var ki? - Rauf soruşdu.
- O dəxli var ki, Zeynala zəng eliyib deyib ki, dur gəl bura... Zeynal, - qeyri-iradi saatıma baxdım, - indi dədəsi ilə Daşkəsəndə oturub bulaq başında, dədə-bala bir-birinə tost deyillər, bildin?
- Bildim ee... ancaq bunu əvvəldən adam kimi demək olmazdı?
- Olardı...
- Bəs, niyə ürəyimi qırırsan?
- Adam elə hər kəlməbaşı da adam olmaq istəmir də... adam olmaqdan istirahət eləmək lazımdı hərdən-birdən. Rauf, Rauf, düş burdan bir təndir çörəyi al. - Maşını saxladım.
- Limonad da alım?
- Yox, evdə var...
- Pivə nə təhər?
- Var... tez ol... ancaq çörək...

Rauf "Azərbaycan" qəzetinin arasına qoyulmuş uzunsov qaynar təndir çörəyini arxa oturacağa qoyub yanımda əyləşdi.

Maşından düşəndə dedim:
- Çörəyi götür də... Ömründə bir dəfə də sən bizə əlidolu...

Rauf mənim də, Zeynalın da ona bu cür ilişməyimizə çoxdan öyrəşmişdi; imanım Allah amanatı, bəlkə də ilişməyəndə darıxıb bunu bizim bir soyuqluğumuz kimi qəbul eləyirdi. Biz də, hər dəfə, belə məqamdan sonra onun məhz hansı təbəssümlə cavab verəcəyini əzbərləmişdik...
- İçəridə oturaq, yoxsa balkonda? - Soruşdum, - kondisioneri də yandırım...
- Yox, balkon yaxşıdı... - dedi.
- İsti olmaz ki?
- Yox, yox, kölgədi də, gün gedib, - dedi.
- Sənə nə var ee, - dedim, - isti ölkələrdə böyümüş adamsan, Saatlı, Sabirabad, ətrafınız da ki, İmişli, Kürdəmir, Hacıqabul... Hayıf deyil biz tərəflər...

Eyvanımızın uzunluğu on iki metr idi. Evdə nə vardısa, hərəsindən bir az eyvandakı stolun üstünə düzdüm, süfrə də salmışdım. Mənim şeyləri içəridən daşımağım yarım saata qədər vaxtımızı götürüb naməlum səmtə apardı. Stola nəzər salıb əlimdəki bir cüt büllur fujeri yerbəyer eliyə-eliyə dedim:
- Ehtiyatlı ol ha... arvadın cehizidi...
- Qorxma, - dedi, - ayrı vaxtı bizi bəyənmirsən... Muğanlı qızının cehizinə bax ee... Sabirabadlı balasıdı də...
- Elə boşqabları da o gətirib, "Madonna"dı... Evdə olmayanda çıxardıb işlədirəm, - dedim.
- Ay vicdansız, niyə elə deyirsən? Elə mən hər dəfə sizə gələndə Almaz bacı bu qablarda bizə yemək verməyib?

Mən stola bir də nəzər salıb dedim:
- Nə çatmır?

Stolda yüz dənə çatışmayan şey də ola bilərdi, məsələn duz, əl dəsmalı, - ancaq Rauf dedi:
- Araq.
- Vay! - İki əlimlə başımı tutdum.
- Noolub?
- Gərək bayaqdan arağı xaladennikə qoyaydıq, qaynardı, - dedim.

Rauf tez-tələsik belə bir səmərələşdirici təklif verdi:
- Tez suyun altında islat, qoy marazilkaya.
- Eliyim də... - deyib içəri keçdim, qayıdıb əlimdəki arağı ona uzatdım, - gör nə təhərdi?

Araq buz kimi idi, özü də tərləmişdi. Rauf dedi:

- Sən dəhşətsən də...

- Dəhşət mən deyiləm ee, sənsən... iyirmi ildi bir yerdəyik, mənim stilimə alışmırsan də... Heç vaxt da öyrəşə bilməyəzsən...

- Niyə ki?

- Çünki sən Muğan stilindəsən, mən Qarabağ... Başqa-başqa şeylərdi, - dedim.

- Bu, necə olur ki? - Rauf cidd-cəhdlə soruşdu.

- Sənə deyim də... Hesab elə ki, Qarabağ stili ingilis dilindədi, Muğan stili özbək dilində...

Rauf güldü getdi özündən. Mən də ona mane olmadım, əksinə, susmağımla şərait yaratdım ki, doyunca gülsün, əvvəl-axır toxtayacaqdı də... Gendən ona baxanda elə xoşbəxt görünürdü ki, heç olmayan kimi...

Gözlədiyim kimi o, toxtadı, bir suiçim saat susdu, bayaqkı Raufdan əsər-əlamət qalmayanda dedi:

- Seyran, sənnən işim var, - dedi, - vacib, yanına da ona görə gəlmişdim.

- Eşidirəm, - dedim, - qardaşın sənin qulluğunda hazırdı.

- Ancaq bəri başdan bir xahişim var, - üzümə baxdı, mənə tanış gələn kədər az qalırdı onun gözlərinin bir cüt qarasını bir cüt gözmuncuğu kimi partlatsın.

- Buyur, buyur, - dedim.

Mən də özümü yığışdırmışdım, ancaq ağlıma heç nə gəlmirdi, elə bil beynim kütləşmişdi.

- Bir xahişim var, - Rauf gözlərindəki bir cüt kədəri qaldırıb dedi. - Xahiş eliyirəm axıra qədər sözümü kəsmə, qulaq as, sonra nə istəyirsən, deyərsən.

Razılaşdıq. Hələ süfrəyə əl vurmamışdıq.

- Qısaca deyim, yoxsa...

- Ürəyin necə istəyirsə, - dedim və fikirləşib tapmaq istəyirdim ki, birdən-birə buna nə oldu. Sən demə, birdən-birə deyilmiş... uzun illərin yığıntısı...

- Ürəyim qurban sənə, - dedim, - necə kefindi, elə də de... - ancaq başqa vaxt, başqa ovqat olsaydı, deyərdim ki, qısa elə... Yemək soyuyur, araq qızır, əl vurmamışıq... Ancaq bu vəziyyətdə ona qıymadım və ölsəm də qıymazdım.

Rauf bir siqaret yandırıb dalbadal qullablayandan sonra dedi:

- Seyran, mən Moskvaya getməyəcəm, evlənməyəcəm də...

Səbəbini soruşmadım. Onu da demədim ki, Moskvaya gedib o boyda kişiyə ağız açmışam, qadın yazıçımızla məsləhət eləmişik, dördümüz bir yerdə Saray kəndinin restoranında əyləşib qərara gəlmişik, toy barədə ikimizin gizli sövdələşməmiz var - nəsə ehtiyac duymadım.

- Seyran, mənim heç kimim yoxdu...

Mən sözümün üstündə durmadım, daha doğrusu, bu məqamda dura bilmədim, susmağı bacarmadım:

- Elə demə, - dedim, - qardaşların var rayonda, Zeynal var, mən varam, sən özün varsan.

- Qardaşlarım da, Zeynal da, sən də çox azsınız, çox... Özüm də azam... Heç özüm də özümün deyiləm. Ağlım kəsənnən həmişə özümə çox uzaqdan baxmışam, yad bir adam kimi... Ən yaxşı halda, özümə adını yadıma sala bilmədiyim köhnə bir tanışım kimi baxmışam, aralıdan... Həmişə istəsəm də, heç vaxt özümlə üzbəüz gəlməmişəm... özümə həsrətəm... bu həsrətdən ürəyim qubar bağlayıb... O bağlını Allah da aça bilməz... istəməz. Özüm istəməyəndən sonra Allah niyə istəməlidi ki?.. Məni Allah da istəmir. Allah istədiklərinə nə isə eləmək istəyər. Mən çoxdan tükənmişəm, yavaş-yavaş, damla-damla. Son damlam yadıma da gəlmir. Nə vaxt düşdü, harda düşdü?

Mən sevilmək üçün yox, sevmək üçün var olmuşam. Həm sevmək, həm sevilmək heç kəsin qisməti deyil. Həmişə ikisindən biri olur. Ya da, heç birisi olmur. Nə sevirsən, nə də səni sevən var. Bu, dünyanın duyulan, görünən cəhənnəmidi. Səni sevirlərsə, öyrəşirsən ki, hamı səni sevməlidi! Sən sevirsənsə, öyrəşirlər ki, sən hamını sevməlisən. Burda heç vaxt bərabərlik, ədalət olmur. Bu, insanın xislətindən qopub gələn bir qarşısıalınmazdır. İnsanı sevib qarşılığını görməyənlər qurbandı - müqəddəsdi. Buna o qədər inanıram ki, elə bilirəm öləndə onları Şəhidlər Xiyabanında dəfn eləmək olar. Mən tükənmişəm, Sizlər, hamınız azsınız, azalırsınız. Boş bidon kimi danqıldayıram. Siz azlar məni heç nə ilə doldura bilməzsiniz. İçim qupqurudu, cadar-cadardı. Siz bunu eləməyin, özünüz də azsınız, tükənərsiniz...

O, susurdu və susmağı daha ağır və vahiməli idi. Məni də özünə qoşmuşdu. Hamının dilli-dilavər adam kimi tanıdığı Seyranın da boğazı Rauf Soltanın içi kimi qupquru quruyub, cadar-cadar olmuşdu. Azərbaycan dilində nə qədər söz vardısa, biri də yadıma düşmürdü. Mübaliğə hesab etməsəydim, deyərdim ki, on ilə bərabər on dəqiqə yaşadım - elə bil ki, qədim üslubda tikilmiş möhtəşəm bir qalada təklənmişdim və bu qalanın içindən yuxarı baxanda Allah da görünmürdü, o ki qalmışdı Rauf Soltan ola. Deyəsən, heç o da məni görmürdü, onunla birgə olduğuma inanmadığından, təklənmişdi. Ancaq mənə baxanda, ona bir az asan olardı, çünki o, çoxdan təklənmişdi - nimdaş bir tənhalıq. Birdən Rauf Soltan necə hönkürdüsə, o sükut da, o qala da, o tənhalıq da, bu tənhalıq da - hamısı darmadağın olub başımıza töküldü və ikimiz də bir müddət dağıntılar altında qaldıq.

Onun gözləri gilənar rəngində damcılayırdı, özü tükənsə də, nəm çəkmiş kədəri tükənməmişdi. Elə bil gözündəki bir cüt gilənarı əzib dənəsini çıxartmışdılar...

Heç vaxt inanmazdım ki, Rauf nə vaxtsa ağlamağı, özü də belə hönkürtü ilə, özünə sığışdırar, çünki vüqarlı adamdı.

Dilim hələ açılmasa da, ayaqlarım işlək vəziyyətdə idi. Güc-bəla ilə ayağa qalxıb onun yanına keçdim, böyründə oturub qucaqladım. Gendən baxan olsaydı, bizi heykəl hesab eliyərdi. Heykəllər bərk qucaqlaşmışdı. Adama elə gəlirdi ki, bu heykəllər yüz il də bundan sonra yağışın, qarın, küləyin qabağında döyəclənə-döyəclənə belə qala bilərdi. Kim qucaqlaşan heykəllər görməmişdisə, bu da sizə...

Heykəllərdən biri, yəni mən ayağa durub, o biri heykəlin - yəni Rauf Soltanın kürəyini bir-iki dəfə şappıldadandan sonra dedim:

- Balkon isti deyilmiş...

- Mən dedim də sənə, balkon yaxşıdı, - o biri heykəl də dilləndi, əlbəttə ki, Rauf Soltan.

Sözlər dilimizi tərpətdi, dilimiz də bütün varlığımızı silkələyib ikimizə də can verdi, bizi heykəllikdən çıxardıb həmişəki Rauf elədi, Seyran elədi - yenə Söz...

Rauf diqqət mərkəzində olmağı xoşlamadığına görə, heç vaxt buna cəhd eləməyib. Bunun iki əsas səbəbindən biri o idi ki, diqqət mərkəzində olanda özünü azad hiss eləmirdi, bu da ona ağırlıq gətirirdi və o, bu yükü daşımaq istəmirdi. İkinci səbəb: ona elə gəlirdi ki, diqqət mərkəzində olmaq şəhərin mərkəzində, adamların gur yerində lüt-anadangəlmə gəzmək kimi bir şeydi. Baxmayaraq ki adamlar ömrü boyu şəhərin mərkəzinə, ordan da diqqət mərkəzinə can atıblar və bu, hər yerdə, hər kəs tərəfindən təbii qarşılanır - Rauf Soltan belə deyildi. Elə adamlar da var ki, anası onu doğum evində yox, diqqət mərkəzi deyilən mücərrəd "məkanda" doğub, taleləri belə gətirib. Və o cür adamlar diqqət mərkəzindən bircə millimetr kənarlaşan kimi havaları

çatmır, boğulurlar - elə bil ki, astma xəstəliyinə tutulublar. Bu mənada Rauf Soltan mərkəzşünas deyildi...

Bizim xislətimizdə isə hər şey Rauf Soltanın tərsinədi - bütün xalq gözünü mərkəzə zilləyib. Əgər sən orda deyilsənsə, səni heç kəs görməyəcək. Görsələr də, ya səni ikinci, üçüncü, dördüncü növ adam hesab eliyəcəklər, ya da ümumiyyətlə görməzliyə vuracaqlar - bu, həyatımızın bütün sahələrində belədi. Bəs ona görə də mərkəz həmişə basabas olur də - istəyir şəhər mərkəzi olsun, istəyir diqqət mərkəzi.

Bu mənada, Azərbaycan xalqının, yoxsa ki, Rauf Soltanın haqlı olduğunu deyə bilmərəm. Çünki, bu, çox qəliz məsələdi...

Rauf şəhərin kənarında, hələ Badamdarın dəbdə olmayan və ucqar yer sayılan vaxtı orda, bir rus qadınının evində kirayədə yaşayırdı. Yazıçılar İttifaqına ancaq qonorar almağa gəlirdi ki, bu da nadir hallarda olurdu. Məsələn, mən onu heç vaxt Yazıçılar İttifaqındakı tədbirlərdə görməmişdim. Bu mənada o, Yazıçılar İttifaqının da kənarında idi. Bu adam ilk şeirləri çap olunanda qısa müddətli olsa da, ədəbiyyatın diqqət mərkəzinə düşdü və tezliklə də ordan uzaqlaşıb ədəbiyyatın kənarında məskunlaşdı; baxmayaraq ki əvvəlkindən də gözəl şeirlər yazırdı. Küçədə beş-altı adamla birlikdə gəzəndə də dəstənin kənarında gedirdi, heç vaxt onu ortada, yaxud ortaya yaxın görə bilməzdin. Şəhərdə rast gəldiyi tanışlarının da hamısına kənardan salam verər, keçib-gedərdi. O, hər şeyə kənardan baxırdı; "kənardan baxana hər şey asan görünür" deyiminin Raufa dəxli yox idi - yəni heç nə ona asan görünmürdü əksinə. Sadaladıqlarım bütün bu "kənarlar" mərkəzindəki tənhalığı yalnız dəniz kənarında, o da zahirən pozulurdu. Onunla bir-iki dəfə dəniz gəzintisinə çıxmışdıq; gəmi Nargin adasının yaxınlığında dövrə vurub geri qayıdanda gözlərini şəhərə zilləyirdi - o, Bakıya kənardan baxmağı xoşlayırdı. Gəmi sahilə yan alan kimi bərk darıxırdı - niyəsi bu günə qədər mənim üçün sirri-xudadı, bəlkə heç özünə də məlum deyildi. O, şəhərdən kənara çıxanda pəncərə kimi açılırdı...

Bütün bunları nəzərə alaraq, Rauf Soltana Kənar Adam da demək olardı...

İndi isə qayıdaq mənim eyvanımda quş yuvası kimi əl dəyməmiş süfrəmizə. Yeməklər də, əl yandıran təndir çörəyi də buza dönmüşdü. Məclisimizin soyuqluğu onların da canına hopmuşdu. Pəncərə şüşəsi kimi tərləmiş arağın "bədənində" şəffaf şırımlar açılmışdı. Rauf özündən çox kənara çıxsa da, yavaş-yavaş geri qayıdıb özünə oxşaya-oxşaya bərpa olunurdu. Təxminən yarım saat əvvəl, o ağır söhbətdən sonra Rauf Soltan, Rauf Soltanın solğun "kserokopiyası" idi. İndi isə onun cizgiləri yavaş-yavaş zühur eləyirdi; o, Rauf Soltana çevrilirdi, adət etmədiyimiz çevriliş... Mənim aləmimdə bu, dövlət çevrilişi kimi bir şey idi... Dövlət çevrilişi xasiyyətcə kütləvi olduğuna görə hamıya aiddi, hamının bundan xəbəri olur; bu cür çevriliş isə xasiyyətcə fərdi olduğuna görə, onu heç kəs görmür, bir kimsə ondan xəbər tuta bilmir...

- Arağı aç də... - ərklə dedim.

Arağı özüm də açıb süzə bilərdim, ancaq Raufu buyurdum; nəsə bu məqamda mənə elə gəldi ki, belə yaxşıdı.

- Zeynalın sağlığına... - Rauf badəni havaya qaldırdı, - o, səni dəhşət çox istəyir. Hərdən səni belə istədiyinə görə ona yazığım da gəlir, gizlətmirəm. O, sənsiz özünü yarımcan hesab eləyir, yarımçıq. Sən onun varlığının bərabər hüquqlu tam yarısısan. Bilirsən necə? Sənsiz o, Zeynal deyil - Zey-di.

- O "Zey" olanda mən də Nal oluram hə?.. Çox sağ ol, vallah...

- Yenə başlama də... - Sifətində tənbəl bir təbəssüm doğuldu, - özün yaxşı bilirsən axı, mən nə deyirəm.

- O, - dedim, - Zey deyil ee, Zəydi, Zəy... Zəynaldı - zəhər tuluğu... - Hələ heç vaxt belə süni narazılıq eləməmişdim, özüm hiss eləyirdim.

Mən onunla əngə vermək istəyirdim, ancaq görəndə ki onun bundan artığına gücü çatmır, tez təslim olub dedim:

- Çox sağ ol, Rauf, zarafat eliyirdim - əla sağlıqdı. Zeynal qardaşımızdı, - bu qardaşlığa Raufu da şərik elədim, - onun haqqında bundan gözəl sağlıq demək qeyri-mümkündü.

Bayaqkı tənbəl təbəssüm yenə onun yorğun sifətində peyda oldu. Mən diqqətlə ona baxanda bir şey gördüm: tənbəl təbəssüm yorğun sifətə necə yaraşarmış, İlahi?! Nə qədər ağır olsa da, bu, beləydi...

İkinci badəni Raufun sağlığına qaldırdım; üçüncü badəni Rauf mənim sağlığıma dedi. Sonra ailə üzvlərimin, qardaş-bacılarımın - lap axırda isə bizim tayfanın topasının sağlığına badə qaldırdı. Və bütün bunların hamısını bircə şüşə arağa yerləşdirdiyinə görə ona çox minnətdaram...

Gecə səssiz-küysüz, oğrun-oğrun yan-yörəmizdən ötüb keçirdi. Rauf da gecəyə qoşulub getmək istəyəndə dedim:

- Gecdi, yıxıl yat burda, bu vaxt heç dəyirmandan da getməzlər... hara gedirsən?!

Razılaşdı. Sizə deyim ki, bu razılaşma birinci dəfə deyildi və ən çox yay aylarına təsadüf edirdi - mən tək olan vaxta.

Səhəri dirigözlü açdıq. Dünyada elə bir şey qalmadı ki, ondan danışmayaq. Rauf həmişəkindən daha maraqlı danışırdı - həssas, sərrast, müdrik. Elə bil ki, çevrilişdən sonra ona nəsə olmuşdu... yaxud olacaqdı... Varlığında nə vardısa, qoymuşdu ortalığa. Raufun söhbətlərindəki ciddilik canıma necə hopmuşdusa, bu müddətdə zarafat eləmək, həmişəki atmacaları ortalığa atmaq həvəsim qalmamışdı. Bütün bu söhbətlərin içində bir vida çaları da tez-tez gözümə dəyirdi və məni bərk qorxudurdu. Ancaq sonra inandım ki, burda əlvidalıq bir şey yoxdu - rahatlandım.

Axşamdan başlayıb gecəni tapdalaya-tapdalaya səhərin açılan gözünə yetişdiyimiz o gün, bizim dostluq, məhrəmlik münasibətlərimizin tarixçəsində ən uzunu, ən maraqlısı idi. Həm də ən müqəddəsi imiş - mən bundan gec xəbər tutmuşdum...

Günorta olsa da özümüz üçün səhər yeməyi hazırlamışdım. Ailəmizdə bu tərkibdə olan yeməyə "Moskovski zavtrak" deyirdik: sosiska, xardal, sarısı dağılmamış qayğanaq - "qlazok", bir də yüz qram konyak. Rauf mənim təkidimlə hamama girib çıxmışdı, qurulanırdı.

Biz səhər yeməyinin axırına çıxanda, günorta saat dördün yarısı idi. Raufu nə qədər dilə tutdum ki, gedək dənizə, hava da istidi - razı olmadı:

- İyirmi ildən artıqdı Bakıdayam, bir dəfə də dənizdə çimməmişəm, - xoşlamıram...

- Bəs nəyi xoşlayırsan? - soruşdum.

- Dəniz kənarında dayanıb saatlarla ona tamaşa eləməyi.

- Gedək də, mən çimərəm, sən də tamaşa eliyərsən...

- Yox, - dedi, - dənizə gərək tək baxasan.

Ondan əlim üzülən kimi dedim:

- Axşam evdəyəm, darıxsan, gələrsən.

Gülümsədi. Onun darıxmadığı gün olur ki?..

Qapını onun arxasınca bağlayıb yola açılan pəncərənin qabağına keçdim. Siqaret yandırdım. Rauf özünəməxsus iri addımlarla, ləngərlənə-ləngərlənə gedirdi. Mən onun dalınca baxa-baxa qalmışdım. Ancaq o, bir dəfə də çönüb geri baxmadı - mən bunu elə istəyirdim ki...

Rauf Soltan döngəni burulan kimi şəhərin burulğanına düşüb yoxa çıxdı. Mən siqareti kötüyünə qədər sümürüb qonaq otağındakı divanın üstünə tirrəndim...

* * *

Raufu kimdən soruşurdumsa, gördüm deyən olmurdu; Adil Rəsuldan, Kələntər Kələntərlidən, "Novbahar"ın bufetindən, az qala Xurşid Banu Natəvanın, Nizaminin heykəlindən. Elə bil bir parça yağlı əppək olub göyə çəkilmişdi...

Ürəyim buz kimi olduğuna görə narahat da deyildim, ancaq darıxırdım, axı... Zeynal da məndən soruşurdu. Badamdardakı rus qadınının da evini tanımırdım. Heç vaxt nə taleyindən, nə də sağlamlığından şikayət eləməmişdi.

Mənim onun arxasınca baxa-baxa qaldığım vaxtdan qırx gün keçmişdi; dəqiq hesablamışdım - iyulun onu, indi də avqustun iyirmisidi. Arada, bir neçə gün başım qarışıq oldu, sonra da Malyorka-Barselona marşrutu ilə İspaniya səfərinə yollandım - on beş günlük. Qayıdıb Bakıda iyirmi gün qalandan sonra Bakı-Moskva-London-Paris səyahəti məni qoynuna aldı. Bu şəhərlərdə də Raufu tez-tez yadıma salırdım, yenə ürəyim buz kimi idi. Hətta ona hansı hədiyyəni alacağımı götür-qoy eləyirdim.

Avropa səfərindən qayıdan günün səhəri Zeynalla Atatürk parkındakı "Billur" kafesində görüşdük. Bir az yeyib-içəndən sonra soruşdum:

- Zeynal, Raufdan nə xəbər var?

- Xəbər var.

- Nə yaxşı, nə yaxşı, ay Zeynal, Allah səni sevindirsin, - dedim. - Onu da çağıraydın də...

- Rauf ölüb... - deyib başını aşağı saldı.

- Nə vaxt?

- İyulun on biri... qırxı-zadı çoxdan çıxıb, - Zeynalın gözləri doldu.

- Bəs hardan bildin?

- Onun bir yerlisi vardı ee, Səməndər, pasportstol işləyirdi, o dedi.

- Bəs onu harda gördün?

- “Azərbaycan” kinoteatrının qabağında rastıma çıxdı, dedim əə, Səməndər, bu Rauf çoxdandı görünmür. Dedi bəs xəbərin yoxdu... belə-belə...

Zeynalla baş-başa verib heyifsiləndik, ağrıdıq, göynədik. Düşdüyümüz vəziyyətdə Dünyanın ən aciz adamına çevrildik - dost itkisi qədər adamı acizləşdirən heç nə tanımıram - axı, bu itkinin yaşı cavandı. Mənim Rauf Soltan itkimə baxanda, Zeynalın itkisi nisbətən köhnəlmişdi. Ancaq itkinin təzəsi, köhnəsi olmur ha...

Qərara gəldik ki, şənbə günü tezdən gedək Saatlıya, elə Zeynal da məni gözləyirmiş. Ancaq orda heç kəsi tanımırdıq - tanıyarıq də...

Beşinci gün Zeynal zəng elədi ki, papam Göyçayda yoxlamadadı, mən təcili ora gedəsi oldum, gedim-qayıdım, sonra gedərik.

- Yaxşı, - dedim, deyəsən, başımdan elədim.

Mən fikrimdə Saatlının hələ adını bilmədiyim qəbiristanlığında idim, bircə özümün ora gedib çıxmağım qalırdı və Zeynalı gözləyə bilməzdim.

Saatlı rayon prokurorluğunun qabağında maşından düşən kimi bir polis qaça-qaça gəldi ki, burda saxlamaq olmaz.

- Prokuror yerindədi? - Onun qadağasına məhəl qoymadım.

- Bəli, bəli, buyurun... - dedi.

İkinci mərtəbəyə qalxıb prokuror, köhnə tanışım olan Mobil İsmayılova gəlişimin məqsədini danışdım. O, bir-iki yerə zəng eliyəndən yarım saat sonra Raufun adını bilməyib, üzünü görmədiyim qardaşı gəldi. Biz mənim maşınıma oturub Soltanlı kəndinin qəbiristanlığına yollandıq. Raufun yoxluğu varlığıma qarışıb içimdə arzuolunmaz, nəm torpaq kimi ağır bir hava yaratmışdı. Bu havada yaşamaq çətin idi. Mənə elə gəlirdi ki, içimdə kibrit çalan olsaydı, partlayardım, Raufun qardaşına da xəsarət yetirərdim. Təngnəfəs olmuşdum.

Bu, qan təzyiqi yüksək olan adamın, birdən-birə dağ kəndində məskunlaşmasına da oxşayırdı. Ancaq sizə məlum olan içimdə nöqtə boyda olsa da, güclü bir inam vardı ki, Raufun qəbrini görən kimi səbbim alınacaq - torpağın üzü soyuq olar, deyiblər.

Qəbiristanlığın olmayan girəcəyinə çatanda mən Raufun qardaşına dedim:

- Düş qabağa.

O, dinməz-söyləməzin biri idi; bəlkə də mənə elə gəlirdi. Adama boy verən qurumuş çör-çöpü aralaya-aralaya keçib qəbristanlığın bir kənarına çatan kimi dayanıb üzümə baxdı:

- Budu, - dedi.

Həmişə başıdaşlı olan Raufun baş daşı yox idi - onun baş daşı bir əl enində olan taxta idi - baş taxtası. Elə bil malakan bağçasının hasarından bir taxtanı qopardıb, qəbrin baş tərəfinə pərçimləyib-eliyəndən sonra üstünə də kibrit dənəsi naziklikdə sarı məftillə yazmışdılar: Rauf Soltan, vəssalam! Nə doğulduğu, nə də öldüyü ili "yazmamışdılar".

Yaşadığı ev heç vaxt insan bədəninə qəbir qədər yaxın ola bilməz. Ola bilər ki, insan yüz il bir evdə yaşasın və heç vaxt onun bədəni evin divarlarına toxunmasın. Bu mənada qəbir, həm də insanın bədənidi...

Raufun bədənini ot basmışdı. Qəbrin nimdaş, boz rəngi adamın gözünü bozardırdı. Elə bil Rauf həmişə əyninə geyindiyi nimdaş, boz paltosunu üstünə örtmüşdü - deyirlər ki, ölülər ilin bütün fəsillərində üşüyür.

Raufun boz, nimdaş qəbri Raufun boz, nimdaş paltosunu əyninə geyinmişdi. Bircə dik qalxıb Rauf kimi yol ölçməyi qalırdı...

Raufun boz, nimdaş qəbri qəbiristanlığın kənarında idi, ona kənar qəbir demək olardı...

Rauf Soltan doğulduğu gündən kənar adam olub...

Raufla söhbət eləməyə başladım:

- Necəsən, Rauf?
- Ölü kimiyəm...
- Darıxmırsan?
- Ölülər darıxmır...
- Səni niyə qəbiristanlığın kənarında dəfn eləyiblər?
- Belə vəsiyyət eləmişdim.
- Bağışla, gec gəldim...
- Tez gəlsəydin də heç nə eliyə bilməyəcəkdin - belə yaxşıdı.
- Soyuqlamış adama oxşayırsan?
- Ölülərə soyuq dəymir, narahat olma.
- Orda şeir yazmaq olur?
- "Kənar adam" poeması yazmışam.
- Yaxşıdı?
- Ən yaxşı əsərimdi. Rauf Soltanın əziz olmayan xatirəsinə həsr eləmişəm.
- Çap elətdirəzsən?
- Burda nəşriyyat olmur. Dünən axşam ölülərlə görüşüm vardı, oxudum, alqışladılar.
- Ölülər alqışlaya bilirlər?
- Onların alqışı ağlamaqdı, qəbiristanlığı su basmışdı.
- Qəbiristanlıq yaş deyil, axı...
- Bura Muğandı, hər şeyi qurudur...
- İstəyirsən gedək dənizə.
- Ölülər çimmir.
- Bir azdan qayıdıram Bakıya, sözün, tapşırığın.
- Beşmərtəbə yaxınlığında yaşayan o qadına ölü salamı deyərsən.
- Catdıraram.

- O, məni bağışlayan kimi mən onun əfvini o dəqiqə burda hiss eliyəcəm. Çalış ki, məni bağışlasın... torpağın altında gecəm-gündüzüm yoxdu.

- Başqa kimə sözün var?

- Ondan başqa heç kəsin qarşısında günahım yoxdu...

Raufun qardaşı ancaq mən dediklərimi eşidirdi və doğmasının səsini eşidə bilməzdi. O, mənə birtəhər baxırdı, elə bil uşaq xoflanmışdı...

Başımla gəldiyimiz tərəfə işarə eləyib dedim:

- Oralardan bir molla tap gətir.

- Bu qəbiristanlıqda molla olmur, - dedi.

Bu cəngəllikdə xırda bir daş tapmaq, mənə həyatda özünü tapmaq qədər çətin göründü. Cibimdən bahalı dəmir alışqanı çıxardıb Raufun baş taxtasına yaxınlaşdım, bir-iki dəfə tıqqıldatdım, ancaq o, heç nə eşitmədi. Ölülər ancaq iki daşın toqquşmasından çıxan səsi eşidirlər...

Qəbiristanlığı soyunub maşının yanına gəldik:

- Otur gedək, - dedim.

O, xofun burulğanında burula-burula dedi:

- Siz gedin, kənddə işim var...

Uşaq mənim Raufla söhbətimdən əməlli-başlı xoflanmışdı. Mən siqaret yandırıb otuz-otuz beş yaşlı bu uşağa nəzər salanda gördüm ki, o, Raufun ölkəmizdəki yüzlərlə filialından biridi...

Ağrıya-ağrıya maşına minib, göynəyə-göynəyə Bakıya üz tutdum. Rauf Soltanla evimizdəki son görüşümüzü xatırladım - gördüm. Siz də xatırlayırsınızsa, bu son görüşün sonluğu belə idi:

"Qapını onun arxasınca bağlayıb yola açılan pəncərənin qabağına keçdim. Siqaret yandırdım. Rauf özünəməxsus iri addımlarla, ləngərlənə-ləngərlənə gedirdi. Mən onun dalınca baxa-baxa qalmışdım. Ancaq o, bir dəfə də çönüb geri baxmadı - mən bunu elə istəyirdim ki...

Rauf Soltan döngəni burulan kimi şəhərin burulğanına düşüb yoxa çıxdı. Mən siqareti kötüyünə qədər sümürüb qonaq otağındakı divanın üstünə tirrəndim..."

Rauf Soltan mənim dalımca baxa-baxa qalmışdı. Mən bir dəfə də çönüb geri baxmadım. O, bunu elə istəyirdi ki...

***(Ardı var)***



*Sabir SARVAN*

## GECƏ, GÜNDÜZ

Fırlanır, fırladır bizi bu Kürə
Yarısı gecədi, yarısı gündüz.
Ömür də belədi, gün də belədi,
Yarısı gecədi, yarısı gündüz.

Şeytanın yanında mələkdi ancaq,
Bir yan od hənirli, bir yanda sazaq,
Yaxınlaş aynaya gözlərinə bax,
Yarısı gecədi, yarısı gündüz.

O başda biridi, bu başda biri,
Qürubla üz - üzə durub dan yeri.
Ağ vərəq üstünə yazıram şeiri,
Yarısı gecədi, yarısı gündüz.

İki qütb üstündə dövr edir həyat,
Pozulmaz mizandı gördüyün təzad.
Allahın hüsnüdü külli - kainat,
Yarısı gecədi, yarısı gündüz.

## BİZ QONŞUYUQ

Tanrı səni sonalayıb göndərib
Yer üzünə bəxşişlərin yerinə.
Məndən olsa izlərini düzərdim,
Küçələrə naxışların yerinə.

Biz qonşuyuq, yaşayıram yaxında,
Qəlbi cavan bir qocayam baxanda.
Utanıram sən qarşıma çıxanda,
Üzümdəki qırışların yerinə.

Gənc olaydım, dodağımda sözlərim
Çırpınaydı...
                    titrəyəydi dizlərim,
Bir cüt sevən göz görəydi gözlərim
O biganə baxışların yerinə.

Güllər kimi sığınaydım əlinə,
Yellər olub dolanaydım belinə,
Narın - narın toxunaydım telinə,
Yağan qarın, yağışların yerinə...

## QİBLƏM ÜRƏYİMDİ

Bizi də sayarlar, qəm yemə könül,
Hər kəsin qədrini bir dövran bilir.
Mənim gözlərimdi dərdin məskəni
Yalandı desələr çox ünvan bilir.

Olsa da ömrümə qənim ürəyim,
Qibləm ürəyimdi, yönüm ürəyim.
Bu nə bəladırsa, mənim ürəyim,
Özünü dərd ilə firavan bilir.

Elə tez dolandı çarx dediyimiz,
Azaldı - üzüldü vaxt dediyimiz,
Məndən çoxdan dönüb baxt dediyimiz,
Nə Sabir tanıyır, nə Sarvan bilir.

## ÖMÜR HEKAYƏSİ

Vaxt varıydı çarpışırdıq fələklə
Gündüz idi, Gecə idi, Mən idim.
Üç dost olub dolaşırdıq göyləri -
Arzu idi, Xəyal idi, Mən idim.

Yaz sovuşdu payız girdi araya,
Ruhumuzu düçar etdi sarıya.
Çaşıb qaldıq yol çatanda yarıya -
Qorxu idi, Ümid idi, Mən idim.

Nə gəzəsən sönən odda - ocaqda,
Keçən keçdi, qalan qaldı uzaqda.
Bir də gördük üçümüzük otaqda -
Həyat idi... Ölüm idi...Mən idim...

## BƏXTSİZ BALIQÇI

Şeir - balıqlar üçün tilov atıram elə
Dayanıb gecələri ürəyimin yanında.
Şair də balıqçıdı, qızıl balıq gəzirəm
Fikrimin dəryasında, qəlbimin ümmanında.

İllərdi gözləyirəm, gözləməkdən nə fayda,
Şairi söz ucaldar, mənə ucalıq gəlmir.
Tuturam e, amma ki, adi xırda balıqlar
Neynəyim, tilovuma bir qızıl balıq gəlmir.

## SEVƏRSƏN

Mən gedirəm...day yanında qalmaram,
Sən yanında qalanları sevərsən.
Deyirsən ki,
"ürəyincə deyildim",
Ürəyincə olanları sevərsən.

Sevgibazlar dəryasında gəmin kəm,
Qoy olmasın həmdəmin kəm, dəmin kəm.
Doğru sənə acı gəldi? - Qəmin kəm,
Dili ballı
yalanları sevərsən.

Yan - yörəndə gəzən çoxdu, bilirəm,
Üzdə guya gözün toxdu...bilirəm,
Aşkar işlə aran yoxdu, bilirəm,
Gizlinləri,
dalanları sevərsən.

Su çuxuru, çuxur suyun tapacaq,
Armud gördü ayı oyun tapacaq,
Müxtəsəri, taylı tayın tapacaq,
Filan...
filan...
filanları sevərsən.

***İyun - uyul, 2013***

## NƏNƏMİN SİNƏ DAŞINA GECİKMİŞ YAZI

Elə ağlatdı ki, taleyim məni
Çeşmələr qurutdum
hər qaşın altda.
Başıma o qədər daş yağdı göydən
Axırda gizləndim
bu daşın altda.

## SAXLA BÜLBÜL KİMİ

Olanım ürəkdi vermişəm sənə,
İstər ayaqla keç,
istər tac eylə.
Gah görün gözümə, gah da uzaqlaş,
Məni həsrətinə yalavac eylə.

Varamsa,
aldığım hər bir nəfəsdə,
Buyruğun- qulluğun gözlərim üstə.
Saxla bülbül kimi sarı qəfəsdə,
Ya da ki, kölgəlik qarağac eylə.

Səni udum - udum anım gizlicə,
Günahım, pənahım sanım gizlicə,
Qovrula - qovrula yanım gizlicə,
Məni buğda dəni
dərdi sac eylə.

Mən də bir dünyayam qəmdi bazarım,
Özgə aləmlərə düşməz güzarım.
Gördün ki, azalır dərdim - azarım,
Amandı,
yubanma,
tez əlac eylə.

## MƏN SƏNİNLƏ BARIŞDIM

Onsuz günüm gün deyil,
Ürək, qəmimlə barış.
Ayrılıq uzaq deyil,
Ruhum, tənimlə barış.

İşi əyri dünyada,
Düz olan gedir bada.
Ya kor ol görmə, ya da,
Gözüm, nəminlə barış.

Ocaq olub alışdım,
Soyuq külə qarışdım,
Mən səninlə barışdım,
Tale, mənimlə barış.

## MİN DƏFƏ DEMİŞƏM

Nədən incimisən, niyə küsmüsən?
Danışma deyirsən soruşan kimi.

Sənə naz - qəmzə də gözəl yaraşır,
Ağ üzə qara xal yaraşan kimi.

Burda ikimizik, de görüm nə var?
Üzün qara bulud, səsin soyuq qar.
Daraşır canıma fikir- xəyallar
Qarışqa şirəyə daraşan kimi.

Min dəfə demişəm, deyimmi gündə,
Qaşqabaq sallayıb məndən küsəndə
Həyatım qarışır!
            Yellər əsəndə
Sular dalğalanıb qarışan kimi.

Daş daşdan yapışar sel yamandısa,
Açılar çöhrəsi dağ dumandısa,
Əgər bu küsünün sonu qandısa,
Bir qurban kəsərəm!!!
            Barışan kimi.

## ÖZÜM ÖZ ƏLLƏRİMLƏ

Sən məni şair deyə yaratmışdın, İlahi,
Təb vermişdin, qaynar təb, dil vermişdin dipdiri.
Sürüyüb sağa - sola qayğılar şəhərində
Özüm öz əllərimlə öldürdüm o şairi.

O, öldü, mən də öldüm...özün gözəl bilirsən,
Başa varmaz sussasa hər kim şair qanına.
Sənin verdiklərini puç eyləyən bəndənəm,
Bilmirəm hansı üzlə qayıdacam yanına.

## ALLAHIN İŞİNƏ BAX

Şəkər idi,
Badəpərəstliyi də qoşuldu şəkərə
            "yerə vurmadı zəhmətin",
Günlərin bir günü kəsiləsi oldu
            bir ayağı
                  şair Tofiq Məmmədin.
Allahın işinə bax ki,
Tək ayaqla durub burdan
            Avropaya getdi
Orda öldü,
            orda da dəfn etdilər.
Bir mühacir qəbrimiz də belə artdı,
Gül bitirəsi
bir ovuc içi torpağımız da
            belə qismət oldu yada.

O gündən bir ayağı burdadı
şair Tofiq Məmmədin,
bir ayağı Avropada.

## NƏTİCƏ

Var olmağın
cəfaları çox imiş,

Yox olmaqdan gözəl
heç nə yox imiş.

## ATMACA

Qulaqlarınızı açın,
Yaxşı
eşidin məni:
Şeir oxumayın,
Şeir dinləməyin,
Şeirdən qaçın!
Ağlınızı itirərsiniz,
ikiayaqlı məxluqlar,
Müsibətlər gələr başınıza
yerbəyerdən,
insan ola bilərsiniz
birdən.
Odur ki, uzaq durun,
Qaçın,
Qaçın,
Qaçın şeirdən!

## HEYİF

Doğma necə yad olur,
Dilim bişəndə bildim.
Ucuzdan ucuzammış,
Əlim düşəndə bildim.

Biz öldükcə, belə san,
O doğulur anadan.
Mən dünyanı binadan
Bəbə düşəndə bildim.

Çatmazsan taxsan qanad,
Gün keçdi, evi bərbad.
Heyif, qədrini, həyat,
Ömrün qışında bildim.

## GÖNDƏR

İlahi! Boğulub batdıq şəhərdə,
Tüstünü - istini uzağa göndər.
Sənin əlindədi, rəhm elə, məni
Başqa cəhənnəmə qınağa göndər.

Bezdim küçələrin toz nəfəsindən,
Qulağım tutulur maşın səsindən,
Bənövşə ətrindən, çay nəğməsindən
Şəhərdə gözündən dustağa göndər.

Cövr edir şəkəri, dövr etmir qanı,
Sızlayır bədəni, ağrıyır canı.
Tez yetir Ağsuya Sabir Sarvanı,
Məmməd İlqarı da Qazağa göndər.

## ƏSİRLƏR

Əsirlərik biz,
şəhvət əsirliyindən
doğulduq.
Doğulan təki
bələd olduq
əsirliyin hər sirrinə,
Anamıza "məmə" dedik,
Atamıza "pəpə",
Çevrildik
həzrəti - mədəmizin
əsirinə.
Əsirlərik biz,
Şairlərimiz şan - şöhrət,
Cahillərimiz cah - cəlal,
var - dövlət əsiri,
Möminlərimiz
axirət xəyallı,
cənnət əsiri.
Əsirlərik biz,
əsir düşərgəsidi
Yer üzü.
Adəm iki buğdaya əsir düşən gündən
keçir
Min - min əsrlər,
O vaxtdan Yer üzündə
ADAM adına
əsirlər doğulur,
əsirlər ölür,
ancaq
ƏSİRLƏR!

## MƏNİ BİR DƏ YARATSAN

Düşdüm SÖZ sevdasına
Çalxandıqca duruldum.
Dostlarım qaşa - gözə,
Mən sözlərə vuruldum.

Göylərin əlindədi
Söz dediyin sirr - açar.
Gahdan fikri pərdələr,
Gahdan neçə sirr açar.

Söz hər şeydən yüngüldü,
Sözdən ağırı yoxdur.
Tapıb yerinə qoysan,
Sözün fağırı yoxdur.

Üyüdürəm dən kimi
Kəlmə - kəlmə "un" alım.
Canımın ağrısıdı,
Sözün ağrısın alım.

Tanrım, SÖZ dəlisiyəm,
Məskənimi çöl elə.
Məni bir də yaratsan
Yenə SÖZƏ qul elə.

## ƏTRİNİ DUYUNCA

Ömrümün bir gözəl anından keçdim,
Bəxtəvər çəpərin yanından keçdim,
Ətrini duyunca canımdan keçdim,
Bənövşə qoxusu gəlir bu bağdan.

Haqqa bağlı olan - düz haqdan çəkir,
Bahar gətirənlər sazaqdan çəkir,
Məni min - min ağac uzaqdan çəkir,
Bənövşə qoxusu gəlir bu bağdan.

Üstündən təzəcə gəlib qar keçib,
Qəlbindən yenə də yüz qübar keçib,
Ya bənövşə açıb, ya da yar keçib,
Bənövşə qoxusu gəlir bu bağdan.

## QARDAŞIM OĞLUNA
## REP ÜSTÜNDƏ MƏSLƏHƏT

...Bir olmadı,
beş olmadı,
alınmadı...
Düşmə ruhdan,
tez toparlan,
tez özünü
tap təzədən,
Lap əvvəldən,
lap təzədən
təzə eşqlə,
təzə başla
dur işinə,
yenə başla.
Gül güldü ki,
tufan olur,
boran olur,
səbr eləyir,
dözür durur.
İnadıyla
axır bir gün
bitir daşda,
açır daşda.
Su sudu ki,
sevə -sevə,
öyə - öyə,
damcı - damcı
döyə - döyə,
dəlir daşı,
keçir daşdan.
Sən də,
sən də,
sudan,
güldən,
geri qalma,
təslim olma
həyat adlı
bir savaşda.
Qaliblərin
sirri nədir?
Çox soruşdun,
mən də dedim.
İndi gedim.
Ayrı cür yol,
Özgə bir yol
tanımıram
bundan başqa.

## ◆ Nəsr

*Mübariz CƏFƏRLİ*

# HALƏ



◆ ***Povest***

Kəndə gələn gün eşitdim ki, prokuror Şura ölüb. Düzdü, bu elə bir fövqəladə hadisə deyildi, Şura yetmişi çoxdan ötmüşdü, səksənə çatdı-çatmadı, Allah bilir...

Xatirəsə doğrudan-doğruya gözünün qorasını sıxırdı.

- Kəndimiz prokurorsuz qaldı, - dedim Xatirəyə. - Bundan sonra özünüzü gözləyin...

O, ağladığını unudub gülümsündü, əlini yelləyib mənə göz vurmaq istədi, yaş kirpikləri bir-birinə yapışıb qaldı, gözlərini ovuşdurub:

- Day düz-əməlli prokurorları da vecinə alan yoxdu, - dedi. Ardınca soruşdu ki, mərhumun dəfninə gedəcəm, ya yox?..

Kəndə səfərimi rus qəbiristalığından başlamaq ürəkaçan olmadığından, cavab verdim ki, yol gəlmişəm, yorğunam.

Xatirə üz vurmadı və onun başçılığı ilə qonum-qonşu yığışıb Şuranı zurna-balabansız, beynəlmiləl qayda-qanunla basdırdı.

Bizim yerlərdə qadınlar dəfnə getmirlər, bu dəfəsə heç bir yasaq yox idi, ömrü boyu haqq-ədalət çarçısı olmuş qarının dəfni də demokratik şəraitdə keçmişdi.

* * *

Axşamüstü Xatirə bizə gəldi, mən kənddə olanda, o, bizdən əl çəkməzdi. Mehribandı Xatirə, həm də mənim rəhmətlik dayımın arvadı idi. Düzdü, dayımdan sonra iki dəfə ərə getmişdi və onları da dayım gedən yerə yola salıb oturmuşdu. Özü də, deyəsən, bu dəfə möhkəm oturmuşdu, daha ərə getmək fikri yox idi. Kişilər də ona yaxın durmağa ürək eləmirdilər. Xatirə əlacsızlıqdan əməlli-başlı xanım-xatın dul arvad olmuşdu, rəhmətlik ərlərinin ruhunu əziz tuturdu. Hərdənbir sonuncu qayınanası Gülnisəni qarğıyırdı, guya, Gülnisə oğlunun yasında deyibmiş ki, Əzrayılda günah yoxdu, Xatirə başyeyəndi. Beləcə, Xatirəni almaq fikrində olan neçə-neçə kişini ayıltmışdı, qorxutmuşdu. Namizədlər geriləmişdi. Daha əyyam dəyişmişdi, can canandan şirindi...

Xatirənin başyeyən olmağı kənddə dilə-ağıza düşsə də, o, camaatın gözündə elə falçı Xatirətək qaldı, intəhası, sonuncu qayınanasının “başyeyən”

tapıntısından sonra axırıncı ərinin ölümünü qonum-qonşuya, tanış-bilişə yerli-yataqlı anlatmağa çalışmışdı:

- Günah elə Əzrayılındı, - demişdi yana-yana. - O gecə Mehdixan (Xatirənin üçüncü əri) soyuqlamışdı. Bankaladım yazığı, sonra dedim sən yat qravatda, xəstəsən, qoy Gülnisə yerdə yatsın, at kimi şeydi. Mən hardan biləydim ki, gecə Gülnisənin dalınca Əzrayıl gəlib qravatdakıynan yerdəkini dəyişik salacaq?.. - qayınanasını borclu çıxarıb özünə bəraət qazandırırdı.

...Xatirə artırmaya çıxanda anam soruşdu:

- Ayaqyoluna girdin?

Xatirə kətildə əyləşib bərkdən:

- Hə, e, hə, - dedi, - arxayın ol...

Mən pıqqıldayıb anamdan soruşdum:

- Qarnını boşaltmayanı evə buraxmırsan?

- Əşi yox, - anam səbirlə izah elədi. - Adam yas yerindən qayıdanda qabaqca ora girər...

Anam "Quran" oxuyub namaz qılan olmasa da mövhumatçı idi. Xatirə də həmçinin... Mənsə tam qənaətə gəlməmişdim, yol ayrıcındaydım, gah tanrıya, gah şeytana qulluq eləyirdim.

Bayaq ağlayıb-sızlaması əbəsmiş, Xatirə prokuror Şuranın dəfnindən elə şirin-şirin danışırdı ki, elə bil toydan qayıtmışdı. Özü də dedi ki, day yas-mas qurtardı, bircə günün içində Şura ilə haqq-hesabı çürütdük. Kimdi ona yas saxlayan? Yası saxladın, kim gələcək, nəyə görə gələcək? Yaxşı, yasın xərcini kim çəkəcək? Gələnlərin qabağına bir stəkan çay... bir stəkan çaxır qoymaq lazımdı, ya yox? Onu düz deyirsən, Məsmə xala, - Xatirə üzünü anama tutdu, dayım arvadı olsa da həmişə anama "Məsmə xala" deyərdi. - Gələn çox olardı, birinin qabağına bir stəkan çaxır qoy, o saat kəndin bütün alkaşları yığışıb yasda sinə vursun. Elə o qəbirqazan Alik camaata deyir ki, bəs Şuranın evini satıb onu yerdən təntənəli götürmək lazım idi. Dedim, sözü kimə vurursan, ay qəbirqazan xortdan? Könlündən neçə gün müftə-müsəlləm tuluğunu doldurmaq keçir? Şuranın halına yanansan, alma da qazdığın qəbrin haqqını, ay səni qazdığın yerə girəsən. Bəs neçə gün mən Şuraya qulluq eləyəndə, "qa" deyəndə ət, "qu" deyəndə su verəndə harda ölmüşdünüz, hay?.. Ağsaqqalıma bax mənim! İnşallah, dədən öləndə ev-eşiyinizi satıb yerdən tən... - deyəsən, söz Xatirənin yadından çıxdı, - padşah kimi götürərsən, qəbrini də pulsuz-parasız özün qazarsan.

Anam heyrətləndi:

- Lap elə belə dedin?

- Niyə demirəm, ay Məsmə xala, özündən qorxuram, ya dədəsindən? Alikə dedim, belə ürəyiyanansan, dəmirdənmi, ağacdanmı, bir xaç düzəlt, heç olmasa, qəbrə başdaşı olsun. Qayıtdı ki, gərək pulunu verəsən, o boyda evi rəhmətlik sənə bağışlayıb, - "rəhmətlik" dedi, heç "əstəğfürullah" da demədi, Allah keçsin günahımdan, Alikin dili ilə deyirəm, o nə bilir kafir nədi, müsəlman nədi, - indi beş-on manat xərcləməyə ürəyin gəlmir.

Dedim, gözünə girsin sənin o ev. Nə evdi ə, o! Tövləyə oxşayır, qoluzorlu bir kişi - day sənin kimi qəbirqazan xortdan yox e - dartsa, sütununu çıxarar. Camaat pıqqapıkla gülüşdü, qaragün Şuranın meyiti qaldı ortalıqda. Dedim, ayə, ay haramzada, sən o kişinin oğlu deyilsənmi ki, dədən kolxozun neçə min pulunu yeyib damlanmışdı, anan da gedib yıxılmışdı bu arvadın ayağına ki, ay Şura, amanın günüdü, bir çətən yetimim başsız qalacaq, mənə kömək elə, ölmüşəm, yerdən götür, - Xatirə anamın gətirdiyi çaydan bir qurtum alıb çay qaşığı ilə fincandan balaca nəlbəkiyə mürəbbə tökdü və qaşığı yalaya-yalaya davam elədi. - Bu o arvad döyüldümü ki, sənin oğru dədənə görə təmiz rus dilində Bakıya, Moskvaya, Beemteyə, - deyəsən, BMT-ni özündən uydururdu, -

bir vaqon məktub yazdı. Anan bax bu arvadın, Şuranın o uçuq-sökük daxmasına zənbil-zənbil mer-meyvə, araq-çaxır, qutu-qutu siqaret daşımaqdan yorulmuşdu. Soruşana da deyirdi ki, halal xoşu olsun, Şura mənim bacımdı. İki gözüm çıxsın yalan deyirəmsə, bu qulaqlarımnan eşitmişəm, özü də bacılığım-zadım yox e, bacım... Şura mənim bacımdı! Belə deyirdi sənin anan... İnanmırsan, arvadlı-kişili burdakıların hansından deyirsən, soruşaq. Bir ara anana “rus Həlimə” də deyirdilər. Yaxşı, Şura o daxmasını mənə verməsəydi, kənddə bir başıpapaqlı irəli durmayacaqdı? Bəlkə, yazığın heç evi-mevi yox idi, qalıb iylənməliydi meyiti? Bu kənddə bir kişi var, ya yox? - Bığıburmalardan bir-ikisi sir-sifətini turşutsa da dillənən olmadı. Dərinə getdiyimi anlayıb valı çevirdim, Alikin üstünə yeriyib çımxırdım. - Ayə, bax, sənin xalan ölüb, - əlimlə Şuranın meyitinə işarə elədim. - Adam da dost-doğma xalasının qəbrini qazanda pul alar? - Mən irəli getdikcə Alik geriləyirdi, axırda sürüşüb dalı üstə tappıltı ilə düşdü qəbrin içinə. Day ətrafdakılar güləndə ağzın-zadın tutmadı. Lap dilxor oldum. Ölü basdırmağa gəlmişdik, ya şeyx Nəsrullah sayağı ölənləri diriltməyə? Camaat xeyir-şərin yerini bilir ki... Alik yazıq-yazıq qəbrin içindən boylanıb: - Nə düşmüsən e, mənim üstümə, - dedi. - Şura xalanı, - bu məqamda kimdənsə qəhqəhə qopdu, - mən öldürməmişəm ki...

- Bəs başdaşı işini neylədin? - anam xəbər aldı.

- Sağ olsun Ramazanın oğlu Xəlili hardansa iki dənə kubik gətirib elə-belə qoydu qəbrin üstünə. Xaçfason qoydu daşları. Birini eninə, birini uzununa. Hələlik bəd döyül, ancaq, yəqin, axşam o kubikləri oğurlayacaqlar. Səlimin gədəsi İsmayıl daşdan təzə zaxod tikir. Həyət qapıları da düz rus qəbiristanlığına açılır. İsmayıl orda daş qoyar? Onu görüm tikdiyi yerə başaşağı düşsün...

Mən gülmək istəyəndə çeçədim, gözlərim yaşardı, əlimdəki stəkanı güclə nəlbəkiyə qoydum. Xatirə kürəyimə bir-iki nataraz yumruq ilişdirdi, yanmışın əli yaman ağırdı: “Hamısı sənin”...

Anam gülə-gülə dedi:

- Ay Xatirə, az güldür uşağı...

- Budu uşaq? - Xatirə gözlərini bərəldib məni göstərdi. - Ay Məsmə xala, otuz yaşında da uşaq olar? Şəhərdə bunun boğaz eləmədiyi arvad qalmayıb...

Anam əlini ağzına apardı:

- Buy, abrın tökülməsin...

- Məsmə xala, vallah, məni alsa, canım dincələr. Az, hansı qızdan əskiyəm? - Xatirə bir qəhqəhə çəkdi ki, az qala pəncərələrimiz çilik-çilik olub töküləcəkdi.

- Kiri, az, kiri...

- Cəmi səkkiz yaş böyüyəm də... - Xatirə mənə göz vurub üzə durdu. - Baş-başa verib dolanarıq...

Anam borclu qalmadı:

- Nə deyirəm, Allah xeyir versin, - deyib artırmaya çıxdı.

Anam otaqdan çıxan kimi Xatirə ciddiləşdi:

- Neçə günlüyə gəlmisən? - soruşdu.

- Üç-dörd günlük...

- Xeyir ola?.. Otpuskaya-zada çıxmısan?

- Yox, kişiynən arvad xəbər göndərmişdi Vilayətin oğlu Qiyasdan ki, bir ildi kənd-kəsəkdə görünmür, durmayıb gəlsin...

Xatirə bic-bic qımışdı:

- Hə?..

Qulaqlarımı şəklədim:

- Nə məsələdi ki?

Üzümə baxdı:

- Bilmirsən?

Çiyinlərimi çəkdim:
- Yox.
Gülümsünüb:
- Sabah bilərsən, - dedi və söhbəti dəyişdi. - Kişi hardadı?
Söhbətin məğzini bilməmiş zor-xoş cavab verməli oldum:
- Görməmişəm. Arvad deyir, dəyirmana buğda aparanlara qoşulub gedib əmimgilə. Bekar adamdı də...
- Day mən gedim... - Xatirə qalxdı və qapının ağzında anamla qarşılaşdı.
Anam dil-ağız elədi:
- Az, hara gedirsən, xörək gətirirəm...
Xatirə oturmadı, əvəzində mən ləzzətlə yedim. Yeməkdən sonra həyətə düşəndə eşitdiyim mal-heyvan böyürtüsündən, qoyun-quzu mələrtisindən, itlərin yeknəsəq hürüşündən, birdən-birə xoruzların səs-səsə verib banlamasından anladım ki, kənddəyəm. Şəhərdə də tez-tez itlərin səsini eşidirəm, bizim məhəllə it-pişiklə doludu, ancaq orda itlərin hürüşməsi bizim kənddəki itlərin səsinə bənzəmir. Şəhər itlərinin səsində - xüsusən, yiyəsiz küçə itlərinin - yazıqlıq, qorxaqlıq duyulur.

* * *

Gün günortaya qalxanda oyandım, atam gəlmişdi, xalam bizdəydi. Əl-üzümü yuyub atamla görüşdüm, xalam marça-murçla sir-sifətimdən öpəndə dalağım sancdı. Çünki bu həmişəki baxış, həmişəki öpüş deyildi, budəfəki öpüşlə baxışda ayrı bir şirinlik vardı.
- Niyə belə sınıxmısan, qadan alım? - xalam istiqanlılıqla soruşdu.
Artırmada əyləşib çay içə-içə anama baxırdım ki, yemək gətirsin (atam mənimlə hal-əhval tutub harasa getmişdi), anamsa tərpənmək bilmirdi, qaş-gözünü oynadıb bacısı ilə him-cimləşirdi, işarələrini açıq-aşkar sezirdim, axırda bezikib xəbər aldım:
- Nolub e, sizə?
Xalam qabağa düşdü:
- Yazıq Fəridə, bütün gecəni yatmayıb. Bu gün də obaşdan durub bir toyuqplov bişirib ki, gəl görəsən. Soruşdum, az, plovu neynirsən? Dedi, necə neynirsən, xaloğlum gəlib, onun adına bişirirəm. Qız dediyin bəndənin əli elə ruzulu, elə bərəkətlidi ki, bişirdiyi xörəyi bir toyxana adam yesə, qurtarmaz. Evdə qazan asanda bütün kənd ətrindən bihuş olur, - xalam üzünü anama tutdu. - Az, Məsmə, plovun iyi gəlir?
Anam burnunu çəkdi:
- Gəlir... Bəh-bəh...
Yaman acmışdım, tez dilləndim:
- Gətirin də, nəyi gözləyirsiz?
Yenə baxışıb bir ağızdan xəbər aldılar:
- Nəyi?
- Plovu...
- Plov bizdədi... Fəridə deyir ki, xaloğlum gəlib mənim bişirdiyim plovdan yeməsə, ömür-billah onun üzünə baxmaram.
Gözucu anama baxdım, anam çəkinə-çəkinə:
- Get də, beş dəqiqəlik yoldu, - dedi. - Get, Fəridə sənə qulluq eləsin. Özgə-zad döyül ki...
- Get, qorxma, bizim kişi də öydədi... - xalam onun sözünə qüvvət verdi.
Məsələ aydındı, getməsəydim, qabağıma quru çörək də qoymayacaqdılar. Ayağa duranda anam qaçıb otağa girdi və tezcənə artırmaya qayıdıb əlindəki qızıl boyunbağını uzatdı mənə:

- Bunu verərsən Fəridəyə...

- Yaxşı, - deyib boyunbağını boynuma saldım.

Deməli, bir qarın çörəyə görə kəndin başından ayağına düşməliydim. Yediyimin hesabını da boynumdakı ilə ödəyəcəkdim.

Evdən çıxanda fikirləşdim ki, Kürün qırağı ilə gedim, amma yadıma Xatirənin dəfn söhbəti düşdüyündən, yolumu kəndin içindən saldım. Rus qəbiristanlığına çatanda Xatirənin uzaqgörənliyinə mat qaldım; Şuranın qəbrinin üstündə daş-maş yox idi. Hələlik təzə qəbri köhnələrdən ayırmaq mümkündü, sonralarsa yağış, külək qəbri çökdürəcəkdi, qədim qəbirlərdən seçilməyəcəkdi. Kimsə qəbrin üstünə iri kötük qoymuşdu. Ayaq saxlayıb İsmayılgilin həyətinə göz gəzdirməyə çalışdım, darvaza bağlı idi, hündür daş hasardan içəri görünmürdü. Hər halda, o boyda kötüyü gətirib qəbir üstünə qoyan insaflı oğru idi, həm də, indi Sura üçün bunun elə bir fərqi yoxdu.

Baxdığım darvazadan İsmayılın arvadı çıxıb:

- Xoş gəlmisən, - dedi.

Qadının gündən qaralmış sir-sifətinə, əlindəki süpürgəyə baxa-baxa:

- Sağ ol, - dedim.

Qadın əlini " günlük" eləyib alnına qoydu:

- Xalangilə gedirsən?

Duruxdum:

- Hə.

Qadın məni tamam təəccübləndirdi:

- Get, Fəridə səninçün plov bişirib.

"Yəqin, Fəridənin plovunun iyi İsmayılgilə çatıb," - düşündüm. Geri qayıtmaq istəsəm də özümü toxtaq göstərdim. Adı dillərə düşmüş plovdan hökmən dadmalı idim. Qadını karıxdırmağa çalışdım:

- Eşitdim İsmayıl daşdan ayaqyolu tikir...

- Hə, tikir, - qadın biganəliklə cavab verdi. - Anan deyib sənə?

Bu arvad gicdi e, ayrı dərdimiz-azarımız yox imiş ki, oturub İsmayılın tikdiyi ayaqyoludan danışaydıq. Acığa düşüb dərinə getdim:

- Prokuror Şura ölüb, deyirlər...

Qadın təsdiqlədi:

- Hə ölüb, ordadı da qəbri, - qəbiristanlığa sarı boylandı. - Üstündə kötük olan...

- Bəs Xəlil dedi iki dənə kubik qoymuşam qəbrin başına. Xaç əvəzinə...

Qadının çöhrəsinə hirsli-hikkəli təbəssüm qondu:

- Onu Xəlil yox, Xatirə deyər...

Dillənməyib yoluma davam elədim. O, özündən çıxmışdı, beləliklə də, mənim kefim durulmuşdu. Bir az gedib arxaya baxdım, qadın əlindəki süpürgəni misri qılınc kimi başının üstünə qaldırıb deyinirdi. Gülə-gülə xalamgilə gəlib çıxdım...

...Kim inanardı ki, Fəridə kənd qızıdı? Əlini ağdan-qaraya vurana oxşamırdı. Elə bəzənib düzənmişdi, deyərdin toya haşırlaşıb.

Həyətdəki kresloya yayxandım, Fəridə adı dillərə düşmüş plovu gətirməyə getdi.

Siqaret yandırdım. Az çəkirəm siqareti... Yadıma düşəndən-düşənə, gündə bir-iki dənə...

Fəridə, nəhayət... plovu süfrəyə qoydu. Sini dolu idi.

- Bu qədəri kim yeyəcək?

- Sənnən mən...

- Dədən hardadı?

Çiyinlərini çəkib:

- Mən nə bilim, - dedi.

- Təksən evdə?

Başını tərpədib masa arxasına keçdi, mənə yanında yer göstərdi. Kreslodan qalxıb stulda oturdum. Baxdım ki, süfrədə hər şey var, ancaq yenə nə isə çatmır. Hə, deyirəm, axı, boşqab gözümə dəymirdi, elə sinini qoymuşdu qabağıma. Yəqin, istəyirdi bir qabdan, daha doğrusu, bir sinidən yeyək. Çox ədəbli, mərifətli qızdı, yeməyə əl uzatmayıb məni gözləyirdi.

- Dədənin içməyə bir şeyi yoxdu? - soruşdum, düzü, içməzdim, içkini ona görə yada saldım ki, özünü sərbəst hiss eləsin. Elə mən özüm də! Elə bil tikan üstündə oturmuşdum, mənə elə gəlirdi ki, qonum-qonşu, tanış-biliş hasarın arxasından oğrunca boylanıb bizə izləyir. Məni çaşdıran bir də bu idi ki, Fəridəyə həmişə uşaq kimi baxmışdım, indisə yanımda tükü-tükdən seçən, bəzək-düzəkli, yetişmiş bir qız əyləşmişdi, bilmirdim üzümü necə aparım. Əslində çıxış yolunu düşünmədən, fəhmən tapmışdım, ekstremal şəraitdə yol tapmaq üçün düşünmək əbəsmiş, ilk ağlına gələni eləmək lazımdı.

Evdən araq, sampan gətirdi.

- Şampanı apar, - dedim. - Mən şampan içən deyiləm.

Könülsüz apardı. Deyəsən, korladım işləri. Bəlkə, şampanı özü içəcəkdi? Masada iri qədəhlər də vardı.

O saat bilinirdi ki, çoxdan evdə qalan araqdı. Polşa arağı mən instituta girən vədələr bol idi.

Qız qayıdıb əyləşəndə:

- Mən bu araqdan sən balaca olanda içmişəm, - dedim.

- Elə əlimə bu gəldi, - daha məni gözləmədən qaşıqla sinidəki plovdan götürdü. - Ayrısını da gətirə bilərəm, - düyünü nazla, əda ilə ağzına qoydu.

Yaxşı hazırlaşmışdı görüşə, amma bir balaca yekəxanalığı vardı, yəni "evimizdə növbənöv araqlar çoxdu". Hələ qabaqcadan evdən kreslo gətirib həyətə, tut ağacının altına qoymağı da yekəxanalığın nişanəsi idi; biz belə yaşayırıq. Əvvəllər xalamgili bizdən fərqləndirən elə bir maddi güc-qüvvə sezməmişdim...

Birinci qədəhi boşaldıb yeməyə girişdim. Üçüncü, ya dördüncü qədəhdən sonra xalaqızına primitiv bir kompliment də dedim: "Öz aramızdı, sən çox qəşəngsən". Bayaqdan yeməkdən əl götürüb mənə baxırdı, deyəsən, sözlərim xoşuna gəldi, çöhrəsi nurlandı: "Sən hələ nə görmüsən ki...". İkibaşlı cavabdan karıxdım. Məqsədim yeyib-içib evimizə dönmək idi, sadəcə, xalaqızının könlünü xoş eləmək istəyirdim, yazıq gör nə qədər əziyyət çəkmişdi. Özümü yığışdırıb ehtiyatla soruşdum: "Nə mənada?".

Xalaqızı yanımdakı stuldan durub - daha orda oturmağın mənası yoxdu, onsuz da heç nə yemirdi, - mənimlə üzbəüz oturdu. Arın-arxayın ortadakı boşqabdan bir dilim qarpız götürdü, mən içdikcə o, sərbəstləşirdi. Əslində buna sərbəstlik də demək olmazdı, öz evlərində nəsə yemək üçün məndən izn almayacaqdı ki?..

- Yəqin, başa düşürsən, - qarpız yeyə-yeyə sözə başladı. - Bizimkilər də, sizinkilər də istəyir ki, mən sənə gəlim, - yenə dikbaşlıq eləyir, "sən məni alasan", bədəbəddə, "biz evlənək", demir, bəlkə də belə incəliklə düşünməyə dünyagörüşü yol vermir. - Bunu kənddə bilməyən yoxdu. Neçə ildi sənin adın mənim üstümdədi, mən sənin adını uca tutmuşam, - belə pafoslu sözlərlə qarpız yemək qətiyyən uyuşmurdu. - Başqa qızlar sayağı küncdə-bucaqda gündə biriylə görüşməmişəm. İndiki qızlar yetişən kimi başlayırlar çöldə-bayırda alış-verişə. Məktəbdə oxuyandan kişilərlə, oğlanlarla sürtüşürlər. Elə bilirsən, məni istəyən-zad olmayıb? Sinif yoldaşım Famil, Vilayətin oğlu, Qiyasın qardaşı məndən ötrü dəli-divanə idi, həndəvərimizdən əl çəkmirdi, qapımızın ağzında gecələyirdi. Yaxşı ki, əsgər getdi, yoxsa bizim məsələni eşitsəydi araya qan düşərdi, - bu yerdə araq boğazımda qaldı, gözlərim yaşardı, Fəridə ara verdi və mən toxtayandan sonra davam elədi. - Mənə qalaq-qalaq məktublar göndərirdi.

Məktəbdə oxuyanda... İndinin özündə də məktub yazır mənə, mən cavab verməsəm də, o məktubları oxumadan cırıb atsam da, yazır... Məni istəyənlətin hamısına, elə Familə də demişəm ki, mənnən gözünüzü çəkin, məni xalam oğlu istəyir. Eşidən-bilən geri durdu, Famildən savayı. O, geri durmur ki durmur. Ancaq mən ona “hə” deməmişəm. Sənə xəbərdarlıq eləyirəm ki, ağzıgöyçəklərdən bir söz eşitsən, cin atına minməyəsən. Xatirəkimilərə nə var, işləri-peşələri ona-buna qara yaxmaqdı, elə bilirlər hamı bunların tayıdı, kişi görən kimi tumanın çıxardıb ayaqlarını qaldırır. Desələr, dilləri quruyar axı, mən sənin başını aşağı eləyən bir iş tutmamışam, tutmaram da! Elə bilirsən, mən məktəbi qurtarıb xalxın qızları kimi instituta girə bilməzdim? Gətirib göstərərəm atestatımı, bütün qiymətlərim dörd-beşdi. Bircə “bədən tərbiyəsi”ndən Şirin müəllim “üç” yazdı mənə. Elə o “üç”ü də sənə görə aldım. Qızlar soyunurdu “bədən tərbiyəsi” dərsində, mən soyunmurdum. Çünki Şirin müəllim az aşın duzu deyildi, gözü qızların döşündə-başındaydı. Mən bircə dəfə də soyunmadım, Sirin müəllimə də açıqca dedim ki, soyunmayacam, xalam oğlu bilsə məni də, səni də öldürər. Şirin müəllim bir söz deməsə də acığa düşüb mənə “üç” yazdı. Təkcə sənə görə getmədim oxumağa... - nəhayət, Fəridə qarpızı yeyib qurtardı, əlini-ağzını salfetka ilə sildi. - Qıymadım sənə, istəmədim ki, şəhərdə üzü-üzlər görmüş kişilər mənə baxsın. Bizə paxıllıq eləyən çoxdu, bir şey oldu-olmadı, Xatirəgil beşini də üstünə qoyub danışır. Gör şəhərə getsəydim nələr düzüb qoşardılar. Mən də dedim, Ali məktəb, institut-filan sənə qurban olsun. Əgər oxumağa getmədimsə, həlbət ki, mən də ərə getməliyəm. Kimin qızından əskiyəm?! Sinfimizdəki qızların bir-ikisi şəhərə oxumağa getdi, qalanları ərə... Düzdü, hələlik nişanlı olanlar da var, onların da bu gün-sabah toylarıdı. Çoxu elə son zəng günü qoşulub qaçdı, ev-eşik oldu. Yaxşı, mən ərə getməyib yenə səni gözləsəm camaat haqqımızda nə fikirləşər? Bacılarım mən yaşda olanda oğul-uşaq sahibi idilər. Mən evin sonbeşiyiyəm, elə sən də, - son kərə qədəhi doldurub boş butulkanı masanın altına qoydum, çox içdiyimdənmi, yeyib ağırlaşdığımdanmı aşağı əyiləndə başım gicəlləndi, az qala stuldan yıxılacaqdım, birtəhər dikəlsəm də tənbəlləşmişdim, oturduğum yerdə mürğüləyirdim, gözümün birini açıb birini yumurdum, bir butulka əlli faizlik Polşa arağını içmək hər oğulun işi deyildi, özü də plovla araq sən deyən tutmur, doğrusu, inanmazdım ki, bu qədər içəcəm, arağın ağzını açanda sərbəstlik üçün bir-iki qədəh vurmaq fikrindəydim, vəssalam... - deməli, biz evlənsək bizim ev, sizin ev, üstəgəl sənin şəhərdəki evin bizim olacaq, - söhbət alış-verişə yönələndə bacardıqca diqqətimi cəmləyib qulaqlarımı şəklədim. - Pis dolanmayacağıq, bilirsən, anam nə qədər cer-cehiz alıb mənə? İstəsən burda yaşayarıq, istəməzsən, şəhərə köçərik. Qızımız həkim olar, oğlumuz da...

Bu yerdə yorğun-yorğun xalaqızının sözünü tamamladım:

- Tamada...

İncik-incik dodaqlarını büzüb davam elədi:

- İii...yox... Elə demə... Zarafar yeri deyil, mən ciddi danışıram. Ola bilər, sənə gülməli görünür, annıyıram, kişi xeylağısan, nə vecinə... Ancaq indi bütün kənd bilir ki, sən bizdə oturub plov yeyirsən, araq içirsən. Özüm istəmişdim sənnən təkbətək, üz-üzə oturaq, razılığa gələk, dərd-sərimizi bölüşək. Camaat bizdən toy-düyün gözləyir, sən qıymazsan, axı, doğmaca xalanın evində yeyib-içib, qapını çırpıb gedəsən, xalan qızı el içində rüsvay olsun, Xatirənin əlinə girəvə düşsün. El-oba bizdən qəti tədbirlər gözləyir, - “qəti tədbirlər” kəlmələrini mən çox işlədirdim, inanmazdım ki, Fəridə belə deyəcək, ümumiyyətlə, Fəridə belə sözlər deyə bilər. - Həm də, iraq-iraq, sənin haçansa alacağın qız mənnən yaxşı olmayacaq ki... - zəndlə üzümə baxıb hiyləgərcəsinə, bic-bic qımışdı.

Axırıncı qədəhi içib güc-bəla ilə stuldan qalxdım və yandakı kresloya yayxandım:

- Yaxşı, - dedim heysiz-heysiz, - görərik qəti tədbirləri. Sən bir çay gətir...

Xalaqızı istiqanlılıqla dedi:

- Mer-meyvə-zad yemədin e...

- Bəsdi, daha yeməyə yerim yoxdu. Çay gətir.

Bilmirəm, Fəridə çay gətirdi-gətirmədi, çayı içdim-içmədim, gözlərimi açanda ay-ulduztəhər kölgə gördüm, ağzım zəhər dadırdı, dilim-dodağım qurumuşdu, azca özümə gəlib gözüm alaqaranlığa alışanacan yan-yörəmə baxdım. İri taxtda çılpaq uzanmışdım, bədənim əzgin idi, başım şişib balqabağa dönmüşdü, bircə şeyi başa düşürdüm ki, evimizdə deyiləm. Birtəhər stulun başına atılan şalvar-köynəyimi tapıb geyindim. Qalxanda başım yüngülcə gicəldi. Termodan yapışdım, demə, o da möhkəm deyilmiş, az qala aşacaqdı. Termo məni saxladığı kimi, mən də onu aşmağa qoymadım. Güzgüdə yepyekə qaraltıdan savayı heç nə görmədim. Ətrafdan da səs-səmir gəlmirdi, deyəsən, evdə heç kəs yox idi. Artırmaya çıxdım. Gecə idi, hardasa itlər hürüşürdü və o hürüşlərin içində öz adımı öləzik-öləzik eşidirdim, əlbəttə, məni itlər yox, kimsə çağırırdı. Qonşu otağın pərdədən əlavə cuna da çəkilmiş qapısı açıqdı. Astanadan içəri boylandım. Otağın arxaya, bağ-bağçaya pəncərəsi vardı və o pəncərədən bozumtul ay işığı divanda lüt-üryan uzanan Fəridənin çılpaq bədəninə düşürdü. Qəfil elə bil başımın ağrısı kəsdi, heysizliyim keçib getdi, səs salmamaqdan ötrü ayaqlarımı yavaşca döşəməyə basa-basa, ehmalca divana yaxınlaşdım. Ay işığında qızın ağappaq bədəni bərq vururdu. Durduğum yerdəcə ona tamaşa elədim, sonra diz çöküb əlimi ürkək-ürkək döşlərində gəzdirdim, yumşaq qarnına, göbəyinin üstünə sığal çəkdim. Qımıldanmırdı, ya yatmışdı, ya da özünü yuxuluğa vurmuşdu. Dodaqlarımı qızın döşlərinə toxunduranda oyandı, deyəsən: “Nə olub, ay bala?” - pıçıldadı. Tez özümü bayıra atdım, çünki bu xırıltılı səsini tanıyırdım. Görünür, hələ tamam ayılmamışdım. Çəkmələrimi tapmayıb ayaqyalın həyətə düşdüm, həyətdəki masa bomboş idi, stullar, kreslo da gözümə dəymədi. Kreslonun yerində bir vedrə su vardı. Vedrəni masaya qoyub başımı suya soxdum. Başımı vedrəyə soxmamışdan əlimi boğazıma salıb həyəti bir balaca batırdım və darvazanı açıb həyətdən çıxdım. Hər yan qaranlıq idi, ağımtıl, narın gecə buludları tez-tez ayın qabağını kəsirdi. Ayaqyalın, başımın suyu boyun-boğazımdan süzülə-süzülə Kürün qırağı ilə evimizə qayıdırdım. Kürün suyu qapqara qaralmışdı, arabir ay gecə buludlarından “azad olanda” suyun üzünə bozluq çökürdü. Yaş köynəyim bədənimə yapışmışdı, ayaqlarım kol-kosa ilişirdi. Hərdənbir dayanıb ayağımın altına baxırdım. Kənd yatmışdı, yol boyu məni qurbağaların qurultusu və cırcıramaların aramsız, yeknəsəq nəğməsi müşayiət eləyirdi. Sanki yer üzündə qurbağalardan və cırcıramalardan qeyri canlı qalmamışdı. Uzaqlardan gələn motor uğultusu, kater səsi belə qurbağa və cırcıramaların “həmrəyliyi” qarşısında kəsərsiz idi. Evimizə az qalmış qurbağaları, cırcıramaları unutdum. Hardansa peyda olan bir dəstə it hürüşə-hürüşə düşdü dalımca. Daş-kəsəkdən tullayıb itləri qorxutmaq fikrindən vaz keçdim, səs-küydən duydum ki, itlər çoxdu, qaranlıqda daş tapıb atanacan iş-işdən keçər. Həm də, daşı hara, nəyə atacaqdım, heç nə görmürdüm. Uşaqlıqdan bilirəm, bizim kənddəki qurdbasan itləri həyətdən buraxmırdılar ki, camaata xətər toxundurar. Görəsən, hansı başdanxarab buraxıb itləri bayıra? Hürüşmədən bilinirdi ki, arxamca gələn yiyəsiz küçə itləri yox, qurdbasandı.

Yulğunluqda gizlənmək ağılsızlıqdı. Evə çox qalsaydım, özümü Kürə vuracaqdım, hələliksə, qaçmağa başladım, itlər boğuq səslə hürüşə-hürüşə arxamca gəlirdi, get-gedə boğuq, hikkəli hürüşü lap aydın hiss eləyirdim, itlərin qəzəbli nəfəsini duyurdum. Kənd evlərinin çoxunda iki həyət qapısı olur. Biri əsas darvaza, o biri arxada balaca qapı, bir növ, dal qapı... Bizim həyətin Kür tərəfdən dal qapısı olsaydı - atam balıqçılıq eləsəydi, hökmən olardı, - evə

çatmışdım. İndisə hasarımız boyu fırlanıb darvazaya yetişməliydim. Darvazasa bağlı idi. Gərək elə arxadan aşaydım hasarı, boş yerə vaxt itirdim. Daş hasara dırmaşanda köynəyim cırıldı. Hasarın üstündə oturub nəfəsimi dərə-dərə itlərə acıq verdim, itlər də aşağıda darvazanın dibini eşələyərək səs-səsə verib hürüşdü. Ancaq bu uzun sürmədi, mən artırmaya qalxanda hürüşmə kəsildi, qəfil sakitlik çökdü, sanki bayırda it-mit yoxmuş...

* * *

- Köynəyini harda cırmısan?
- Gecə hasarımızı aşanda cırıldı.
- Darvazanı niyə döymədin? Ayıq yatıram mən... Yuxum-zadım yoxdu düz-əməlli...
- İtlər düşmüşdü dalıma, macalım olmadı...
- Yazıq balam, - əlini saçlarıma elə çəkdi ki, doğrudan-doğruya özümə yazığım gəldi, - kənd-kəsəyə ildə-əyyamda bir yol gəlirsən, itlər də tanımır səni. Xalan axşam zəng vurub dedi ki, orda qalacaqsan, ona görə bağladım darvazanı...
- Ayrı nə dedi?
- Heç nə. Dedi ki, Fəridəni almaq istəyirsən, - yuxarıdan-aşağı üzümə baxdı, sifətindən heç nə oxumaq olmurdu, mənə elə gəldi ki, onun çöhrəsindəki qırışların sayı artıb, bəlkə, həqiqətən beləydi, çoxdandı görüşmürdük. - Amma sepi boynunda aparıb, boynunda gətirmisən...
- Nə sep? - əlimi boğazıma apardım. - Sepi vermək yadıma düşməyib...

Halını pozmayıb yorğun-yorğun üzümə baxmaqda davam elədi. İllər keçdikcə balacalaşıb rəngi qarışan gözlərindən heç nə oxumaq olmurdu, amma xatirimdədi ki, mən balaca olanda o gözlər daha iri idi, daha canlı idi, ən əsası, daha işıqlı idi, bəzən par-par parıldayardı. Ya bəlkə mən o vaxtlar hər şeyi parlaq, işıqlı görürdüm?

- Nədi?.. Deyəsən, məni evləndirmək planını özün cızmısan, axı...
- Plan cızan olsaydım, nə dərdim vardı. Düzdü, yaşın keçir, evlənmək lazımdı, ancaq ki, kimi aldın mənə nə dəxli? Özün yaşıyacaqsan... Di gəl, işi elə tutmaq gərəkdi ki, nə şiş yansın, nə kabab. Necə istəyirsən eləcə elə, amma anla ki, sən sabah çıxıb gedəcəksən, biz, yəni dədənlə mən ölənəcən burda qalacağıq. Biz onsuz da hamıdan çəkinirik, zəmanə xarablaşıb, indi adamlardan nə desən gözləmək olar. Yazıq dədən - o da mən xasiyyətdədi, düz deyiblər ki, ərnən arvadın torpağı bir yerdən götürülüb - neçə gündü qəsdən sənin gözünə görünmür ki, birdən elə bilərsən sənin başına ağıl qoymaq niyyətindədi, yaxud bu işlərdən xəbəri var. Haqqına desəm, xəbəri var olmağına, ancaq ki, qabaqcadan mənə deyib ki, ay Məsmə, məni bu işə qatmayın, oğul mənimdi haçan istəyər evlənər, kimi istəyər alar, özü bilər, oxumuş adamdı, day bizim ona məsləhət verən vaxtımız ötüb...
- Belə işin vardısa, dünən sepi niyə mənə verdin?
- Yox, mən demirəm ki, xalanqızını al-alma, yox, yox... - əslində sualımı cavabsız buraxdı. - Fəridə pis qız döyül, gözümün qabağında böyüyüb, doğmaca bacım qızıdı, ancaq ki, yenə də özün bilərsən. Sabah bir həngamə qopanda üstümüzə gəlmə ki, ay filan-filan olmuşlar, bu nədi almısız mənə? Biz qoca adamlarıq, bizim dava-dalaşlıq halımız yoxdu, bala. Heç sənin də ipinin üstünə odun yığmağa taqətimiz qalmayıb. Düz-əməlli bilmirik ki, nəçisən, şəhərdə, nəynən məşğulsan, indi durub ayağımızı yerə vuraq ki, evlən. Qəfil sən də acığa düşüb üzə durarsan ki, heç evlənmirəm! - zarafata saldı. - Siz evlənəndə məndən məsləhət almışdız? Bəlkə, şəhərdə gözaltın var, ya müharibə olduğundan, evlənmək istəmirsən? Görürsən, bir xeyli bəhanə

tapmaq mümkündü, - aradan çıxmaq yollarını göstərirdi mənə. - Belə ki, görürəm bu dava qurtarana oxşamır. Qaldır başını, - dikəldim, boyunbağını boynumdan çıxarıb əlində oynada-oynada davam elədi. - "Hə" də desən, "yox" da desən, belə... - azca fikirləşib uyarlı sözlər axtardı, - yumşaq de. Elə de ki, sən gedəndən sonra - hərçənd sən heç kəsə heç nə deməmiş, məqsədini açmamış guya, bizdən inciyib şəhərə qayıda bilərsən, ancaq ki, bu çıxış yolu döyül, bu məsələni birkərəmlik həll elə, bu düyünü rahatca aç, sonra buyur get, Allah amanında - gəlib bizə "sağ ol" da desinlər. Adamın cəlladı dildi, bala. Qoca vaxtımızda düşmən qazanmaq bizə yaraşmaz, axı...

- Elə cavanlıqda da beləydiz... Yadımdadı, bacıma bir gündə iki yerdən elçi gəlmişdi, siz ikisinə də "hə" demişdiz. Yaxşı ki, bu arada üçüncü istəkli çıxıb qaçırtdı qızı. Yoxsa biabır olacaqdıq. Əlacsızlıqdan qoşulub qaçdı yazıq qız, xalxın qızları kimi gəlin köçmədi, - sözləri hay-küysüz deyirdim, adicə söhbət kimi danışırdım, doğrudan-doğruya adiləşmişdi mənim üçün olub keçənlər. - Xatirə gəlir bizə, xalamın qarasınca o ki var döşəyir, dillənmirsən. Xatirə gedir, xalam gəlib Xatirədən danışır, yenə ağzını açıb bircə kəlmə demirsən. Axı, nədən qorxursuz e, evinizin içində?..

- Bizim nəyimizə gərək, qoca adamıq... İndi kolxozun-molxozun adı qalıb. Hərə evinin qabağına bir stol qoyub İrandan, Türkiyədən, Dubaydan gətirdiyini satmaqla dolanır. Bə biz neyləyəcik dar ayaqda? Yaşımız ötüb, bala. Əlimiz boş, arxamız-köməyimiz yox... Gərək el-oba ilə birtəhər yola gedib, dil tapıb girləyək başımızı...

- Otuz ildi özünüzə qoca deyirsiz...

- Xatirə vəkil tutub bizi, ya bacım? - anam da mənim kimi sakit idi. - Biri bacımdı, biri rəhmətlik qardaşımın arvadı. Mən niyə tərəfkeşlik eləməliyəm? Hansı haqdı, hansı nahaq yuxardakı bilər...

- Nə? Şikayət-zad da yazırlar ki?..

Anam çaşsa da soruşduğumu anladı:

- Yox e, yəni Allah bilər. Tanrı o dünyada hər kəsə öz əməlinə görə verəcək. Biz kimik ki...

Anamı karıxdırmağa çalışdım:

- Demək, almırıq Fəridəni, hə?

Yaxasını kənara çəkdi:

- Öz işindi. Fəridə yaxşı qızdı, öz balamdı, ancaq ki, yenə özün bilən məsləhətdi. Dolanışıq çətinləşib, zəmanə dəyişib, adamlar yeməyə çörəyi gücnən tapır, indi köhnə palan içi tökməyin yeri döyül. Qardaşımı Əzrayıl apardı, Xatirə ərə getdi, yazıq bacım o vaxtdan düşməndi Xatirəyə. Qardaşına görə, yoxsa, ayrı nə şərikli malları var idi ki? Axtarsan bacım da haqlıdı, elə Xatirə də... Cavan gəlinin əl-ayağını zəncirləyib saxlamaq olmazdı ki... O vaxtdan kəndin yarısı Xatirənin tərəfindədi, yarısı bacımın. Elə o vaxtdan da mən Xatirə ilə bacımın arasında qalmışam. Qabaqlar kolxoz vardı, iş-güc çoxdu, camaat pambıq yığırdı, sübhdən çölə gedib gün batanda qayıdırdı, yorulub əldən düşürdü, odu ki, qeybətə, dedi-qoduya bir heylə imkan olmurdu. Indisə iş yox, güc yox, dedi-qodu boğazacan. Odu ki, qalmışam odnan suyun arasında. Bacımın başına Fəridəni sənə vermək məsələsi girəndən lap aləm qarışıb. Gecəni də səksəkəli yatıram, çünki istəmirəm sən mənim, ya bacımın sözüynən evlənəsən. Açığın deyim, qorxuram, bala, sabah yola getməsəz, mən başıma haranın külünü tökəcəm? Axır sözü yenə gərək sən özün deyəsən.

Bacında da heylə oldu, a bala, yadındadı, iki nəfərə "hə" deyib qalmışdıq kəsilə-kəsilə, bacın şəhərdən, institutdan kanikula gələndə açdıq məsələni ki, bəs bir işə düşmüşük, bir həftədi səni iki nəfərə vermişik. Düzdü, üzük-zad almamışıq, ancaq ki, verilən söz min üzükdən irəlidi. Yaxşı ki, söz verdiyimiz

adamlar kənddən döyül, biri dədənin uzaq qohumudu, biri mənim, ona görə heç birindən keçə bilməmişik.

Demə, qızın şəhərdə istəklisi varmış, bizə dedi ki, darıxmayın, biz pərt olmuşduq, utandığımızdan gizlənməyə yer axtarırdıq, bacınsa güldükcə gülürdü. Üç gün sonra şəhərə qayıtdı, istəklisinə qoşulub qaçdı. Oğlan da qoymadı bacın institutu qurtarsın, uşaq, ev-eşik qatdı başını. Zəhməti hədər getsə də, töhmətdən qurtardıq. Şükür, Allah canlarını saxlasın, indi pis dolanmırlar. Bizə başqa nə gərəkdi ki? Təki sakitlik, salamatlıq olsun. O ki qaldı dünən sənə verdiyim sepə, - nəhayət, bayaqkı sualımın üstünə gəldi. - Dünən qəsdən xalanın yanında verdim sənə bunu, - ovcunu açıb boyunbağını göstərdi. - Yəni, ay bacı, mən ikiəlli razıyam xeyir işə. Əgər Fərideni alsan onsuz da nəyimiz var verəsiyik ona, yox, almasan da, eybi yoxdu, balaca sepdi də, halal xoşu olsun, təki ürəyində kin-küdurət qalmasın xalanın, - qımışdım, yamanca diplomatmış anam. - Düzdü, sən işləri bir balaca korlayıb sepi geri gətirmisən, ancaq ki, eybi yoxdu, xalan gördü ki, mən onu Fəridəyə sidq-ürəklə göndərdim, sepi verəndə xəlvətcə sənin qulağına heç nə pıçıldamadım. Gülmə, gülmə, bacı mənimdi bilirəm nə deyirəm, insandı, ürəyinə nə desən gələr...

- Saat neçədi? -söhbətdən yorulub dikəldim.

Anam saata baxmaq üçün qonşu otağa girdi və:

- Beşə qalıb, - dedi. - Buy, başıma xeyir, gör nə qədər yatmısan...

... Yerimdən duranda başımda ağrı-zad yox idi, özümü yüpyüngül hiss eləyirdim...

* * *

Çay-çörəkdən sonra bayıra çıxmaq istədim, amma xalamgildən ayaqyalın gəlmişdim. Dədəmin ayaqqabısını geyinə bilməzdim, yazığın əl-ayağı da boy-buxunu kimi balacaydı. Köhnə bir şey ayağıma keçirib camaatın gözünə görünmək - özü də kənddə qiymətimin gözgörəsi artdığı zamanda - olmazdı. Anama dedim ki, çəkməm xalamgildə qalıb. Dedi ki, bilirəm, xalan zəng vurub dedi ki, balam, deyəsən, uça-uça gedib, yuxudan duranda denən gəlib ayaqqabısın aparsın.

Bu da siyasi gedişdi, yoxsa, çəkməni kimdənsə göndərmək çətin deyildi. Nə isə, evdə oturası oldum. Təzəcə şam eləmişdik ki, darvazamız hökmlə açılıb örtüldü. Xatirənin hay-harayı, səs-küyü özündən qabaq gəlirdi, darvazanın ağzında dedikləri artırmada eşidilirdi:

- Ayə, təzə gəlinlər kimi nöşün evə girmisən? - yuxarı qalxıb mənimlə üzbə-surət əyləşdi. - Məsmə xala yumurta-zad qoymuyub ki, sənin altına... - zarafat öz yerində, lakin Xatirə həmişəki deyildi, narahatdı. Həyətimizi təriflәyəndə də - guya, bizim həyət-bacanın səliqə-sahmanından, təmizliyindən ağcaqanad azdı buralarda - çaşqın görünürdü, özündə-sözündə deyildi. Təbii ki, Xatirənin tərifi anamın ürəyindəndi, çünki evimizdə təmizlik işlərinə anam baxırdı. Xatirə isə öz hayında idi, anama xoş gəlmək üçün yox, beynindəki fikirlərdən yaxa qurtar-maqdan ötrü təmizlik məsələsini atmışdı ortaya və yəqin ki, bu da ona kömək eləmədi, tərəddüddəydi, hərəkətlərində də nizamsızlıq açıq-aşkar duyulurdu; mürəbbə ilə dolu qaşıq əlində duruxub qalmışdı, bilmirdi qaşığı ağzına aparsın, ya mürəbbəni stəkana, çayın içinə töksün. Bir anlığa bayaqkı hay-küyü də keçib getdi, araya sükut çökdü, nəhayət, yəqin ki, özlüyündə qərara gəlib şuxlaşdı, qaşıqdakı mürəbbəni çayına töküb qarışdırdı, mənalı-mənalı bir anama, bir mənə baxıb qaş-gözünü oynatdı. - Yedin Fəridənin plovun?

- Onu sən hardan bilirsən? - soruşdum.

- “Qolos Amerika” deyirdi, - Xatirənin gülüşü aləmi götürdü, yaxşı ki, xalamgillə qonşu-zad deyildik. - Fəridə ləzzətli plov bişirir.

- Bilirəm, yedim...
- Ayə, o qız heç qayğanaq da bişirə bilmir e... - Xatirə şahid axtarıb üzünü laldinməz oturmuş, bizə qulaq asdığını, ya fikri uzaqlara getdiyini kəsdirmək müşkül olan anama tutdu. - Düz demirəm, Məsmə xala?

Anam cavab verməyib sakitcə çayından bir qurtum aldı, sanki yanında ins-cins yox idi.

Xatirə dərinə getmədi:

- Kişi hardadı, ay Məsmə xala?

Anam dedi:

- Nə bilim, çöldə, - yox, arvadın qulağı bizdəymiş.
- Mən gələndən kişi evdə tapılmır, - dedim.
- Yəqin, ordadı da... - Xatirə əli ilə haranısa göstərdi.

Anam çiyinlərini çəkdi.

- Ora haradı? - xəbər aldım.
- Sonra deyərəm, - Xatirə çayını içib stəkanı nəlbəkiyə qoydu. - Dur, düş qabağıma, - Anama xala xətrin qalmasın ağızucu izahat verdi. - Şuranın evində yır-yığış eləmək istəyirəm, üşənirəm nəsə, qoy yanımda bir kişi xeylağı olsun.

Dediklərinə nə mən inandım, nə anam. Hərçənd anamın sifətindən heç nə oxumaq olmurdu.Xatirə qorxur... işə bax! Axşam-axşam da yır-yığış eləyərlər? Qonum-qonşuda adam qəhətdi ki, mənim dalımca gəlib? Sadəcə, “gedək bizə” desəydi, bundan min kərə yaxşı idi.

Anam yenə yaxasını kənara çəkdi:

- Öz işinizdi...

Mən dedim:

- Heç yerə gedə bilmərəm...

Xatirə duruxdu:

- Niyə, ayə, altına batırmamısan ki... - ərklə ayağa qalxdı. - Dur görüm, yoxsa, qorxursan ki, xalanqızı səni mənnən görüb, day sənə gəlməz...
- Əşi yox e, - dedim çarəsizliklə. - Ayaqqabılarım qalıb olarda...

Xatirə qəhqəhə çəkdi:

- Bə necə gəlmisən?
- Ayaqyalın...

Xatirə ciddiləşdi:

- Qəsdən gizlədiblər, vallah, - anama baxdı. - Yəqin, cadu-madu eləyirlər... - Anam dinmədi. - Gecə itdər dalına düşəndə ayaqyalın qaçırmışsan, ayə?.. - Xatirə kürəyimi şappıldatdı.

Təəccübləndim:

- Onu sənə kim deyib?
- Mirzə Xəzərdən eşitdim, - Xatirə pilləkəni enə-enə dedi. - Gəl düş qabağıma, köhnədən-külüşdən gey, axşamdı, göz-gözü görmür, kimdi sənə fikir verən? Day o ayaqqabılardan gözünü çəksən yaxşıdı...

Hələ də ayağa qalxmamışdım. Xatirə aşağıdan:

- Tez ol də, bir şey tap, geyin, - çığırdı. - Səni dalıma alıb aparmayacam ki...

* * *

Axşam-axşam kəndin başından vurub ayağından çıxdıq. Rus qəbiristanlığı, müsəlman qəbiristanlığı, təzəcə təmir olmuş məscid - hə, məscidin yanından keçəndə Xatirə dedi ki, yəqin, dədən burdadı, matım-mutum qurudu; deyəsən axı, bizim kişi qocalığında mollalıq fikrinə düşmüşdü - İsmayılgilin evi, Xəlilgilin evi, məktəb, klub, İslamın mağazası... Arabir Xatirəni dümsükləyirdim: “Şuranın evinə gedirik, ya gəzməyə çıxmışıq?”. Sözlərimə məhəl qoymurdu, bircə: “Şuranın evi qəbirdi day,” - dedi. Daha kəlmə kəsmədik,

təkdənbir rastlaşdıqlarımızla salam-kəlamlaşdıq, vəssalam. Kənd yerində hava ki qaraldı, bayır-bacada adam olmur. Baxmayaraq ki, dədəm məsciddə idi.

Düzü-düzünə getsəydik çoxdan mənzil başındaydıq, Xatirə bütün kəndi dolaşıb, dövrələyib - bəla burasındaydı ki, mən də onunla fırlanırdım - nəhayət, Şuranın evinin çöl qapısının önündə dayandı. Xatirənin də evi burda idi, əvvəllər aralarında uçuq-sökük hasar vardı, sonralar Xatirə həmin hasarı sökdürmüşdü, yəni Xatirənin həyətindən də Şuranın evinə getmək mümkündü, əslində iki ev bir həyətdəydi. Amma bir olan həyətin iki çöl qapısı vardı və Xatirə açar çıxardıb Şuranın taxta qapısını nümayişkəranə açaraq həyətə girdi, mən də onun ardınca içəri daxil oldum. Həyət alaqaranlıq, qat-qarışıq, səliqəsiz idi. Əlbəttə ki, Şuranın evi tərəf. Deyəsən, həqiqətən Şura basdırılandan Xatirə buralara ayaq basmamışdı, kim nəyi hara atmışdısa eləcə də dururdu. Ayağımın altına diqqətlə baxırdım ki, təsadüfən nəyəsə ilişib büdrəməyim. Xatirədə günah yoxmuş, qaranlıqla sakitliyin içində addım səslərini eşitdikcə və yiyəsinin cəmi üç gün qabaq öldüyü beynimdə dolaşdıqca mən özüm də xoflanırdım, Xatirədən dala qalmamağa çalışırdım. Evin qabağındakı tut ağacının budağında ruha, o dünyadan gələnə oxşar yekə bir qaraltı vardı. Demə, kimsə cırıq palaz səribmiş ağaca. Palazın yanına çataçatda sürüşdüm, ayağımın altında qurbağa qaldı deyəsən, pəncəm boyda yumşaqlıq ətimi ürpətdi. Yıxılmamaq üçün əl atıb palazdan yapışdım. Sonra əllərimi murdar, kirli seyə vurubmuşam kimi şalvarıma sildim. “Şura hökuməti dağılmasaydı bu arvad beş-on il yaşayardı, canı bərk idi”, - Xatirə mənzilin qapısını aça-aça sükutu pozdu. Şuranın evi yerdən azca hündür , iri bir otaqdı, qabağında da şüşəbənd. “Denən hökumətin yıxılmağı sənə düşüb də”, - otağa göz gəzdirə-gəzdirə dilləndim. Dəmir çarpayı, dairəvi masa ətrafındakı rəngi getmiş stullar, ağzı qıfıllı sandıq; - rus evində sandıq görməyim mənə qəribə gəldi - otaq səliqə-sahmanlı, hündür tavanı tağlı idi, məncə, bizim kənddə başqa tavanı tağlı ev yoxdu.

“Kiri, ayə, kiri, gic-gic danışsan atacam səni bayıra, - guya, bura gəlməkdən ötrü əldən-ayaqdan gedirdim. - Elə bilirsən, cinnən-şeytannan qorxuram? - düz deyirdi, evin təzəcə silinib süpürüldüyü şəksizdi. - Amma yazıqsan, səni qovsam, ömürlük bədbəxt olarsan, otur görüm, - dinməz-söyləməz stulu altıma çəkib masaya dirsəkləndim, qəfil xof basdı məni, ya nəydisə, yenə yan-yörəmə boylandım, qapıya baxdım, tül pərdəli pəncərəyə nəzər saldım, Xatirə baxışlarımı “tutdu”. - Qorxma, ayə, burda sənin çəkmələrini oğurlayan olmayacaq”, - şüşəbəndə keçib qazı yandıraraq çaydanı üstünə qoydu - açıq qapıdan görürdüm - bir az eşələnib sinidə mürəbbə, limon, mer-meyvə gətirdi. Gətirdiklərini masaya düzüb çay dəmləməyə getdi. Yəqin, ağcaqanadlar Şuranın ruhundan qorxurdu, qapı-pəncərə açıq olsa da bircəsi də yox idi içəridə, bəlkə də evdəki naməlum qoxu ağcaqanadları burdan uzaqlaşdırmışdı.

Xatirə sinidə çay dəstgahını gətirəndə yadıma Fəridənin plovu düşdü. Sanki ürəyimi oxudu, stəkan-nəlbəkini qabağıma qoya-qoya soruşdu: “Ac deyilsən ki?” “Yox, - dedim, - yemişəm.” Oturmamışdan əyilib sandığın yanındakı köhnə televizorun üstündən - gərək ki, televizor xarab idi, çünki ayaqsız-zadsızdı, elə döşəməyə, özü də ekranı divara sarı qoyulmuşdu, yəqin, Şura bu televizordan kətil kimi istifadə eləyirmiş - kartı götürdü. Təptəzə kartdı, qutusunun yapışqanını gözümün qabağında qopartdı. “Falıma baxmaq istəyirsən? - xəbər aldIm. - Mən fala-mala inanan deyiləm”. Çay süzüb mənimlə üzbəüz oturdu və kartı qarışdırmağa başladı: “Ona da inanmırsan?”. “Kimə?” - soruşdum, elə bildim xalamın, ya Fəridənin adını çəkəcək. “Başımızın üstündəkinə”. Sövq-təbii hündür, tağlı tavana baxdım. “Ona da, yuxarıdakına, - Xatirə gülümsündü. - Nə key adamsan, Allaha...” “İnanıram da, şübhələnirəm də,” - dedim. “Yaxşı-yaxşı, kafir-kafir danışma, qulaq as, - dedi. - Başıma gələnlərin əsas səbəbkarı bu

olub, - kartı gözümün önünə tutdu. - Yox, qoy əvvəldən başlayım. Yer üzündə məndən çox ölü basdıran yoxdu. Saçlarımı görürsən, qapqaradı. Çaşma, rəngləmişəm, rəngin vədəsini üç gün ötürsəm başımda düşmən gözünə girəsi bircə qara tük tapmazsan. Ağlayanın bir dərdi var, gülənin min. Acıqca rəngi-rəng dalınca yaxmışam saçlarıma ki, düşmən sevinməsin. Camaat mənə arsız deyib. Saçın nə günahı, saç başına haranın daşını töksün, kim mənim yerimə olsaydı, neçə kərə ölüb dirilməliydi, qədd-qaməti bükülməliydi...

Qulaq as, mən dünyaya gələndə anam rəhmətə gedib. Həkimlər mat qalıbmış, çünki adətən qadınlar ilk uşaq üstə tələf olur, anamsa beş il öncə qardaşımı doğmuşdu, dalınca da iki qız. Düzdü, qızlar bir həftə də yaşamamışdı. Hamı qorxurmuş ki, mən də ölərəm, amma mən yaşadım, anam öldü. Buna görə adımı Xatirə qoydular, yəni anamdan son xatirə. Anam rəhmətə gedəndən sonra qonum-qonşu baxmışdı mənə. Düzdü, dədəm kənd sovetinin sədri işləyirdi, kişi kiminlə istəsə evlənərdi. Evlənmədi... Özü də yetim oğlandı, otuz yeddidə bütün qohum-əqrəbasını tutmuşdular, güllələnən güllələnmişdi, qalanlar sürgündə çürümüşdü. On dörd yaşında sürgün olunmuşdu, nəsillərindən yeganə adamdı ki, salamat qurtarmışdı. Sonra nə səbəbdənsə dədəmi vəzifəyə qoymuşdular. Bəlkə, günahsız çəkdiyi əzabların haqqını ödəməkdən ötrü? Düzdü, o, heç nə danışmırdı, kim günahkardı, kim haqlıdı, guya, sürgündə-mürgündə olmamışdı... Nə isə...

Vilayətin bacısı Zəminə ilə yaşıdam mən. Onun anası Zəminəyə də, mənə də süd verib. Nə danışıram, ilahi, sən hardan biləsən, yazıq tifil altı aylığında sətəlcəmdən öldü. Ağzıgöyçəklər deyibmiş ki, onun ölümünə baiskar mənəm. Hətta kələcək qayınanam Gülnisə üzümə baxıb ifritə-ifritə qayıdıbmış ki, bu körpənin başına Əzrayıl sığal çəkib.

Zəminə ölən kimi anasının südü qurudu, day dədəm əmzikli arvad axtarmadı. Çəkinirdi, görünür, Gülnisənin sözləri dədəmin qulağına çatmışdı, bəlkə də kişi eşitdiyinə inanmışdı. Dədəmgil nəsillikcə allah-tanrı adamıydılar...

Mən inək südü ilə böyüdüm. Beş yaşım olanda dədəm məni qardaşıma, qardaşımı da mamaça Arifəyə tapşırdı ki, mən paykoma gedirəm, gec qayıdacam. Həqiqətən gec gəldi, mən yatmayıb onu gözləyirdim, stulda mürgüləyən qardaşımı soyundurub yerinə saldı, mənim yanağımdan öpüb dedi ki, get yat. Yerimə girdim. Bilirdi ki, yanıma uzanmasa yuxuya getməyəcəm, ancaq masa arxasında oturub papiros çəkirdi, pəncərədən qaranlığa dikmişdi gözlərini, qanrılıb divardakı xalçanın üstündən asılan qoşalülə tüfəngə də baxırdı arabir. Beləcə oturdu, oturdu, qəfil qalxıb dəli kimi irəli şığıdı, başını divara elə çırpdı, sanki divarı dəlik-deşik eləyib keçəcəkdi. Pəncərəmizin şüşəsi çiliklənib töküldü. Mən qışqırıb ağladım, səsə qardaşım oyandı, qaranlıqdan, zülmətdən çəkinməyib qonşuya qaçdı. Qonşular tökülüşüb gəldi.

Dədəm tərpənmirdi, üz-gözü qan içindəydi, qonşular sir-sifətindən üst-başına axan qanı silib onu çarpayıya uzatdılar. Nəhayət, gorbagor Qəmbər həkim gəlib çıxdı. İsmayılın babası Qəmbər... Dədəmin başını sarıyıb getdi. Ona görə gorbagor deyirəm ki, sınıqçı İbrahim dədəmə demişdi ki, Qəmbər düz eləməyib, sənin başını sarımayaydı gərək, başındakı pis qanlar axıracan axıb gedəydi, kəlləndə qalmayaydı.

Qəmbər həkim bir həftə bizdən əl çəkmədi, dədəm üç gündən sonra gözünü açdı, beşinci gün nitqi açıldı, ancaq birtəhər, çox asta, kəkələyə-kəkələyə danışırdı. İlk kəlmələri də bu oldu ki, Qəmbər, day mən yaxşıyam, məndən nigaran olma, divardakı tüfəngi də götür, çıx get. Onsuz da Qəmbər həkim kimdən ötrüsə nigaran olan körəyoğlu deyildi. Dədəm beş gün dilinə heç nə vurmamışdı, heç su da içməmişdi, güç-bəla ilə yataqdan qalxanda gördük təkcə səsi, danışığı dəyişməyib, büdrəyə-büdrəyə yeriyir, əməlli-başlı axsayır, sol qolu da tərpənmir, elə çiynindən taxta parçası kimi sallanır. Qəmbər həkim bir-iki gün

də bizə gəlib getdi, bir şey eləyə bilmədi, əvəzində ağ keçimizi də apardı. Dədəm heç nəyə fikir vermirdi, elə bil anadan şikəst doğulubmuş...”

“Görmüşdüm də sənin atanı, xəstə kişiydi,” - əslində demək istəyirdim ki, qısa elə. Xatirə əlüstü fikrimi anlayıb cavabımı verdi: “Darıxma, səbrin olsun, gələcəm sənin evlənmək məsələnə, - mən səsimi xırp kəsdim. - Xəstə kişiyə bax! Sən onu başını divara vurmamışdan görəydin. Kəndin gəlinləri yox e, ər görməmişləri ondan ötrü dəli-divanə idi. Anam öləndən sonra ərlik qızlar bizdən əl çəkmirdi, biri həyətimizi süpürürdü, biri ev-eşiyimizi yığışdırırdı, biri pal-paltarımızı yuyurdu, hərdən də yola getməyib bir-birlərilə saç yoldusuna çıxırdılar. Amma rəhmətlik dədəm ağır adam idi, ev işlərimizi görməyə gələnlərə gözucu da baxmazdı, baxmağa macalı da yoxdu, yazıq səhərdən-axşamacan işdə-gücdə olurdu”.

Yenə kartı qarışdırmağa başladı və sözünə davam elədi: “Kəndə qaraçılar gələndə mən ya məktəbə təzə gedirdim, ya da ikidə oxuyurdum. Day dədəm xəstə idi, həyət-bacada güclə hərlənirdi. Hamının yadından çıxmışdıq biz, nə harasa gedirdik, nə kimsə qapımızı döyürdü. Ona görə qaraçıların kəndimizə gəlişi ürəyimdən oldu. Deyəsən, elə dədəmin də! Hardansa qəfilcə xeylaq qaraçı doluşdu kəndimizə. Voyenni qorodokun ətrafında əməllicə çadır-madır qurub gecələyirdilər. Səhər açılanda dəstə-dəstə düşürdülər şəhər evlərinin canına. Evdəkilərdən bir şey qoparmamış əl çəkməzdilər. Di gəl, dilənçi payı götürməzdilər. Aldıqlarının əvəzinə fala baxardılar, bircə ayın içində sevgilini istəklisinə qovuşduracaq, yoxsulu varlandıracaq, korun gözünü lalın dilini açacaq cürbəcür əfsunlar oxuyardılar. O günəcən bizim kənddə heç kəs qaraçı görməmişdi, ona görə qaraçıların işi xod gedirdi. Qaraçıları qarğıyan təkcə falçı Xeyransa idi, çünki onlar kəndə qədəm basandan Xeyransanın bazarı bağlanmışdı.

Gələnlər o saat bildilər ki, unudulmuşuq, ya da camaatın başını iş-güc elə qatıb ki, bizimlə maraqlanmağa imkan tapan yoxdu. O vaxtlar bizim evin arxası bomboş çöllük idi, sonralar tikildi arxadakı evlər. Onda evimiz kəndin qırağında, gözdən-könüldən aralıdaydı. Əlqərəz, elə ilk gəlişdən halımızdan agah oldular, evdən nə tapıb verdik götürmədilər. Çal saqqalı sol yanağındakı yekə qara xalı örtə bilməyən kişi yanındakı qaraşın arvadın qulağına nəsə pıçıldadı. Arvad harasa getdi. Bir azdan əlində zənbil qayıtdı. Kişi əl atıb zənbildən yekə bir alma götürdü, iki bölüb yarısını mənə, yarısını yanındakı saçları pırtdaşıq göygöz qıza verib: “Gedin oynayın”, - dedi. Qızla həyətə çıxdıq. Qız dedi ki, xallı kişi onun dədəsidi. İnanmadım, lap düzünəsi, indi şübhələnirəm, onda inanıb-inanmamağa ağıl-fərasətim nə gəzirdi? O dəmsə ağlıma: “Nə xəsis kişidi, zənbil mer-meyvə ilə doludu, almanı yarı bölüb verir...” - gəlmişdi.

Qızın göy gözləri dağınıq, sarışın saçları kimi par-par parıldayırdı. Bənizi isə qaraydı. Mən darağımı gətirib həyətdəki heyva ağacının altında onun saçlarını darayanda yazığın gözləri yaşardı, dözə bilmədi, darağı əlimdən alıb sındırdı. Ağladım. O, məni ovundurmaq, başımı qatmaq üçün cibindən kart çıxartdı. Mən birinci dəfəydi kart görürdüm. Adi kartdı, elə bunnan, - Xatirə masadakı karta işarə elədi. - Qız mənə maraqlı oyunlar öyrətməyə başladı. Əvəzində mən də kitab-dəftərimi tökdüm ortaya. Gözünün ucuyla da baxmadı. Demə, məktəbə getmirmiş, hərfləri də tanımırdı. Qaraçılar bir ayacan kəndimizdə qaldı, həmən adamlarsa hər gün bizə gəlirdilər, xallı kişi ilə dədəm söhbətləşirdi, mer-meyvə gətirən arvad onların qulluğunda dururdu, evimizdə yır-yığış eləyirdi, göygöz qızla mən həyətimizdəki heyva ağacının kölgəliyində kart oynayırdıq, fala baxırdıq. Bircə qardaşım özünə yer tapa bilmirdi, gah evdə dədəmgillə otururdu, gah həyətə, bizim yanımıza gəlirdi. Ancaq karta-marta yaxın durmurdu, elə ağzına su alıb dayanırdı.

Nəhayət, ayrılıq zamanı yetişdi, qız yanağımdan ehmalca öpdü, kartını mənə bağışlayıb dedi ki, biz gedirik. Mən dədəmə xəbər vermək üçün evə cumdum,

qapının ağzındasa donub qaldım. Xallı kişi müştüyünü sümürə-sümürə: "Nahaq bizimlə getmirsən, - deyirdi. - Daha burda qalmağın mənası yoxdu. Gəl gedək..." Dədəm: "Yox," - dedi. "Onda götür bunu..." - Xallı kişi mənə upuzun görünən sükutu pozaraq masanın üstünə bir dəstə pul qoydu. Mən istəyirdim ki, biz xallı kişiyə, mer-meyvə gətirən arvada, ən əsası, göygöz rəfiqəmə qoşulub gedək, qaraçılarla birgə onların köçündə yaşayaq, onlarla birlikdə diyarbədiyar, el-el, oba-oba gəzək, çadırlarda gecələyək.

Həyətə düşəndə birinci və axırıncı kərə qardaşımı gözü, yaşlı gördüm. Dədəm başını divara çırpıb yarımcan olan gecə də qardaşım ağlamamışdı..." "Mən kəndimizə qaraçıların gəlməyini eşitməmişəm", - dedim. Xatirə cavab vermədi, ağzı qızışdığından dediklərimi qulaqardına vurdu.

"Qardaşım səkkizinci sinfi qurtarıb çəkməçi Mahmudun yanında şagirdliyə başladı. Vəzifədə olanda dədəmin Mahmuda nə yaxşılığı keçmişdisə, Mahmud onu dilə tutdu ki, qoy oğlun mənə kömək eləsin, onsuz da tez-tez yanıma gedib kəlir, əlləri qızıldı. Qardaşım neçə gün səhər-axşam baş-qulağını dəng eləyib dədəmi bezdirməsəydi, dolanışığımız yüz qat ağır olsa da kişi bu işə razılaşmazdı. Arzusu bizi oxumuş görməkdi, həm də çəkinirdi ki, qardaşımı yanında şagird götürdüyünə görə Mahmuda söz gələr. Qardaşım da az aşın duzu deyildi, axır ki, qılığına girib dədəmin saqqızını oğurladı. Onda çəkməçi yanına bir elə gedən yoxdu, ayaqqabı könnəldi, tullayıb təzəsini alırdılar. Amma qardaşım Mahmuda şagird olandan nəinki köhnə, çırıq yamamağa, hətta elə çəkmələr tikməyə başladı ki, camaat mat-məəttəl qaldı. Hamı, uşaq-böyük qardaşıma çəkmə tidirməyə axışdı, day heç kəs İslamın mağazasından ayaqqabı almırdı. Çəkməçi Mahmudun balaca köşkü İslamın mağazasına bitişikdi, köşkün qabağına qardaşımın xalı-gəbə kimi naxış vurduğu çəkmələr düzülərdi. Hansı dəli o cür yaraşıqlı ayaqqabıları qoyub mağazaya girərdi? İşi belə görən Mahmud çəkməçiliklə vidalaşıb köşkü qardaşıma verdi. Qocalmışdı, əlləri əsirdi, İslamla da üz-göz olmaq istəmirdi. Qardaşımın tikdiyi çəkmələrin sorağı şəhərə çatmışdı, şəhərin ən hörmətli adamları həmən çəkmələrin üstündə dava salırdılar. Alverçi Gülsənəm - Allah ona rəhmət eləsin - şəhərə ayaqqabı daşımaqdan yorulmişdu. Təkcə İslam o çəkmələrdən geyinmirdi, ancaq Gülsənəm orda-burda danışırdı ki, İslam ondan dörd cüt ayaqqabı alıb, evinə gedən kimi həmin çəkmələri bir-bir ayağına keçirib gözünün qurdunu öldürür. Qardaşım əlinə çəkməçi çəkici alandan, ayaqqabı satmaq sarıdan İslamın bazarı kasadlaşmışdı, düzdü, o da kürəyini yerə verən deyildi, hər ay şəhərdən yeni dəbli çəkmələr gətizdirirdi, amma camaat onlara yaxın durmurdu ki, durmurdu. Qardaşımsa əlini adi gönə vuran kimi olurdu şahzadə malı..." "Sənin qardaşın yadıma gəlir," - dedim dodaqaltı. Yenə sözlərimə məhəl qoymadı: "Elə özü də kişiləşmişdi, bığ-zad qoymuşdu, bir oğul olmuşdu ki, həzrəti Yusif yanında yalandı, - elə danışırdı, sanki həzrəti Yusiflə tay-tuşdu. - Neçə-neçə qız-gəlinin ağlı başından çıxmışdı. Gündə yüz bəhanə ilə bizə gəlirdilər. Evimiz yenə qız-gəlinlə, gülüşlə, qəhqəhə ilə dolmuşdu, elə bil dədəmi təzədən yaxşı işə qoymuşdular. Qızlar qardaşımdan ötrü əldən getdiklərini gizlətmirdilər də... Mənə paxıllıq eləyirdilər. "Bəxtəvərsən, gör necə qardaşın var", - deyirdi bəziləri. Bir dəstəsi ağız büzürdü. "Nəyi bəxtəvərdi, heç olmasa bizim ümidimiz var ki, bəlkə, bir gün bəxtimiz üzümüzə güldü, birimiz ona ərə getdik, bu yazığın yalan-doğru ümidi də yoxdu". Sonra yapışardılar məndən: "Sən Allah, bax gör qardaşın hansımızı alacaq". İşim-gücüm səhərdən-axşamacan fala baxmaq idi, kart əlimdən düşmürdü. Qardaşım zalım da dədəmə çəkmişdi, gözünü qaldırıb qız-gəlinə baxmazdı, bir qaradinməzdi, gəl görəsən. Guya, yaşı iyirmi deyil, əlli idi. Qızların salamına dodaqaltı elə "əleyk" deyirdi ki, yazıqlar qorxudan girməyə siçan deşiyi axtarırdılar. Pis günlərimiz arxada qalmışdı, amma qəfil başımıza səs-sədası bütün kəndimizi bürüyən işlər gəldi...

Hər şey ondan başladı ki, günlərin bir günü mən evdə yalqız olanda - heç vaxt tək qalmırdım, qız-gəlinlərin arası kəsiləndə, ən azı, dədəm həyət-bacada girlənirdi, həmin günsə o da əl ağacını götürüb yıxıla-dura harasa çıxmışdı, - Gülnisə qapımızı açdı. Gülnisəni evimizdə görəndə gözlərimə inanmadım. Düzdü, qardaşıma gözü düşən qız-gəlin evimizdən əskik olmurdu, amma hələ ki, yaşlı, sayılan arvad, yaxud kişi qapımızı döyməmişdi. Bizə gələnlər uşaq-muşaqdı, təzə-tər qız-gəlindi. Gülnisənin qapımızı açmağı o deməkdi ki, day tilsim sındı, biz azadıq. İndi dəbdədi azadlıq-filan söyləmək, ancaq dədəm başını divara vurub yaman günə qalan dəmlərdən evimizə sonuncu ayaq basan Qəmbər həkim olmuşdu, o da gedəndə qoşalülə tüfəngimizi, ağ keçimizi aparmışdı, elə bil ocağımızın bərəkəti də o ağ keçi ilə, o tüfənglə getmişdi. Hərçənd kənd-kəsəkdə gəzib dolanmaqda azad idik, hara desəydin gedirdik, istəyirsən pay-piyada rayon mərkəzinə yol al, kimin səninlə nə işi? Burası vardı ki, qonum-qonşu bizə gəlmirdisə, demək, biz də onların qapısını döyə bilməzdik, beləcə, aramızda gözəgörünməz soyuqluq, halə yaranmışdı. Uzaqbaşı həyətdə, bayır-bacada salamlaşıb hal-əhval tutardıq, vəssalam. İndisə lapdan kim-kim, Gülnisə - gələcək qayınanam - günün günorta çağı görüb baxanın gözünün önündəcə darvazamızı açıb həyətimizə girmişdi, ağır addımlarla evimizə gəlirdi. Əvvəlcə Gülnisənin qabağına qaçmaq fikrinə düşdüm, amma qorxdum ki, arvad elə həyətdən sözünü deyib geri qayıda. Onunsa qayıtmaq fikri yox idi, artırmaya çıxıb mehriban-mehriban üz-gözümdən öpdü. Çaşqın-çaşqın ona baxdım, Gülnisə də day indiki Gülnisə deyildi, hörükləri biləyim yoğunluqda, gözlər, qaşlar qapqara, bədən şaqqalı, qədd-qamətli, döşləri elə bil ağappaq donunu cırıb çıxacaqdı. Kim deyərdi ki, bunun az qala mən yaşda oğlu var? Özü də yaşı otuzu keçəndə ölüm-zülümlə doğmuşdu. Düzdü, sir-sifətdən qara idi, burnu da bir az iri idi - bir suyu sənin rəhmətlik dayına oxşamışdı - hər gözəlin bir eybi olar, deyiblər...

Məni çay-may dəmləməyə qoymayıb elə ordan-burdan sorğu-suala çəkdi. “Necəsiz, nə təhərsiz?..” Day mən yekə qız idim, bu gün-sabah məktəbi qurtaracaqdım, o saat barmağımı dişlədim ki, ay dadi-bidad, Gülnisə özxoşuna gəlməyib. “Maşalla, kəndin qızları sənin qardaşından ötrü hayıl-mayıldı, günləri burda keçir”. “Hə”, - mızıldandım, hər halda, Gülnisə qardaşıma görə gələ bilməzdi. “Deyirlər, fala da baxırsan”. Utanıb gözlərimi yerə dikdim, ərklə qolumdan yapışdı. “Dur qartını gətir. Anan yerindəyəm, adam anasından utanmaz”. Xoşbəxtlikdən qardaşım təzə kart almışdı, hələ heç qutudan çıxarmamışdım. Kartı gətirib təkrarən yanımı yerə basan kimi Gülnisə mətləbə keçdi. “Qısası, ay qızım, yəqin, bilməmiş olmazsan, bizim kişi qoşulub qəhbə... - sənin o qiryətdən dəm vuran xalanın adını çəkdi - dünya-aləm yadından çıxıb. Bax bura, sənin yanına öz balam kimi gəlmişəm, gedərdim falçı Xeyransaya cadu elətdirməyə, intəhası, Xeyransanın ağzı yırtıqdı, qarı qocaldıqca lar ağlını itirir, danışığını, özünü-sözünü bilmir, gecə gördüyü yuxunu da səhər açılmamış hamıya danışır. Burda ikimizik, qızım, bir daş altda, bir daş üstdə, bax qartına, elə elə ki, bizim kişi o qəhbədən əl çəksin, heç evdən bayıra çıxmasın”, - əlini qoynuna soxdu, şax bir onluq çıxardıb qoydu mizin üstünə. Gözlərim bərəldi, həlbət ki, evimizdə təkcə qızların falına baxmırdım. Söhbətləşib dağı arana, aranı dağa qatırdıq. Eşitmişdim, bilirdim ki, Gülnisənin əri Fərhad sənin xalanla o söz...”

Yerimdə qurcalandım, çünki Xatirə “sənin xalan” kəlmələrini xüsusi kinayə ilə dedi. Qeyrətə gəldim, meyvəqabından bir armud götürüb hikkə ilə dişlədim. “Yəqin, yadındadı Gülnisənin əri Fərhad. Mexanizator idi rəhmətlik, pambıqnan maşın yığırdı, e, əstəğfürullah, maşınnan pambıq yığırdı. Başı eyş-işrətə qarışandan iş-güc də yadından çıxmışdı. Kolxoz sədri onu çağıtdırıb möhkəmcə təpinmişdi. “Bu nədi, ə, camaat əlnən səndən çox pambıq yığır”. Fərhad özünü

itirməyib: “Yoldaş sədr, maşınıma cadu eləyiblər, - demişdi. Sədr çörəyi qulağına yemirdi, bilirdi ki, - kənddə sənin o xalanın xoşqiryət ərindən savayı hamı bilirdi - Fərhad işləyib eləmir, çöldə gözdən iraq bir yer tapıb səhərdən-axşamacan sənin xalanı əldən-dildən salır. Deyirlər, sənin o gözəlçə Fəridən də Fərhaddandı. Görmürsən, böyük bacıları qaraqaş, qaragöz, balacaboy, Fəridənin gözləri göy, ağbəniz, boylu-buxunlu, elə bil eynən Fərhaddı.

Əlqərəz, onluğu mizin üstü ilə yavaşca Gülnisəyə sarı sürütlədim, bu dəfə pulu xalatımın cibinə basdı. “Yox, qızım, zəhmətin haqqı olmalıdı, bir onluq da düzələndən sonra verəcəm. Bir daş altda, bir daş üstdə, elə elə ki, Fərhad başıbatmış evə bağlansın”. Qürrələndim, gör Gülnisənin nə boyda işi düşmüşdü mənə, gör Gülnisə mənə nələr etibar eləyirdi? Əslində arada heç bir sirr-mirr yoxdu, hər şey çoxdan aləmə yayılmışdı. Burası danılmazdı ki, Gülnisə mənim ilk ciddi müştərim idi. İlk müştərim idi ki, cibimə pul basırdı, ilk müştərim idi ki, ərə getmək istəyən qızlar kimi şıltaqlıqdan yox, çarəsizlikdən bizə gəlmişdi. Bəlkə də mən onun son umidi idim. “Arxayın ol, - dedim Gülnisəyə, özü də qoca qarılar kimi cəsarətlə, qətiyyətlə dedim, sanki fələyin çərxi əlimdə idi. - Evə bağlanmaq nədi, quzuya dönüb sənin yanından əl çəkməyəcək”, - “yanından” əvəzinə “yatağından” deyərdim, həya elədim. Onsuz da Gülnisə arifdi, demədiyimi göydə qapdı, sevincək boynunu uzadıb mənim saçlarımdan öpdü.

Ay gidi dünya - bu sözü dədəmdən eşitmişdim, özlüyümdə tez-tez işlədərdim, sonralar bildim ki, gidi elə dünya deməkdı, yəni mənası belə çıxır, ay dünya, dünya - bu həmən Gülnisədi ki, körpəlikdə mənə: “Bunun başına Əzrayıl sığal çəkib”, - demişdi, indisə yaltaqlıq eləyir. O dəm kart əlimdə Gülnisənin kimdənsə eşitdiyim kəlmələri yadıma düşdü - zərrəcə şəkk-şübhəm yoxdu onun belə dediyinə - “tanrı şükür kərəminə, düşmənimi ayağıma gətirdin, - pıçıldadım ürəyimdə, xalatımın cibindəki onluğu unudub özlüyümdə lap dərinə getdim. - Özün Gülnisənin cəzasını ver”. Bir anda Gülnisəyə olan rəğbətim öləzidi, öləzidi, tamam sönüküb getdi.

Amma Gülnisə Xeyransadan da ağzıyırtıqmış. Üççə günün içində adımı kəndlə bir elədi. Az qala məktəbdən qovacaqdılar məni, attestat-zad verməyəcəkdilər. Qardaşım məktəbin direktoruna iki cüt ayaqqabı bağışlamalı oldu; özünə verəndə direktor dili ilə demişdi ki, oğluma da bir cüt gətir. İş burasındaydı ki, mən fala baxdığım günün ertəsi çalmışdı. Namus-qeyrətdən dəm vuran xalanın ağuşunda çalmışdı ilan Fərhadı. Xalan Fərhadın ilan vuran yerini xeylağ sorub-sorub zəhəri onun canından çıxarmağa çalışmışdı, bir nəticə hasil olmadığını, işin-işdən keçdiyini görüncə özünü itirib ağız-burnu qan içində, yarıçılpaq çığıraraq camaatı haraylamağa qaçmışdı. Sonralar Gülnisə ilə xalan iki can bir qəlb oldular, day Fərhad yoxdu, şərikli dava-dalaşlı malları qalmamışdı. Gülnisə ərinin ölümündə sənin xalanı yox, məni, bir də özünü suçlayırdı. Guya, xalan aydan arı, sudan duru idi, döşü-başı açıq camaatı haraylayan özgəsiydi”. Yenə qeyrət mənə güc gəldi, meyvəqabından bir salxım üzüm götürdüm. “Mən bu əhvalatı eşitməmişəm, bircə Fərhadı çöldə ilan çalmağı, Fərhadın yası yadıma gəlir, - dedim. - Qalanlar uydurmadı”. “Uydurma-zad deyil, - Xatirə razılaşmadı. - Sənin nədən xəbərin var ki?.. Sənin bildiyinə görə, mən sənin dayına getmişəm, dayın ölüb, sonra mən iki dəfə ərdə olmuşam, bunnan ötrü xalan mənə düşmən kəsilib. Elədisə, bəs anan nöşün düşmənçilik eləmir mənnən, hə? Dayın onun da qardaşıydı, axı...” “Anamın xasiyyəti başqadı”, - mızıldandım. “Yox, - sözümü kəsdı. - Sən mənə qulaq as, fikrimi dağıtma, inanırsan-inanmırsan öz işindi. Harda qaldım? Hə, Fərhad öləndən bir ay sonra qardaşımın çəkməçi köşkü yandı, ordan od düşdü İslamın mağazasına, yanğınsöndürənlər özlərini yetirincə camaat alovu söndürdü. Qardaşımın köşkü külə dönmüşdü, İslamın mağazasının tən yarısı yanmışdı. Rayon mərkəzindən gələn ekspertlər dedi ki, alov qardaşımın köşkündəki

elektrik xətlərinin nasazlığından baş verib. Mən elektrik-melektrik söhbətinə inanmıram. "Köşkü Gülnisə ilə sənin xalan yandırtdırıb", - dedi-qoduları bundan ağlabatandı. Odun İslamın mağazasına düşə biləcəyi ağıllarına gəlməyib. Yanğını elə İslam özü təşkil elətdirib, - deyənləri də qınamaq olmazdı. - Mağazada xeyli əskiyi varmış, həm də qardaşıma qulaqburması vermək xəyalına düşüb. Rayondakı başbilənlərə də bir ətək rüşvət paylayıb ki, günahı qardaşımda görsünlər. Nə isə, neçə ay qardaşımı silistə çəkdilər. Bu arada dədəmin halı pisləşdi, hey deyirdi ki, oğlumu tutacaqlar, nahaq qaraçılarla getmədik.

Bir gün əlinin işarəsi ilə məni çağırdı. Axır vaxtlar dili də fərli-başlı söz tutmurdu, tamam yorğan-döşəyə düşmüşdü, ayaqyoluna da güc-bəla ilə gedirdi. Yaxınlaşdım. Yorğanın altından qızıl suyuna çəkilmiş balaca bir sandıqça çıxardıb mənə uzatdı. Sandıqça ovcuma yerləşərdi, üstündə zərif naxışlar vardı, indi də evimdədi, bilsəydim söhbət bura yönəcək, gətirib göstərərdim. Sandıqçanı açdım, içində üç zərf vardı. Bapbalaca... Baş barmağım boyda. Zərfciklərdə saç, tük... Dədəm özünü yığıb yığmalayıb: "Qaraçılar", - sözünü deyəndə anladım ki, sandıqçadakı zərfciklərdə evimizə gələn qaraçıların saçıdı. Mənə ilk dəfə kart bağışlayan rəfiqəmin qızılı saçları zərfin içində də parıldayırdı. Axmaqlığıma salıb kişinin yaxasından yapışdım: "Bunları neyləyəcik, ay dədə?". Yaman səfeh olmuşam, az qala düzü-düzünə: "Sən öləndən sonra bunları neyləyək, dədə?" - deyəcəkdim, çünki inanmırdım kişi sabaha çıxsın, ancaq nə qorxurdum, nə də ağlayıb sısqayırdım, sanki dədəm köçüb başqa vilayətə gedəcəkdi. "Heç nə...ver onu bura", - dedi kəsik-kəsik. - Get qardaşını tap... Vədə tamamdı...". Başılovlu bayıra yüyürdüm, mənə elə gəldi ki, qardaşım özünü yetirincə dədəmin ruhu bədənindən çıxacaq. Hardan tapacaqdım qardaşımı? Sübhdən gedəndi. Bəlkə, yazığı yenə rayon mərkəzinə çağırmışdılar? Qabaqlar deyildi ki, səhərdən-axşamacan köşkündə gönlə-çəkməylə əlləşəydi. Bəxtimdən elə həyətimizdən çıxanda qardaşımla üz-üzə gəldim. Ağzımı açmamışdan içəri girib tez-tələsik dədəmin yanına qalxdı, stul çəkib ədəb-ərkanla kişinin çarpayısının yanında əyləşdi, əlini dədəmin alnına qoyanda kişi ağır-ağır gözlərini açdı. Araya bir xeyli sükut çökdü, elə bildim kişi day adam-zad da tanımır, amma yox, hələ ki, ağlı başında idi. "Gedirəm, - pıçıldadı, - bacından muğayət ol". Bu yerdə gözlərim doldu, çarpayıya yan alıb kişinin ayaqlarını ovuşdurdum, qaragünlünün ayaqları bumbuz idi. Qardaşım əyilib ağzını dədəmin qulağına yaxınlaşdırdı: "Ölmə, ay dədə, görürsən ki, başımıza nələr gəlib. Soğan kimi soyurlar məni. Lazım olsa ev-eşiyimizi də satacam, ancaq qorxma, gedib türməyə girməyəcəm. Ölmə hələ, dədə, imkanım yoxdu səni layiqincə yerdən götürməyə. El içində rüsvay eləmə məni. İkicə il döz, qoy bir özümə gəlim". Yenə araya sükut çökdü, dədəm ağır-ağır nəfəs aldıqca sinəsinin xışıltısı otaqda əks-səda verirdi. Nəhayət: "İki il?" - inildədi. Qardaşım öləzik sevinclə: "Hə", - dedi, guya, yaşamaq, ölüb-ölməmək dədəmin öz əlində idi. Lakin "sövdələşmə" baş tutdu, dədəm ölgün səsinə uyuşmayan qətiyyətlə: "Yaxşı", - dedi.

Bu sınaqdan da çıxdıq, qardaşım işlərini yoluna qoydu, çəkməçilikdən əl çəkib İslamın mağazasında girələnməyə başladı. İnsafən əvvəlkindən pis qazanmırdı, əziyyəti də azdı. Dədəm də sözünə yiyəlik elədi; yavaş-yavaş sağalıb ayağa durdu, kişi elə gümrahlaşdı ki, verdiyi sözü, daha doğrusu, sözü yox, vaxt-vədənin yetişdiyini yaddan çıxartdıq. Dədəm özüsə hər şeyə hazırdı, heç nəyi unutmamışdı. İndiyəcən mat-məəttəl qalıram, sənə inanmayana lənət, xudaya! Düz iki il sonra - heç gününə söz ola bilməzdi - kişi dünyasını dəyişdi".

"Dayan!" - çığırdım qəfilcə, Xatirə diksinib: "Nə oldu, ayə?" - soruşdu. "Ba... ba... ba..." - gözlərimi yumub açdım, açıb yumdum, sanki yuxudaydım. "Nə kəkələyirsən, ayə, nolub?" - Xatirə qeyri-ixtiyari ətrafa göz gəzdirdi. "Həyətdə

kimsə var, - dedim. - Pəncərənin qabağından kimsə keçdi". Xatirə tosqun qamətinə uyuşmayan cəldliklə bayıra cumdu, mən də onun ardınca çıxdım.

* * *

Ora adam, bura adam, heç kəsi tapmayıb evə girəndə Xatirə gecənin sakitliyini lərzəyə salan gur səslə: "Ayə, kişi qırığı, - dedi, - palazı görmüsən, yəqin". "Palaz pəncərədən görünmür, palazı necə görə bilərəm? Ağacdan düşüb yeriyə-yeriyə pəncərənin qabağına gələ bilməz ki!" "Yaxşı, gördüyün kişi idi, ya arvad?" - Xatirə məzələndi. "Fikir vermədim", - dedim.

Şəhərdəki evimin yanında bir pivəxana var. Orda Faxı adında orta yaşlı bir kişi pivə satır. Zalımın qaşları elə qalındı, sanki alnına da bığ çıxıb. Üzügülərdi, ağappaq dişləri həmişə işım-işım işıldayır. Həmin o pivə satan Faxını mən neçə kərə yuxuda görmüşəm. Görmüşəm ki, Faxının "bığ" qaşları çatılıb, sir-sifəti elə zəhmli olub ki, boylu arvad görsə uşaq salar. Mən qorxa-qorxa Faxının upuzun, cah-cəlallı kabinetinə siyahı aparıram. Faxı zəhmlə üzümə baxıb əlini qalın bığına çəkir, siyahının altından imza atıb bircə kəlmə deyir: "Güllələnsinlər". Hər dəfə də yuxu gördüyüm gecənin ertəsi işə gedəndə pivəxanaya dəyirəm. Faxı uzaqdan məni görən kimi gülümsünüb parçı pivə ilə doldurur. "Gəl, bacoğlu, - deyir. - Xeyir ola, götünmürsən, gözümə də birtəhər dəyirsən. Gecəni necə yatmısan?" Mənə elə gəlir ki, o, gördüyüm yuxulardan xəbərdardı. Gözlərimi Faxının çöhrəsinə dikib sir-sifətindən nə isə oxumaq istəyirəm. O, qımışa-qımışa çirkdən, kirdən qapqara qaralmış əski ilə piştaxtanı silir. Elə bil qəsdən baxışlarını gizlətməyə çalışır.

Xatirə çayı qızdırdı, bir xeyli artırmada eşələnib otağa qayıtdı, yenə mənimlə üzbəsurət yerini rahatladı. "Dədəm öləndən sonra nələr baş verdiyini danışıb söhbəti uzatmayacam, onsuz da çox uzatdım. Bircə şeyi anlatdım sənə yerli-yataqlı... Xalanın mənə düşmən kəsilməyinin əsl səbəbini. Yox, o yan-bu yan eləmə, qoy sözümü danışım. İnanırsan inan, inanmırsan qulaq as, bilmədiklərini eşit, sonra get fikirləş ki, söylədiklərim ağlabatandı, ya gopdu. Hələ de görüm, rəhmətlik dayın yadına gəlir?" "Gəlir". "Bəs mən? İndiki mən yox e, cavanlığım, qız vaxtlarım?" "Gəlir". "Yaxşı, bəs ağlına vurmursan ki, mənim kimi gözəl-göyçək qız aləmin gözünü çıxardıb sənin qarazırtı, pəzəvəng, yekəburun dayına niyə getdi? Axı, neçə-neçə cavan, gözəgəlimli, oxumuş oğlanlar dərdimdən divanə idi. Evimizdən elçilər əskik olmurdu, mənə yazılan məktubları yığıb saxlamaq üçün yekə bir arxiv lazımdı. Ancaq qəfilcə sənin heç hərf tanımayan dayın peyda olur, mən də ona qoşulub qaçıram. Nöşün, balam?" - Xatirə susub cavab gözlədi. Çiyinlərimi çəkdim. "Mən nə bilim. Dayımı yerə vurma, kişi elə kələkötür olsa yaxşıdı, onun da dərdindən ölən qızlar az deyildi". Xatirə güldü. "Kiri ə, kiri, dayın ölüb gedib haqq dünyasındadı, haqqüçünə danış, dayın kimi kifir kişi cəmi Azərbaycanda yoxdu. Kələkötür, kələkötür, day bu boyda yox də!.. Burnunun ağırlığından başını qaldıra bilmirdi rəhmətlik. Özü də məndən on yaş böyük idi". "Yaşın məsələyə nə dəxli?" "Kiri, kiri, tərəfsaxlayana bax!.. Xalanın acığına qoşulub qaçdım dayına!.. Dayın məndən ötrü hayıl-mayıl idi, xalansa əlimdən zəncir çeynəyirdi, məsələni eşidəndə qulaqlarını tuturdu, neçə yerdə neçə kərə demişdi ki, qardaşım Xatirəni alsa özümü yandıracam. Fikirləşdim ki, girəvə mənimdi, qoy yandırsın özünü köpəkqızı! Yandırmadı... Evlənməyimizə razı olmadığını başqa cürə yozdu. Day aləmə car çəkə bilməzdi ki, oynaşımın ölümündə Xatirə günahkardı. Yalansa, onu görüm iki gözündən olsun. "Xatirənin ayağı ağırdı, qardaşımın başını yeyəcək, - dedi orda-burda. - Yazıq qardaşım özünü bədbəxt elədi. Əslində Gülnisədən neçə il qabaq xalan demişdi bu sözü: "Başyeyən". Amma xalanın dediyi dilə-ağıza düşməmişdi, ip salan olmamışdı sözün başına ki, bacıdı, qardaşının halına yanır, bəlkə, özünün

gözaltısı varmış... Xalan hikkəsindən doğma qardaşının toyuna gəlmədi, toydan sonra bizə, yəni babangilə də ayaq basmadı. Mənimsə xöşbəxt günlərim başladı, gündə neçə kərə ürəyimdə: “Yan, çartla”, - deyib xalanı yamanlayırdım, mənə görə atası evinə də gələ bilmirdi, ata ocağına həsrət qalmışdı.

... Sənin o ifritə xalanın ağzına itin poxu, o qədər qarğış elədi ki, cəmi üççə il yaşadıq dayınla. Dayın həyətdə yer belləyəndə dincini almaq istəyib, beli kənara qoyub, ağacın kölgəsində oturub, kürəyini ağacın gövdəsinə söykəyib, ayaqlarını uzadıb... Bir də ayağa durmayıb... Canı da yorğunluğu ilə bir yerdə çıxıb. Rəhmətlik top kimi idi, heç vədə heç yerindən şikayətlənməzdi, dava-dərman nədi, bilməzdi. Sonralar ikinci ərimin yanına şəhərdən dostu gəlmişdi, şəhərdən gələn böyük adamdı, tanınmış həkimdi, sözarası dayının ölümünü özgə adam adıyla danışdım ona. Guya, bizim uzaq qohumumuz, uşaqlıqdan dava-dərman görməyən cavan, sapsağlam adam durduğu yerdə ölmüşdü. Həkim dedi ki, təbabətdə olur belə şeylər. Özü də qəfil, gözlənilmədən ölənlərin yaş həddi iyirmi ilə qırx arasındadı. Belə ölümlərin səbəbi hələ dəqiq araşdırılmayıb. Ən çox Afrikada, Latın Amerikasında tamamilə sağlam adamların qəfil ölüm halları baş verir. Səbəbi elm üçün də qaranlıqdı, sirri-xudadı. Demə, yazıq dayının ölümünün kökləri Afrikaya, Latın Amerikasına gedib çıxırmış. Özüm xəbərsiz ola-ola camaatı necə qandıra bilərdim?

Hə, zurna-balabanlı söz-söhbətlər başladı. Qeybətçilərin başçısı sənin xalan idi. Yasa-masa da gəlmədi, qardaşının ölümünə sevinirdi ki, dedikləri düz çıxıb, mən sənin dayının “başını yeyib” dul qalmışam. Təki dayın balıqçı olub dənizdə-Kürdə boğulaydı, lap Fərhad kimi çöldə-bayırda ilan çalaydı onu. Dilim uzun, deməyə də sözüm olardı. Cavan adam durduğu yerdə - daha doğrusu, oturduğu yerdə - niyə ölsün, axı? Deyəsən, deyilənlər düzdü, axı, deyəsən, mərhumun arvadı həqiqətən bədnəfs, başyeyəndi, axı? Xalanın qeybətinə uyub belə düşünənlər az deyildi. Amma sənin o Qönçə nənənə Allah qəni-qəni rəhmət eləsin. Biz onunla gəlin qayınana yox, əsl ana-bala olmuşduq, sirrimiz-sözümüz bir idi. Rəhmətlik nənən mənə görə, orda-burda mənim haqqımda hərzə-hədyan danışdığına görə öz doğmaca qızını, sənin o ifritə xalanı danışdırmırdı...

...Bu arada qardaşım yoxa çıxdı. Aləm dəydi bir-birinə. Axtarılmayan yer qalmadı. Kolxoz sədrinin qızı qardaşımın divanəsiydi. Sədr özü neçə yerə zəng vurdu, neçə qapı döydü. Qardaşımdan soraq verən tapılmadı. Hərənin ağzından bir avaz gəlirdi, kimi deyirdi öldürüblər, kimi deyirdi gecə çöldə canavarlara tuş gəlib, kimi deyirdi Kürdə boğulub, su pərisinin ona vurulub özü ilə apardığını deyənlər də vardı. Sənin xalansa əməlli-başlı nağıl açmışdı, guya, mən gecələr iblislə danışıram, mən ruhumu iblisə satmışam, buna görə uşağa qalmıram, qardaşım duyuq düşüb məni şaqqalamaq istəyirmiş, ancaq bacarmayıb, mənim istəyimlə iblis qardaşımı çəyirtkəyə döndərib. Ay qəhbə, mən adamı çəyirtkəyə döndərə bilsəydim, day doğmaca qardaşımı nöşün, elə səni döndərərdim!.. Ay pambıq kolunun dibində fahişəlik eləyən şortu, mənim ruhum iblisin nəyinə gərəkdi?! Deyirlər, şortu xalan hardansa iri bir çəyirtkə tapıb salıbmış bankaya, qeybət qırdıqca əşyayi-dəlil kimi göstərirmiş ki, guya, bankadakı çəyirtkə mənim qardaşımdı. Avam camaat soruşmurdu ki, yaxşı, Xatirə qardaşını çəyirtkəyə döndəribsə, həmin çəyirtkə sənin əlinə hardan düşüb? Yəni, bu çəyirtkə həqiqətən həmin o qaraqaş, qaragöz, yaraşıqlı oğlandı? Axı, Xatirə dədəsi evində qardaşı ilə yox, rəhmətlik ərinin evində qayınanası Qönçə arvadla yaşayır, qardaşını ildə-əyyamda bir kərə görür, axı, bədbəxt Xatirə ərinin ölümünə, üstəlik qardaşının yoxluğuna qan ağlayır. Həmişəki kimi xalanın züytutanı, “bacılığı” Gülnisə də yanında idi, - Xatirə nəfəsini dərdi, mən dirsəklərimi masaya dayayıb gözlərimi, alnımı ovuşdurdum, xalamı neçə kərə söydüyünə görə yenə acıqlanıb iki gilə üzüm atdım ağzıma. - İki-üç il ötdü,

Qönçə nənən rəhmətə getdi. Day mən qayınanamgildə yaşaya bilməzdim, dədəm evinə qayıdası oldum. Dədəm evi də suyu sovrulmuş dəyirmandı. Bir az özümə gələndən sonra çox axtardım qardaşımı. Şuraya bir eşşək yükü ərizə, şikayət məktubu yazdırdım, Moskvayacan yazdı Şura. Dəfələrlə rayona, ordan da kəndə komissiya gəldi. Ay balam, adam iynə deyil ki, durduğu yerdə yoxa çıxa. Elə öz kəndimizdəki voyenni qorodokda keçirmişdi əsgərliyini, ömründə rayon mərkəzindən kənara ayaq basmamışdı. Bu adam hara gedə bilərdi, düzəməlli haranı tanıyırdı ki? Başına nəsə gəlmişdisə, araşdırılmalıydı, bəyəm Şura hökuməti yoxdu? Özü də o zamanada qanun-qayda vardı, Şuranın bir məktubunun dalınca beş adam gəlirdi, kənd nədi, az qala rayonda böyükdən-kiçiyə bircə nəfər qalmamışdı ki, sorğu-suala tutmayalar. Neçə kərə evimizi də axtardılar ki, bəlkə, kağızdan-kuğuzdan yazıb qoya, kələfin ucu açıla. Bir nəticə hasil olmadı, nəinki qardaşımı tapmadılar, axırıncı dəfə onu kimin gördüyünü də ortaya çıxara bilmədilər. Ağzıma qara daş, elə bil bu adam binadan bu kənddə doğulmayıbmış, belə adam yerli-dibli yoxmuş. Bəlkə, nə isə bilənlər də deməyə çəkinirdilər. Ağrımaz başlarına dəsmal niyə bağlasınlar? Bəlkə, doğrudan-doğruya heç kim heç nə bilmirdi, görənlər də yaddan çıxarmışdı. Kənd adamlarının günləri bir-birinə elə bənzəyir ki, kimdənsə umub-küsmək, şübhələnmək mənasızdı. Həmişə gözünün önündə olan adam qeyri-adi bir hərəkət eləməlidi ki, yaddaşlardan uzun müddət silinməsin. Hardan bilsinlər ki, bu gün rastlaşdıqları adam sabah yoxa çıxacaq? Həm də üstündən üç ildən çox keçmişdi, çox şeylər yaddan çıxmışdı, unudulmuşdu. Belə baxanda heç kəsi qınamaq olmaz, hərənin başı öz gün-güzaranına qarışıb, camaat bu gün yediyini sabah xatırlaya bilmir. Nə deyim, vallah! Gecə-gündüz fal açırdım. Sağ-salamat olduğu görsənsə də ürəyimi şəkk-şübhə didirdi. Başı əldə olsaydı məni tək qoymazdı, bilirdi ki, ərim rəhmətə gedib. Bizim bir-birimizdən savayı kimimiz vardı, axı? Uzaq yerə getsəydi əvvəlcə mənimlə halallaşmalı idi. Beləcə düşünə-düşünə mən Şuraya ərizə yazdırmaqdan, yuxarıdakılar da bu işdən ötrü göstəriş verməkdən usanıb olub-olacaqlarla barışdılar. Neyləyə bilərdim, görünür qismət beləymiş, yazıya pozu yoxdu...

...Soyuq, çovğunlu-boranlı qış gəlib qapını kəsdi. O ilin qışı küləyi, qarı, şaxtası ilə bahəm, həm də Kürün donması ilə yadımda qalıb. Yəqin, sənin də xatirindədi, - ay Allah, Kürün donması mənim qətiyyən yadıma gəlmir, rəhmətlik babam deyərdi ki, Kür 1924-cü ildə, Lenin ölən il donub, o da bizim yaşımızdan çox qabaqkı müddətdi, bəs Xatirə nələr danışır, necə yəni Kür dondu, necə yəni sənin də yadına gələr? Söhbəti yersiz mübahisə ilə uzatmamaqdan ötrü cınqırımı çıxarmadım, görək dalısınca nələr gəlir, hər halda, Xatirənin nağılı gop da olsa maraqlı idi. - O qış camaat Kürün üstü ilə o tay-bu taya keçirdi, təkcə adamların yox, dördatlı arabanın buzun üstü il keçməyini öz gözümlə görmüşdüm. Cavanlar buzu deşib suya qarmaq sallayırdılar, xeyli balıq tuturdular. O qış camaatı aclıqdan Kürün qarmaqla tutulan irili-xırdalı balığı; çəkisi, sıfı, porusu qurtardı, çünki şaxta gücləndikcə çörək qıtlaşırdı.

Evimizdə divarboyu iri soba vardı, sobanı yandırmağa etiyac olmazdı, adətən aran yerlərində qış mülayim keçir. O qışsa sobasız ötüşmək gözgörəsi donmaqdı. Yaxşı ki, yaydan ağlım işləmişdi, ürəyimə nə dammışdısa, odun-modun tədarükü görmüşdüm. Təkcə sobaya əl gəzdirib qalamaq qalırdı. Bizim evdəki sobanı görmüsən də, daşdan məxsusi hörülüb, ipiridi, kəndimizdə eləsi yoxdu. Rus kəndlərindən bəhs eləyən kinolarda-zadda görmüşəm bizim sobaya oxşarını. Nə isə, sobanın altını çəkib silkələyəndə döşəməyə dəmir düşdü. Tapançaya bənzəyirdi. Barmağımı dişlədim, ayə, bu iqruşkanı bura kim soxub, nə səbəbə soxub? Tapançanı yerdən götürüb ora-burasına baxdım. Gözlərim doldu, deyəsən, yazıq qardaşımın ürəyindən evlənmək keçirmiş. Gorəsən, gözaltısı kim imiş? Gələcək övladına iqruşka-zad da alıb gizlədibmiş. Yəqin,

istəmirmiş ki, kiminsə gözünə sataşa, fikrindən duyuq düşən ola. Yaman qaradinməzdi rəh... əstəğfürullah... Can, ay qardaş, görəsən, indi haralardasan? Harda olursan ol, quruca nəfəsin gedib gəlsin, mənim bəsimdi...

Belə düşünə-düşünə tapançanı sığalladım, elə bilirdim qardaşımın saçlarını qarışdırıram. Kövrəlmişdim, bir an keçsəydi ağlayacaqdım, amma həmin an gəlmədi, qəfil atəş açıldı, dik atıldım, tapança əlimdən düşdü. Nə iqruşka, ayə, bu ki, lap doğurçu tapançaymış! Gülləsi divarı oymuşdu. Şükür ki, qış idi, bayır-bacada kimsə yoxdu, yay olsaydı güllə səsinə evimizə doluşmamış kənd əhli qalmayacaqdı. Bir də şükür ki, evimizi axtaranların əlinə keçməmişdi tapança. Sonra gəl poqonlulara cavab ver! Tapançanı elə yerdə gzlətmək lazım idi ki, heç fələk də tapa bilməsn. Kimindi, sobanın içinə kim qoyub, gec-tez bilinəcək.

Əyilib tapançanı yerdən götürmək istəyəndə gözümün önündə nə isə işıldadı. Bu, o vaxt dədəmin mənə göstərdiyi qızıl suyuna çəkilmiş balaca sandıqça idi. Tapançanı yox, sandıqçanı qaldırdım döşəmədən. Kip qapanmış ağzını açıb zərfcikləri çıxartdım. Heç vədə belə balaca, səliqəli zərfciklər görməmişəm. Elə indinin özündə də... Sanki məxsusi saç saxlamaqdan ötrüydü, məktub-zad sığışmazdı belə zərfə. Biri də olsaydı öz saçımdan bir neçə tel qayçılayıb qoyardım sandıqçaya. Amma artıq zərf yox idi, hələ desən, əskikdi də... Zərfciyin biri yox idi sandıqçada. İçərisində parıldayan qızılı saç olan, mənə fala baxmağı öyrədən rəfiqəmin telləri qoyulan zərfcik gözümə dəymirdi. Süpürgə, nəm dəsmal gətirib sobanın içini ehmalca silib süpürdüm. Zərfciyi tapmadım. Sandıqçanın ağzı kip bağlanmasaydı deyərdim harasa düşüb. Bir anlığa tapança-mapança yadımdan çıxdı, karıxıb döşəməyə sərilmiş xalçanın üstündə oturdum. Fikir məni apardı. Sobanın yanında süpürgə, döşəməsilən divara söykənəli qalmışdı, tapança da bayaq əlimdən düşdüyü yerdəydi. Mən bir az aralıda bardaş qurub sobaya baxırdım, süpürgəyə baxırdım, döşəməsilənə baxırdım, tapançaya baxırdım, əlimdəki sandıqçaya baxırdım, guya, baxdıqca üçüncü zərfciyi tapacaqdım. Əslində ətrafda gözümə dəyənlərə baxsam da heç nə gömürdüm. Xəyalım uzaqlarda idi, hardaydı dəqiq bilmirdim, başımda əcaib-qəraib səslər, əks-sədalar, pıçıltılar, qəhqəhələr bir-birinə qarışmışdı, lapdan mənə elə gəldi ki, yan-yörəm gözəgörünməz məxluqatla doludu. Üşəndim, tüklərim biz-biz oldu. Tapançanı yerdən götürdüm, qorxa-qorxa, həm də, dəli kimi dörd yanıma göz gəzdirdim ki, məxluqat görünsə, atəş açım. O qış günü evimizdə tək-tənha qorxudan, həyəcandan əsməcəyə düşəndə - əlimdəki tapançanın vahiməsi də bir yandan - bircə şeyi anladım; mən bu evdə tək yaşaya bilməyəcəm. O qış günü mənim ikinci kərə ərə getməyimə təkan oldu, o gün mən özüm-özümü ərə verdim". "Heç inanmağım gəlmir sənin kimdənsə, nədənsə qorxmağına. Ərə getməyə bəhanə axtarırmışsan. İstədiyin yar idi, yetirdi pərvərdigar". "Yox, adam haqqüçünə danışar, imamçün ağlayanda, yezidi də düşünmək gərəkdi. Elə bilirsən, Xatirə anasının qarnında möhkəmlənib? Qara günlər daşa döndərib ürəyimi. İstəsəm olub-keçənləri söyləmərəm sənə. Üzündən görürəm: "Mənə nə dəxli?" - fikirləşirsən. Amma dəxli var. Lağa qoymağına bax bir! Yox, bu kişiləşib, xalasının qiryətin çəkir. Sənə inanmıram, sənə inanmıram... Belə, gözüm aydın! Xalanın qiryətin sən küçədə-bacada trusiklə qaçanda çəkmək lazım idi. İndi sənin xalan kimə gərəkdi? Guya, mən eşşək-zadam, sir-sifətini turşutmağından qanmıram ki, kişilik damarın cuşa gəlib. İstəyirsən deyim ki, xalan aydan arı, sudan durudu. Yox, bağışla, deyə bilməyəcəm. Əvəzində bir də ərz eləyə bilərəm ki, deyirlər - tək mən yox a, el-oba, camaat deyir - sənin xalan qızı Fəridə mənim keçmiş qayınatam Fərhadın qızıdı. Fəridə mənim baldızımdı, - Xatirə qımışdı. - Belə ki, sən Fəridəni alsan, baldızımın əri olacaqsan, ikibaşlı qohum düşəcəyik. Burda nə var ki? Özümdən çıxartma məni, mənim sözlərimə şübhə eləyincə, get xalan qızına yaxşı-yaxşı bax. Gör o qız dədəsinə zərrəcə

oxşayır, ya yox? İnan Allaha, o qış günü evimizdə tək-tənha üşənməsəydim, neçə kərə üstümə falçı Xeyransanı elçi göndərən voyenni kişiyə getməyə razılıq verməyəcəkdim. Getdim. Təklik, tənhalıq qorxusundan getdim. Xalan hər yanda zurna çaldı ki, bəs Xatirə kişisiz dura bilmir. Ay yalansa dilin qurusun, cavan gəlin idim, nə səbəbə yola vermədin məni? Gəlin saxlayan idin, niyə qoyurdun dədəm evinə dönüm? Mən küçədə qalmamışdım, axı, sənin kimi kəbiniz-filansız kol dibində hər yetənin altına yıxılmamışdım, axı...

"Voyenni" əməlli-başlı kəbin kəsdirdi mənə. Yüngülvari şadyanalıq düzəltdik. Voyenni qorodokdan gələnlər vardı, amma prokuror Şuradan başqa kənddən heç kəs təşrif buyurmamışdı. Nə özümüz çağırmışdıq - utanırdım kənddəkilərdən, kimi inandırasan ki, mən kefdən yox, xofdan ərə gedirəm - nə də gələn olmuşdu. Ancaq rəhmətlik "voyenni" yaxşı adam idi. Təyyarəçi idi, Türkmənistanda doğulmuşdu, qabaqlar arvadı olmamışdı. Yadındadı da, bizim kəndin kənarında səliqəli "voyenni qorodok" vardı, təyyarə meydanı vardı, balaca təyyarələr, vertolyotlar vardı. Voyenni qorodoka görə kəndimiz böyüyüb-böyüyüb rayon mərkəzinə bitişmişdi. Kəndimizdə rusların sayı artmışdı, rus qəbiristanlığı az qala müsəlman məzarlığı yekəlikdə olmuşdu. Birmərtəbəli "fin" evləri vardı, voyennilər ailələri ilə o evlərdə qalırdılar. Təkcə ərim rəhbərlikdən icazə almışdı "voyenni qorodok"dan kənarda yaşamağa. Bizim evdə, mənim yanımda qalırdı. Onun sayəsində kənddə beş-üç evdə telefon olan vədələr, bizim evə də telefon çəkdilər ki, lazım gələndə onu təcili qorodoka çağıra bilsinlər. Bir də görürdün gecəyarısı zəng vurdular - tez gəl! Yazıq tələsdiyindən bilmirdi neyləsin. Az qalırdı şalvarını kəndin ortasında əyninə keçirə, qaça-qaça, qaranəfəs özünü qərərgaha yetirirdi. Nə gizlədim, narazı deyildim. Hərdənbir qorodokun mağazalarına yolum düşəndə qürrələnirdim. Satıcı arvadlar məni tanıyırdılar, hörmət eləyirdilər. Bir-birlərinə: "Jena kapitana Raxmanova", - deyib məni göstərirdilər. Sevinirdim ki, ərim belə intizamlı yerdə işləyir. Əslində gecəyarısı evimizə zəng vurub onu çağıranda, o yazıq da paltarları əlində yeriyə-qaça geyinəndə mənə ləzzət verirdi, yarıyuxulu onun arxasınca baxıb gülümsünürdüm ki, ərim adi adam deyil, gecənin bu vaxtında böyüklərdən kiməsə lazımdı. Hayıf ki, Şura hökuməti dağılandan sonra voyenni qorodok dağıldı. Kənddə kimin nəyə gücü çatırdısa, oğurluq-doğurluq qorodokdan daşıyıb apardı. Bir il ötdü, Bakıdan bir başbilən gəldi ki, ay camaat, qorodoku qoruyun, indi orda öz voyennilərimiz çalışacaq. Klubda idi həmin başbilənlə görüş. Afişa-zad da vurmuşdlar klubun qabağına: "Əhalinin hərbi hazırlığı və hərbi maarifləndirilməsi" - Məruzəçi polkovnik A.A.Axundov. Camaat gülüşdü, Bakıdan gələn əvvəlcə heç nə anlamadı. Ancaq gedib, lələ köçüb yurdu qalan voyenni qorodoku görəndə özü də gülümsəmişdi, sonra da başlamışdı ağlamağa. Anlamamışdılar doğrudan-doğruya ağlayır, ya keflənib. Çünki qorodoka getməmişdən kolxoz sədrinin evində möhkəm içibmiş. Ağlaya-ağlaya əlini sinəsinə vurub: "Burdakı qüvvələr qalsaydı, mən tək düşmənin qabağına çıxıb darmadağın eləyərdim, - deyibmiş, - buralarda keçirilən qabaqkı hərbi təlimlərin yeri-göyü lərzəyə salan səsilə düşmənin anasını ağlatmaq olardı. Axı, biz Koroğlunun, Babəkin, Xətainin, Nəbinin nəvələriyik". İkinci ərim də hərbi təlimin qurbanı olmuşdu, hərbi məşq zamanı vertolyot qəzaya uğramışdı, bədbəxti yarımcan xəstəxanaya gətirmişdilər. "Xatirə, mən səni tək qoymaq istəmirəm", -deyib keçinmişdi. Elə bilmişdi başının üstündəki mənəm. Mən özümü yetirincə canını tapşırmışdı. O qarabaxt da duymuşdu ki, mən təklikdən, tənhalıqdan qorxuram.

Onu itirəndən sonra çox dəyişdim. Qorxu-morxu çıxdı çanımdan. İtirdiklərimi itirmişəm, - dedim özlüyümdə. - İndi nədən qorxacam? Ata yox, qardaş yox, bir yaxın yox. Quru canımdan ötrü niyə əsirəm, axı? İtirdiklərim məndən əskik-zad deyildilər ki!" - Xatirə ağlamamaq üçün dodaqlarını gəmirdi. Mən qalxıb

pəncərədən qaranlığa baxdım ki, o, rahatca göz yaşı töküb yüngülləşsin. Ağlamadı, qaraldı, bozardı, yağmadı, mən pəncərədən baxdığım müddətdə özünü tamam-kamal ələ alıb kart qarışdırırdı, beş-altı kartı yan-yana masanın üstünə düzüb əylənirdi. Mən yerimdə oturanda: "Belə-belə işlər... - dodaqaltı mızıldanıb gözlərini üzümə dikdi. - İstəyirsən, sənin falına baxım?". Dinmədim. O, yenə kartı kənara qoydu. "Körpəliyindən səni çox istəyirəm, - dedi. - Heç olmasa bilərdik kimi alacaqsan". "Yox, - dedim. - Evlənmək öz yerində... Bilirsən, mən tələbəlik çağlarımdan yuxuda tez-tez həyatda heç vaxt görmədiyim bir kişini görürdüm. Kişi röyada elə zəhmli olurdu ki, deyərdin Hitlerdi, Stalindi dirilib - bilmirəm, yuxuda gördüyün adama "dirilib" demək nə dərəcədə düzgündü - bığı kimi qalın qaşları çatılanda elə röyadaca adamın zəhri yarılırdı, çünki yuxuda olduğunu, gördüyünün bir röya olduğunu anlamırdın. Neçə kərə o yuxudan qan-tər içində, hövlənak oyanmışam. Sonralar iş elə gətirdi ki, şəhərdə ev aldım, həmən yuxuda gördüyüm kişi - onu indi də yuxuda görəndə dəhşətə gəlirəm - evimin yanındakı pivəxanada pivə satır. Yaman gülərüz adamdı, dişləri həmişə işım-işım işıldayır". Xatirə sözümü kəsdi: "Səni çildağa aparmaq lazımdı". Səsimi qaldırdım: "Nə çildağbazlıqdı, yer üzündə təsadüfi heç nə yoxdu". Xatirə dirsəyini masaya dayayıb əlini çənəsinin altına qoydu. "Ayə, qəliz danışma, adam kimi söylə görüm nə deyirsən". "Yəni, sən Xatirə, mənim rəhmətlik dayımın arvadı, xalamın acığına dayıma ərə getmisən, sonra dul qalıb dədən evinə qayıtmısan, evinizdə təklikdən, tənhalıqdan qorxub ikinci kərə, özün dediyin kimi, "voyenni"yə getmisən. İkinci ərin qəzaya düşüb dünyasını dəyişəndən sonra əvvəlki qorxu-morxu gedib işinə. Elədi? Bayaq özün dedin, axı. Elədi, elə deyil?" Xatirə təsdiqlədi: "Elədi, ayə, elədi e, sözünün canını de". "Bayaqdan xalama qəhbə deyirsən, fahişə deyirsən, eybi yox, öz işindi, nə istəyirsən de. Dediklərin həqiqətdisə, mən sənə tərəfəm. Xalam indiyəcən orda-burda deyir ki, Xatirə kişisiz dura bilmir. Gəl düzünü danışaq, onun da dediklərində - lap belə qeybət olsun - həqiqət var, axı. Sən üçüncü kərə ərə niyə getdin? Öz işindi e, özün bilərsən, hərənin öz taleyi var. Amma "voyenni" ilə mehriban həyatdan sonra Gülnisənin oğluna getmək... Onda ki, təklikdən qorxmurdun. Bilirəm, deyəcəksən ki, Gülnisənin acığına onun oğluna getmişəm, özü də oğlan məndən dörd yaş kiçik idi, ağzından süd iyi gəlirdi. Sən deyəndisə, gərək kənddə bir nəfər də dul arvad qalmaya, hərə gündə bir ər dəyişə".

Xatirə güldü. Bu dəfə hay-haraysız, xəfifcə... "Ayə, qırışmal, sən xalanı nə çox istəyirmişsən, hə? Amma dəxli yoxdu, min yol karta baxmışam, sən Fəridəni almayacaqsan. Bu belə... O ki, qaldı Gülnisənin oğluna ərə getməyimə, sən dediyin də var; Gülnisənin acığına getmişdim ona, daha doğrusu, o, gəlib mənim evimə girmişdi, - Xatirə azca ara verdi. - Allah günahımdan keçsin, o, ölüb gedib haqq dünyasındadı, day sirr saxlamağın mənası yoxdu. Həm də, sənə hər sözü danışmaq olar. Bir gün burdasan, bir il şəhərdə. İstəsən də xəbərçilik eləyə bilməzsən.

O vaxt Mehdixan nişanlı idi, bu gün-sabah toyu olacaqdı. Gülnisənin dediyinə baxma, oğlunun ağzından süd iyi-zad gəlmirdi, onun tayları çoxdan oğul-uşaq sahibi idilər. İnsafən, boy-buxunlu, qədd-qamətli, yaraşıqlı idi, Gülnisə kimi yekəburun deyildi, anasından çox dədəsi Fərhada oxşamışdı. O yay günlərinin - lap düzünəsi, gecələrinin - birində Mehdixan qapımı döydü. "Ay Xatirə, gərək mənim dərdimə əlac eləyəsən". Təəccübdən gözlərim çıxdı kəlləmə. "Ayə, ay Mehdixan, anan neçə illərdi mənnən düşmənçlik eləyir, qorxmursan mənim yanıma gəlməyə?" Qayıdasan ki, anam qələt eləyir, yeddi arxa dönəniynən, dərdimə çarə elə, yoxsa özümü öldürəcəm. Anasının qarasınca söylənməyi mənə ləzzət verdi: "Keç əyləş, - dedim. - Nə dərdin var de, fal-mal söhbətini yadından çıxart. Bir dəfə anan gəlib yıxıldı ayağıma ki,

sən mənim qızımsan, nə bilim, balamsan, ərimə cadu elə, yığışıb otursun evində, özgə arvadlarının dalınca əsir-yesir olmasın. Mən də sənin ananın şirin dilinə aldanıb bacardığımı elədim, - day Mehdixana: "cadudan başı çıxanın cadusu belindən vursun", - deyib özümü biabır eləyə bilməzdim ki! Bir vaxtlar Gülnisə, ardınca onun oğlu Mehdixan elə-belə ayağıma gəlmirdi, onlar məndə hansısa Allah-tanrı qüvvəsi olduğunu güman edib kömək diləyirdilər, yalvarıb yaxarırdılar, adam yalnız çıxılmaz vəziyyətə düşəndə düşmən qapısına gedər - səhəri dədən Fərhadı ilan çaldı, anan məni el içində rüsvayi-cahan elədi. İndi, ay Mehdixan, sən Allah qoyun sakit yaşayım, balama dəyməyin, balanızı istəmirəm". Belə deyə-deyə, əslində qiymətimi artırırdım. İstəyirdim Mehdixan da bir vədələr anası elədiyi kimi yalvar-yaxara başlasın. Mehdixansa sözünü kəsə dedi, yəqin, hər şeyi əzəldən qət eləmişdi, day geriyə yolu yox idi: "Mənim işim faldan keçib, ay Xatirə, gərək biz evlənək". Qulaqlarıma inanmadım, dilim topuq çaldı: "Nə?! Nə...ə... deyir...sən, ay Mehdixan?". Kirpiklərini də qırpmadan soyuq-soyuq təkrarladı: "Başqa çarə yoxdu, gərək biz evlənək!". Elə bil məni Fərhaddan betər ilan vurdu, qışqırardım, qonum-qonşudan çəkindim. Hərə bir zurna çalacaqdı ki, gecə gözü Xatirənin evindən yad kişi çıxır. Özü də nişanlı adam... Hirsimi boğub sakitcə, amma hikkə ilə dedim: "Dur bas bayıra, küçük! Elçiliyə gələnə bax! Sən mənim ərimin filan-filan şeyi də ola bilməzsən", - boynuma alım ki, o dəm gözümün qabağına sənin dayın yox, ikinci ərim, "voyenni" gəldi. Qalxıb, Mehdixanın qolundan yapışıb bayıra atmaq xəyalına düşdüm, hirs-hikkəmdən unutmuşdum ki, önümdəki güclü-qüvvətli kişidi. Mehdixan ayaqlarıma yıxılıb dizlərimi qucaqladı. "Qurban olum sənə, Xatirə, anlamadın məni, səbirini bas, sözümü dinlə, sonra qov məni, gedib özümü öldürüm, - zar-zar ağlamağa başladı. - Səni and verirəm Allaha, sirrimi heç kəsə açma, mən özümü öldürsəm də qoy camaat heç nə bilməsin. Anam sənə düşmən kəsilib, bilirəm. Belə baxanda, mən də sənə düşmən görünürəm. Ancaq düşmən də adama pənah gətirəndə qapını bağlamazlar. Mən dostlarıma, anama aça bilmədiyim sirri sənə açıram. İki həftədən sonra toyumdu. O toydan sonra mən gərək el içinə çıxmayım. Çox fikirləşmişəm, Xatirə. Bircə sən əlac eləyə bilərsən. Günü sabah evlənib burda, bu damın altında yaşayaq. Bilirəm, hamı məni qınayacaq, amma heç bir qınaq, töhmət toydan sonrakı zırıltıyla müqayisə olnunmaz, ölçüyə gəlməz. Baş-başa verib dolanaq. Qurban olum sənə, Xatirə, ya sən mənə kömək eləməlisən, ya da mən özümü öldürüb canımı qurtarmalıyam. Sənin bu evin mənim üçün qala ola bilər, heç kəs - anam qohumlarım - bura gəlməyə cəsarət eləməz. Yalvarıram, Xatirə, imkan ver, qoy bu toy məsələsi pozulsun, sonra ayrılarıq".

Fikirləşdim ki, razılaşmasam, Mehdixan, yəqin, elə bu gecə özünü də, məni də öldürəcək. İslanmışın yağışdan nə qorxusu. Çünki məndən beli bağlı deyildi, sabah ağzıyırtıqlıq eləyə bilərdim. Zərrəcə qorxmadım, fikirdi də gəldi ağlıma. Mehdixan toyqabağı özünü öldürsəydi, Gülnisəyə ömürlük dağ çəkilərdi. Gözünün ağı-qarası bircə oğlunu itirərdi. Gülnisə kimsəsiz qalardı, yetim qalardı. Amma göydə Allah var, axı, mənim də ayağıma yekə bir günah yazılardı. Cəhənnəmlik günah! Mehdixana "hə" desəydim də Gülnisənin oğlu əlindən çıxırdı, beli qırılırdı. Ərini öldürən - Gülnisənin zənninə görə - ən böyük düşməni gəlib oturardu ocağının başında, lap dəqiqi, yeganə oğlunu çəkirdi ocağının başına. Birincidə də, ikincidə də Gülnisəyə elə zərbə dəyirdi ki, bir də çətin özünə gələydi. İntəhası, birinci günahlı, ikinci savablı yoldu. Həlbət ki, mən savablı yolu seçdim; Mehdixana ərə getdim, o, köçüb mənim yanımda yaşamağa başladı, bütün kənd bir-birinə dəydi...

Gülnisə bizə gəlməyə cürət eləməsə də, oğluna xəbər göndərdi ki, ağlını başına yığıb evlərinə qayıtsın, üzü üzlər görmüşdən ona arvad olmaz, gül kimi

nişanlısı hələ də onun yolunu gözləyir. Elə bu məqamdaca Mehdixan anasına mənim gözlədiyim zərbəni vurdu: “Mənim anam yoxdu, - dedi. - Xatirə mənim həm anamdı, həm də arvadım. Mən Xatirəni yeddi qıza dəyişmərəm”, - xəbər gətirənlərin əli ağzında qaldı. Mən qonşu otaqda girlənirdim, özümü elə aparırdım ki, guya, çay hazırlayıram gələnlərə, heç nə eşitmədim.

Mehdixanın nişanlısı nişanı qaytarıb qonşu kənddən birinə gedəndən sonra Mehdixan mənə: “İstəyirsən ayrılaq, - dedi. - Ancaq ayrılsaq Gülnisə mənə aman verməyəcək. Qorxuram yenə hansısa bədbəxtin qızını tapıb mənə ilişdirə”. “Nə qədər kefindi burda yaşa, - dedim. - Sən mənə mane olmursan”.

Tanrıya qurban olum, iş elə gətirdi ki, Gülnisə ikinci kərə ayağıma gəldi. “Olub keçənlərə görə məni bağışla, yazıya pozu yoxdu, qismətdən qaçmaq olmaz. Görünür, oğlumun qismətində varmışsan. Hayıf ki, uşağın olmur, - fikir verirsən, Gülnisə başımı sığallaya-sığallaya sonsuzluğumu yadıma salıb sinəmə dağ çəkirdi. - Gəl unudaq pislikləri, bala. Əslində, biz bir-birimizə pislik də eləməmişik. İrağ olsun... Hər yerdə: “Xatirə mənim balamdı”, - demişəm. Adi söz-sov, umu-küsü hansı evdə olmur, ay qızım? Biz səninlə ana-bala sayılırıq. Kin saxlamaq ana-balaya yaraşmaz. Sən razı olmazsan, axı, ana gözünün ağı-qarası bircə oğlunun üzünü ayda-ildə bir kərə təsadüfdən-təsadüfə, uzaqdan-uzağa görsün. Oğlum səni alıb? Əcəb eləyib, qismətidi, qoşa qarıyasınız. Məni oğluma tamarzı eləsən Allaha xoş getməz, qızım. Qoy hərdənbir gəlim sizə, qaynayıb qarışaq. Su qaba girdi, oldu içməli. Bir də gördün arabir kəlləmi yerə atıb gecəni də yatdım burda”. Ağlayıb sısqasa da Gülnisəyə etibar yoxdu, əvvəlcə dedim qovum getsin, qorxurdum girəvə tapıb gizlicə zəhər-məhər qatar xörəyimə. Sonra qorxaqlığıma gülməyim gəldi, qoy Gülnisə çəkinsin ki, mən onu zəhərləyərəm. Nolar, ürəyi istəyir, qoy gəlib öz gözləri ilə görsün ki, Mehdixanla necə mehriban dolanırıq, tamam bağrı çatlasın. Razılaşdım, Mehdixansa anasının bizə ayaq açmasından narazı idi”. “Heç nə başa düşmürəm, - çiyinlərimi çəkdim. - Dərdini doğma anasına niyə demirdi, axı?” “Özümüzük, yaman key adamsan, - Xatirənin dodaqları qaçdı. - Gülnisə bildiyi sirri ertəsi televizordan eşitmək olar”. “Öz oğlunun ayıbını da aləmə yaymayacaqdı ki”. “Adamın ağzı yırtıq olanda yaxın-yad bilmir. Ağzıyırtıqlıq da xəstəlikdi, ay qırışmal. Bəlkə də Gülnisəni evimə qoymasaydım, Mehdixan özünə qəsd eləməzdi”. “Kim deyir ki, Mehdixan özünə qəsd eləyib?” “Mən! Soyuqdəymədən ölməyib o. Həmin gecə Gülnisə də bizdə qalmışdı, onun gözünün qabağında bankaladım Mehdixanı, bankaladıqca yanan nöyütlü pambığın alovunda gözaltı qayınanama baxırdım, yaman qocalmışdı, sir-sifəti qırış-qırış idi, elə bil qədim qəbirüstü yazıdı, gözlərindən kədər, yazıqlıq yağırdı, sakitcə, sözəbaxan uşaq kimi üstünə nazik döşəkçə qoyulmuş kətildə oturub oğlunun açıq kürəyinə, mənə qəribə bir maraqla baxırdı. O alovun işığında gözaltı Gülnisəyə baxdıqca özümü qınayırdım; gör illər boyu mən kimə düşmən gözü ilə baxmışam, bu ki, fağırın biri imiş. Ancaq elə o dəm Gülnisənin: “Bu uşağın başına Əzrayıl sığal çəkib”, - deməsi, ərinin düz yola qaytarmaq üçün evimizə ağayana gəlişi - minnətə də gəlsə o gəliş ağayana, amiranə idi - nəhayət, sənin xalanla haqqımda uydurduğu, hətta deyirdilər, qardaşımın çəkməçi köşkünündə yandırılmasında onların əli varmış, qardaşımın guya, çəyirtkəyə dönməsi, əstəğfürullah, mənim iblislə yatmağım barədə şayiələr, nə bilim, birdi, ikiydi məgər, yadıma düşdükcə ürəyimdə səssiz qəhqəhə çəkirdim; yan, çartla Gülnisə, səni ocağımın başında ələbaxan, sözəbaxan pişiyə döndərmişəm. Ürəyimdəki qəhqəhə elə güclü idi ki, yəqin, bütün çöhrəmə sevinc hopmuşdu, yanaqlarım allanmışdı, sevindiyimdən əllərim əsirdi, az qalmışdım yazıq Mehdixanın belini yandırım.

Mehdixan oxumuş olmasa da ayıq idi. Mənim evimə pənah gətirməyi bir tərəfdən anası ilə düşmən olduğuma, Gülnisənin evimə yaxınlaşmağa belə

cürəti çatmayacağından ötrüydüsə, digər tərəfdən - burası illər ötdükcə ağlıma gəldi - kənddə hamı bilirdi ki, mənim uşağım olmur, Mehdixan bunu da əsas saymışdı, özlüyündə daş-tərəziyə qoymuşdu. Həm də mənim ağzıbütövlüyümü... Hay-küyümə baxma, mən sirr dağarcığıyam, boş sözləri danışıb gizliləri saxlayıram. Mehdixanın dədəsi Fərhad öləndə Gülnisə nə qədər hay-küy salsa da, mən heç yerdə boynuma almadım ki, Fərhada fal açmışam. Hərçənd Mehdixan evimə gəlib məndən kömək diləyəndə qızışıb ağzımdan qaçırtmışdım, o da mənim sözümə ip atmamışdı, çünki öz canının hayında idi, öz canı ilə əlləşirdi.

Mehdixan anasının mənim qapımı yalvar-yaxarla, pişim-pişimlə döyəcəyini, mənim də qapını onun üzünə açacağımı gözləmirdi. Bəlkə bundan ötrü özünü öldürdü? Bəlkə, bezmişdi utana-utana, çəkinə-çəkinə yaşamaqdan? Axı, cidanı çuvalda gizlətmək olmaz. O yerə ki, Gülnisə burnun uzatdı, hökmən iyləyə-iyləyə bürün sirlərdən agah olacaq. Mehdixan ağıllı idi, kimi-kimi anasını yaxşı tanıyırdı. Özünə qəsd gününü, daha doğrusu, qəsd gecəsini elə seçmişdi ki, heç kəs şübhələnməsin. Soyuq dəymişdi, gecə banka qoydular, yatdı, səhər durmadı. Həmin gecə Gülnisənin bankalamağına razı olmayıb demişdi ki, sən otur, məni Xatirə bankalayacaq. Özgə vaxtı belə qətiyyətli olmazdı, həya eləyərdi, həmin gecəsə son dəfə anasına göstərmək istəyirdi ki, bax, yaxşı-yaxşı bax, Xatirə mənim arvadımdı! O gecə Gülnisə birdəfəlik uduzduğunu anlayıb yazıq görkəm almışdı.

Düzü, ilk günlər: “Ölüm gözlə qaşın arasındadı”, - düşünürdüm. Dayın kimi sapsağlam adam gözümüzün qabağında soyuqdəyməsiz-filansız dünyasını dəyişmədi? Ölüm Allahın sirri... Amma Mehdixanın ölümündən beş-on gün sonra telefonhaqqın verməyə getmişdim, qayıdanda aptekçi Mürsəllə rastlaşdım. Dayanmışdı aptekin qabağında. Mürsəl ziyansız adamdı, bir kimsəyə pisliyi keçməyib. Salam verdi, ayaq saxlayıb hal-əhval tutdum. Dedi ki, ay Xatirə, yenə tək qaldın. Ərki vardı, yaşlı kişi idi, bir yerimiz ağrıyanda həkimdən qabaq onun üstünə cummuşuq həmişə, hərdən elə aptekdəcə çəkinmədən açıb ağrıyan yerimizi göstərmişik, heç vədə Mürsəlin kişi olduğu ağlımıza gəlməyib. Heç o da bizə, dəqiqədəbir yanını-başını tutub aptekə qaçan arvadlara kişi gözü ilə baxmayıb. Dedim: “Neyləyim, qismətim beləymiş”. Həqiqətən Mehdixanın ölümündən təsirlənmişdim. Neçə müddət yaşadıq, bircə kərə nalayiq hərəkətini görmədim, mənimlə danışanda - utanırdımı, çəkinirdimi - səsini də güclə eşidirdim. “Gərək aparıb yardıraydınız meyidi, - dedi Mürsəl, - öyrənəydiniz ölümün səbəbini”. “Nə mənası, geri qayıtmayacaqdı ki? Səbəb soyuqdəymədi, həmin gecə özüm bankalamışdım onu”. “Bilirəm, soyuqdəymə öz yerində, deyəsən, əsəbləri də naxələfdi, son zamanlar yuxusu-zadı da pozulmuşdu”. Qulaqlarıma inanmadım, mən biləni Mehdixan yuxusuzluqdan şiikayətlənmirdi, əksinə pişik kimiydi, harda uzandı o dəqiqə xorultusu aləmi götürürdü. “Onu sənə kim deyib?” - soruşdum. “Heç kim, - Mürsəl cavab verdi. - Rəhmətlik ölməmişdən üç-dörd gün qabaq məndən iki qutu yuxu dərmanı almışdı.

Ağlıma nə gəldisə, evə qayıdan kimi axtarışa başladım. Mehdixanın paltarlarının cibinəcən - hələ rəhmətliyin pal-paltarı bizdəydi, Gülnisə aparmamışdı - axtardım. Yuxu dərmanı-filan tapmadım. Bəlalı canım, Gülnisə orda-burda adıma “başyeyən” deyirdi, qalırdım kəsilə-kəsilə, dinə bilməzdim, axı, necə deyəydim ki, Mehdixan özünə qəsd eləyib? Ardınca ayrı sorğu-sual çıxa bilərdi. Mən isə Mehdixana söz vermişdim, mömin bəndə verdiyi sözün quludu”.

* * *

"Xalana tərəfkeşlik eləməsəydin, bunları danışmazdım. Eybi yox, Allah günahımdan keçsin, sən nə Gülnisəsən, nə Xeyransa, yekə kişisən, sirr saxlamağı bacarırsan yəqin. Baxma ki, öz aramızda sənə "qırışmal" deyirəm. Day qoltuğun qarpızlanmasın, gecdi, ağzıyırtıqlıq eləsən də heç kəs inanmaz... Deməli belə, Mehdixan məsələsinin sənə isti-soyuğu yoxdu. Keçək sənə dəxli olan mətləblərə...

O dəmlər ki, Şura hökumətinin yıxılhayıxıl dövrü başladı, camaatın başını qəzet, televizor elə qatdı ki, iş-güc, yemək-içmək yaddan çıxdı. Kolxoza-molxoza ayaq basan olmadı, əkilən pambıq çöldə mal-qaraya yem oldu. Yanvar qırğınından sonra camaatın fikri-zikri lap dəyişdi, deyərdin bu kənddə binadan əkib-becərən, çoldə-torpaqda işləyən olmayıb, hamı alimdi. Kişilər səhərdən - axşamacan aptekin qabağına, çayxanaya yığışıb səhərdən-axşamacan höcətləşirdilər. Hətta falçı Xeyransa arvad hamamında zənənləri başına yığıb and-aman eləyirmiş ki, ölkəmizdə o qədər sərvət var, ona-buna paylaşdırmasaq, heç kəs əlini ağdan-qaraya vurmayacaq, amma elə firavan dolanacağıq ki, keçmiş şahların bizə paxıllığı tutacaq. Ölülərə başdaşını da qızıldan düzəldəcəklər. Kimsə söz atmışdı: "Zərgər Qulu qəbiristanlıqda daş qoymayacaq denən". O yandan Qulunun arvadı çıxmışdı, bir mərəkə qopmuşdu, gəl görəsən. Arada Xeyransanın özünə də bir-ikisini ilişdirmişdilər.

Qəribə işdi, adamlar işləməklə bahəm, yeməyi də yadırğamışdılar, çörəkçi Nisəxanım əlini "Quran"a basırdı ki, neçə gün bircə çörək də satmayıb, axırda bezara gəlib, ərizə yazıb, bir ay otpuskə çıxıb. Özgə vaxtı Nisəxanım çörək dükanını bağlayıb otpuskə çıxa bilərdi? Camaat aləmi dağıdardı, ondasa heç kəs bunun fərqinə varmayıb, guya, çörək dükanı, çörəkçi Nisəxanım yerli-dibli yoxmuş. Nisəxanım da əlacsız qalıb üst-üstə ötən illərin də otpusklərini götürüb. Yenə camaatın vecinə olmayıb. Nisəxanım and-aman eləməsəydi də bilirdik ki, rayon mərkəzindəki çörək zavodu işləmir. İşçilər ya əli qoynunda durublar, ya da aptekin önündəkilərdən, çayxanadakılardan çənələrinin altına salıb höcətləşirlər. Öz aramızdı, elə mən özüm də çörəyin dadını-tamını yaddan çıxarmışdım...

Camaatın çörəyi, çörəkçini unutduğu günlərdə kəndimizə qara maşın gəldi, uşaqlar maşının dalınca düşüb qaçdılar, qışqırışdılar, maşın dayanıb içərisindən qalstuklu, gombul kişi çıxandasa uşaqlar səslərini xırp kəsdilər. Bilmirəm nədəndi, bizim kəndin uşaqları tanımadıqları qalstuklu, panamalı kişilərdən qorxurlar. Kişi gah maşınla, gah piyada böyüyüb rayon mərkəzinə bitişən kəndimizin içində hərləndi, orda bir-iki kəlmə dedi, burda pıç-pıç... Gecəni də kənddə, sənin xalangildə qaldı. Səhər tezdənsə gəldiyi maşının izi-tozu da görünmürdü. Əvəzində sənin xalanın əri - gözüylə görən biqeyrət - qollarını çırmalayıb işə girişdi ki, mən filan partiyanın rayonumuzdakı nümayəndəsiyəm. Əvvəlcə işlər yaxşı gedirdi, xalanın əri klubda iki otaq icarəyə götürmüşdü, birini özünə kabinet eləmişdi, o birini gözləmə otağı. Klubun qabağına lövhə də vurulmuşdu: "Filan partiyanın filan rayon şöbəsi". Camaata nağıl kimi gəlirdi, dünənəcən çöldə-bayırda işləyən kəndçimiz boynuna qalstuk taxır, kabinetində oturub şikayətçiləri qəbul eləyir, ev-ev gəzib partiyasına üzvlər yığır. Kabinetinə telefon da çəkdirmişdi, panamalı, qalstuklu, gombul, gödək kişi hərdənbir yenə həmin qara maşınla kəndə gəlirdi, amma day heç yana getmirdi, bircə xalangilə, ordan da olsa-olsa kluba, xalanın ərinin kabinetinə. Xalanın ərinə həsəd aparanlar, ona yaltaqlananlar günü-gündən artırdı, camaat şikayətə polisə, prokurora yox, onun yanına gedirdi. Ancaq bu uzun sürmədi, kəndə yeni-yeni maşınlarda yeni-yeni qalstuklular gəldi, yeni-yeni partiyaların şöbələri yaradıldı kəndimizdə. Sənin dədən də bir partiyaya başçılıq eləyir, hərdənbir şəhərdən sizə də xarici maşınlar gəlir. Dədən molla Məmmədəli ilə razılaşıb, məscidin həyətindəki ikigözlü köhnə otaqları təmizlətdirib, təmir elətdirib, xalanın əri kimi

özünə kabinet düzəltdirib, telefon çəkdirib kabinetinə, canım sənə desin, məscidin qabağına partiyanın lövhəsini də vurdurub. İndi kənddə ayrı-ayrı partiyaların şöbələri çoxdu, əvvəllər çöldə-bayırda işləyən, lapatka, bel, kətmən əllərini qabar eləyən, mal-qoyun otaran kəndçilərimiz boyunlarına qalstuk bağlayıb bir anda kabinet adamına, partiya işçisinə çevrildilər. Qabaqlar kolxoz sədrinin qorxusundan zağ-zağ əsənlər sinələrinə döyüb çığırırdılar: “Bizə pambıq yox, azadlıq lazımdı!”. Adamlar indi-indi sakitləşib, bir-iki il öncə bilirsən necə dava-dalaş olurdu? Şəhərdə aləm sözlə qarışanda, yəni partiya rəhbərləri söz davasına çıxanda, bizim kənddə yumruqlar, şillələr, təpiklər, kəllələr işə düşürdü. Bu öz yerində, qayıdaq Fəridənin məsələsinə...

Xalan qızı Fəridə qəşəngdi, buna söz yox, baxma ki, səni hərifləyib, o qız plov-zad bişirə bilmir. Vilayətin oğlu Famillə “Leyli-Məcnun” idi. Məktublaşmaq, görüşmək, mən nə bilim nə... O Vilayətin oğluyla ki, böyük qardaşı Qiyas şəhərdə işləyir, evdəkilər də onunla sənə xəbər göndəriblər, durma gəl, səndən ötrü darıxmışıq. Ancaq sən gələndən dədən evdə tapılmır. Çünki yaxşı bilir ki, sən şəhərə qayıdandan sonra şəhərdən xarici maşınlarla yuxarıdakılar gələcək, dədənin ətrafındakı casuslar yuxarıdakılara: “Bütün günü işləyir, - deyəcəklər. - Oğlu gəlmişdi şəhərdən, onu da fərli-başlı görməyə macalı olmadı. Gecə-gündüz kabinetdədi, işdə-gücdədi”. Dədəni qınamaq olmaz, partiyalarda iş belə qurulub, hər şöbə başçısının ətrafında iki-üç güdükçü, xəbərçi var. Gələnlər maşından düşməmiş olanları qoyurlar ovuclarına. Bir də gördün durduğu yerdə bir şöbə başçısını çıxardıb atdılar, kabineti də əldən getdi, gələcəyi də. Qabaqdan seçki gəlir, bilmək olmaz, bəlkə, dədən deputat, sonra da, adı nədi onun, spiral - deyəsən, spiker demək istəyirdi, - oldu. Kəndimizdəki bütün partiyaların şöbə başçılarının ürəyindən deputat olmaq keçir, bu qulağımnan eşitmişəm, hamısı gəliblər evimə ki, Xatirə, buyur, gəl gir bizim partiyaya. Öz aramızdı, dədən də gəlib məni öz partiyasına yazmaq istəyirdi, arvadından gizlin xalanın əri də gəlmişdi ki, məni öz partiyasına yazdırsın. Day nələr vəd verməyiblər. Bilirlər, axı, Xatirə hansı partiyaya girsə, dalınca bir toyxana adam gətirəcək. Demişəm gedin, mənim dava-dalaşlıq halım qalmayıb. Day sakitlik istəyirəm...

O Vilayətin oğluyla ki, kiçik qardaşı Nazim dünən bütün gecəni xalangilin həndəvərində səni güdüb. Gecə evinizə qayıdanda həyətlərindəki iki heyvərə iti qısqırdıb sənin üstünə. Yaxşı uşaqdı, itləri də özü böyüdüb. Acıqlandım məsələni eşidəndə. Guya ki, qardaşının qiryətin çəkir. Bəbədi hələ, məktəbi də qurtarmayıb. Qabağımda zar-zar ağladı ki, Xatirə xala, bəs neyləyim, Famil əskər gedəndə Fəridəni mənə tapşırıb. Mən də dedim ki, nahaq özünü üzmə, o, xalasıqızını alan deyil, hələ evlənmək fikri yoxdu. O, siyasətin qurbanıdı”.

Heyrətlə gülümsünüb: “Mən siyasətin qurbanıyam?” - soruşdum. “Hə”, - dedi. Çaşqın-çaşqın çiyinlərimi çəkdim: “Hansı siyasətin? Mən heç vaxt heç bir partiyanın üzvü olmamışam, anadangəlmə bitərəfəm”. “Qırışmal, bu dəfə sənə elə şeylər danışacam ki, anandan, Məsmə xaladan eşitmişəm. Özünə deməyəsən ha... İstəsəydi özü sənə deyərdi, madam ki, deməyib, sən açıb-ağartma. Belə çıxar ki, mən xəbərçilik eləyirəm. Əslində böyük bir sirr-mirr də yoxdu arada.... Qısası, on beş gün qabaq dədənin böyüyü ilə xalanın ərinin başbiləni bir maşında gəlmişdilər kəndə. Məsmə xala sizin həyətdə yaxşı süfrə açmışdı, dədən qoyun kəsib kabab çəkmişdi, stolda araq-çaxır bəs deyincədi. Adam azdı, elə kişilər özləriydi, dədən, xalanın əri - hərçənd ona kişi deməyə dilim gəlmir - bir də şəhərdən gələn iki nəfər. Zalımlar şoferi darvazanızın qabağında neçə saat gözlətdilər, amma həyətə çıxıb yemək-zad da təklif eləmədilər yazığa. Axırda Məsmə xala yuxanın arasında ciyər kababı aparıb şoferə ki, al ye, yəqin, acsan. Şofer denən, lalmış, karmış heç yaxına qoymayıb arvadı. Yayın cırlamasında maşının pəncərələrini də bağlayıb oturub içəridə.

Gələnlər sizdə xeylağ ləngiyib, amma şofer oturduğu yerdən qımıldanmayıb da... Deyirlər, uşaqlar maşına yaxınlaşmağa qorxurmuş, barmağını maşına vuranın tok ağlını başından çıxarırmış. Elə uşaqlar Məsmə xalaya deyib ki, yaxına getmə, tok vurar. Yoxsa, yazıq arvad birtəhər olacaqmış. Onun da əlacı kəsilib uzaqdan-uzağa yuxanı şoferə göstərib ki, gəl götür. Di gəl, şoferin sir-sifəti sanki daşdanmış, rulun dalında heykəltək oturub, heç kirpiklərini də qırpmayıb. Məsmə xala da açığa düşüb, ürəyində deyib ki, belə, cəhənnəmə ye, gora ye, can sənin, cəhənnəm tanrının... Həlbət ki, Məsmə xala kişilərlə həyətdə oturmayıbmış, amma arabir süfrəyə nəsə gətirmək lazım olanda bəzi sözləri qulağı alırmış. Deyir, dədənin adamı deyirmiş ki, gərək bundan belə sizin aranızdan su da keçməyə. Həqiqətən isə başçılar sizə gələn həmin o günəcən xalangillə aranız sərin idi. Xalanın əri də qayıdıb ki, onsuz da su keçmir, biz bacanağıq. Xalanın ərinin böyüyü onun sözünü kəsib ki, bacanaqlıq azdı! Dədənin adamı zarafata salıb ki, yeddi bacanaq yola çıxdı, yolda dedilər, bir Allah bəndəsi olsaydı, söhbətləşib mənzil başına nərdivan salardıq. Anan bir də süfrəyə yaxınlaşanda hamı ayaq üstəymiş, xalanın ərinin böyüyü tost deyirmiş ki, bəs, bizim partiyalar şəhərdə bir-birini dəyənəklədiyi kimi, siz də burda bir-birinizi dəyənək... tfu... şoğərib... həmişə çaşıram, nədi e, o sözün adı?" - Xatirə üzümə baxdı. Mən sakitcə: "dəstəkləmək", - dedim, o, sözünə davam elədi. "Hə, siz də burda bir-birinizi dəstəkləməlisiniz. Vəssalam, şüdtamam, gələnlər yeyib-içib oturublar maşına, üz qoyublar geriyə. Məsmə xala axşam dədəndən soruşub ki, ay kişi, gələnlər nə deyirdilər? Kişi də cavab verib ki, sən siyasətə qarışma, baxma ki, səni partiyamıza qəbul eləmişəm. Yaxşısı budu bizə kömək elə, gərək bizim oğlanla Fəridə ər-arvad ola. Anan da acıqlanıb ki, bir yandan deyirsən qarışma, bir yandan da deyirsən kömək elə, yaxşısı budu, mən yaxamı çəkim kənara, özün necə istəyirsən elə elə. Dədən əlini yelləyib ki, heç mən də qarışmayacam, bu işi düzüb qoşmağı bacın öz boynuna götürüb. Deyəsən, əvvəldən qızını bizim oğlana vermək fikri varmış, intəhası, qabağa düşməyi özünə sığışdırmırmış. Anan da deyib ki, madam, yuxarıdakılar belə məsləhət görüb, özünüz bilən yaxşıdı, sonra da bayaqkı söhbət düşüb yadına, dədəndən soruşub ki, bəs, "dəstəkləmək" nə deyən sözdü, yəni, adamlardan dəstə bağlamaq? Adamlar göy-göyərti-zaddı ki, dəstə bağlayalar? Dədən də başını qaşıya-qaşıya cavab verib ki, yox, ay arvad, "dəstəkləmək" siyasi sözdü, o vaxt Karl Marks Almaniyanın sement zavodunda çıxış eləyəndə fəhlələrə deyib ki, əzizlərim, bir-birinizi dəstəkləyin. Məsmə xala da əl çəkməyib ki, ay kişi, bəs, o Marks köpəyoğlu bizim uşaqları hardan tanıyır? Dədən dərinə getməyib ki, ay arvad, sən Allah, az sorğu-suala tut məni, yerimi sal, yatıram, səhər tezdən durmalıyam".

Araya çökən sükutu xoruzların səs-səsə verən banı pozdu. Xatirə yorğun-yorğun gülümsünüb: "Ayə, qırışmal, - dedi, - səhər açılır, gəl bir sənin falına baxım".

* * *

Oyananda ilk anladığım bu oldu ki, Xatirəgildə gecələmişəm. Biz yatanda səhər açılmaqda idi. Bir həyətdə, amma ayrı-ayrı evlərdə yatdıq. Xatirə Şuranın evində, mən Xatirənin. Yorulmasaydım, evimizə qayıdardım, yuxum tökülürdü, kirpiklərim qeyri-ixtiyari qapanırdı, düzünəqulusu, birtəhər evimizə dönərdim, çəkindim. Vilayətin kiçik oğlundan, Fəridənin "cangüdən"indən nə desən gözləmək mümkündü. Baxma ki, Xatirə: "acıqlanmışam", - deyir. Uşaqdı, beyni qızdı, qurtardı. Sonra itlərin qabağında qaç, canını qurtar, görüm...

Mən yerimdən duranda gün günortadan keçmişdi. Geyinib artırmaya çıxanda gözlərimə inanmadım. Xatirə qollarını çırmalatıb yaxşıca süfrə açmışdı, əlindəki

dəsmalı yelləyib süfrəyə qonmaq istəyən milçəkləri qovurdu. Qəribə burası idi ki, Xatirəni heç vaxt əməlli-başlı biş-düş eləyən, ev yığışdıran görməmişdim, ağlıma da gətirmirdim ki, Xatirə adi qadınlar kimi - lap elə mənim anam kimi - ev işləri görər, həyət-baca süpürər, yemək bişirər.

Xatirə məni görəndə:

- Nə tənbəlsən, - dedi. - Qıymıram səni durğuzmağa, sən də oyanmaq bilmirsən. Acından başım gicəllənir.

Əl-üzümü yuyub masa arxasında əyləşdim.

Xatirə qəfil şikara rast gələn yalquzaq kimi yeməyə girişdi, ağzı işləyə-işləyə dedi:

- Ye, ye... Mənim xörəklərim Fəridənin plovundan dadsız deyil. Qıtlıq da olsa, sənə gələcək arvadından yaxşı qulluq eləyirəm.

Mən evimizə qayıdanda hava qaralırdı. Pillələri qalxıb artırmaya çıxanda anam bərkdən dedi:

- Yaxşı gəlmisən. Fəridə də bizdədi. Sənin çəkmələrini gətirib. Darıxır bayaqdan... Gəl... gəl, şirin söhbət eləyin...

- Yox, xala, - Fəridə cəld pillələri endi. - Gecdi, mən gedirəm, - aşağıdan-yuxarı anama dedi.

Anam razılaşmadı:

- Bu vədə tək necə gedəcəksən?

Fəridə boynuma qoydu:

- Xaloğlum ötürər də məni, - deyəsən, elə məni gözləyirmiş.

- Hə, həlbət ki... Nə deyirəm... - anam üz vurmadı. - Yaxşı yol, qızım.

Çar-naçar “əsirlikdən qurtulan” çəkmələrimi geyindim və Fəridəni irəli buraxıb həyətdən çıxdım. Özlüyümdə: “Fəridənin cangüdəni itləri ikimizin üstünə qısqırtmağa cəsarət eləməz” - düşünüb, addımlarımı yeyinlədib, addımlarımı yeyinlədib ona çatdım.

Yönümüzü Kür qırağından salanda Fəridə dilini dinc qoymadı:

- Xatirə ilə kəndin içində hərlənirsən, mənisə təkliyə çəkirsən ki, görən olmasın? Yoxsa, qorxursan o ifritədən? Cadu-zad eləyib bəlkə sənə?

Zarafata salmaq istədim, tərslikdən ağlıma heç nə gəlmədi.

- Bizdə yatıb qala bilmədin, - Fəridə məndən cavab-mavab gözləmirdi. - Gecəyarısı ayaqyalın, xəbər- ətərsiz, səs-soraqsız yoxa çıxdın. Bəs, Xatirənin qucağı nə şirin oldu? Necə yatdın gecəni? Onun yanına girəndə heç olmasa ürəyindəcə: “dayı, məni bağışla”, - dedin, demədin? - qımışıb qoluma girdi.

Hirslənməsəm də özümü incik göstərdim:

- Kiri, ay qız, Xatirə bizim rəhmətlik dayımızın arvadıdı... - guya ki, Amerika açdım, Fəridənin bundan yerli-dibli xəbəri yoxdu. Yersiz sözlər dediyimə görə ürəyimdə özümü danladım.

- Doğrudan?.. Olmaz elə dayıdostudan... Səhərəcən salıb səni çənəsinin altına bizim qeybətimizi qırıb, - qıyğacı üzümə baxanda gözlərimi yerə dikdim, zalımın qızı düz deyirdi, axı. - Oturmuşdun Şuranın evində, qabağında çay, mer-meyvə, Xatirənin əlinin altında kart... O, qaramızca döşəyirdi, sən də qulaq asırdın...

- Dayan görüm... Sən idin gecə pəncərədən baxan?..

- ...

- Hə, ya yox?

- Hə, mən idim! Burda nə var ki? Bəs, mən bilməyim ki, o Allahsız gecəgözü səni evinə salıb başına nə oyun açacaq? Elə bilirsən qaranlıqda evdən çıxmağa qorxuram? Mən ha! Ya məni ötürməsən, evimizə gedib çıxa bilmərəm? Ay-hay! Kişi ürəyi var məndə. Xatirə ilə diz-dizə əyləşib söhbətləşən - yüz faiz aydındı ki, o ləçər bizim qeybətimizi qırırdı - özgəsi olsaydı, heç üzünə baxmazdım. Ancaq sən başqa məsələ... Kənddə doğulsan da qayda-qanunlarımızı

bilmirsən, sadəlövhsən, Xatirənin şirin dilinə aldanırsan. Neynək, qoy olsun. Nə deyə bilər, axı, sənə Xatirə? Elə həmişə orda-burda dediklərini. Dedimi ki, xalan fahişədi, dedimi ki, xalanqızı gəzəyəndi, dədəsindən bixəbərdi, dedimi ki, özü üç dəfə ərə getsə də aydan arı, sudan durudu?..

- Ay qız, sakit ol, əsəbləşmə, - sözünü kəsdim.

Səsinin ahəngindən mənə elə kəldi ki, indicə ağlayacaq. Ancaq o, biganəliklə əlini yellədi:

- Niyə hirslənirəm, öyrəncəliyik. Mən də, anam da... Qulağımız dolub. Vecimizə almırıq daha... Xatirədi də, qoy nə deyir desin. Amma arabir öz işdəklərini də yada salsın. Prokuror Şuraya çörəyin arasında siçan dərmanı verib zəhərləməyini, Gülnisənin oğlu Mehdixanı - üçüncü ərini - cadulu bankalarla həmişəlik yatızdırmağını, voyenni ərini, yəni ikinci ərini də, aradan götürmək məsələsini, ərinin silahdaşı ilə başbir olandan sonra onu öyrətmişdi, yazığı vertolyotdan atsın yerə... Elə bədbəxt dayımızın da başını Xatirə yemədi? Qarabaxt dayım, ağacın altında oturub dincini alırmış, Xatirə evdən çay gətirir ki, gərək bunu içəsən. Dayım çay içən deyilmiş, ya ürəyinə nə isə damıbmış, deyir ki, içmirəm. O deyir iç, bu deyir içmirəm, axırda Xatirə zorla çayı tökür dayımın boğazına. Çay adına verdiyi o zəhrimar nəymişsə, dayım çeçəyib o saatca dünyasını dəyişir...

- Yalandı! Mən bunu eşitməmişəm. Dayım uşaq-zad deyildi ki, Xatirə onun boğazına çay tökəydi.

- Yalandı? Hardan ağlına gəlib ki, sənin bilmədiklərin uydurmadı? Mən niyə yalan danışmalıyam? İnanmırsan, gedərik xalandan soruşarsan. O ki, yalan danışmaz... Yoxsa, Xatirənin qucağında uyuyandan sonra dost-doğmaca xalana da inanmırsan?

- Danışmaz... - çarəsiz-çarəsiz razılaşdım. - Guya, kefdən Xatirəgildə yatmışdım. Mən onun evində yatdım, o, Şuranın evində - bu bir. İkincisi, mən yuxuya gedəndə səhər açılırdı. Neçə saat yerimin içində ilan vuran kimi fırlanmışam, - burasını deyəndə Fərhad yadıma düşdü, düzdü, o, mənim yadıma dumanlı, demək olar ki, güclə gəlirdi, istər-istəməz diqqətlə Fəridəyə baxdım. - Özü də həmin peçin yanında yatmışdım, ağlıma cürbəcür fikirlər gəlirdi. Elə bilirdim peçin içindən dayım çıxacaq, Mehdixan çıxacaq, voyenni çıxacaq, Xatirənin çəkməçi qardaşı çıxacaq, özümüzük onun tikdiyi çəkmələrin dillərə düşdüyünü mən heç vaxt eşidib eləməmişəm, qaraçılar çıxacaq, Xatirənin dədəsi çıxacaq. Tapançanı götürüb başıma bir güllə sıxacaqlar. Sonra da özləri ilə aparacaqlar, hamımız bir yerdə girəcəyik peçin içinə... Yataqda qıvrıla-qıvrıla ağlıma gələnlərə elə inandım ki, yuxulu-yuxulu durub peçin içinə baxmağa da ərinmədim. Tərs kimi gözüm divardakı böyüdülmüş şəklə sataşdı. Xatirənin qardaşının şəklinə. Ətrafına da qırmızı lent bağlanmışdı. Düz başımın üstündə idi şəkil... İndi yat görüm, necə yatırsan! İkinci kərə şəkli üzü üstə çevirmək üçün qalxası oldum. Ancaq şəkli çevirə bilmədim. Şəklin arxasından tapança düşdü çarpayıya. Şəklin arxasında tapança gizlətməyə yer yox idi, sanki göydən atmışdılar onu...

- Yuxuda? - Fəridə sözümü kəsəndə mən özümə gəlib: “Mən nə danışıram, xudaya?” - düşündüm.

Və sevincək təsdiqlədim:

- Hə, hə, yuxuda...

Fəridə istiqanlılıqla gülümsündü, dediklərimdən razı qalmışdı.

- Neyləyəsən, - dedi, - o ifritənin, cadu-pitinin evində gecələmək hər kişinin hünəri deyil.

- Sən də başlamısan ki, Xatirənin qucağı, mən nə bilim, filan yeri...

Fəridə mənə qısıldı:

- Zarafat-zad başa düşmürsən? Xatirə haranın ləçəridi ki, mən qısqanıb eləyim. Elə fikirləşmə ki, sənə ərə germək xatirinə özümü təmizə çıxardıb

Xatirəni yamanlayıram. O falçı hara, mən hara? Mən sənin xətrinə, yalnız sənə görə gecə Şuranın evinin pəncərəsindən sizi güdmüşəm. Mən sənə görə səni dilə tuturam. Gələcəyimizə görə... Yoxsa, bütün gecəni Xatirə ilə diz-dizə oturan, Xatirənin qeybətlərinə, qarayaxdılarına qulaq asan adamı yaxına buraxardım? İraq-iraq, qarıyıb evdə qalmamışam ki... Vallah-billah, Xatirə deyənlər uydurmadı. Bir də vallah-billah ki, bizim evlənməyimiz məndən çox sənə gərəkdi. Sən bəzi məsələlərdən xəbərsizsən, axı...

Xalamgilin darvazasının qabağında ayaq saxladım, qoluma girdiyindən sövq-təbii o da dayandı.

- Hansı məsələlərdən? - soruşdum.

Fəridə qolunu qolumdan çəkib həyət qapısını açdı:

- Evdə deyərəm...

- Yox, - dedim, - yorğunam, qoy qalsın sabaha...

- Gəlmirsən? - bir ayağı bayırda, digəri həyətdə qaşqabağını sallayıb dayandı.

- Yox, küsmə, dedim ki, sabah gələrəm...

Təkid eləmədi, başını döndərib yanağımdan ehmalca öpdü və “sağ ol” - deyib evə yüyürdü. Dəmir qapının zərblə örtülən səsindən qulaqlatım bir xeyli uğuldadı.

...Evdə anam soruşdu:

- Noldu sənin evlənmək işin? Bir qərara gəldin?

- Yox, - dedim yorğun-yorğun. - Elə işlər var ki, son nöqtəni qoymaq çətindi, çox çətindi...

Anam çaşqınlıqla dedi:

- Çətinlik-mətinlik yoxdu, bala. Ya “hə” deməlisən, ya “yox”.

Göylərdən enib başa düşdüm ki, hansısa, Xatirə demişkən, qalstuklular məclisindən uzaq, savadsız anamın hüzurundayam.

Səhər qayıdacam şəhərə, - dedim. - Gərək otpusk götürüb, gəlib bir ay burda qalım. Ölçüm-biçim... Arvad almaq bazarda kartof-soğan alveri deyil ki...

Anam razılıqla başını tərpətdi, bu dəfə dediklərimi yerli-yataqlı anlamışdı.

...Hardasa itlər hürüşdü. Mənə elə gəldi ki, Vilayətin oğlunun itləri həyətdən çıxmağımı gözləyir...

* * *

Şəhərə gələndə eşitdim ki, Faxını öldürüblər. Deyirdilər qatillər - qəfil pivəxanaya soxulub ona atəş açanlar - iki nəfərmiş. Yazığın bədəninə üç, başına bir güllə dəyibmiş. Yalan-gerçək şahidlər danışırdı ki, gələnləri görcək Faxının sir-sifətindəki öyrəşdiyimiz həlim təbəssüm silinib, qalın qaşları çatılıb, çöhrəsi elə zəhmli olub ki, nə gündə min yol vurmağa gələnlər, nə də yaxınlıqda yaşayan tanış-biliş heç vədə onu o cür zabitəli görməyibmiş.

Bəlkə, qatillərin də qorxudan əlləri titrəyib, nə səbəbdənsə, ikicə addımlıqdan və iki tapançadan dalbadal açılan saysız-hesabsız güllələrdən cəmi dördü dəyib hədəfə...

Faxı piştaxtanın arxasından tapançalıların üstünə tullanıb, ancaq son güllə kəlləsini tutduğundan yaralı pələng təki irəli şığıyan qolları boşalıb, qanlı əlləri azca qabaqdakı tuncsifət qatilin çiyninə toxunub və daş kimi yerə dəyib...

Hay-küy qopub aləm qarışınca qatillər gəldikləri ağ “Mersedes”ə minib göz qırpımında aradan çıxıblar...

Deyirlər, kəlləsinə dəyən gülədən Faxının sifəti bədheybət hala düşübmüş, polis gəlib çıxanacan ortada qalan meyitə qorxudan yaxın duran yoxmuş...

# ◆ Nisə Bəyimin 60 yaşı



***Nisə Bəyimin ilk şeirləri "Azərbaycan" jurnalında hələ 30 il əvvəl dərc olunub. O zaman redaksiya əməkdaşlarından kimsə onu tanımırdı. Sabirabaddan göndərdiyi şeirləri oxundu və bəyənildi. O vaxtdan Nisə Bəyim jurnalımızın ən fəal müəlliflərindəndir; o müəlliflərindəndir ki, əyalətdə yazıb-yaratsalar da əsərləri ilə ədəbiyyatda paytaxt-əyalət anlayışını silib bir kənara ata bilirlər. Onun şeirləri mövzu və düşüncə tərzinin müasirliyi, səmimiyyəti ilə diqqəti cəlb edir. Nisə Bəyim həyatını başdan-başa bədii yaradıcılığa həsr etmiş bir şairdir. Son illər nəsr də yazır. Artıq uğurları da var. Bu gün ən çox vaxt darlığından, ömrün qısalığından gileylidir:***

***"Ömür o qədər qısa ki, üstündə yerimək olmur***
***İki gözün sığmadığı bir nəfsi doyurmaq olmur ..." - deyir.***

***Əziz bacımiz, "nəfsin doyanacan" yaşa, yarat.***
***Sənə cansağlığı və uzun ömür arzulayırıq!***

***"Azərbaycan" jurnalının redaksiyası***

## *Nisə BƏYİM*

## ALTI ON - ON ALTI

* * *

Üzü -gözü ayrılığa bulaşmış
Xatirələr qaranlıqda gizlənir...
Tərk edilmiş ömrün tör-töküntüsü
Yığılmaqçun künc -bucaqdan izlənir...

Bu darıxmaq nədir,
durub başımda
heç olmayan gümanlar da darıxır...

bir-birindən xəbərsiz qeyb olanlar,
yaxın-uzaq zamanlar da darıxır...

İçi boşdur yaşanmayan bir ömrün,
İstər, yuxu, istərsən də, nağıl de,
Xəyal kimi uçub gedən illərə,
İstər, ağla, istərsən də, ağı de...

***

Könlündən yas keçirdi,
yas tutdum, sənə ağladım...
ayırıb göz yaşlarından
bir az da sənə saxladım...
İndi bax dənizdən, göydən,
biz bilməyən sirrə ağla...
səni yola salan qəmə,
qarşılayan şeirə ağla...
Gözün arxada qalmasın,
burda vaxt öz yolundadı,
ölümü yaşadan saat
indi sənin qolundadı...

***

Ömür o qədər qısa ki,
üstündə yerimək olmur,
iki gözün sığmadığı
bir nəfsi doyurmaq olmur...

Nəfəsin yarısı qədər,
verdiklərin geri gəlmir,
bir canın qurusu qədər,
ayrı olan can çəkilmir...
O qədər qısa ki
həyat,
bir ömrün yuxusu bitmir...
bir şeiri sona qədər
oxumağa zaman yetmir...

***30 yanvar 2015***

***

Nə qədər yanılmısan,
tanımamısan tənhalığı...
ömründə görmədiyin,
eşitdiyin tənhalığı...

Hər kəsdən böyük imiş,
gözündə kiçiltmisən...
sənin əcəlin ikən,
onu yazıq bilmisən...

Səksəkədən diksinirmiş,
qorxular qarasına,
əlin də çata bilmirmiş
gözünün qurusuna...

Görmürsənmiş
boynunda
büzüşən tənhalığı,
başından ayağına
sürüşən tənhalığı...

Gündüzlər gəzib-tozub,
gecələr qıvrılırmış...
içindəki zəhərdən
ilan tək qovrulurmuş...

Ağla gəlməyən zamanda,
hər yerdə gözlənirmiş...
görünmürmüş heç kimə,
içində gizlənirmiş...

Bəzən səni min adamın
arasında bulurmuş,
yad bildiyin adamlardan
daha doğma olurmuş...

***11 yanvar 2015***

***

Bir az ağlaya bilsəm,
ürəyim tərpənərdi,
isti göz yaşlarımdan
səssizlik ürpənərdi...

Vaxtın donu açılar,
çırpınardı əlimdə,
mənə məhkum hissizlik
dirilərdi qəlbimdə...

İndi xatırladığım
olmamış kimilərdi...
yaddaşımdan qeyb olan
lövbərsiz gəmilərdi...

***

***11 yanvar 2015.***

Mən həyatım boyunca xatirələri yığdım,
Ömrümü arıtladım gecələrin gözündə...
Zamanla unutdular çoxları olanları,
Mən saxladım özümdə hər kəsin əvəzində...

Yaddaşım bu dünyanın unudulmayan küncü,
Nə sevinci tulladım, nə də kədəri atdım,
Bütün dəliliklərin, bütün axmaqlıqların
Nə birini itirdim, nə birini unutdum...

Hər telin bir harayı, hər simin bir səsi var,
Ürəyim ağrıların yığımını daşıyır...
Hər kəsdən qopan nəsə mənim xatirələrimdə,
Hər kəsdə ölən nəsə ...hələ məndə yaşayır...

***10 yanvar 2015***

***

Bir misralıq ömrümü
bir fəsil qəmə bükdüm...
rüzgarlarla hönkürüb,
buluddan dolu tökdüm...

Qar altında darıxdı
nigaran duyğularım...
içini didib susdu
şaxtalı qorxularım...

Gecələrdən dünyanın
Əl-ayağı çəkildi...
Bilmədim nəydi belə,
mən öldürmədən öldü...

***10 yanvar 2015***

***

Sözü bayraq elədilər -
And içməyə sözüm yox...
Qaçmaq istədim hər kəsdən,
Gizlənməyə gözüm yox...

Susmaq haqqımı saxladım,
Götürməyə iznim yox...
Tək yol qalmışdı arxada -
Qayıtmağa üzüm yox...

***5 yanvar 2015***

***

Gündüzlər əlli-ayaqlı,
Gecələr əriyib gedir...
Ayrılıqlar göz yaşında
Çarəsiz kiriyib gedir...

Vaxt kül üfürüb gözünə,
Fələk də durub üzünə,
Xəyallarım öz-özünə
İçimdən çürüyüb gedir...

Canla - qanla söküb - tikib,
Gözlərini ovub - töküb,
Arzular kəfənə büküb,
Ömrümü sürüyüb gedir...

***5 yanvar 2015***

***

Qanımın arasına girdim,
Ürəyimi boğacaqdı...
Yetişə bilməsəydim,
Yenidən doğacaqdı...

Xəbərim olmasaydı,
Getmişdi əlim- əldən...
Ayrılacaqdı qəlbim,
Küsəcəkdi el - eldən...

Ay Allah...
məndən ötrü
Dərd dərdi böləcəkdi,
Vaxtında ölməsəydim,
Əcəlim öləcəkdi...

***6 yanvar 2015***

***

Nə oldu,
baxtdan oldu,
Göz - gözdən ayrı soldu...
Olmayan olacaqlar
Mənim əlimdə oldu...

Yol saldım,
qəmə vardım...
tapıb dibini yardım,
ha çəkdim, ha çıxardım,
ucu sinəmdə qaldı...

Can keçdim udum-udum,
Vaxt verib, ömür uddum,
Əlimlə haqqı tutdum,
Dedilər, bu - xəyaldı...
***6 yanvar 2015***

◆ D ə y i r m i   M a s a

# Anar belə dedi...

*Anarın "Göz muncuğu" povestinin müzakirəsi*

**İştirakçılar**: *İsa Həbibbəyli, Nizami Cəfərov, Nərgiz Cabbarlı*
**Moderator**: *Əsəd Cahangir*

**Əsəd Cahangir:** Hörmətli müzakirə iştirakçıları, yəqin, mətbuatdan izləyirsiniz ki, "Azərbaycan" jurnalı xeyli vaxtdır ədəbiyyatın bu və ya digər məsələləri ilə bağlı müzakirə materialları dərc edir. Bugünkü söhbətimizin mövzusu bir qədər fərqlidir: əgər öncələrdə hər hansı ədəbi-bədii janr, yaxud növlə bağlı ən ümumi problemləri dartışma konusuna çevirirdiksə, indi konkret bir əsərdən - Xalq yazıçısı Anarın bu yaxınlarda işıq üzü görən "Göz muncuğu" povestindən danışacağıq. Seçimimiz təsadüfi deyil. Əvvəla, bu povest dünya və milli ədəbi-bədii, eləcə də fəlsəfi fikrinin mühüm nəticələrini özündə daşıyır. İkincisi isə milli ədəbiyyatımızın yeni inkişaf perspektivlərini müəyyənləşdirmək özəlliyinə malikdir.

Müzakirəmizi üç əsas yöndə aparmağı təklif edirəm: birincisi, "Göz muncuğu"nun Anar yaradıcılığındakı yeri; ikincisi, povestin Azərbaycan və dünya ədəbi-bədii fikri ilə səsləşən məqamları; üçüncüsü, əsərin özünün ideya-bədii mahiyyəti.

Hər bir ciddi yazıçı kimi Anarın yaradıcılığı da bütöv bədii sistemdir. Burda yer alan hər hansı əsər birbaşa görünən və görünməyən tellərlə digərləri ilə intertekstual münasibətdədir. Necə fikirləşirsiniz, Anarın son əsəri ilə əvvəlkilər arasında nə kimi bağlılıq var?

**İsa Həbibbəyli:** Kim başlasın?

**Nizami Cəfərov:** Gəlin elə sizdən başlayaq.

**İsa Həbibbəyli:** "Göz muncuğu" povestinin Anarın yaradıcılığında yeri barədə mətbuatda müxtəlif fikirlərlə qarşılaşırıq. Bəziləri yazır ki, bu, Anar yaradıcılığının yekunudur, digərləri yazır ki, bu, yazıçının yaradıcılığının davamıdır. Hətta başqa mövqedən yanaşaraq, povesti öz müəllifinin yaradıcılığında yeni mərhələnin başlanğıcı hesab edənlər də var. Bu üç mövqedən hansının daha düzgün olduğunu aydınlaşdırmaq lazımdır. Məncə, bu povest Anar yaradıcılığı sistemində oturuşmuş, onun düşüncəsini, baxışlarını, yanaşmalarını, özünəməxsus təhkiyəsini əks etdirən yeni bir əsərdir. Bu əsər Anarın əvvəlki əsərlərində qaldırdığı məsələlərin, canlandırdığı obrazların, irəli sürdüyü mətləblərin daha da inkişafını, yüksəlişini göstərir.

**Əsəd Cahangir:** Bəlkə, belə deyək - bu, müəyyən bir dövrə vurulan yekun, növbəti mərhələyə keçiddir.

**İsa Həbibbəyli:** Onda belə çıxar ki, Anar indiyə qədərki baxışlarını, ideallarını bir kənara qoyub, yeni istiqamət açır. Mən bu əsərə o cəhətdən yanaşmıram. Düzdür, Anar çalışıb ki, bu əsərində əvvəlki əsərlərindən

gəlmə çalarlar, motivlər çox az olsun. Hiss olunur ki, o, bu yeni əsəri son iyirmi il ərzində apardığı müşahidələrin əsasında yazıb. Amma, məncə, burada “Ağ liman”la, “Qırmızı limuzin”lə, “Otel otağı”yla müəyyən bir bağlılıq var. Anar özünü təkrar etmədən, qaldırdığı məsələlərə yeni planda, müasir cəmiyyətin, son dövr hadisələrinin gözü ilə baxaraq, eyni zamanda, yaradıcılıq ənənəsinə sadiq qalaraq, tamam fərqli və orijinal bir əsər ərsəyə gətirib. Bu əsərdə verilən cizgilər Anarın yeni əsərlər yazacağına işarədir.

**Əsəd Cahangir:** Anarın son povestinin əsas özəlliyi onun mistisizmidir. Yazıçının "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanı, yaxud "Macal" povestində bu mistika o qədər də qabarıq sezilməyən, məxməri səviyyədədir. Özü də əsərin finalında qəfil dalğa kimi qalxır. Eyni sözü müəyyən fərqlə "Otel otağı" haqqında da demək olar. Fərq ondadır ki, burda mistik dalğanın finalda qalxacağına bütün əsər boyu işarələr edilir. "Qırmızı limuzin", "Vahimə" hekayələri, özəlliklə, "Əlaqə” povesti isə əvvəldən sonacan açıq mistik ruha köklənib.

“Göz muncuğu” Anarın bütün yaradıcılığı boyu özünü göstərən mistisizmin zirvəsidir. Burda mistika son dərəcə qatı rəng alır. Ömrünün və yaradıcılığının kamillik dönəmini yaşayan bir yazıçını mistik əsər yazmağa vadar edən, sizcə, nədir?

**Nizami Cəfərov:** İsa müəllim indicə maraqlı bir sxem qurdu - “Göz muncuğu” povesti Anar yaradıcılığında əvvəlki mərhələnin yekunudur, yeni mərhələyə keçiddir, yoxsa yeni mərhələdir? Məncə, hər üçü bu əsərdə var, yəni həm başlanğıc, həm keçid, həm də müəyyən qədər yekun. Səninlə razıyam, Əsəd, Anarın bayaq sadaladığın əsərlərinin hamısında mistika var. Bu da böyük ədəbiyyatın keyfiyyətidir, əlamətidir. Mistika ədəbiyyatda mütləq olmalıdır. Çünki ədəbiyyat, bədii söz özünün ən dərin, gizli mahiyyəti etibarilə mistik hadisədir. Xüsusən son dövrlərdə biz bu mistikanı təkcə ədəbiyyat yox, həm də kinoda, rəssamlıqda, müsiqidə və digər incəsənət sahələrində də görürük. Yəni Anarın son əsərində mistik ruhun güclənməsi bu gün bütün dünya ədəbiyyatı və incəsənətində gedən ən ümumi prosesin üzvi tərkib hissəsidir. Onu da vurğulayım ki, mistisizm sadəcə bu günün hadisəsi deyil. İstər bizdə, istərsə də dünyada. Son bir əsrdə dünya ədəbiyyatında mistikaya meylin artması isə ekzistensializm cərəyanının meydana gəlməsi ilə bilavasitə bağlıdır. Amma istər tarixən, istərsə də bu gün mistika praktik düşüncənin dini düşüncə ilə dialoqu, başqa sözlə desək, Allah-insan münasibətləri xarakteri daşıyıb.

**Əsəd Cahangir:** İngilis tarixçisi Toynbi "Tarixin dərki" əsərində yazır ki, tarix Allahla insanın dialoqudur - Allah işarə verir, insan reaksiya göstərir və tarix yaranır. Amma bu dialoqun tarixən güclənmə və zəifləmə məqamları olub. Məsələn, İntibaha qədərki tarix birbaşa Allah-insan dialoqu üstündə qurulub. Yeni Dövrdən üzü bəri insan-təbiət dialoqu başlayıb. İyirminci əsrdən Allah-insan dialoqu yenidən gündəmə gəlib. Allah-insan dialoqu başlayan yerdə isə mistisizm başlayır.

Mistisizm kataklizmlərin gücləndiyi dönəmlərdə daha qabarıq üzə çıxır. Sadə dillə desək, insanın işi çətinə düşəndə Allahı yada salır. Siz ekzistensializmdən danışdınız. Doğrudan da, ekzistensializm üçün bəlli bir mistisizm səciyyəvidir, özəlliklə də, baş verən olayların kökünü nəsə irrasional təsadüfə bağlamaq məsələsində. Məncə, bu, 1930-40-cı illərdə bütün dünyanı ölümlə təhdid edən faşizm taunu qarşısındakı vahimədən yaranmışdı. Kamyunun “Taun”unda yerin altından qəfil çıxıb, bütün

şəhəri tauna yoluxduran siçovullar rəmzi dillə faşizmə işarə edirdi. Nə qədər absurd səslənsə də, siçovullar burda həmin o kor təsadüf, irrasional tale rolunu oynayırdı. Ötən əsrin ən böyük fiziki Eynşteynə məxsus bir ifadə var - "İyirmi birinci əsr mistika əsri olacaq, əgər olacaqsa". Bunun səbəbini Eynşteyndən soruşmaq imkanım yoxdur. Ona görə sualımı sizə ünvanlamalı olacam: sizcə, son dönəmlərdə ədəbiyyat və incəsənətin ən müxtəlif sahələrində mistikaya meyil niyə belə güclənib?

**Nizami Cəfərov:** Əsəd, sualına Eynşteyn kimi yox, elə Nizami Cəfərov kimi cavab verəcəm. Bu gün dünyada o qədər mürəkkəb hadisələr baş verir ki, insan o qədər təhlükələrin nəzarəti altındadır ki, istər-istəməz onda bir ümidsizlik yaranır. Çağdaş insan sanki şüşə evdə yaşayır. Onun az qala intim həyatı belə, daimi nəzarət altındadır. Buna görə onun yeganə sığınacaq yeri kimi öz daxili aləminə girməkdən başqa əlacı yoxdur. Daxili aləmə girişdən isə mistika başlayır.

**Əsəd Cahangir:** Cəmiyyətin təhdidlərindən qurtulmağın klassik üsulu da var - Allaha sığınmaq.

**Nizami Cəfərov:** Allaha sığınmaq çox sadəlövh ümiddir.

**Əsəd Cahangir:** Allaha ümidin olmadığı yerdə Marksın, Leninin, Stalinin, Hitlerin ilahiləşdirilməsi başlayır.

**Nizami Cəfərov:** Kommunizm, yaxud faşizm, sadəcə, sadəlövh yox, həm də olduqca vulqar bir ümiddir. Allahdan qorxmaq o qədər də böyük təhlükə deyil, amma diktatordan qorxmaq və onun xilasedici obrazını yaratmağa cəhd eləmək olduqca bayağı məsələdir.

**Əsəd Cahangir:** Bu, əlbəttə ki, daha çox mənim suçum üzündən oldu, amma, deyəsən, konkret mövzumuzdan uzaqlaşmaq təhlükəsi yaranır.

**Nizami Cəfərov:** Məncə, bu elə belə də olmalıdır. Anar elə əsər yazıb ki, onu qiymətləndirərkən bu əsərin kontekstindən istər-istəməz kənara çıxmalı olursan. Çünki bu əsər qeyri-səlis məntiqlə yazılıb. Burada məntiq möhkəm deyil, maarifçi və öyrədici deyil, nəyisə dərk eləyib bitirmiş və idrak modeli verilmiş bir şəkildə deyil. Mənə elə gəlir ki, bu əsər Lütfü Zadə təfəkkürü ilə yazılmış bir əsərdir.

**Əsəd Cahangir:** Gəlin elə bu kontekstdə Anarın mistikasına qayıdaq.

**Nizami Cəfərov:** Anarın mistikası şəxsiyyətə pərəstiş kultundan çox uzaqdır, hətta onun əksinədir. Təkcə ona görə yox ki, onun son əsərinin qəhrəmanı müsbət ideallarının təcəssümü deyil, ümumən onun qəhrəmanları hər hansı idealı birmənalı təsdiq etmir. Son əsərində isə o, insan ağlı, qəlbi və ruhunun ən dərin qatlarına enib, həmin dərin qatlardakı ən zidd məqamları qabardıb. Necə deyərlər, Anar insanın iç üzünü açıb, onun üzünü astarına çevirib. Belə olan halda isə hansısa insan idealından danışmaq olmaz.

Bir daha təkrar edirəm ki, Anarın bu əsərinin meydana çıxması dünyada baş verən mürəkkəb hadisələrlə bağlıdır. Bununla belə, Anarın mistikası həm də özünəməxsus bir faktdır. Mistika özü, əslində, çox mürəkkəb bir məsələdir. Baxın, onda hər şey var. Eyni zamanda, o, heç nə ilə tam üst-üstə düşmür. O, hətta fərdi mənada təkrarsızdır. Hər kəsin dünyada yalnız onun özünə məxsus mistikası var. Ona görə mistika nə ədəbi cərəyan, nə fəlsəfi baxış, nə də elmdir. Mistika insanın bütün qorxulara, təhlükələrə, xüsusən də ölüm qorxusuna verdiyi reaksiyadır. Bu reaksiya müxtəlif formalarda və cərəyanlarda ola bilər.

**Əsəd Cahangir:** Ölüm qorxusu demişkən, Nazim Hikmətin məşhur misraları var:

***Nə ölümdən qorxmaq ayıb,***
***Nə də düşünmək ölümü.***

İnsanın bütün yerdə qalan canlılardan bir fərqi də onun ölüm düşüncəsinə malik olmasıdır. Əgər ölüm haqqında düşünürsənsə, deməli, insansan.

**Nizami Cəfərov:** Başqa canlılar da düşünür bu barədə. Məsələn, fillər ölümlərini üç gün öncə duyub özəl qəbiristanlıqlarına gedir, orda ölürlər. Yaxud qu quşları ölümlərindən bir neçə saat öncə aramsız olaraq öz son nəğmələrini oxumağa başlayırlar. Amma istənilən halda ölüm duyğusu onlarda daha çox fizioloji olay olaraq qalır. İnsanda isə bu daha çox ruhi-mənəvi fakt kimi meydana çıxır. İkinci bir tərəfdən, insan öz ölümünü doğulan gündən duyur.

**Əsəd Cahangir:** Anarın istər öncəki, istərsə də müstəqillik dönəmi əsərlərinin qəhrəmanları da ölüm problemi çevrəsində tez-tez düşünürlər. "Otel otağı", əslində, ölüm otağı deməkdir. "Ağ qoç, qara qoç"un qəhrəmanı təkcə özünün və ən yaxın ailə üzvlərinin yox, bütün xalqının həyatını xilas etmək uğrunda mübarizəyə qalxır. Yazıçının son əsərinin qəhrəmanı isə anabioz faktıyla üzləşir - yəni ölüb dirilir. Sanki bu üç əsər Anarın bədii düşüncəsində gedən yeniləşmə prosesinin üç tərkib hissəsidir: "Otel otağı" köhnə idealların qaçılmaz ölümünü, "Ağ qoç, qara qoç" yeni ideallar uğrunda ölüm-dirim çarpışmasını, "Göz muncuğu " isə dirilməni əks etdirir.

**Nizami Cəfərov:** Anarın bütün əsərlərinin ideyası insan həyatı və mənliyinin, insan şəxsiyyətinin, ümumən insanlığın təhlükə altında olmasına dair həyacan dolu xəbərdarlıqla bağlıdır. Əslində, bütün zamanlarda belə olub. Sadəcə, insan get-dedə özünü dərk etməyə, təhlükədən uzaqlaşmağa məcbur olur. İnsan həmişə cəhd eləyir ki, ömrünü uzatsın. Heç kəs vaxtsız ölmək istəmir. Əslində, vaxt anlayışı da burada şərtidir - bəxt, tale, qəzavü-qədər və s. məsələlər ortaya çıxır. Anarın bu əsəri insanın özü barədə mümkün qədər çevik düşünmək və özünü xilas eləmək refleksinin nəticəsidir. Bununla yanaşı, bu əsər bir publisistin qeydləri deyil, bir filosofun düşüncələri deyil, birbaşa ədəbiyyat əsəridir. Burada, məsələn, deyək ki, ay adamı, ay işığı, sifət cizgilərinin dəyişməsi, qəbirlə ana bətninin oxşadılması, ölümün soyuqla əlaqələndirilməsi və s. məqamlar surrealist məqamlardır. Ancaq bununla belə, Anar nə surrealist, nə də realistdir. Fikrimcə, Anar daha çox simvolistdir. O, simvolları ədəbiyyatın tarixindən götürməyi, yeni simvollar yaratmağı, anologiyalar verməyi bacaran bir yazıçıdır. Bir yazıçı nə qədər publisist, nə qədər filosof ola bilərsə, Anar o məqama gedib çıxa bilir, ancaq yenə də yazıçı olaraq qalır. Bu əsərin kontekstində boş yer yoxdur, bütün mətn hərəkətdədir, bütövlükdə enerjili mətndir.

**Əsəd Cahangir:** Bu yöndən onun əvvəlki əsərlərinə yanaşsaq necə?

**Nizami Cəfərov:** Onun əvvəlki əsərlərində bu qədər qeyri-səlis məntiq olmayıb. Əvvəlki əsərlərində həyatın gerçəkliyi, praktik məntiqi nədirsə, Anar onu izah eləməyə çalışıb. Hətta müəyyən qədər zarafatlar eləməyə can atıb. Ancaq onun bu əsərində zarafat yoxdur. Əvvəlki əsərlərində insanı yuxarıda tutmaq, insanın şəxsiyyətini təsdiq eləmək kimi motivlər qabarıqdır. Amma bu əsərində insanı gözgörəti yuxarı tutmaq yoxdur. Burada insan o qədər dərin təhlilə məruz qalır ki, onun tam bir obyekt olduğunu düşünməli olursan. Bu baxımdan, "Göz muncuğu"nda qeyri-adilik var.

**Əsəd Cahangir:** Anarın bundan öncə yazdığı “Ağ qoç, qara qoç” əsərinin intertekstuallıq baxımından üç qatı varıydı: Mirzə Cəlilin “Anamın kitabı” pyesi; “Dədə Qorqud”; “Məlikməmmədin nağılı”. Eyni qatları “Göz muncuğu”nda da görmək olur: Mirzə Cəlilin “Ölülər” pyesi; “Dədə Qorqud”; “Avesta”. Əgər nəzərə alsaq ki, “Məlikməmmədin nağılı” özü də “Avesta” və zərdüştilik inancı ilə bağlıdır, onda hər iki əsərin fundamental altyapısında eyni mənbələrin durduğunu görürük.

Təxminən qırx il öncə yazdığı “Dədə Qorqud” kinodastanında Anar Təpəgöz obrazından istifadə etməyib. Çünki Təpəgöz irreal varlıqdır, kinodastan isə real həyat hadisələrindən bəhs edir. Bu mənada “Göz muncuğu” povestinə "Dədə Qorqud" filminin ssenarisindən kənarda qalan Təpəgöz əhvalatının çağdaş nəsr variantı kimi də baxmaq olar. Çünki "Göz muncuğu"nun əsas qəhrəmanı Əhlimanın da bəsirət gözü açıqdır. Yəni bu obrazı yaratmaqla yazıçı mahiyyətcə Təpəgözü povestə transfer edib. Sizcə, “Göz muncuğu” ilə “Dədə Qorqud” arasında daha nə kimi intertekstual bağlılıq var?

**Nizami Cəfərov:** “Dədə Qorqud” eposu Anarın bir yazıçı kimi öz daxilindədir. Onun bu əsərində də “Dədə Qorqud”dan gələn boy texnologiyası, ssenarisi var, yəni həyatı model-model, parça-parça, boy-boy göstərmək. Bu cəhət əsərin strukturuna da, ifadələrinə də çox müsbət təsir eləyir. Bundan başqa, əsərdə “Dədə Qorquddan xüsusi parçalar da var. Anar bu əsəri “Dədə Qorqud” eposunu yaradan xalqın üslubuyla, enerjisiylə yazıb.

Amma burda əsas məsələ, sənin dediyin kimi, Təpəgöz obrazıyla bağlıdır. Təpəgözün hamı kimi iki yox, bir gözü var, özü də alnında yerləşir. Və nəticədə oğuzlar ona Təpəgöz adı verirlər. Anarın qəhrəmanının isə hamı kimi iki gözü olmaqla yanaşı, həm də üçüncü - bəsirət gözü açılır. Amma Təpəgözdən fərqli olaraq bu gözü adi gözlə görmək mümkün deyil. Yəni o fiziki yox, mənəvi qüsur kimi meydana çıxır. Amma bu zahiri fərqə baxmayaraq, onlar mahiyyyətcə birləşirlər - hər ikisi şərə xidmət edir.

**Əsəd Cahangir:** Bu obrazlar arasında mənşə və nəticə etibarilə də fərq var. Oğuzun çobanı pəri qızına təcavüz edir və bundan Təpəgöz doğulur. Beləliklə, artıq məsələnin başlanğıcında qadağanın pozulması, yəni şər amili var. Çobanın pəri qızına təcavüzü mahiyyətcə yerin göyə üsyanı, insanın qadağan olunmuş ilahi sferaya girməsi, kosmik-metafizik nizamı pozması deməkdir. Çünki mifik arxetiplərdə göy həmişə ata, yer ana kimi təsəvvür olunur. Burda isə əksinədir, travestiya baş verib və bu üzdən travestik məxluq - Təpəgöz doğulur. Doğulan gündən də Oğuzun başına fəlakət gətirir - adam yeyir. Dastanın məntiqi aydındır - kosmik-ilahi nizamı pozmaq sonucda insanın özünün məhvinə səbəb olur. Çünki insan özü də bu sistemin içindədir.

Anarın Təpəgözü isə adi qadından doğulub. O, şər qüvvəyə daha çox cəmiyyət olaylarının təsiriylə, özü də tədricən çevrilir. Nəhayət, Təpəgözün islahı mümkün deyil, bu əcaib məxluqdan qurtulmağın yeganə yolu onu öldürməkdir. Anarın Təpəgözünün isə islah olunmaq potensialı var və bu, onun öz ağlında, iradəsində, bir sözlə, daxili gücündədir.

**İsa Həbibbəyli:** Dastandakı Təpəgöz mifik obrazdır. O, cəmiyyətdən təcrid olunandan sonra tək qalır və hətta arada intihar qərarına gəlir. Anar isə bir addım da qabağa ataraq öz Təpəgözünün intiharını göstərir. Bu,

ona işarə edir ki, bir gün təpəgözlər, əhrimənlər ölüb gedəcəklər, çox çətin də olsa, xeyir şər üstündə qələbə qazanacaq. Doğrudur, “Göz muncuğu”nda xeyirlə şəri ayırmaq çətindir. Əsərdə hər iki qüvvə həyatın, cəmiyyətin üzvi tərkib hissəsi kimi verilir. Ancaq hadisələri, prosesləri izləyən oxucu nəticə olaraq xeyrin sorağındadır.

**Əsəd Cahangir:** Nərgiz xanım, sizin müzakirəyə qoşulmaq fikriniz yoxdur?

**Nərgiz Cabbarlı:** Müxtəlif arxetiplərə, mifik süjetlərə qayıdış təkcə Azərbaycan ədəbiyyatı deyil, ümumən dünya ədəbiyyatının hadisəsidir. İyirminci əsrdən sonra bu meyil xüsusilə güclənib, müxtəlif şəkillərdə öz əksini tapıb. Ötən əsrin əvvəllərində mifik arxetiplərə daha çox modernistcəsinə yanaşırdılar. Əsrin ikinci yarısından sonra isə məsələyə münasibətdə postmodernist yanaşma ön plana keçdi. Lakin istənilən halda yazıçı münasibəti mifi ehya etmək yox, onu redaktə etmək cəhdindən irəli gəlir. Anarın “Dədə Qorqud”a yanaşması da təbiidir ki, fərqlidir.

Təkcə bu fərq yox, ümumən yazıçının digər mənbələrə münasibətdə də özünəməxsus yanaşmaları povestin metodoloji özəlliklərini müəyyənləşdirir. Fikrimcə, burada bir postmodernizm estetikası da var - istər kollaj effektində, istər süjetin fraqmentarlığında, müəyyən mətnlərin dekonstruksiyasında, sualların çoxluğunda, cavabların yoxluğunda, süjetin müəyyən qədər detektivliyində.

**Əsəd Cahangir:** Çağdaş dünya ədəbiyyatında detektivin xüsusi fəlsəfi-kulturoloji növü yaranıb. Bu, artıq Konan Doyl, yaxud Aqata Kristinin klassik detektivi deyil, tutaq ki, Faulz, Eko, yaxud Züskindin fəlsəfi-kulturoloji detektividir: burda artıq konkret bir qatil yox, ümumən bəşəriyyətin qatili axtarılır; “insanı öldürən kimdir və ölümdən qurtuluşun yolu nədədir?” sualı qoyulur; Şerlok Holms rolu ikiləşir - zahirdə qəhrəman, batində isə müəllif özü detektivlik edir. Sizcə, Anarın son əsəri bu meyillə nə dərəcədə səsləşir?

**Nərgiz Cabbarlı:** ”Göz muncuğu” məhz dünya ədəbiyyatında getdikcə daha çox yayılan bu dalğanın üstündə yaranıb. Baxın, povest detektiv əsər kimi başlayır, amma sonradan elə qurulur ki, detektiv süjet keçir arxa plana, ölüm hadisəsini törədənin kimliyi heç kəsi maraqlandırmır. Ölüm prosesinin özü və səbəbi, qəhrəmanın necə ölməsi və necə dirilməsi oxucunu daha çox maraqlandırır. Ənənəvi detektiv əsərlərdən fərqli olaraq, burada qatil axtarılmır və fikir tamam başqa istiqamətə yönəlir. Cani, cinayət, istintaq kimi anlayışlar adi kriminal müstəvidən, sizin dediyiniz kimi, fəlsəfi-kulturoloji qata keçir. Bunun özü də bir yazıçı priyomudur. Bu, necə deyərlər, postmodernist detektivdir. Konkret mövzumuzdan kənara çıxmadan deyim ki, postmodernizm istər Anarın “Ağ qoç, qara qoç”u, istərsə də, ümumilikdə Azərbaycan nəsrində özünü təsdiqləyə bildi. Tutaq ki, Kamal Abdullanın əsərlərində. Amma şeirdə, poeziyada bu alınmadı.

**Nizami Cəfərov:** Çünki şeirin postmodernləşməsi onun ölümü deməkdir.

**Əsəd Cahangir:** Sizcə, Anar son əsərində öz yaradıcılığına münasibətdə də postmodernistdir?

**Nərgiz Cabbarlı:** Həm hə, həm də yox. Baxır hansı məsələyə hansı rakursdan baxırsan. Məsələn, götürək “Beşmərtəbəli evin altıncı mərtəbəsi” romanını. Romanda altıncı mərtəbə gerçəklikdə mövcud

olmayan, irreal məkandır və yalnız əsərin finalında zahir olur. “Göz muncuğu” povestində bütün olaylar əvvəldən axıracan irreal məkanda - yəni altıncı mərtəbədə cərəyan edir. Bu, əlbəttə ki, yazıçının öz əvvəlki əsərinə dekonstruktiv münasibəti yox, onu daha geniş planda təsdiq etməsi, bir növ tamamlamasıdır.

**Əsəd Cahangir:** Yəni beşmərtəbə beş duyğu üzvü, altıncı mərtəbə isə altıncı hiss - bəsirət gözüdür.

**Nərgiz Cabbarlı:** Məsələni ən qısa şəkildə formulə etsək, elədir.

**Əsəd Cahangir:** Anarın altıncı mərtəbəsi mənə Tarkovskinin "Stalker" filmindəki Otağı xatırladır. Elə bir Otaq ki, orda haqqı nahaqdan seçmək mümkün olur. Altıncı mərtəbə də hər kəsin daxilən hansı mərtəbədə durduğunu işarələyən rəmzi-simvolik məkandır. Təhminədən fərqli olaraq Zaur altıncı mərtəbəyə sadəcə cismən qalxır, çünki onun bu qata ruhi yüksəlişi mümkünsüzdür. Bu qat əksəriyyət üçün əlçatmazdır. Bəsirət gözünün açıq olmasına baxmayaraq, "Göz muncuğu"nun qəhrəmanının da altıncı mərtəbəyə çıxışı tam reallaşmır. Düzdür, o, dördüncü mərtəbədə yaşayır. Amma daha çox elə bil ki, beşmərtəbəli evin zirzəmisindədir.

**Nərgiz Cabbarlı:** Amma onun zirzəmidən altıncı mərtəbəyə qalxmaq potensialı var. Əsas problem də elə budur. Yəni şərin bütün gücünə baxmayaraq, Anarın bu povestində xeyrə dəvət də var. Əsərin qəhrəmanı Əhlimanın içində iki adam var - birincisi xeyri təmsil edən Hörmüz, ikincisi şəri təmsil edən Əhriməndir. Ölməzliyi simvolizə edən Diri babanın Əhlimana Hörmüz adı verməsi də bu baxımdan təsadüfi deyil. Burada insanın öz üzərində işləməsi, içindəki xıltdan azad olması, özünü yaratmağa çalışması ilə bağlı məqamlar var. Hörmüz adı almasıyla Əhlimana şans verilir ki, o, özünə xeyir tərəfdən baxsın və o istiqamətə yön alsın.

**Əsəd Cahangir:** Beləliklə, Anarın xeyir-şər dixotomiyası vasitəsilə çağdaş psixologiyada çox məşhur olan şəxsiyyətin ikiləşməsi məsələsi üzərinə gəlib çıxırıq.

**Nərgiz Cabbarlı:** Hər bir insanın daxilində ikiləşmə var. Anarın yozumunda şəxsiyyətin daxilindəki xeyir onun daxilindəki şəri dördüncü mərtəbədən itələyib öldürür. Yəni bu, sözün məcazi mənasında intihar, insanın öz içindəki şəri öldürməsidir. Amma şər dirilib qəbirdən çıxır və yenə xeyirlə üz-üzə durur. Anarın məsələyə münasibətindən belə çıxır ki, nə qədər qələbə varsa, bir o qədər intiqam hissi var, nə qədər intiqam hissi varsa, bir o qədər də qələbə var. Bu zəncir o qədər davamlıdır ki, burada nə zaman şərin, nə zaman xeyrin qələbə qazanacağı bəlli deyil - bu qarşıdurma əbədidir. Digər tərəfdən, xeyir və şər anlayışlarına yanaşmada da bir şərtilik var. Kiminsə xeyir bildiyi başqası tərəfindən şər kimi dəyərləndirilə bilər, yaxud da əksinə. Əsərdən doğan yekun nəticə budur ki, istənilən halda nə xeyrin, nə də şərin birmənalı şəkildə qələbəsi mümkün deyil.

Əsərin daxili məntiqindən doğan bu yekun ideya, məncə, kifayət qədər aydındır. Odur ki, müəllifin əsərin ortasında - qəbiristanlıq epizodunda və finalda süjetdən ayrılaraq diktor mətni ilə xüsusi izahatlar verməsi mənə bir qədər artıq göründü.

**Əsəd Cahangir:** Amma nəzərə alın ki, Anar öz əsərini təkcə mütəxəssislər, konkret desək, Ədəbiyyat İnstitutunun işçiləri üçün yox, həm də geniş kütlə üçün yazıb. Bu baxımdan xüsusi müəllif izahatları ilk baxışdan artıq görünsə də, sıravi oxucuya məsələni qavramaqda yardımçı

ola bilər. İsa müəllim, siz necə düşünürsünüz, əsərdə xüsusi müəllif izahatları, eləcə də hər fəslin əvvəlində verilən çoxsaylı epiqraflara ehtiyac vardımı?

**İsa Həbibbəyli:** Məncə, hətta bu izahat və sitatlardan sonra da Anar oxucunun ixtiyarına çox şey buraxır. Bunlardan biri də onun birtipli müsbət, yaxud mənfi obraz yaratmaq fikrindən uzaq olmasıdır. Nəticədə qəhrəmanlara və personajlara münasibəti oxucu özü müəyyənləşdirməli olur. Məsələn, Əhliman şərdir, yoxsa xeyir? Hörmüzdür, yoxsa Əhrimən? Təbii ki, hər ikisi və heç birisi.

**Əsəd Cahangir:** Çexov bu tip bədii qəhrəmanları "pis yaxşı adam" adlandırırdı. Bizim nəsrdə bu meyil 60-cı illərdən güclənməyə başlayıb. Altmışıncı illərə qədər ədəbiyyatın əsas qəhrəmanı inqilabçı, yaxud istehsalat qəhrəmanı idi. Əllinci illəri bu məsələdə konfrontasiya dövrü adlandırmaq olar.

Altmışıncılarda inqilabçı, yaxud istehsalatçı öz yerini sadəcə insana verməyə başladı. Əgər əvvəlcə qütbləşmə sinfi mənsubiyyət və ideoiloji əqidə baxımından gedirdisə, indi mənəvi ölçülərlə müəyyənləşməyə başlamışdı. Yəni qəhrəmanlar dost və düşmən siniflərə yox, sadəcə dost və düşmən insanlara bölünürdü. İkincisi isə bu bölünmə sosrealsit ədəbiyyatında olduğu kimi sxematik deyildi.

Və, nəhayət, müstəqillik dövrü ədəbiyyatı. Burda qütbləşmə məkanı sosioloji müstəvidən psixoloji qata, yəni insanın daxilinə köçürülməyə başladı. Yəni dost da, düşmən də, ağ da, qara da, xeyir də, şər də artıq insanın öz daxilində, bir yerdədir. Konfliktoloji məkan artıq insanın ruhi-psixoloji dünyasıdır.

**İsa Həbibbəyli:** Amma bu daxili dünyada şərin, yoxsa xeyrin üstünlüyünü təyin etmək sosial şəraitdən asılıdır. Gəlin povestə nəzərə salaq: əyyaş atası Əhlimanı tez-tez döyür, sinif yoldaşı, varlı balası Nəsib onu amansızcasına təhqir edir, çalışdığı institutda onun dissertasiyasının müdafisəinə imkan vermirlər. Nəticəsi nə olur? O, bəlkə də, Hörmüz kimi doğulmuşdu, amma sosial mühit onu Əhrimanə çevirir.

**Əsəd Cahangir:** Belə çıxır ki, şərin mənbəyi cəmiyyətdir.

**İsa Həbibbəyli:** Cəmiyyət xeyrin də mənbəyidir. Məncə, konkret olaraq Əhliman obrazından söz gedəndə şərin mənbəyi onu əhatə eləyən sosial mühitdir. Ona görə də sosial mühitin sağlamlaşdırılması həmişə cəmiyyətin ən böyük qayğılarındandır.

**Nərgiz Cabbarlı:** Qəhrəmanı çevrələyən konkret mühit rəmzi dillə nəinki ümumən cəmiyyəti, hətta bəşəriyyəti işarələyə bilər.

**Nizami Cəfərov:** İsa müəllim, şərin və xeyrin mənbəyinin müəyyənləşməsi ilə bağlı əsərdə başqa bir məqam da var. Şər də, xeyir də yüz illər, min illərin yaşantısı hesabına insana genetik olaraq da ötürülə bilər. Yəni insan ulu babalarının nə vaxtsa etdiyi günah ucbatından hansısa şərin, yaxud əcdadlarının etdiyi savabla bağlı hansısa xeyrin daşıyıcısı ola bilər.

**Nərgiz Cabbarlı:** İnduizm təlimində buna karma deyirlər. Yəni həyat bumeranq qanunu ilə idarə olunur. Nə edəcəksənsə, onun da cavabını alacaqsan. Özün almasan belə, övladların, hətta nəvə-nəticələrin sənin hərəkətlərinin bədəlini ödəməli, yaxud mükafatını almalıdır. Yəni nə tökərsən aşına, o da çıxar qaşığına.

**Əsəd Cahangir:** Gəlin, məsələyə konkret baxaq. Qəhrəmanın "keçmiş həyatından" povestdə heç nə yoxdur. İndiki ömründə o, heç kəsə şüurlu

bədxahlıq etməyib, əksinə, hamı ona pislik edir. Əcdadlarının şər əməlləri barədə də povest susur. Nəticədə şərin karmik mənşəyi məsələsi povestə müəllifin, sadəcə, nəzəri təsəvvürləri şəklində daxil olur. Məncə, bu, Anarın karma məsələsinə dərin daxili inamının olmamasından irəli gəlir. Odur ki, Nizami müəllim və Nərgiz xanım Anarın nəzəriyyəsi, İsa müəllim isə povestin bədii fakturasından çıxış edir. Və hər iki tərəfin bu məsələdə öz həqiqəti var.

**İsa Həbibbəyli:** Məncə, Anarın demək istədiyi odur ki, şər də, xeyir də yer üzündə olub və həmişə olacaq. Əhlimanın yaşadığı sosial mühit onun daxilindəki bu qütblərdən ən çox şər tərəfi inkişaf etdirir. Əsərdəki sitatlardan məqsəd də məhz ondan ibarətdir ki, yazıçı bundan əvvəlki dövrlərdə də sosial mühitin şəri inkişaf etdirdiyini, xeyri arxa plana atdığını göstərmək istəyir. Anar həm də göstərmək istəyir ki, sosial şəraitin qurulması və tənzimlənməsi, eləcə də müsbət mənada inkişafı insanın şərdən xilasına müəyyən qədər kömək edə bilər. Anar göstərmək istəyir ki, bütün cəmiyyətlərdə şər qüvvələr daha çox birləşə bilir, daha üstündür, daha güclüdür, daha çevikdir, daha çoxüzlüdür, daha çoxplanlıdır. Bu məqamlarda bir həyəcan təbili də hiss olunur.

Anar hadisələrə həm də konkret Azərbaycan kontekstindən yanaşır. O, şərin hansı fəsadlar törədəcəyini göstərməklə oxucuda şərə mənfi münasibət yaratmaq istəyir, dərin qatlarda şərdən xilas olmağa çağırış ifadə edir.

Povestin başlanğıcı, məncə, həm də onun finalıdır. Hər iki halda qəhrəman qəbirdən çıxaraq yenidən həyata qayıdır. Baxmayaraq ki, əsərin proloqu həm də onun epiloqudur, məncə, əsər hələ bitmir. Çünki bu əsərdə Anarın çox fərqli bir yazıçı manerası var. Mənə elə gəlir ki, Mərdəkandakı tamaşa səhnəsi bu əsərin finalıdır. Burda artıq xeyir - Aydan dirilib. Və ölülər mühitinin içində səhnədə rəqs eləyir. Beləliklə, əsərdə iki qayıdış var: bir Əhlimanın qəbirdən xortlayıb yenidən bu dünyaya qayıtması; bir də Aydanın ölülər mühitində səhnədə rəqs etməsi. Bu tamaşada Anarın indiyə qədər yaratdığı qəhrəmanların hamısı tamaşaçıdır. Anarın estetik idealı da, məncə, əsərin sonunda yox, axırıncıdan əvvəlki - on yeddinci fəsildə, məhz tamaşa səhnəsində öz əksini tapır. Formal baxımdan belə olmasa da, mahiyyətcə əsər ay işığıyla, Aydanın rəqsiylə, ümidlə, gözəlliklə bitir. Hamı, hətta şər daşıyıcısı olan Əhliman da xeyri, gözəlliyi təmsil edən Aydana heyrətlə baxır. Anarın ustalığı orasındadır ki, öz fikrinin kulminasiyasına əsərin yekununda yox, ortasında çatır. Bu, qeyri-ənənvi bir yanaşmadır. Sənətkarlıq hadisəsidir.

**Nərgiz Cabbarlı:** Maraqlıdır, əgər əsas fikir on yeddinci fəsildə deyilirsə, niyə yazıçı əsəri ordaca bitirməyib?

**İsa Həbibbəyli:** Çünki xeyrin şəri üstələməsi məhz bu fəsildə bütün qabarıqlığı ilə üzə çıxır. Hörmüz, yəni xeyir yalnız Aydanın timsalında səhnədədir, hərəkətdədir. Ümid ordadır - Aydanın səhnədəki rəqsində. Əsər boyu Anarın Aydana münasibəti də aydın görünür. Aydan Anarın digər əsərlərindəki qadın qəhrəmanlarından fərqlidir. Onun əvvəlki qadın obrazları realist, hətta bir çox hallarda naturalist planda təqdim olunurdu. Yazıçının bu əsərində də naturalist planda göstərilən qadın obrazları var, məsələn, Rübabə. Anar əvvəlki əsərlərindəki qadınların - səhv eləmiş, iztirablarla yaşayan, talesiz insanların içindəki bütün işığı Aydanın timsalında yekunlaşdırır, yeni bir obraz yaradır.

Bu üzdən mənə elə gəlir ki, “Göz muncuğu” nə postmodernist, nə də surrealist yox, realist bir əsərdir. Ümumiyyətlə, Anar bütün yaradıcılığı boyu həmişə tənqidi-realist olub. Burada da müəyyən surrealist, yaxud postmodernist cəhətlər yazıçının tənqidi-realizmini tamamlamağa xidmət edir. Surrealist məqamlar ən çox Təpəgözə münasibətdə görünür. Onun intiharı ilə yazıçı demək istəyir ki, şərin axırı ölümdür, amma Hörmüzün axırı Aydandır, yəni hərəkətdir, işıqdır.

**Nizami Cəfərov:** Mən Aydan məsələsi ilə bağlı sizin dediklərinizə münasibətdə bir az tərəddüd keçirirəm. Yəni Aydan həqiqətənmi yazıçının idealıdır? Onun estetik idealları Aydan obrazında simvollaşırmı? Məsələn, buradakı general, çapıq, qəbirqazan obrazları, hətta Əhliman da özünün xeyri və şəri ilə birlikdə ictimai hadisədir, bunlar hamısı cəmiyyətin içərisindədir. Aydan isə ictimai hadisə deyil. Aydan olduqca parlaq, olduqca romantik, olduqca estetikdir, romana bir istilik gətirir. Amma bu qız kimdir? Lunatik bir varlıq. Yəni o, öz mahiyyəti etibarilə ictimai hadisə deyil. Ümumiyyətlə götürəndə isə Aydan həm qeyri-reallığı, həm reallığıyla çox maraqlı obrazdır. Müəllif bir tərəfdən onun ay adamı olmasını, lunatik olmasını göstərir, digər tərəfdən isə onun gerçək insan kimi xəstə olmasını da gizləmir. Və nəticə etibarilə obrazı simvollaşdırır.

**Əsəd Cahangir:** Məncə, Aydan romantik məhəbbət ideallarının süqutunu göstərir. O, gecə yuxulu vəziyyətdə balkondan keçib Əhlimanın otağına gəlmək istəyir. Amma onların arasında şüşə qapı var. Növbəti gecə Əhliman qapını açıq qoyur və Aydan onun otağına daxil olur. Amma şüşə divar onların arasından mahiyyətcə yenə də götürülmür - qız dünyadakı rəqslərin ən romantikini eləyir və çıxıb gedir. Belə çıxır ki, özünün bütün estetizmi ilə birlikdə bütün bu eşq oyunlarına inanmaq üçün, sadəcə, lunatik olmalısan. Anar yalana güzəştə getməyi, əsəri şərti xoşbəxt finalla bitirməyi, oxucunun başı altına yastıq qoymağı sevməyən yazıçıdır. Oqtay və Əsmərin, Təhminə və Zaurun eşq oyunlarının finalı da mahiyyətcə Aydan-Əhliman macərasından fərqlənmir. Bəzən hətta cismani yaxınlıq məqamlarına baxmayaraq, şüşə divar bu cütlüklərin hamısının arasında var. Bu, yazıçının belə bir ekzistensial qənaətindən doğur ki, başqaları ilə insanın arasında, Sartrın dediyi kimi, bir divar var. Aydan-Əhliman məsələsində bu anlaşılmazlıq şüşə divar obrazı vasitəsiylə əllə toxunulacaq qədər maddiləşir, gözlə görüləcək qədər əyaniləşir.

**Nizami Cəfərov:** Və bu şüşə, belə deyək ki, çox soyuqdur. O dərəcədə soyuqdur ki, insan sifətini də deformasiya eləyir. Şüşənin bu tərəfindən baxanda o gözəlliyi deformasiya olunmuş şəkildə görürsən. Bu, ona görədir ki, bu şüşəyə baxanın özü şərdir, yəqin ki, o gözəllik şərin gözündə elə bu cür də görünməlidir.

**Nərgiz Cabbarlı:** Aydan bir az da arzudur, illuziyadır, gözəlliyin, saflığın, təmizliyin arzulanan formasıdır. Amma reallıq başqadır, cəmiyyət başqadır. Cəmiyyətdə şər daha tez-tez qələbə qazanır. Burada romantik münasibətlə reallıq üz-üzə qoyulur.

**İsa Həbibbəyli:** Amma, axı, əsərin finalında Əhrimən, yəni şər balkondan yıxılıb ölür.

**Nərgiz Cabbarlı:** Şər məhv olmur, qəbirdən çıxıb yenə dünyaya qayıdır. Amma indi söhbət ondan gedir ki, Aydan real olan yox, arzulanan obrazdır. Hardasa bu var, onun içində bir gözəllik də var, amma reallıq başqadır.

**İsa Həbibbəyli:** Səncə, Aydan şərin estetik idealıdır, yoxsa xeyrin?

**Nərgiz Cabbarlı:** Bu, sadəcə müəllifin idealıdır, müəllif belə görmək istəyir.

**Əsəd Cahangir:** Adətən taleyin və cəmiyyətin təhdid etdiyi kişinin son sığınacağı qadın qəlbi, yəni sevgi olur. Sevgi insana kənardan göstərilən təsirdir. Anara görə isə xilaskar bizim öz içimizdədir. Povestdə Sartrdan gətirilən bir sitat onun əsas ideyasını anlamaqda müstəsna əhəmiyyətə malikdir: "Mən demirəm ki, Allah yoxdur - o, var. Amma onun mövcud olub-olmamasının bizim xilas olub-olmamağımıza heç bir dəxli yoxdur. Biz özümüz özümüzü xilas etməliyik."

Beləliklə, əsərin əsas problemi üzərinə gəlib çıxırıq. Qurtuluş, yəni dirilmə mümkündürmü? Şeyx Nəsrullah düz deyir, yoxsa İskəndər? Əlbəttə, Anarın əsərində söhbət artıq fiziki yox, mənəvi dirilmədən gedir. Əhlimanın həyatı timsalında görürük ki, ata-ana, məktəb, iş insanı mənən ölümə aparır, onu şər qüvvəyə çevirir. Aydanın timsalında görürük ki, məhəbbət bu işdə sadəcə acizdir. Bütün bunlar hamısı bir yerdə xilasın sosioloji, yəni insani qatını işarələyir. Əfsanəvi Diri babanın pirdə verdiyi göz muncuğu isə fövqəlinsani xilas yolunu səciyyələndirir. Lakin qəhrəmana onun da köməyi olmur. O, indiyə qədər ətrafdakılara bədnəzər adam kimi özü istəmədən pislik edirdisə, indi şüurlu olaraq şər əməl törədir - Qafarzadənin evini yandırır və onun ölümünə səbəb olur. Demək, təkcə yerlər yox, göylər də insana yaddır, ögeydir. İnsan yerlə göy arasında tənhadır.

Burdan əsərin əsas ideyası doğur - insanı nə digər adamlar, nə də fövqəlbəşəri bir qüvvə yox, yəni başqaları deyil, ancaq və ancaq onun özü xilas edə bilər. Sartr demişkən, "başqaları cəhənnəmdir." Beləliklə, final akkordu eksiztensialistcəsinə vurulur. Amma bir vacib fərqlə: ekzistensializmdə insan qurtuluşu təsadüfə bağlayır; Anarda isə qurtuluş insanın özündədir. Çünki Kamyüdən fərqli olaraq, Anara görə, insanın daxili dünyasının yalnız yarısı ona yaddır, ikinci yarısı isə doğmadır. Və o, "doğma" yarısı vasitəsilə özünü xilas edə bilər.

**Nərgiz Cabbarlı:** Buna görə də göz muncuğunun yarısı qırılıb yerə düşsə də, yarısı divarda qalır.

**Əsəd Cahangir:** Çünki Anara görə, indiyə qədər deyilən bütün həqiqətlərin ancaq yarısı həqiqətdir. Hamı həqiqəti yarımçıq deyir. Çünki hərə həqiqətə bir tərəfdən baxır. Məsələn, Anara görə, dirilmə mümkündür. Yəni Şeyx Nəsrullah düz deyir. Amma bir şərtlə ki, hər kəsi Şeyx Nəsrullah yox, onun özü diriltməlidir. Onda belə çıxır ki, İskəndər də düz deyir. İskəndərlə Şeyx Nəsrullah arasındakı bu klassik ziddiyyətin aradan qalxması parodik formada qəbirqazan Nəsrulla obrazında üzə çıxır - o, ölünü qəbirdən çıxarır, demək, Şeyx Nəsrullah funksiyasını yerinə yetirir. Amma bunu İskəndər kimi araq butulkasını başına çəkə-çəkə edir. Üstəlik də, qəbirqazan Əhlimanı diriltmir, sadəcə, qəbirdən çıxarır, çünki o özü artıq dirilmişdi. Belə çıxır ki, formaca Şeyx Nəsrullah, mahiyyətcə isə İskəndər haqlıdır. Və biz artıq "Göz muncuğu" ilə "Ölülər"in intertekstual əlaqəsindən danışırıq.

**İsa Həbibbəyli:** Anar Azərbaycan ədəbiyyatında Mirzə Cəlil ənənələrinin əsas davamçılarından biri, yəqin ki, birincisidir. Bunun üçün təkcə elə "Molla Nəsrəddin-66" satirik hekayələr silsiləsini yada salmaq kifayətdir. Amma o, son əsərində indiyə qədərki fikrindən bir qədər kənara çıxaraq, birmənalı olaraq İsgəndərin mövqeyindən çıxış etmir, həm də

Şeyx Nəsrullahın dediyini təsdiqləyir, yəni tənqidi-realist olduğunu inkar etmədən, həm də postmodernist olduğunu təzahür etdirir. Mirzə Cəlilin Şeyx Nəsrullahı özünün diriltmək yalanıyla insanları aldadır. Bu əsərdəki qəbirqazanın adının Nəsrulla seçilməsi də təsadüfi deyil. Bu obraz klassik Nəsrullahın yalanlarından, əllaməçiliyindən təmizlənmiş real bir qəbirqazan və real bir ölüdirildəndir. Özü də onların bütün nəsilləri bu işlə məşğul olub.

"Göz muncuğu"nun bədii cəhətdən ən təsirli səhnələrindən biri məhz qəbiristanlıq səhnəsidir. Özü də bu səhnə sadəcə bir povest miqyasında yox, təkcə Anarın yaradıcılığı miqyasında yox, ümumən ədəbiyyatımızda təkrarsız səhnədir. Burada həm Kefli İskəndər var, həm də Nəsrullah var. Anarın Kefli İskəndəri o birisinə, əvvəlkinə baxanda postmodernistdir. Bu Nəsrullah klassik Şeyx Nəsrullahın iyirmi birinci əsrdəki postmodernist təzahürüdür. Burada real qəbirqazan, meyitləri çıxaran adamın psixoligiyası çox təbii verilib. Dualizm təkcə meyiti öz maşınında aparmaq üçün gələn sürücünün dirilməyə inanmamasında yox, həm də Nəsrullahın neçə illərdən bəri araq içməsi və içərkən: "Çörəyimiz ölülərdən çıxır. Ölülərin sağlığına! Xortlayıb çıxanların sağlığına!" sözlərindədir.

Anarın bu povestdəki postmodernizmi ədəbiyyatda postmodernist yanaşmalara bir nümunə ola bilər. O, öz qəhrəmanlarını alçaltmadan, reallığın ən adi formalarında göstərərək postmodern şəkildə təqdim eləyə bilib.

Povestin postmodernist tərəfləri onun oxunuşunu bir qədər mürəkkəbləşdirir. Əsərdə elə səhnələr var ki, finalda onların açılışı ilə rastlaşmırıq. Məsələn, süpürgəçi Dadaş kişiylə onun arvadının əhvalatı bilavasitə əsas süjetlə bağlı olmasa da, mətn içində mətn təsiri bağışlasa da, ən ümumi məna baxımından əsərə bağlanır, povestin kompozisiyasının tərkib hissəsinə çevrilir.

**Nizami Cəfərov:** Dirilmə məsələsində Anarın bir özünəməxsusluğu da var: ənənəvi düşüncədə onun mümkünlüyünü ya qəbul, ya da rədd ediblər. Qəbul edənlər onu birmənalı pozitiv fakt kimi dəyərləndiriblər. "Göz muncuğu"nda isə dirilməyə münasibət heç də birmənalı deyil. Anar dirilməni şəri və xeyri ilə birlikdə göstərir.

**Əsəd Cahangir:** Anarın son əsərinin intertekstual əlaqədə olduğu üç əsas mətndən ikisi - "Dədə Qorqud" və "Ölülər"dən müəyyən qədər danışdıq. Qaldı "Avesta" məsələsi.

**Nizami Cəfərov:** Nitsşenin ən məşhur əsərlərindən biri "Zərdüşt belə demişdir" adlanır. Sonra o əsəri oxuyanlar gördülər ki, Zərdüşt yox, Nitsşe özü belə deyirmiş. Zərdüştün diliylə danışmaq və onun sözünü demək böyük ustalıq tələb eləyir. Anarın "Göz muncuğu"nda da bu cəhət var. Burda həm həyatdan gələn real hadisələr izah olunur, həm də fikirdən fikir çıxarmaq bacarığı üzə çıxır. Xeyirlə şərin mübarizəsi barədə ilk postulatı, ilk qanunauyğunluğu kəşf eləyən Zərdüştdür. Ən azı, mifoloji olaraq bu belədir. Biz xeyirlə şərin mübarizəsini bir dünyagörüş kimi təqdim eləmək istəsək, mütləq Zərdüştdən başlamalıyıq. Bu baxımdan, Zərdüştdən çox diqqəti cəlb eləyən, müzakirə olunan filosof olmayıb.

Əgər fikir versəniz, Anarın povestində epiqraflar əvvəl Şərqdən verilir, sonra Qərbdən. Bunu Şərqlə Qərb arasında xeyir-şər mübadiləsinin sətiraltı ifadəsi hesab etmək olar. Bu da o inancdan irəli gəlir ki, şərq həmişə işıqdır, qərb qürub. Şərq qeyri-dəqiq olduğuna görə, daha gerçəkçidir. Qərb isə dəqiq olduğu üçün izah edilməsi çətin olur, burda

insan texnikaya çevrilir. M.F.Axundovun əsərində də var ki, onlar heç zada inanmazlar, biz hər zada inanarıq.

**Əsəd Cahangir:** Sizcə, Anar Zərdüştə nə əlavə eləyir?

**Nizami Cəfərov:** Məncə, Anar bugünkü insanın daha zəngin olması baxımından Zərdüştü şərh eləmək istəyir. Zərdüşt şəri və xeyri kəskin şəkildə iki qütbə ayırır, Anar isə bunların hər ikisini bir insanın daxilində verir. Burada artıq kimin birmənalı xeyir, kimin şər olduğunu bilmirsən. Ona görə də ziddiyyətlər ortaya çıxır. Yazıçı çoxlu pritçalardan misallar gətirir. Məsələn, birində belə deyilir:

"- Sən get həmişə yaxşılıq elə.

- Axı, o, mənə pislik etməkdən yorulmur.

- Əgər o, pislik etməkdən yorulmursa, sən niyə yaxşılıq etməkdən yorulasan?!"

Sonra bir atalar sözünü verir: "Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir." Anarda bu xüsusiyyət də var ki, müxtəlif dövrlərdə, müxtəlif coğrafiyalarda yaranmış fikirləri ümumiləşdirmək istəyir.

**Nərgiz Cabbarlı:** Anar buddizmlə, isəvilərlə, musəvilərlə bağlı, insanın özünə, yaşamına, həyat fəlsəfəsinə münasibətilə bağlı, o dünya, bu dünya məsələsi ilə bağlı məqamları həm bir-biri ilə qarşılaşdırır, ziddiyyətli tərəflərini açır, həm də paralel şəkildə təqdim edərək oxucuya seçim imkanı verir ki, sən hansının tərəfində duracaqsan, hansını qəbul edəcəksən.

**Nizami Cəfərov:** "Göz muncuğu"nun müəllifi heç bir məqamı mütləqləşdirmir. Bütün məqamlar, bütün münasibətlər, özünüifadələr və həyatda olan bütün təzahürlərin hamısında nəyin yaxşı, nəyin pis olduğunu demir, demək istəmir. Bu, yazıçının tərəddüdü deyil, sadəcə, həyatın özüdür. Yəni deyir, həyat, bax, bundan ibarətdir.

**Əsəd Cahangir:** Anarın mistik qüvvənin varlığını qəbul etməsi əsərdə simvolların yaranmasına səbəb olub. Çünki o qüvvəni qəbul edəndən sonra bilirsən ki, Platonun diliylə desək, hardasa başqa bir dünya da var və bizim dünya onun simvoludur. Yəni varlıq beşmərtəbəli ev olmasa da, ən azı ikimərtəbəlidir. Və birinci mərtəbədə olan hər şey ikinci mərtəbədəki nəyinsə rəmzi işarəsidir. Povestdə belə çoxsaylı simvollardan ikisi diqqəti xüsusi cəlb edir: dünya xalçası və göz muncuğu.

Xalça keçmişdən bu günə gəlib, yəni horizontal istiqamətlidir. O, bizim dünyaya zamanca alternativdir. Göz muncuğu göydən düşüb, yəni vertikal qüvvəni təmsil edir. O, bizim dünyaya həm zamanca, həm də məkanca alternativdir. Dekartın koordinat sistemi üzrə desək, birincisi müəllif düşüncəsinin iks, ikincisi isə iqrek oxunu işarələyir və yazıçı hadisələrə bu ikisinin kəsişmə nöqtəsindən baxır. Onun biryönlü mövqedən, mütləq hökmdən uzaq olması da burdan doğur. Qəhrəmanın daxili mənəvi strukturu da bu sistemə uyğundur. Xalça onun daxilindəki Əhriməni, göz muncuğu isə Hörmüzü işarələyir. Onun taleyi horizontal xalça və vertikal göz muncuğunun toqquşduğu nöqtədə həll olur. Bu toqquşmada xalça tamam yanır, göz muncuğu isə ikiyə bölünür. Xalça insan əliylə toxunduğu üçün insan əliylə də yandırılır, göz muncuğu ilahi qüvvə tərəfindən verildiyi üçün gözəgörünməz bir qüvvə tərəfindən də qırılır.

**Nizami Cəfərov:** Ən ümumi şəkildə götürəndə bu belədir, yəni əsərin etik-mənəvi sistemində xalça şəri, göz muncuğu isə xeyri təmsil edir.

Amma burda bir incə nüansa diqqət yetirmək lazımdır. Anar onların hər ikisinin varlığını təsdiq etsə də, onlara münasibətdə, xüsusən də xalçaya neqativ münasibətdə yazıçı tendensiyası əsərdə kifayət qədər aydın duyulur. Yazıçının göz muncuğuna munasibəti də birmənalı deyil. Anara görə, göz muncuğu şərin qarşısında dayana biləcək, amma çox kövrək bir simvoldur, bir növ, müdafiə sistemidir.

**Nərgiz Cabbarlı:** Müəllif göz muncuğuyla həm də dünyadan insanın içinə açılan, eyni zamanda, içindən dünyaya açılan qapını simvollaşdırır. Burada gözlə bağlı müxtəlif seçmələrin verilməsi birbaşa gözə edilən işarədir. Əslində, göz muncuğu da insanı qoruya bilmir, çünki axırda o da qırılır. Əgər insanın daxilində təkmilləşmə, talisman yoxdursa, kənardan gələn bir şey onu qoruya bilməz. Əgər insan mənən dirilmək, kamilləşmək, xilas olmaq istəyirsə, bunun üçün ilk addımı o, özü atmalıdır. Bəzi məqamlar da var ki, məsələn, Əlimanın anasının passivliyi, şər qarşısında susması, atasının əzabları, sosial mühit və s. onun daxilində ətraf mühitə qarşı kin yaradır. Bu da insanlara bir mesajdır ki, insanın böyüdüyü mühitdə şəri biz də formalaşdıra bilərik, amma bu proses əks istiqamətdə də gedə bilər. Biz nə qədər şərə, ədalətsizliyə qarşı mübarizə aparsaq, bir o qədər xeyrin qələbəsi üçün stimul, inam yarada bilərik.

**Nizami Cəfərov:** Bir də ki, insan özü özünü yaratmalı, özü özünü tərbiyə eləməli, bir sözlə, özü özüylə döyüşməlidir, çünki əlac bircə buna qalıb, başqa bir istinad yoxdur. Anar bu əsərində insanı son həddinə qədər təhlil eləyir.

**İsa Həbibbəyli:** Anar nə qədər dünya ədəbiyyatından, fəlsəfəsindən misallar gətirsə də, bütün əsərlərində Azərbaycançıdır. Anarın qorumaq istədiyi nədir? İlk növbədə, onun qorumaq istədiyi - insandır. İdeya budur ki, insan qəsdən öldürülməsin, diri-diri basdırılmasın, xəyanət etməsin, balkondan atılmasın və s. Anar insanı xilas etmək istəyir. Bəs bu insan kimdir? Əsərdə bunun coğrafiyası verilir. Bu coğrafiyada Dədə Qorqud motivləri, dərviş motivləri var, bu coğrafiyada Naxçıvan, Şəki, Xaraba Gilan, Əshabü-Kəf var. Anarın qorumaq istədiyi insan, əslində, bir Azərbaycan vətəndaşıdır. Bu əsərdə Azərbaycan bayrağı sancılmış otaq da var, Müstəqil Azərbaycan dövlətinin adı da çəkilir. Anar öz ideyasına sadiq qalaraq, Azərbaycan vətəndaşını, öz ölkəsini, bunun timsalında bütün dünyanı şərdən qorumaq və göz muncuğu asmağa can atmaqla bəşəri missiyanı öz üzərinə götürür.

**Əsəd Cahangir:** Hörmətli müzakirə iştitrakçıları, məncə, artıq söhbətin finalına gəlib çatdıq. Əlbəttə ki, diqqətimizdən kənarda qalan məsələlər də oldu. Çünki bir müzakirədə bütün məsələləri çözmək sadəcə qeyri-mümkündür. Amma, məncə, ən ümumi şəkildə götürəndə povestin ideya-bədii özəlliklərinə yozum verə bildik. Ümid edirəm ki, müzakirəmiz oxucular üçün da maraqlı olacaq. Jurnalımızın kollektivi adından, şəxsən öz adımdan müzakirədə iştirakınıza görə sizə minnətdarlığımı bildirir, bütün işlərinizdə uğurlar arzu edirəm.

# ◆ P o e z i y a



*Həyat ŞƏMİ*

**MƏN, SƏN, O**

Hər şey mənim əlimdə:
ürəyim,
əfv fərmanım,
imzam,
qollarım...
Açın qollarımı!

Hər şey Sənin əlində:
sorğu-sual,
durğu və duyğu işarələri,
son cümlən,
nöqtən...
Ürəyimə ölümcül həmlən...
Son dəfə getmək istəyim,
üzümə bağlı qapıların dəstəyi...
Açın qapıları!

Hər şey O-nun əlində,
Qələm,
Yazı,
Olum və ölüm,
Açın gözlərinizi!

**ADINI SƏN QOY**

Ozan çalsın havamızı,
adını sən qoy...

Uçurduğun yuvamızın,
adını sən qoy...

Hər gün bir az darıxmağın,
durub özündən çıxmağın,
gözdən ürəyə axmağın
adını sən qoy.

Baxır hey arxanca gözüm,
gözümdə mirvari düzüm,
doğulmayan körpəmizin
adını sən qoy.

Bu qədərmiş... bitdi oyun,
boğazımda sevgim düyün...
Ürəyinə öz sevdiyin
qadını sən qoy.
Adını sən qoy: .....

## SUNAMİ

Hərdən
çıxıram şəhərdən...

Xəzərin yanına gedirəm,
kəsdirirəm dizinin dibini.
O da: həm dəryadı,
həm də bircə damladı...
qalxıb üzümə su vurur hərdən.

Səni soruşuram,
Deyir, daha dəymir mənə,
ağıllanıb...

Son dəfə sunami oldu,
yuyub apardı hər şeyi:
səni, məni...
sənin sevmədiyin telefonunu,
mənim sevdiyim arabamı,
qulağımdan dodaqlarını,
daşımı, yaddaşımı,
fikirlərimi,
ağırlığımı-uğurluğumu...
Elə yüngülləşdim ki -
hər şeyim Səndin...

Azad oldum bu dünyadan,
Səndən, məndən...
yox olduq...

Durub evə gəldim,
gördüm ki, evdəsən...
Ay da!!!
Sunami olsun
bu Sevgiyə!

## ŞUŞADA VURULAN VERTOLYOT

Ürəyin yandımı, yandımı için,
Odun çıxdımı, çıxdımı ruhun,
Külün qaldımı, qaldımı yadında vurulmağın,
Şuşada vurulan vertolyot.

"Uşaq" idim onda,
qəşəng idim onda,
Yana-yana düşən sən də qəşəngdin.
Elə baxırdım,
Elə bilirdim fişəngdir,
Şuşada vurulan vertolyot.

Bilirdinmi obyektiv "Xəbərçi"
Verəcək vurulmaq xəbərini,
Xəbərin oldumu özündən?
Şuşada vurulan vertolyot.

Çıxdı ruhun plazma halında,
Uçdu uçduğun göylərə.
Ulu göylər,
Yağmurlu, sulu göylər,
Vurğun vertolyotların
Eşqiylə dolu göylər.

Şuşanın dağlarına,
Şuşanın dumanına,
qırmızı koftasına,
yaşıl tumanına,
Azad olmaq gümanına,
Şuşaya vurulmuşdu,
Şuşada vurulan vertolyot.

Kərəm olub düymə-düymə
açdın Şuşa sevgini,
yana-yana qaçdın göydən,
Qaça-qaça düşdün göydən
Alma misalı...

Şuşada vurulan vertolyot,
Mən də bir gün vuruldum
ürəyimdən...

## YAZILMAYAN ŞEİR

Əvvəl ömrü boyu çəkə bilməyəcəyi
bir rəsmin önündə quruyub qaldı
saçlarının ucunacan...
Qurutdu onu rəssam əlindən süzülən rənglər,
sonra ...narın-narın yağan yağış islatdı.
Addım-addım uzaqlaşdı o rəsmdən.

Bu heyrətdən ayılmamış
sevdiyi gənci
heç zaman yerinə olmayacağı
bir qızla gördü,
küçəni keçən zaman.
O cütlər gözdən itənəcən,
o yağış kəsənəcən,
quruyub qaldı yerindəcə.

Keçdi küçədən,
Keçdi yağışdan,
Keçdi sevgidən.

Duymadı bunu "Torqovı"nın insan əlindən
təngə gəlmiş o dar küçəsi də.

Heç zaman geyinə bilməyəcəyi
bir geyim önündə
ayaq saxlayıb içəri keçdi.
Ürəksiz maneken qürrələnirdi
əynindəki geyimin zövqü altında.
"More exspensive" deyib eşiyə çıxdı.
Küçələr daşa dönmüşdü,
Evlər yaş daşa dönmüşdü,
Ayağının altındakı daş daşa dönmüşdü.

Ayaqlarını torpağa əmanət vermiş bir qəhrəman,
duymadı daşların daşa dönməyini...
əl açdı iki ayaqlılara-
ürəklər daşa dönmüşdü.!!

Bundan sonra
qaçmaq istədi gördüklərindən,
Qaçdı, qaçdı, qaçdı, qaçdı o küçədən.
Elə qaçdı ki, heç kölgəsi də çata bilmədi ona.
Nə qədər qaçsa da, nə o rəsm,
nə o gənc, nə o geyim, nə də o əlildən
uzaqlaşa bilmədi.
Heç kəsin yaza bilməyəcəyi
bu şeiri yazdı o gün...

## TƏRK EDƏSƏN

Leysan tökürdü zaman,
suya düşdü gözlərim…
Düyünləndi boğazım,
tıxandı hər yer…
mən səni ömrüm boyu
bu tıxacda gözlədim…

Üz-üzə gəldik yenə
kəsişən talelerdə,
Yol mənim idi,
su sənin…

Nə mən basıb keçdim səni,
Nə də sən
ürək dolu arzu bilib
birnəfəsə içdin məni…

Yenə üz-üzə gəldik
sevginin tıxacında,
yol mənim oldu,
yağış sənin…

Səndən vaz keçməliykən,
əyləci basdım…
dirəndi dörd ayağım da….

Tıxacda boğulurdu
mənim yolum,
sənin arzun,
bizim yağışımız…
toqquşan baxışımız.

Bir dəli şeytan deyirdi,
bəlkə…keçdiyin məsafələri
geriyə doğru dərk edəsən…
Çıxasan durduğun yerdən,
bütün yaşadıqlarını
ikiayaqlı tərk edəsən…

## KİMSƏ BİLMƏZ

Kimsə bu evin içində
yalnızlığın yaşını bilməz,
ayağını-başını bilməz.
Kimsə bu ömrün cizgilərini
bu qədər dərin cızmaz,
bu qədər ağartmaz...

Kimsə bu evin içində
bu qədər ölməz....

Kimsə bilməz yalnızlıq
çəkdiyim ah şəklində...
düşməyib divarımdan
bir saralmış təqvim yarpağı,
şəklin də...
sən bilirdin çox sevirəm
sarı rəngi,
Bu nədənləmi saraltdın dünyanı?

Səbəbsiz darıxıram...
bu özləm
etibarından böyükdür,
vəfasızlığından kiçik..

Qum saatıyla ölçürəm,
gəlməyən zənglərinin arasını...
qapanıram gecəyə,
görürəm gözlərinin qarasını..
Ağladı ceyran balası, ağladı,
getdi gözünün qarası,
ağladı...

Qıymadım bircə qarışqaya da,
əlim gəlmədi...
sən gəlmədin,
döyülmədi qapım,
durmadın arasında
keçmişlə gələcəyin...

yaz gəldi...
İndi qarışqaların sayı
ölçü vahididir sənsizliyimin.

***21.01.2013***

## ELƏ ŞİRİN SUSMUSAN

Elə şirin susmusan,
oyatmaq istəmirəm.
Acıyla doğmalaşdım,
Oy, atmaq istəmirəm...

Dünya, sənin üzündən
közərən atəşim var.
Bağlama gözlərini,
gör nə qədər işim var!

Kimin üçün qalanır
ürəyimdə ocaqlar?

Ayağına gəlmişəm,
Dur, boyumu qucaqla.

Səni sevmək, ay canım,
Ən ağır yükdü, yükdü...
Ən böyük günahdan da
yenə Allah böyükdü...

## QOXLA MƏNİ

Mən bir gözəl mələk olum,
Yuxularda yoxla məni...
Kirpiklərin yumulanda,
Ürəyində saxla məni.

Aç qolların uzanınca,
Hicran yaşanarmı bunca?
Sarıl boynuma doyunca,
Nəfəs-nəfəs qoxla məni.

Ayrılıq məni dağlayar,
Gözlərim yosun bağlayar,
Anam yox, məni ağlaya,
Nə olar, gəl, ağla məni...

Qov, dağılsın qara bulud,
Ağlamağı unut, unut...
Yum gözünü, bir arzu tut,
Tut, bir də buraxma məni...

## ADAM OLMADI BİZDƏN

Evcik-evcik oynadıq,
ev qurduq özümüzdən...
böyüyüb uşaq olduq,
Adam olmadı bizdən...

Ən şirin oyuncağın,
gəlinciyin də məndim,
min yol qolumu qırdın,
bir qol da incimədim...

Görən indi hardasan,
Gəlmirsənsə, özün bil,
Atdığın gəlinciyi,
Yolgözləyən qızın bil...

Mənsə ürəyim dolu
Su atmışam dalınca...
Oh, yamanca susadım,
Ürəyim boş qalınca...



## *Nazilə GÜLTAC*

### YÜK

Əllərimdə,
çiynimdə yük.
Ürəyimdə,
zehnimdə yük.
Ağlım çəkən yükü
ürəyim daşıya bilmir.
Bulud yüklü qayğılar
çətirdi başımın üstə.
Yüklənmişəm
dəli-dolu duyğularla.
Dəniz yüklüdü gəmilərim.
Gəmi yüklüdü kədərim.
Asılıbdı göz yaşımdan sevincim.
Yük olub taleyimə alın yazım.
Yüklərdi yaşam tarazlığım.
Yük olmuşam ömrümə, yük.
Atlı qarışqadı ömrüm,
yük daşıyır, özündən böyük.

* * *

Ölüm ayrılıq deyil,
ölüm elə olumdu.
Ölüm toxuna bildiyin
donmuş göz yaşı.
Adını yazdığın
soyuq baş daşı.
Dəmir çəpər içində
gül kolu,
həmişəyaşıl şam ağacı.
Ölüm ayrılıq deyil,
ayrılıq ölümdən betər.

* * *

Ürəyim bir dünyadı,
Dörd qütbü var.
Səni şimalında yaşadıram,
üşüyür sənli nə var.
Cənubunda fidan ümidlər,
ulduz- ulduz çiçəkləyir gecələr.
Buludlar beşiyidi-
Ay gözümdə gecələr.
Qərbində əsir küləklər,
əsirlikdədi illər.
Şərqində günəş doğur,
hər səhər.

## DƏSMAL

Dedin dəsmal ayrılıqdı,-
Gəl, onu mənə vermə.
Nə də hədiyyə etmə.
- Dəsmal bir ayrılıqsa.
Yuyarsan göz yaşınla,
mənə yollarsan.
Sevgimlə qurudaram,
qayıdarsan.

## NİGARANAM

Yol gəlirəm baxışına,
İslanmışam yağışına,
Buludundan nigaranam.

Yadlar gəzən obasından,
Həm qışından, baharından,
Sabahından nigaranam.

Bəxt yolları dərə - təpə,
Dərdi köksümdə bir təpə,
Dağından nigaranam.

Ana yurdun gülzarından,
Lilparından, yarpızından,
Bulağından nigaranam.

Başına qara bağlayan,
Naləsi sinə dağlayan,
Qarabağdan nigaranam.

# USTAD TƏNQİDÇİ, GÖZƏL TƏRCÜMƏÇİ



O, mənim müəllimim olub. ADU-nun filologiya fakültəsində «Xarici ölkələr ədəbiyyatı» fənnindən bizə mühazirə oxuyurdu. Onun mühazirələri o qədər maraqlı, o qədər canlı keçirdi ki, biz özümüzü XIX əsrin Fransa, İngiltərə, İtaliya, ümumən Avropa ölkələrində hiss edirdik, Balzakın «səfillərinə» qoşulurduq, «Şaqren dərisi»nə bürünürdük, Bayronun romantik qəhrəmanlarının arxasınca gedib Yunanıstanda üsyanlara qatılırdıq. Bizə elə gəlirdi ki, o, təsvir etdiyi ölkələri qarış-qarış gəzib, o ölkələrin tarixini, coğrafiyasını, adət-ənənələrini, milli xüsusiyyətlərini bizə elə izah edirdi ki, şübhə eləmirdik o ölkələri gəzib-dolanmamış olsun. Amma sonralar etiraf etdi ki, onun səyahətlə arası yoxdur, sadəcə, bizə çatdırdığı bu informasiyaları kitablardan, mənbələrdən əxz edib.

Bəli, Əkbər Ağayev - XX əsr Azərbaycan ədəbi tənqidinin, filologiya elminin bu görkəmli nümayəndəsinin səyahətlə, dünyanı gəzib-dolaşmaqla arası olmayıb, amma Azərbaycan oxucuları onun bədii tərcümələri vasitəsilə dünya ədəbiyyatının bir çox şedevr əsərləri ilə tanış olublar, necə deyərlər, dünya səyahətinə çıxıblar.

Daniel Defo - «Dənizçi Robinzon Kruzonun həyatı və qəribə sərgüzəştləri».

Maksim Qorki - «Nağıllar».

Nikolay Karamzin - «Zavallı Liza».

Alfons Dode - «Taraskonlu Tartarenin qeyri-adi macəraları».

Jül Vern - «Arxipelaq alovlanır».

Çarlz Dikkens - «Oliver Tvistin macəraları».

V.Korolenko - «Qəribə qız».

M.Kostyubinski - «Fata-morqana».

Bu siyahıya onlarla rus, o zamankı SSRİ xalqları ədəbiyyatları nümunələrini də əlavə etmək olar.

Və bir də çox səlis şəkildə Azərbaycan oxucularına təqdim etdiyi Bualonun «Poeziya sənəti», Dobrolyubovun və Belinsikinin «Seçilmiş məqalələri».

Tərcüməçilik Əkbər Ağayevin xobbisi deyildi, ürəkdən bağlandığı, tənqidçi və ədəbiyyatşünas kimi çox mühüm yaradıcılıq fəaliyyəti ilə bir sırada duran bir sənət sahəsiydi. Qətiyyətlə deyə bilərik ki, Əkbər Ağayev

Azərbaycanda bədii tərcümənin nəzəri və sənətkarlıq məsələlərindən söz açan ilk tənqidçilərdən olmuşdur. O, «Azərbaycan» jurnalında (1983, № 11) çap etdirdiyi bir məqaləsində yazırdı: «Tərcümə mürəkkəb yaradıcılıq işidir. Tərcüməçi də yaradıcıdır. Bu halda tərcüməçi öz yaradıcılıq, tərcüməçilik qabiliyyətini, istedadını üzə çıxarmaq üçün gərək öz qələminə, istedadına uyğun olan əsərin tərcüməsini üzərinə götürsün. Bizə elə gəlir ki, tərcüməçi istedadı özünəməxsus istedaddır, hamıda olmur; çox görkəmli yazıçı olmaqla bərabər, mümkündür ki, bədii tərcümədə əlin olmasın, qələmin işləməsin». Onun tərcümələri dilinin sadəliyi, aydınlığı ilə seçilirdi və bu haqda mətbuatda da maraqlı fikirlər səslənib.

Əkbər Ağayevin qeyri-adi bir tərcümeyi-halı və ya həyat tərzi olmayıb. Onun ömrü o zamankı bir Azərbaycan ziyalısının pillə-pillə, amma inadla öz məqsədi, amalı uğrunda mübarizəsini xatırladır. 1915-ci ildə Şuşada doğulmuşdu, burada orta təhsil almışdı, sonra APİ-nin Azərbaycan dili və ədəbiyyatı şöbəsini bitirmişdi. İnstitutu bitirəndə 22 yaşı vardı. Bu zaman mənhus 37-ci il başlanırdı, Cavidlər, Müşfiqlər, Əhməd Cavadlar, Salman Mümtazlar, Əli Nazimlər, Çobanzadələr, Ələkbərlilər, Sanılılar az sonra başlanacaq o repressiya tufanının qapısı ağzındaydılar. Belə bir qorxunc dövrdə sonuncu kurs tələbəsi Əkbər Ağayevin «Ədəbiyyat qəzeti»ndə ilk məqaləsi çap olunur: «Yüksək keyfiyyətli bədii tərcümə uğrunda». Məqalə böyük ingilis dramaturqu V.Şekspirin məşhur «Otello» əsərinin Əhməd Cavad tərəfindən edilən tərcüməsinə həsr olunmuşdu. Məqalə oxucu rəyi kimi çap edilsə də, hiss olunurdu ki, onun müəllifi V.Şekspirin yaradıcılıq dünyasına bələddir. Odur ki, «Otello»nun tərcüməsində nəzərə çarpan və mübahisə doğuran məqamlara diqqət yönəldirdi.

Otuzuncu illərin sonlarında Azərbaycan tənqidi və ədəbiyyatşünaslığında məlum repressiya səbəbləri üzündən müəyyən boşluq yaranır. M.K.Ələkbərli, Ə.Nazim, B.Çobanzadə, Ə.Abid, M.Quliyev, A.Musaxanlı kimi tənqidçi və ədəbiyyatşünaslar repressiyanın qurbanı olmuşdular. Bu boşluğu Məmməd Arif, Məmməd Cəfər, Mehdi Hüseyn, Mikayıl Rəfili və onlara nisbətən daha gənc olan Əkbər Ağayev aradan qaldırmalıydı. Bütün varlığı ilə ədəbiyyata bağlı olan Əkbər Ağayev məhz 1937-ci ildən başlayaraq fəal bir tənqidçi kimi diqqəti cəlb etməyə başladı. Təbii ki, onun da tənqidi yazılarında artıq Azərbaycan ədəbiyyatına bir ideologiya kimi sirayət edən sosrealizm prinsipləri təsir göstərməyə bilməzdi. Amma bir həqiqət var ki, biz XXI əsrdən boylanıb XX əsrin otuzuncu illərinini ədəbiyyatını nə qədər tənqid atəşinə tutsaq belə, o dövrün qatı bolşevik ideologiyasının şüurlara hakim kəsildiyini unutmamalıyıq. Və unutmamalıyıq ki, belə ideoloji təzyiqlər və təsirlər nə qədər güclü olsa belə, Azərbaycan ədəbiyyatı malik olduğu bir sıra yaşarı ənənələrdən, dilindən, xalqın əsrlər boyu yaşatdığı özgürlüyündən, mənəvi prinsiplərindən uzaqlaşmadı.

Əkbər Ağayev sosializm realizmi ədəbi metodunu tərifləyən məqalələr də yazıb, kommunist ideologiyasını tərənnüm edən əsərlərdən də söz açıb - bunu inkar etmək olmaz (digər tənqidçi və ədəbiyyatşünaslarımız kimi!), amma onun tənqidçi və ədəbiyyatşünas kimi fəaliyyətini bu yazılarla məhdudlaşdırmaq olmaz. Onun Azərbaycan ədəbiyyatının uzaq və yaxın keçmişinə, müasir mərhələdə inkişafına, keçdiyi yolda əldə etdiyi uğurlara, həmçinin üzləşdiyi maneələrə, görkəmli sənətkarların yaradıcılıq aləminə, dünya, xüsusilə, rus ədəbiyyatının klassiklərinə həsr etdiyi onlarla sanballı məqalələri vardır ki, bunların əksəriyyəti indinin özündə də aktuallığını itirməmişdir. Bu yazılar həm professional səviyyəsinə, həm də təfəkkür aydınlığına, dilinin, ifadə tərzinin səlisliyinə görə seçilir.

O, 1940-1980-ci illərin ən fəal tənqidçilərindən biri olmuşdur. Bu mənada onun adını «tənqidimizin vicdanı» (S.Vurğun) adlandırılan Məmməd Ariflə, görkəmli tənqidçi-ədəbiyyatşünas Məmməd Cəfərlə bir sırada çəkmək olar. Bu dövrdə Əkbər Ağayev həm ali məktəblərdə «Xarici ölkələr ədəbiyyatı» fənnindən mühazirələr oxuyur, həm ədəbi orqanlarda çalışır, həm bədii tərcümə ilə məşğul olur, həm də tənqidçi və ədəbiyyatşünas kimi qəzet və jurnal səhifələrində məqalələrlə çıxış edirdi. Onun tərcümə kitablarının sayı iyirmiyə çatır, amma tənqidçi-ədəbiyyatşünas kimi cəmi altı kitabın müəllifidir: «Lermontov və Azərbaycan» (1941), «Gertsen» (1962), «Sənətkarlıq məsələləri» (1962), «Nizami və dünya ədəbiyyatı» (1964), «Sənətkara töhfə-Tolstoy-150» (1978), «Əsrin tərənnümü» (1980). Əgər bir tərcüməçi kimi Əkbər müəllimin fəaliyyəti tam əhatə olunubsa, tənqidçi və ədəbiyyatşünas kimi nəşr göstəriciləri heç onun yazdıqlarının onda birini əks etdirmir. Xeyli sayda məqalələri, ədəbi müşavirələrdə məruzələri olub ki, kitab halında çap edilməyib. Elə bircə sanballı doktorluq dissertasiyası olan «Azərbaycan sovet poeziyası (1920-1970): inkişafın əsas meylləri və sənətkarlıq, ənənə və novatorluq məsələsi» elmi işi belə, monoqrafiya halında oxuculara çatdırılmadı. Nə yaxşı ki, həmin dissertasiyanın müəyyən qismi «Azərbaycan» jurnalının 1974-cü il, 1- 10 saylarında dərc edildi.

Əkbər Ağayevin ədəbi-tənqidi irsi və ədəbiyyatşünaslıq fəaliyyəti iki mənada əhəmiyyətlidir. Birincisi; bu irs Azərbaycan ədəbi tənqidinin və ədəbiyyatşünaslığının 1940 -1980 - ci illər (ömrünün son on - on beş ilində Əkbər müəllimin yazıları mətbuatda seyrək görünürdü) mərhələsinin bir çox xüsusiyyətlərini özündə əks etdirir. Tənqid tarixçiləri üçün bu, yaxşı bir mənbədir. İkincisi, biz bir alimin, görkəmli tənqidçinin fikir dünyası ilə tanış oluruq. Tənqidçiyə xas olan bir sıra xüsusiyyətləri - obyektivliyi, prinsipiallığı, klassiklərə və müasirlərə hansı kriteriyalarla yanaşma tərzini, fikir və mülahizələrində sərbəst, həm də özünəməxsus ifadə tərzini onun simasında görə bilərik.

Təbii ki, bir yazıda görkəmli tənqidçinin bütün yaradıcılığından söz açmaq, onları indiki ədəbi meyarlarla qiymətləndirmək mümkün deyil. Ancaq tənqidçi-ədəbiyyatşünas Əkbər Ağayevin yaradıcılığında nəzərə çarpan, bu gün üçün də qətiyyən əhəmiyyətini itirməyən bir neçə məqamı incələmək istərdik.

Əkbər Ağayev yaradıcılıqda İSTEDAD və YAZIÇI MƏDƏNİYYƏTİ məsələsini xüsusilə nəzərə çarpdırdı: istər klassiklərdən, istərsə də müasirlərlərdən yazanda o, həmişə bu faktoru bir meyar kimi götürürdü. Yazırdı: **«İstedad öz-özlüyündə, bir iş görə bilməz, istedad sənətkarlıq üçün lazımdır, lakin hələ sənətkarlıq demək deyildir. Poetik istedad o zaman səmərəli olur ki, o, tərbiyə edilsin, yüksək yazıçı mədəniyyəti ilə birləşsin. İstedadın fitri cəhətləri vardır, yaradıcılıq prosesində mühüm rol oynayan yazıçı mədəniyyəti isə məhz həyatda qazanılır, yuxusuz gecələr, uzun və ağır əmək bahasına müxtəlif yollarla qazanılan həyat təcrübəsi hesabına əldə edilir. Yazıçının dünyagörüşü, elmi, nəzəri bilik səviyyəsi, müşahidə dairəsinin genişliyi və sairə onun mədəni səviyyəsini təyin edir...Yazıçı mədəniyyəti olmadıqda, hər şeydən əvvəl, əsərin realizmi - yəni həyat həqiqəti zərər görür, əsərin əsas bünövrəsi sökülür, əsər öz ruhundan, canından məhrum olur və heç bir istedad belə əsərin köməyinə çata bilməz».** O, Nizamidən, bu dahi fikir bahadırından və onun dünya poeziyasında önəmli rolundan söz açanda

da, Azərbaycan poeziyasının Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri kimi görkəmli nümayəndələrindən yazanda da məhz İSTEDAD və onu şərtləndirən YAZIÇI MƏDƏNİYYƏTİ faktorunu xüsusilə nəzərə çarpdırırdı.

Nizamişünaslıqdan söhbət düşəndə çox zaman Əkbər Ağayevin adını çəkmək unudulur, amma onun «Nizami və dünya ədəbiyyatı» monoqrafiyası nizamişünaslıqda mühüm bir addım idi. O, Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq Nizaminin Avropada tədqiq olunması, onun əsərlərinin Qərb dünyasına mənəvi təsirini və Nizami mövzularının Höteyə, Qotsiyə, Şillerə, Heyneyə necə ilham verdiyini tədqiq etdi. Qərb ədəbiyyatını mükəmməl bilən və Şərq ədəbiyyatına da yaxşı bələd olan Əkbər müəllim Nizaminin yaradıcılığını Azərbaycan renessansının zirvəsi hesab edirdi. Onun «Azərbaycan intibahı - problem deyil, həqiqətdir!» adlı məqaləsi, sözün əsl mənasında, bu problemin konturlarını dəqiq müəyyənləşdirmək baxımından yolgöstərici rolunu oynamışdır. Onun Nizami haqqında söylədiyi bu fikirlər necə müasir səslənir: **«Nizaminin dühası orta əsrlərin qalın qaranlıqları içərisindən yüksəlib işığa, təmiz havaya, yaxınlaşmaqda olan bəşər intibahının aydın səhərinə doğru can atırdı».** O, nizamişünaslıqda böyük zəhməti olan Y.E.Bertelsdən belə bir misal gətirirdi: **«Əgər təkcə Nizamini təqlid edən yazıçıların adlarını saymaq istəsək, o zaman biz Yaxın Şərq xalqlarının ədəbiyyatlarının bütün tarixini şərh etməli olardıq».** Bu fikri Əkbər müəllim Qərb ədəbiyyatı müstəvisinə keçirir, Nizamidən bəhrələnən Qərb şairlərinin onun yaradıcılığından necə təsirlənməsini elmi dəlillərlə, gətirdiyi misallarla sübuta yetirir.

Əkbər Ağayevin istər klassik, istərsə də müasir ədəbiyyatdan, ayrı-ayrı görkəmli sənətkarlardan, yaxud mühüm yaradıcılıq, sənətkarlıq problemlərindən söz açdığı məqalələrində biz onu ehtiraslı bir müəllif kimi görürük. Bu «ehtiras» sözü sizi çaşdırmasın, onun öz mənası var - Əkbər Ağayev heç bir yazısını quru, soyuq, «akademik» dillə qələmə almamışdır. O, müharibədən sonra Azərbaycan poeziyasının sənətkarlıq axtarışlarından bəhs edən məqaləsində zəif, ortabab şeir nümunələrindən söz açanda da, çox sevdiyi Səməd Vurğunun poetik istedadının çoxcəhətliliyindən danışanda da, Rəsul Rzanın novator poeziyasını qiymətləndirəndə də, həmçinin onun «Rənglər» silsiləsinə o zaman yanlış münasibət bildirəndə də emosiyalarını gizlədə bilmirdi. Onun tənqidi rasionallıqla emosionallığın vəhdətini özündə əks etdirirdi. Əslində, "tənqidi əsər (məqalə, resenziya, portret yazı) necə yazılmalıdır?" sualına cavab axtarsaq, Əkbər Ağayevin bir çox yazılarını nümunə gətirə bilərik.

«Əsrin tərənnümü» kitabında onun gözəl şairimiz Əliağa Kürçaylının «Seçilmiş əsərləri»nə yazdığı bir məqaləsinə diqqət yetirirəm. Bu, təkcə bir şairin kitabına verilən qiymət deyil, həm də «poeziya nədir?» sualına verilən cavab kimi maraqlıdır. Məqalə belə başlayır: «Poeziyanı sevən və qiymətləndirməyi bacaran oxucu yaxşı bilir: hər dəfə yeni bir şeir, şeirlər silsiləsi və ya poema oxuyanda, istər-istəməz eyni bir sual ətrafında düşünməli olursan, oxuduğun əsərdən soruşmaq istəyirsən - axı, poeziya nədir?».

Bu suala cavab vermək üçün Əkbər müəllim uzun-uzadı mühakimələr yürütmür, kimlərdənsə sitatlara ehtiyac duymur və o suala belə cavab verir: «Cavablar çoxdur, saymaqla qurtarmaz. ...Amma bir cavab da var- poeziyanın öz cavabı... Hər bir istedadlı, yetkin və kamil poetik əsər öz-özlüyündə «Poeziya nədir?» sualına cavabdır. Bu cavab daha orijinal, daha yeni, daha təravətlidir». Və Ə.Ağayev Əliağa Kürçaylının poeziyasının ən gözəl nümunələrinə müraciət edir, sualın cavabı aydınlaşır.

Ümumiyyətlə, Əkbər Ağayev poeziyamızın mötəbər tədqiqatçılarından biri idi. Onun öncə adını çəkdiyim «Azərbaycan sovet poeziyası (1920-1970). İnkişafın əsas meylləri» (jurnal variantında adı belədir) XX əsr Azərbaycan poeziyasını sistemli şəkildə tədqiq edən bir əsərdir və bu əsərdə ayrı-ayrı fikirlər, mülahizələr sosrealizm mövqeyindən yazılsa da, bütövlükdə poeziyamızın keçdiyi yolu düzgün işıqlandırır. Bu əsərin yetmişinci illərin əvvəllərində yazılmasını da unutmayaq. Bir də ki, sovet ədəbiyyatı deyilən bir anlayış havadan, sudan yaranmamışdır, bu ədəbiyyatın araya - ərsəyə gətirdiyi nümunələrin heç birini qırağa atmaq olmaz, sadəcə, onları həmin dövrün, tarixi şəraitin yetirdiyi ədəbi məhsullar kimi izah etmək lazımdır. Həmin monoqrafiyada Əkbər Ağayevin bir ədəbiyyat tarixçisi kimi istedadı da üzə çıxır. O, yetmiş ilin (əsərdə XX əsrin poeziyası bütünlüklə, həm ayrı-ayrı ədəbi şəxsiyyətlərinin yaradıcılığı, həm də inkişaf mərhələləri) poeziyasında meydana gələn heç bir təmayülü nəzərdən qaçırmır, bu poeziyanın ənənə və novatorluq, klassika və müasirlik, sənətkarlıq axtarışları kimi ən vacib problemlərini tədqiq edir. Qiymətləndirmə meyarı isə bəzən subyektiv görünsə də, hər halda, maraqlıdır. Məsələn, Sabir, Səhhət və Hadinin müqayisəsinə diqqət yetirin: **«Sabir poeziya səmasında əbədidir, yandıqca parlayır, parladıqca aydınlaşır və daha gur şölə saçır, şüasının əhatə və təsir dairəsi genişdir, tükənməzdir, həmişə fəaldır. Hadi çox tez parlamış, gözləri qamaşdıran bir işıq saçmış, tez də ziyasını itirmiş və sönmüş ulduzdur, lakin poeziya səmasından silinməmişdir, öz tutduğu məqamında o, yenə vardır. Amma onu görmək istəyənlər əvvəlcə aydınlaşdırıcı cihazlarla silahlanmalı, özünü işıqlandırmalı, sonra görməlidirlər. Görə bilsələr, o zaman hiss edərlər ki, o sönmüş ulduz da içəridən nəfəs alır. Bəli, Sabir poeziya göylərində hamının gördüyü və görəcəyi ulduzdur, Hadi isə onu görə bilənlərin ulduzudur. Bu iki ulduzun arasında öz sakit və aramlı işığını bir qaydada saxlayan sıravi bir ulduz da var, o - Səhhətdir, incə, ahəstə və təmkinli qələm sahibi Səhhət».**

Bu monoqrafiya ənənə və novatorluq haqqında çox maraqlı və obyektiv mülahizələrlə diqqəti cəlb edir və yeri gəlmişkən deyim ki, mənim «Müasir Azərbaycan poeziyasında ənənə və novatorluq (1960-2000-ci illər») doktorluq dissertasiyamın yaranmasında böyük rol oynadı. Mən bir çox səhifələrdə Əkbər müəllimin poeziyada ənənə və novatorluq haqqında söylədiyi nəzəri müddəalara istinad etdim.

Əkbər Ağayev bir insan kimi də maraqlı şəxsiyyət idi. Yetirdiyi, istedadına inandığı tələbələri ilə fəxr edirdi, ustadlara isə həmişə ehtiramla yanaşırdı. Onun Məmməd Arif və Məmməd Cəfər Cəfərov haqqında yazdığı məqalələr tələbə-ustad münasibətlərinə ən yaxşı misal ola bilər. Məmməd Arifi o, «ədəbiyyatşünaslığımızın, tənqidi fikrimizin yaradıcı sənətkarı» hesab edirdi, Məmməd Cəfəri isə «bacarıqlı, həssas və qayğıkeş tənqidçi» adlandırırdı.

Əkbər müəllim ömrünün son illərində Nizami adına Ədəbiyyat İnstitutunda çalışırdı. Deyim ki, burada hamı onun xətrini çox istəyirdi, elmi müşavirələrdə çıxışları isə, ayrıca bir aləm idi. Çoxlarının ürəyindən keçirdi ki, «kaş mən də belə çıxış edə biləydim».

Yetmiş beş il yaşadı. Mart ayında Şuşada dünyaya gəldi, mart ayında Bakıda vəfat etdi.

Vəfatından sonra bir kitabı belə işıq üzü görməyib. Onun ən azı beş-altı qalın cildə sığışdırıla biləcək ədəbi-tənqidi irsi isə öz sahibini, müasir dillə desək, öz sponsorunu gözləyir. Bu irsdən isə nəinki indi, gələcəkdə də faydalana bilərik…

***Vaqif YUSİFLİ***

# ◆ P o e z i y a



***Sabir YUSİFOĞLU***

## KİM ÇƏKİB GƏTİRDİ DÜZƏ DAĞLARI

Qoşula bilmədik qayalarına,
Qoşduq tükdən yüngül sözə dağları.
Havası çatışmır aran yerində, -
Kim dartıb gətirdi düzə dağları?

Qartallar səsini içində boğub,
Qayalar kolların dibinə sığıb.
Əl boyda kağızın üstünə yığıb
Barmaqla göstərir bizə dağları.

O mənəm, hər yandan yolu kəsilən,
Babəklə bir yerdə qolu kəsilən.
Köçürün bu yurdun xəritəsinə
Sinəmə çəkilən təzə dağları.

## BUZ TƏKİ RAHATDI ÖZÜM SARIDAN

Allah bilmir məni harda saxlasın,
Yaxşı ki, yer tapdım öz ürəyimdə.
Ölüm də sevəcək nə vaxtsa məni,
Vurulub öləcək düz… ürəyimdə.

Bu payız ömrümün qışı da yetər,
Ağac basdırsam da, daha dərd bitər.
Haqsız cəza çəkən məhbusdan betər
Göynəyir nə qədər söz ürəyimdə.

Bir də göyərdərmi yaşı qurudan?-
Eh, bu yaşda kimdi məni yarıdan.
Buz təki rahatdı özüm sarıdan,
Bir az da qalıbdı köz, ürəyimdə...

## ÖLÜM

Köhnəldib çox təzələri,
özü qalıb təzə ölüm.
Minib saat əqrəbinə
gəlir gəzə-gəzə ölüm.

Hamının vaxtını bilir,
dəftərindən bir-bir silir,
Nə rüşvətə yaxın gəlir,
nə də baxır sözə ölüm.

Ağ libası nəmər verir,
dost-tanışa kədər verir,
nə kimsəyə xəbər verir,
nə alır icazə ölüm.

…uzaq deyildim ölümdən,
yenə də çıxdı əlimdən.
Dünyanın ən gözəlindən
gözəl imiş...
gözəl ölüm.

## ALLAH, VER ƏFV FƏRMANINI

Ömrümüz-günümüz düşdü
qurdların acan vaxtına.
Adamın gözdən düşdüyü,
ölümün asan vaxtına.

Biçir saat əqrəbləri
günlərin sünbül ömrünü.
Hər ölən günün dalınca
ürəyimdən neçə ümid
özünü atıb öldürür.

Ömrün gün düşən tərəfi
aşıb gəldiyim bu dərdin
elə o üzündə imiş.
Ölümün ən qeyrətlisi
Azadlıq düzündə imiş.

Bu qurd-quşlar arasında
qurdalanmağa dəyməzmiş.

Bir başı saxlamaq üçün
xırdalanmağa dəyməzmiş.

Üzü yerə sarı gəlir
buludlar göydən bezəndə.
Adam balası neyləsin
Yerdə hər şeydən bezəndə?!

Gün batır
batan gəmitək,
batır günlərimin qanı.
Allah, mən cəzamı çəkdim
indi ver əfv fərmanını.

## ÜRƏYİMDƏN ÇIXIR SÖZÜMÜN CANI

Kağız üstə düşən kölgəsi deyil-
Ürəyimdən çıxır sözümün canı.
Nə tanrı eşitdi mən deyənləri,
Nə oxuya bildim tanrı yazanı.

Ən uca səslə də qaldırmaq olmur,
Qələmin ucundan yıxılan sözü.
Hər gün təmtəraqla dəfn eləyirik
Tabut kitablara yığılan sözü.

Qələm də üstündən sürüşüb keçir,
Sözün sehrlisi qalır dərində.
Dən izi düşməyən
bir çimdik torpaq
Gəzirəm
min illik əkin yerində.

## YAŞAMAĞA BƏHANƏ ÇOX

Üzə dirənən günlərin
İçindən qopdum ölmədim.
Yaşamağa bəhanə çox,
Bəhanə tapdım, ölmədim.

Nə bu dünya qaçasıdı,
Nə mən yapışıb qalası.
Kimin qolunda qayıdar
Saçımın gedən qarası?

Bir qıza gül söz vermişəm,
Yollara-evə dönməyi.
Bir yandan da tənha ulduz,
Dənizə düşüb sönməyib.

Bu günün də ağrısını
Sinəmə sıxdım ölmədim.
Ürəyimi neçə dostun
Gözündə tapdım, ölmədim.

## MƏN BU ÖMRÜN DÖNGƏSİN DƏ DÜZ KEÇDİM

Al ömrümün qalanını,
 sür getsin,-
Bəlkə, sən bir gün görərsən, qarışqa.
Heç qıymazdım bir kimsəyə bu ömrü,
əvəzində nə verərsən, qarışqa?!

Tutdu bizi batan yurdun qarğışı,
gah qıraqda, gah arada qalmışıq.
Darıxanda bu xaraba qalmışı
ağı deyib dindirərsən, qarışqa.

Nə danışım o xanımdan, qadından?!
Ölüb getdim, çıxmadı ki yadımdan...
Nəsə tapsan ocağından, odundan,
qəbrim üstə göndərərsən, qarışqa.

Dən boydadı yer kürəsi gözündə,
qarışqayıq hamımız yer üzündə.
Çiynindəki bu dünyadan bezəndə,
dartıb qəbrə endirərsən, qarışqa.

Keçiləsi bir can vardı, tez keçdim,
öz bəxtimə düşəndən də vaz keçdim,
Mən bu ömrün döngəsin də düz keçdim,
hara gəldi sən sürərsən qarışqa...

## PAYIZDAN BİR YARPAQ

Sarı-sarı ağacları
Yarpaq-yarpaq soyur külək.
Bəlkə, elə isinməyə
Yer axtarır soyuq külək?

Ürəyimi - xatirələr,
Yarpaqları - külək ovur.
Adamların arasıynan
Tale məni hara qovur?

Ya dəli ol, ya dərdli ol:
Biri bilsə, beşi bilməz.
Bu küləkdə hönkürtüynən
Ağlasan da eşidilməz.

## GÖYNƏN GETMƏYİN DƏ YERİ YOX İMİŞ

Bu günün, dünənin söhbəti deyil,
mən çoxdan tanışdım tənhalığımla.
Görən kim böyükdü, kim daha çoxdu,
mərc gəlib yarışdım tənhalığımla...

Çiynimdə mələklər sakit, kirimiş...
Laxlatdı ömrümü bu yoxuş, eniş.
Göynən getməyin də yeri yox imiş,-
Qayıdıb barışdım tənhalığımla...

Dünyadan əlimi gül kimi üzdüm,
Tanrı ətəyindən yapışıb dözdüm.
Mən heç ilanla da yola getməzdim,
Qaynayıb qarışdım tənhalığımla!..

## PAYIZ YAĞIŞLARI HOPUR CANIMA

Buludlar dənizi qaldırıb yerdən,
Çırpır küçələrin boz sifətinə.
İslanmış kölgələr qaçır işıqdan,
Oğru adam kimi qısılır tinə.

Bəlkə, bir nadanın günahı üstə,
Hamının başına döyür bu yağış.
Kiminin gözündə yağışdı elə,
Kiminin içini oyur bu yağış.

Mamır bağlayacaq daşların üzü,
Dərdsiz ürəklərin divarı - yosun.
Belə yağandısa, mənim qəlbimdən
Vəfasız bir qızın izini yusun.

Bu payız yağışlar hopur canıma,
Daha itirilmiş torpaq kimiyəm.
Yağışlar yorulub kəsəcək bir gün,
Mən bundan o yana çətin kiriyəm.

Nə qədər gözlərdə görünməz oldum,
Məni gəzən gözlər islanır harda?
Çiçəklər, yarpaqlar quruyub ölür,
Göyərib öləcəm bu yağışlarda.

## ÖMRÜN QURAQLIQ KEÇƏN GÜNLƏRİNƏ

Susuz səhra kimi uzanır ömrüm,
İlğıma çevrilir çatdıqlarım da.

Ürəyim bir yana, çat verir indi,
İlk öpüşün yeri dodaqlarımda.

On yeddi yaşımın yaşıllığından,
Çıxıb bu tərəfə düşəcəyimi,
Bilmədim,
küləklər ağzında gedən,
Qanadı qırılmış yarpaqlar kimi.

Dünyanın ikicə rəngi var imiş,
Bir də ikisinin qarışığı - boz.
Hardansa səs gəlir:
taleyin ilə
Sən öz arandakı barışığı poz.

Saçından asılmış qızdı bu tale -
Nağıl quyusunun qaranlığında.
Ümid basdırıram hər ötən günə,
Göyərmir buranın quraqlığında.
Susuz səhra kimi uzanır ömür,
Susuz səhra kimi…

## DƏRDİN ÜST-BAŞINI ÖRTMƏK DƏ OLMUR

Hansı yaza qaldı boy atmağımız,
Ürəyim heç nəyə uçunmur daha.
Yıxılıb ömrümdə qalan günlərin,
Üzünü ağardan saçımdı daha.

Məni sürüyürmüş sürdüyüm ömür,
Ürək də soyulub sürünmək ilə.
Dərdin üst-başını örtmək də olmur,
Köynəyə, pencəyə bürünmək ilə.

Nə bu can mənimdi, nə mən dünyanın,
Ömrün tələsində çırpınan ovam.
Qəlbində varamsa çıxar, at məni,
Mələklər yanında boş qalıb yuvam.

## MƏNƏ BİR MƏKTUB GÖNDƏR

Susuzluqda su təki,
Bəlkə, yadına düşəm.
Mənə bir məktub göndər
Bilim ki, ölməmişəm.

Səndən başqa bilən yox,
Dərdimə bir dərman yaz.
İki kəlmə nədi ki,
Ay gözünə qurban, yaz.

Çox yox, bir varaq göndər,
Vaxtın yoxsa, ağ göndər,
əllərinin izini
evimə qonaq göndər.

Bilim harda solursan,
ay gülüm, ay bənövşəm.
Mənə bir məktub göndər,
Bilim ki, ölməmişəm.



## *Fərid HƏSƏNZADƏ*

### DOSTUM

Dostum,
əgər saatın tik-taklarını eşidirsənsə,
mənə xoşbəxtlikdən danışma.

Görünür,
gecikmişik xoşbəxt olmağa.
Nə qədər
"heç vaxt heç nə gec deyil" -
desələr də,
deyilənlərə fikir vermə sən.

Ümumiyyətlə,
deyilməyənlər daha qiymətlidir
deyilənlərdən.

Yaşamaq - vaxt keçirmək deyilmi?
"Qoy bunu da yola verim,
hər şey düzələcək"lərdən
ibarətdir əslində həyat.

Sənsə xoşbəxtlik ovuna çıxmısan
yiyələrinin itlərini tanımadığı
bu basabasda.

Düzələn deyil, dostum
düzələn deyil!

Xoşbəxtlikdən çox uzaqsan,
eşidirsənsə saatın tik-taklarını...

## YANDIR YAĞIŞI

Yandır yağışı,
Salmasın yolunu bir də
sizin küçənin yaxınlığından.
Ona de ki, danışmasın daha
odla suyun qohumluğundan.

Hələ buludu demirəm -
duz basmaz bir dəfə
adamın yarasına da.
Əşşi, bu buludun
ağına da lənət, qarasına da!

Ölmək istəyib ölə bilməyən
adamlardı yolda qalanlar.
İntihar üçün dənizi seçənlərdi
dənizi gözdən salanlar.

Körpülər - dənizləri anlayandır,
yol yoldaşlarıdı.
Yağış - hündürdə tikilən
körpülərin göz yaşlarıdı.

Yağışı qınama
ki, yağır həm yayı, həm qışı.
Yaxşısı budur,
yandırma, yandırma yağışı.

## HƏRDƏN SƏNİ İSTƏYİRƏM

Hərdən səni istəyirəm,
arabir də yox, düzü.
Hər gün səni görür deyə,
göz də, ürək də bezir.

Adam da bir adamla
görüşməz, axı, hər gün.
Bir-iki gün həsrət çək,
bir az darıx mənimçün.

Elə zəng eləyirsən,
keçməmiş on dəqiqə.
Bu nə dağınıqlıqdır,
hanı sənin səliqən?

Bir müddət uzaq duraq,
bir az nəfəs al, qızım.
Görüşməyək bir həftə,
imkan ver, şeir yazım.

## BİLMİRƏM

Mənim bəxtim ya du-bir,
ya bir qoşa, bilmirəm.
Sevgiylə bağlı qırmışam,
neçə şüşə, bilmirəm.

Elə soyuq davranırsan,
sən ki, belə deyildin.
Avqustun istisində də
yanıb bişə bilmirəm.

Belə də olmaz, axı,
cəhd edirəm elə hey.
Nə qədər zəng eləyirəm,
yadına düşə bilmirəm.

## HƏYATDI, QƏRARLAR DƏYİŞƏ BİLƏR

Həyatdı, qərarlar dəyişə bilər,
biri doğru olar, o biri də səhv.
Mən səndən uzağa gedə bilmirəm,
Gələ bilirsənmi gör mənə tərəf.

Bir az qalın elə, tez üşüyənim,
əynini,
üşümə, hava soyuqdur.
Bilirsən dünyada qərar verməkdə
məndən çox əziyyət çəkəni yoxdu.

Bəzən bir qərarı düz vermək üçün
elə bölünmüşəm, min-min olmuşam.
Mən bu yaşımadək bəlkə də təkcə
səni sevdiyimdən əmin olmuşam.

Onda da bizimki belə gətirdi,
neyləyək, biz ayrı düşəsi olduq.
Bu boyda məhəbbət muzeyində biz
kiçik bir ayrılıq guşəsi olduq.

Həyatdı, qərarlar dəyişə bilər,
biri doğru olar, o biri də səhv.

Mən səndən uzağa gedə bilmirəm,
gələ bilirsənmi gör mənə tərəf.

Gələ bilirsənsə, elə indi gəl,
sən qərar verməkdə mənə oxşama.
Həyatdı, qərarlar dəyişə bilər,
saxlama sabaha, ya da axşama.

Gələ bilirsənsə, elə indi gəl,
qoy indi azalsın barı bir dərdim.
Həyatdı, qərarlar dəyişə bilər,
bəlkə də heç sabah mən istəmədim?

## ŞƏKİL

Sən olsan yanımda, nə dərdim?
Qəlbimin ən böyük qəmisən.
Mən ki, öz yolumla gedirdim,
sən məni azdıran gəmisən.

Arada məni də bir düşün,
bilirəm, boş vaxtın çox olur.
Hər yana səpilir gülüşün,
tək mənə çatanda yox olur.

Çətindir çatmaq bu hədəfə,
əlbəttə, günah da var səndə.
Ta qaça bilməzsən, son dəfə
şəklini çəkmişəm güləndə.

Necə də xoş oldu gəlişin,
otağım işığa boyanır.
Bəxtəvər başıma, gülüşün
mən şəklə baxanda dayanır...



*Dayandur SEVGİN*

## QIZ, SABAHIN XEYİR OLSUN

Bu açılan al səhərdə,
Qız, sabahın xeyir olsun.
Bənövşəni şehli-şehli
Üz, sabahın xeyir olsun.

Bağ-baxçaya düşsə yolun,
Ürək açar xoş əhvalın,
Çəmənlikdə ayaqyalın
Gəz, sabahın xeyir olsun.

Belə baxma, belə mənə,
Nağılın var, söylə mənə,
Hərdən, gözəl, eylə mənə
Naz, sabahın xeyir olsun.

Tanrı ola yar gözələ,
Bu nazənin PİR gözələ,
Sevgin, belə bir gözələ
Yaz, sabahın xeyir olsun.

## SEVİNC

Səni axtarmışam mən ömrüm boyu,
Tamarzı qalmışam dadına sənin.
Sən olsan neynirəm iki Sevinci,
Elə sığınaram adına sənin.

Olsa da dünyanin minbir qədəri,
Xeyirə bağlanıb saymaram şəri,
Adınla qorxudub qəmi-kədəri,
Alışıb, yanaram oduna sənin.

Ömrümü, günümü talan eylərəm,
Bu eşqi dünyada qalan eylərəm,
Məcnunu, Kərəmi yalan eylərəm,
Bir yol adım düşsə yadına sənin.

## DÜŞÜR

***"Yadından çıxmışam ana vətənin***
***Gərək barmağına sap bağlayaydım"***
***Məmməd İsmayıl***

Dünyanın acısın biz çəkirik, biz
Acı görməyənə sədəf, dürr düşür.
Bircə damlasını qıymayır, bizə,
Kimə Araz düşür, kimə Kür düşür.

Axı, yarandığım günə nə deyim,
Qəm üstə köklənib yaralı neyim,
Uğursuz şeirdi mənim taleyim,
Ya duyğu çatışmır, ya fikir düşür.

Nə deyim bu qanlı fələyə, Dədə,
Yol açır hər dürlü kələyə, Dədə.
Dovşana qurulan tələyə, Dədə,
Elə qururlar ki, gəlib şir düşür.

Sənə yalvarıram, haçandan sənə,
Bilirsən bağlıyam mən candan sənə,
Sitəmlər verdiyin insandan sənə,
Tanrım, özün söylə gör, zikir düşür?

Ədalət istədim, ədalət Haqdan,
Odu var eləyən hər şeyi yoxdan,
Narazı olsam da taledən, baxtdan,
Dilimdən Allaha çox şükür düşür.

Dilini bilsəm də qayanın, daşın,
Heç vaxt ayrı olmur bəladan başım,
Kiminə ev gəlir, kiminə maşın,
Dayandur Sevginə təşəkkür düşür.

## YADINDAN ÇIXIB

Dəryada gəmiyəm, uçub yelkənim,
Külək yellədikcə əsər kəndiri.
Asılı qalmışam dar ağacından,
Bircə "ALO" sözü kəsər kəndiri.

Dillənə qəlbinin kaş sarı simi,
Duyam istisini kövrək səsinin.
Nolardı barmağı kəpənək kimi,
Qonaydı üstünə "YES" düyməsinin.

Bu başda həyacan, o başda sükut,
Aya, ilə dönür hər keçən anım.

Çağırır, çağırır telefon susur,
Bir cavab verməyir qəlbi daş xanım.

Sən bizi sevgidən yaratdın axı,
Ən ülvi sevgilər adından çıxıb.
Tanrım bu gözələ hər şey vermisən,
Bircə ürək vermək yadindan çıxıb.

* * *

Şeytan əməlidi bu gözəlliyin,
Tanrı axıtmazdı belə qanları.
Qara kirpiklərin xilas eyləməz,
Dərya gözlərində boğulanları.

Kövrəlsən, gözündən bir damcı düşsə,
Silməyə hər cibdən bir yaylıq çıxar.
Sən tutub gedərsən vüsal yolunu,
Nədənsə qarşına ayrılıq çıxar.

Sonuncu nəğməsin oxuyan qu da,
Son dəfə ürəkdən dinmək istəyir.
Sənin göz yaşından sellənən suda,
Kimdi o, bəxtəvər çimmək istəyir.

## GÖZƏLƏ

Şair gərək şeirini
Yaza bu şən gözələ.
Göydən gələn mələyə,
Gülü gülşən gözələ.

Güləndə bahar olar,
Görən bəxtiyar olar,
Tanrı özü yar olar
Eşqə düşən gözələ.

Sevgisi olan gəlsin,
Qadasın alan gəlsin,
Ağ atlı oğlan gəlsin,
Versin nişan gözələ.

O mənim gülüm olsa,
Dözərəm zülm olsa,
Yolunda ölüm olsa,
Qıyaram can gözələ.

Həsrətində qalmışam,
Bulud kimi dolmuşam,
Mən vəfasız olmuşam
Sevgin, haçan gözələ?

## ◆ Dünya, səndən kimlər keçdi...

# Şəkillər

### *İkinci şəkil:*

### *İsa İsmayılzadə "Bir saatlıq Bakı"*



İsa İsmayılzadənin şəkillərinə baxıram: Bütün şəkillərində İsa iydə çiçəyini qoxulayırmış kimi dayanıb. Bu ətirdən qaşları çatılıb, bir azca üzü qırışıb, çiyinləri yuxarı dartılıb, üzünə nəyəsə cəhd etmək təbəssümü qonub. Elə bil nəfəsini içinə çəkib, eləcə də qalıb. Çəkdirdiyi bütün şəkillərin əsas süjet xətti qoxulanmış iydə çiçəyinin və bir anlıq içinə çəkilmiş nəfəsin üzərindədir.

Cəmi 56 il yaşadı İsa İsmayılzadə. Mənə elə gəlir ki, onun bütün yaradıcılığı bir saata yazılıb. Bir saatlıq şeir.

Baxıram şəkillərə, İsa İsmayılzadə elə bil uzaq Qarayazıdan Bakı-Tiflis qatarı ilə indicə gəlib Bakıya, özü də yuxusuz, yorğun, üşümüş bir halda. Bu vəziyyəti İsanın bütün yaradıcılığına hopub sanki. Bakıda cəmi 29 il yaşayıb (1968-ci ildə Bakıya gəlib, 1997-ci ildə dünyasını dəyişib) amma mənə elə gəlir ki, o, Bakıda cəmi bir saat olub; bir saatlıq Bakı. Özü də əsəbi, üşümüş, tələsik və həm də iydə çiçəyini qoxladığı bir vəziyyətdə.

Çünki İsa İsmayılzadənin şair heyrəti 29 illik Bakı həyatını 1 saata yükləyə bilib. Eyni motivli şeirlər və onun heyrət materialları: gölməçə, lal telefonlar, lal qızlar, tərləmiş kölgə, sərçə, damcı, yağış, işıq, dirək, navalça, küçə ritmləri, şəkil, yağış döngəsi, yağış küçəsi, yağışlı günlər, yağışlı havalar, termos şüşəsi, duzlu kölgə, maqnitofonumun iş günü, şəhərin qan təzyiqi, cilik-cilik, kergadan buldrez, təpəl avtobus, xortumlu trolleybus bütünlüklə hiss-həyəcan, inciklik, dağınıqlıq və bir də geriyə - Qarayazıya qayıtmaq hissi; o qədər sıxdı, o qədər bir anın məhsuludur ki, bunları bir yerə yığsan, ancaq cəmi bir saat eləyə və bir şair ömrü...

Səməd Vurğunun "Mən tələsmirəm" şeiri, xüsusən şeirin başlanğıcındakı misralar yada düşür:

***Dostlar, badələri qaldırın içək,***
***Gecə ulduzludur, hava da sərin.***

Şair əlini süfrədəki badəyə aparır, dodaqlarına qədər qaldırır, ordan da ulduza, gecəyə qədər bir hərəkət mənzərisinin şəklini çəkir. Yəni Səməd Vurğun yerdən ulduza "baş vurur". İndisə İsa İsmayılzadənin ilk illərdə çıxan kitablarının adlarına baxaq: Birinci kitabı "Ulduzların ad günü" (Bakı: Gənclik , 1968, 98 səh.); ikinci kitabı "İşıqlı yarpaqlar" (Bakı: Gənclik, 1972, 72 səh.);

üçüncü kitabı "Torpaq nəğməsi" (Bakı: Gənclik, 1977, 96 səh.) və sair. İsa ulduzlardan, özü də "Ulduzların ad günü"ndən başlayaraq torpağa endi, torpaqda qurtardı. Bəs görəsən İsanı ulduzlardan torpağa endirən nə idi?

***Damcılar göylərdən əlini üzdü,***
***Buludlar***
***özünə boylanmaq üçün -***
***bulanıq güzgütək gölməçələri***
***torpağa düzdü.***

***Yağdı, tala-tala gölməçə yağdı,***
***göylərin dəlisov ilhamı yağdı,***
***sərçələrin soyuq "hamamı" yağdı.***
***Yağış gölməçəsi buludla doldu,***
***Günəşlə,***
***payızla,***
***sükutla doldu.***
*("Yağış gölməçələri")*

İsanı göydən endirən 3-cü kitabı - "Torpaq nəğməsi" aşağıdakı şeirlə açılır:

***Yoldaş Əzizbəyov, gözünüz aydın,***
***Ömrün yüz yaşını başa vurdunuz.***
***Yoldaş Əzizbəyov, gözünüz aydın,***
***Əsrlə yanaşı durur adınız.***
*("Zaman bayraq kimi qaldırdı sizi")*

Və yaxud:

***Sən mənim köksümdə çarpan ürəksən,***
***Mən sənin köksündə - kiçik bir zərrə.***
***Mənə qanad verən odlu diləksən,***
***Adına, özünə Vətən deyirəm,***
***Çölünə, düzünə Vətən deyirəm.***
*("Vətən nəğməsi")*

İsa nə qədər dəyişilmişdi!

Bəs, hanı İsanın heyrəti, təəccübü, tələskənliyi, təngnəfəsliyi? Hanı iydə çiçəyinin qoxusu? Görəsən İsa niyə bu qədər ağıllandı?

İsa İsmayılzadə ömür boyu kənddən şəhərə gələn uşağın təəccübünü yaşadı. Bu təəccübə görə onu "döydülər". İsa tələsiyirdi, dedilər - dayan; təngnəfəsiydi, dedilər - özünü ələ al; qışqırırdı, dedilər - sus; şübhəliydi, dedilər- inan; ümidsiz idi, dedilər - ümidli ol; belə-belə İsanı "Ulduzların ad günü"ndən torpağa endirdilər.

Amma İsa məğlub olmaq istəmirdi. Bir şeirində deyirdi:

***Bilirsiniz nə var,***
***Heç ələ düşməz***
***Bu günkü hava.***
***Meridian qəfəsləri,***
***"Hara" deyən,***
***"Olmaz" deyən,***
***"Dayan" deyən qəfəsləri***
***Soyunub gəlin,***

***Bir axşamlığa,***
***Bir gündüzlüyə,***
***Bür gecəliyə.***
*("Hamıya, hamıya, hamıya")*

Mən şeirin sonuna bu misranı da əlavə edərdm: "Bir saatlığa". 56 yaşlı şair heyrəti bir saata yerləşirdi.

İsa göydən - ulduzlardan enən kimi çox darıxırdı, onun bütün şeirlərində Qarayazıya dəli bir qayıtmaq cəhdi var:

***- Qayıdaq, qayıdaq.***
***Qayıdaq, ana.***
***Bizim bu şəhərlə nə işimiz var.***
***"Qapımızın cəftəsini,***
***İtimizin zəncirini" oyatmayaq -***
***Ala-toran yuxusunda qoy yatsınlar.***
***- Bəs, kimi oyadaq?***
***- Gedək, nəvələri oyadaq, ana,***
***Nəticələrini ovudaq, ana!..***
*("Yuxuda")*

İsanın əsas şair səciyyəsi olan mükəmməl poetik "Ulduzların ad günü" kitabına "Gənclik" nəşriyyatının yazdığı annotasiyaya baxıram: "İsanın şeirlərində bəzən narahatlıqdan, əsəbilikdən doğan dolaşıq ifadələr, dəbdəbəli süni pafos nəzərə çarpır. Lakin bütün bunlar şeirin çətin yoluna çıxmağa, yeni poetik söz deməyə can atan gənc şairin (28 yaş) büdrəmələridir, tələsməkdən, təcrübəsizlikdən gələn qüsürlardır."

Bəlkə də, bu "qüsurlar" İsanın şeirlərinin ən gözəl yerləridir.

İsa İsmayılzadə şeirə sıx metaforalar, təşbehlər, bənzətmələr, bədii təyinlərlə gəldi. Metaforaların meşəliyində oxucu azırdı, epitetlərin bolluğu oxucunu dəli eləyirdi, bənzətmələr İsa şeirinin qanadlarıydı, bu qanadlarla göy üzündə uçurdu. Bir gün həyat realizmi və həm də həyat revmatizmi metaforaları budamağa başlayanda İsa göydən torpağa düşdü və yerə dəydi, dəyən kimi də, o, eyni sürətlə yenidən göyə qalxdi və "Ulduzların ad günü"nə getdi.

Mən İsanın "qayıtmaq" xəbərini eşidəndə kənddə yaşayırdım. İsanın bir saatlığa yer kürəsinə dəyib qayıtmağına o qədər ağladım ki...

Yağış yağırdı. Evimizin yanındakı arx çiçəkləyirdi...

Və...

Məncə, İsa bu şeiri də həyat - redaktor onun metaforalarının üstündən xətt çəkəndə yazmışdı.

***Bir də görərsiniz mən də getmişəm,***
***Bir də görərsiniz***
***yoxam dünyada.***
***Sizin gözünüzdən elə itmişəm -***
***Çətin,***
***Çətin yolunuza çıxam dünyada.***

Amma ədəbiyyatda həmişə üstündən xətt çəkilən sözlər oxunur.

İsa İsmayılzadə bir saat qədər az idi, tez idi, tələsik idi, bir iydə çiçəyini qoxulayacaq qədər tez; bəlkə də, çox və gözəl...

***Qəşəm NƏCƏFZADƏ***

# SÖZÜN UCALIĞINDA

## *Söhbət İsa İsmayılzadənin şəxsiyyətindən və yaradıcılığından gedir*

Neçə adama göstərdim. Pəncərəni açdım, lap əlimi uzatdım, dedim: - Baxın bu ağ yağışa, görün necə yağışdı. Qıpqırmızı günün içində. Özü də necə şiravan yağır - ağappaq. Gözünü bir azca qıyıb baxsan, yağış yox, elə bil ki, qar görərsən. Hamı baxdı - mənim yanımda olanların hamısı. Hərə bir söz dedi. Biri dedi "çobanaldadan", o birisi "tülkütoyu", bir başqası "yazdı, yazda elə belə yağış yağar" - dedi.

Bilmirəm, bəlkə də, bu gün beynimdə İsa İsmayılzadə adı dolaşırdı. İsa İsmayılzadənin şeirlərini zikr eləyirdim. Bəlkə də, elə İsa İsmayılzadə ilə Vaqif İbrahim obrazının çox qəribə bir kədər gətirən ovqatında azıb qalmışdım, - deyə bilmərəm. Pəncərəni açıb o ağ yağışın damcıları altında xəyalımdan keçən üç-dörd kəlmənin həqiqətinə "Quran" ayəsi kimi inandım. Bu ağ yağış - bu yaz yağışı lap İsa İsmayılzadənin şeirlərinə oxşayırdı.

Taleyin qəribə işləkləri var. İsanın ata-anası deyirmiş ki, o, qorabişirən ayda doğulub. Amma özü pasportunu rəsmi şəkildə inkar etməyib. Sözə tapınıb, sözün kəramətinə sığınıb, ordan qayıdıb üzü bəri deyir ki, mən qorabişirən ayda doğulmuşam. Yəqin ki, heç kəs o qorabişirən ayın günü ilə, saatı ilə hesablaşmayacaq. Amma ağ yağış yağdıran yaz gününün - Novruzun qədəmini kəsən altıca günün - bir həftədən də azca günün səsində, sorağında olacaq.

Mən elə bilirdim ki, dünyanın pak adamları yaddan tez çıxır. Gözdən-könüldən uzaq düşən kimi unudulur. Amma belə deyilmiş. Günlərin bir günü günortadan bir az keçmiş bir zəng gəldi. Bu, "Vahid" poeziya evindən Həsən Həsənovun zəngi idi: "Birdən yadınızdan çıxar, aa... Bu həftə İsa İsmayılzadənin təkcə xatirə günü deyil, həm də yubiley yaşıdır". Bu sözlər böyük mükafat idi. İsa İsmayılzadənin bütün arzularını yaşaya bilən nəsillərinin, İsa İsmayılzadə duyğularının bar-bəhərini görən dostlarının nə düşündüyünü deyə bilmərəm. Amma bir şair taleyinin bəxtəvərliyini iddia edərəm. "Vahid" poeziya evindən elə bu günün ovqatına qatılmaq üçün, elə bu günlərdə çap olunmuş bir kitabın - adı altında fələyin cəngində çırpınan bir şair ürəyi görürəm. Amma bu cəng-cidalda olan şair taleyinin çox yuxarılarda - bizdən lap yuxarıda səsi var. Onun sözü Tanrı dərgahındadır.

Allahdan olan kimi özü danışan, sözü danışan şairin sonuncu kitabında - özündən sonrakı kitabında "Yağış gölməçəsi"nə düşdüm:

***Damcılar göylərdən əlini üzdü,***
***Buludlar özünə boylanmaq üçün.***
***Bulanlıq güzgütək gölməçələri,***
***torpağa düzdü.***

***Yağdı tala-tala, gölməçə yağdı,***
***Göylərin dəlisov ilhamı yağdı,***
***Sərçələrin soyuq "hamamı" yağdı.***
***Yağış gölməçəsi buludla doldu,***
***Günəşlə, payızla, sükutla doldu.***

Elə bugünkü hava idi. Bugünkü yağış idi. Bu günün ruhumuza gətirdiyi yeni nəfəs idi. Necə də bir-birinə bənzəyirdi İsa İsmayılzadə şeiri və yaz yağışı.

Kim nə deyir-desin, İsa İsmayılzadə ölmədi. İsa İsmayılzadə sözü yaz yağışı kimi fəsil-fəsil təzədən gələn ilmədi.

İstər taledə, istərsə də təbiətdə zamanın parçası olan hər ilin özü bir xalıdı. Hər il təzələndikcə o xalıda İsa İsmayılzadə ilməsi görünəcək. Çünki onun ancaq özünə xas, özünə bəlli rəngi var, görünüşü var.

İsa İsmayılzadənin söykəndiyi söz ağacı hər yaz açdığı çiçəklərilə, gətirdiyi bar-bəhərilə onun ürək döyüntülərini, onun adını, ünvanını bizə qaytaracaq: "Gözləyin, dünyaya qayıtmağım var".

* * *

Deyəsən, şənbə günü idi. Vacib bir sənəddən ötrü iş günüm olmasa da redaksiyaya gəlmişdim. Sənədi tapmadım. Tez də ruhdan düşdüm, axtarmaqdan əl çəkdim. Başqa vaxt səbrlə otura bilmədiyim stolumun arxasında lal-dinməz qalmışdım. İçimdə bir boşluq vardı. Elə bil ki, dünyanın bütün sözləri başımdan uçub getmişdi. Az qala vahimələnirdim. Həmin anlarda kimsə məndən yapışıb beş kəlmə sözü dalbadal deməyi istəsəydi də deyə biləzdim. Tamam bədbin bir əhvalım vardı. Bayırda külək tozu-torpağı hara gəldi çırpırdı. Deyəsən elə bu külək həmin o toz-torpağı mənim acığıma sovururdu. Elə bil hədə-qorxu gəlirdi ki, hünərin varsa bayıra çıx. Gör səni necə bürüb-büküb göyə qaldırıram. Ordan da hara gəldi aparıram; özüm bilərəm. Bu azmış kimi, qapının da arasından süzüb içəri dolur, pəncərənin boşluqlarından vıyıltı ilə təzədən çölə çıxırdı.

Əlim yerdən - göydən üzülmüşdü. Əlacsızlıq (nəyi axtardığımı özüm bilirəm) girdabında daxili səssizlik içində çabalayırdım. Bəlkə də nə qədər vaxt keçmişdi.

Qəflətən telefon zəng çaldı. Heç vaxt eşitmədiyim, ancaq çox doğma bir səs məni fikirdən, xəyaldan ayırdı. Ən yaxın doğmalarımın adları xəyalımda sürətlə bir-birini əvəz elədi.

- Əli Rza müəllim, sizsiniz?
- Bəli, eşidirəm.
- Bəlkə də xəbəriniz var, İsa İsmayılzadənin bu günlərdə ad günü olacaq. Həm də elə yubiley yaşıdır. Mümkün olsa, qəzetinizdə bir balaca qeydlə onu xatırlayasınız.
- Bağışlayın, xanım, siz kimsiniz?
- Mən İsa İsmayılzadənin övladlarının anasıyam.
- Adınız...
- Ələviyyə xanımdır.
- Xahiş eləyirəm, mümkünsə sonuncu kitabını, bir də fotoşəklini gətirin.
- Nə vaxt?
- Elə indi, bu günlərdə - həftənin birinci günü.

Heç özüm də bilmədim ki, həmin o girdabdan, o düşdüyüm təlatümdən necə çıxdım. O doğma səs çox uzaqlarda qalmış, işğal əlçatmazlığından mənə boylanan kəndimizin adamı idi mənimlə danışan. Və elə burdaca bir qənaət yarandı məndə. Səs özü də doğmalıqdı. Səs qohumluğun, yaxınlığın mənəvi, ruhu əzizliyin ünvanıdır.

Xanımın "yaxşı, sağ olun" sözündən sonra telefonun dəstəyi xeyli əlimdə qaldı. Axır ki, müsahibin çoxdan getdiyini bildirən kəsik səslər mənə çatdı və dəstəyi yerinə qoydum. Xəyalım İsa İsmayılzadənin yanında idi.

...70-ci illərin əvvəllərində Bayılda neftçilərin bir sarayı vardı. İsa İsmayılzadə orda dərnək aparırdı. Tələbəlik dostum Rasət onun dərnəyində oxuduğu şeirləri bir də təzədən bizim üçün oxuyurdu. Mənim misralara

verdiyim şərhləri dinləyir və çox vaxt da etiraz eləmirdi. Axır bir gün mənə dedi ki, gəl bizimlə birlikdə İsa İsmayılzadənin dərnəyinə gedək. Növbəti məşğələ günü mən də onunla birlikdə neftçilərin Bayıldakı sarayında idim. Hamı ilə səmimi görüşdü İsa müəllim. Mənə çatanda əlimi buraxmadı. Xeyli gözlərimə baxdı. Rasət tez dilləndi:

- Birinci dəfədir gəlir, özü də bizim şeirlərimizi tənqid eləməyə gəlib.

- Lap yaxşı.

Gənclərdən kimsə bir şeir oxudu. İsa müəllim birinci mənə baxdı. Mən də o saat elə yerimdəncə cavab verdim:

- Mən heç nə görmədim.

Gənclər gülüşdülər.

- Necə yəni, heç nə görmədim, - yerdən səslər gəldi.

Heç o bircə cümlədən sonra nə deyəcəyimi də bilmirdim. Üstəlik də gülüşlər məni lap divara qısnadı. Ürəyimdə Rasəti də söydüm, özümü də. Bircə anın içində tər dabanımdan süzülüb getdi. Hiss eləyirdim ki, üz-gözüm istiləşib. Cavanlar atmacalardan sonra öz aralarında söhbətə keçdilər. Elə bircə bu kəlmədən yaranmış mübahisəni qızışdırdılar. Biri deyirdi, gərək şeiri hiss edəsən; o birisi deyirdi, gərək duyasan.

Tənqid üçün tənqid edənin özü şair olmalıdır. - Bir başqası deyirdi.

Atmacalar çox kəskin idi. Amma birdən məni müdafiə üçün Rasətə üz tutdu İsa İsmayılzadə.

- Bu yaxşı oğlandır, çox yaxşı eləyib bələdçi olubsan. O, çox doğru dedi.

Mən eşitdiklərimə inanmadım. Az qala yenə də elə bildim ki, o da ətrafındakı mənimlə həmyaş olan, ancaq özlərini çox təcrübəli və bişmiş hesab edən şairlərə, yazıçılara qoşulub mənə istehza edir. Ancaq hamı səsini kəsdi. Zahirən heç bizdən o qədər də seçilməyən, səsi də bizim kimi elə gənc olan İsa İsmayılzadə sözünə davam elədi: - Əli çox doğru deyir. Siz nəyə etiraz etmək istəyirsiniz?

Dedim ki, poetik parçadan sonra dinləyən nəyisə görməlidir. Obraz onun gözlərinin qabağında canlanmalıdır. Müəllif yazdığı şeirdə bu obrazı yarada bilməyib. Baxmayaraq ki, ölçü-biçi hamısı yerindədir.

Bayaqdan ayaq üstə qalmışdım. İsa müəllim: sağ ol, əyləş. Ancaq çalış ki, dediyin fikri sübut edəsən. Sən də nəyisə göstərəsən, - dedi.

Elə bil ki, bilet çəkib imtahan verirdim. Müəllim də bir “kafi” qiymətlə məni razılığa dəvət edirdi. Və hiss edirdim ki, canımda təpər olsa, “kafi” ilə razılaşmayıb “yaxşı”ya da əl uzadaram. Bu, məndə bir məmnunluq yaratdı. Əyləşdim, oğrun-oğrun ətrafdakılara baxdım. Deyəsən, Rasət də məmnun qalmışdı. Sonra da bir hekayə oxundu. Həmin hekayədə Ə.Əylislinin “Kür qırağının meşələri” povestinin təsirini gördüm. Hekayənin qəhrəmanı Qulu (müəllifin adı yadımda qalmasa da obrazın adı indiyədək yadımdadır) eynilə Qədirin təkrarı idi; məkan, zaman, yaş fərqləri olsa da. Sanki Qədir real həyati obraz idi, Qulu onun prototipi. Hekayənin müəllifi öz yazısını oxuduqdan sonra müzakirə yenə qızışdı. Hamı hekayəni təriflədi. İsa müəllim bir-bir hamını dinləyəndən sonra yenə mənə üzünü tutdu. Mən bu dəfə də özümü toplayıb fikrimi izah etmək üçün ayağa qalxdım: - Qədirdən o yana keçməyib. Hekayə müəllifinin yanında əyləşmiş gənc tez dilləndi:

- Nə Qədir, hansı Qədir?

- “Kür qırağının meşələri”ndəki Qədir.

İsa müəllim yenə gözlədi ki, bəlkə mən nəsə əlavə edəm. Ancaq gördü ki, mən yenə bu bircə cümlədən o tərəfə keçmədim. Daha doğrusu, keçə bilmirdim. Hiss etdim ki, İsa İsmayılzadə çox istəyir ki, mən danışım. Ancaq danışa bilməyəcəyimi görüb mənə əyləşməyi təklif edib dedi:

- Mən razıyam sənin fikrinlə.

Sonra da üzünü oturanlara tutdu: - Sizin heç birinizin görmədiyini bu oğlan görüb. Niyə narazılıq edirsiniz. Doğrudan da, Qulu Qədirə çox oxşayır. Burada elə bir qəbahət yoxdur. Qulu Qədirdən yaşca cavandır, ola bilsin ki, hadisələrin gələcək inkişafında həyat ona yeni dərslər verəcək. O, tamam başqa bir adam olacaq. Ancaq indiki vaxtında oxşarlıq, yaxınlıq var. Belə təsirləri ədəbiyyatda inkar etmək olmaz.

Elə bu vaxt bir qız qapını açıb: - İsa müəllim, sizi telefona çağırırlar, - dedi.

İsa İsmayılzadə getdi və bir azdan qayıdıb gəldi, stolun bir tərəfinə qoyduğu paltosunu və şapkasını götürdü.

- Mənim işim var, getməli oldum. Rasət, sən məşğələni başa çatdır. - Sağollaşıb gedəndə qapıdan geri döndü:

- Sən həmişə gələrsən.

O, məni nəzərdə tuturdu.

- Yaxşı, İsa müəllim, gələrəm, - dedim.

Bu dəfə elə bil ki, o, təkcə mənimlə xudahafizləşdi.

İsa İsmayılzadə bircə görüşün təəssüratı ilə canlı olaraq yaddaşıma hopdu. Sonrakı məşğələ günləri - üç məşğələ ardıcıl olaraq dərnəyə gəlmədi. Məşğələləri Rasət apardı. Və mən də daha həmin dərnəyə getmədim.

Poeziyası hiss və həyəcanla dolu olan İsa İsmayılzadə çox təmkinlə şeir oxuyurdu. O, şeir oxumurdu, danışırdı. Yaşadığı hissləri, öz duyğularını danışırdı. Danışdıqca dinləyicisini qanadlandırırdı. Bu məqamlarda o, ruha bənzəyirdi. Dinləyicisini də ruha döndərə bilirdi. Onun şeirini dinləyən hər kəs nəsə bir qəribə hadisənin baş verəcəyini dinləyirmiş kimi axıracan dinləməli olurdu.

İsa İsmayılzadənin 1991-ci ildə buraxılmış "Seçilmiş əsərləri"ni vərəqləyirəm. Məmməd Arazın ön sözünü görürəm - "Şair taleyi". Və yenə bir kədər qayıdıb varlığıma dolur. İndi nə Məmməd Araz var, nə də İsa İsmayılzadə. Ancaq onların sözləri var. Heç kimə bənzəməyən sözləri.

***A şairlər, inciməyin siz Allah,***
***Biz də adımızı yazan qoymuşuq -***
***Fikir yozan, misra yozan, söz yozan,***
***Füzulidə söz Allahdı, söz Allah.***

***Sərkərdələr -***
***Füzulilər dayanarmış hündür yerdə.***
***Biz zamana əsgər olduq səngərlərdə.***
***Ömür bitdi, boşa keçdi süngülər də -***
***Biz də... adımızı yazan qoymuşuq...***

Şeirin əvvəlində sərlövhə əvəzinə "üç ulduz" qoyulub. Epiqraf yerində "Füzuli zirvəsi"ndən" yazılıb.

İsa İsmayılzadə "Füzuli Allahdı" demir. Füzulinin sözü Allahdı da demir. Amma Füzulidə söz Allahdı deyir. Bu ikicə kəlmə ilə Füzuli əzəmətini, Füzuli qüdrətini yarada bilir.

İsa İsmayılzadə ideologiya şairi ola bilmədi. Çünki onun idealı "söz Allahdı" prinsipindən doğulmuşdu. Dünyanın hər üzünü görən İsa İsmayılzadənin sözü də hər kəlməsindən sonra bitkin olsa belə, yenə ömrü kimi yarımçıq görünür. Onun sözdən qurduğu saray əzəmətlidir, qüdrətlidir, özünəməxsus poetik zirvədir. Bu saray özülünə qədər möhkəm, tağları da nə qədər əzəmətli olsa belə, şair yenə nigarandır.

...Və burda bir məqamı da görürəm. İsa İsmayılzadənin yaratdığı, sözdən yapdığı o saray elə Vətənin özüdür. Onun nigarançılığı da Vətən sarıdandır.

1980-ci ildə qələmə aldığı "Dağların başında duman görürəm", "Tarixdən səslər" silsiləsindən olan şeirindən son misralara diqqət edək:

***Ürəyim sıxılır, sıxılır, Vətən!..***
***Gözümün önünə Cavidan gəlir,***
***Babəki görürəm - qeyrət içində.***
***Mən səni görürəm... gözləri yaşlı...***
***Baxırsan düşmənə heyrət içində,***
***Vahimə içində,***
***nifrət içində.***

***Bağışla, balaca oğlunam, Vətən...***
***Əlimdən nə gəlir...***
***Bağışla, onda***
***Nə qılınc qurşadım,***
***nə nizə atdım,***
***Nə köhlən üstündə yəhərə yatdım -***
***Vuruşa bilmədim sənin yolunda...***

İsa İsmayılzadənin ayrı-ayrı silsilələri təmsil edən şeirləri onun daxili dünyasında hələ açılmamış nə qədər səhifələrin olduğundan xəbər verir. Şairin qəlbində həmişə təlatümlər olub. O, həmişə düşünüb ki, ayrı-ayrı silsilələr üçün nəzərdə tutulan şeirlər həmin silsilələrin proloqudur. Və onun gümanı olub ki, bu çoxlu silsilələrin hamısını o, nə vaxtsa tamamlayacaq. Həyatın əlində, gündəlik qayğıların əlində, girov olan canını tale ona güzəştə getmədi.

Hər baharda tumurcuqlayan, qönçə tutan budaqların yaşıl yarpaqları, çiçəklərilə ruhumuza qonaq gələcək İsa İsmayılzadə. Gələcək və heç vaxt getməyəcək. Yeni gələn nəsillər onu həmişə təzə nəfəs kimi, təmiz hava kimi udacaq. Yeni nəsillərin çiçəyində, yarpağında, baharında, bəhərində İsa İsmayılzadənin də payı var. İndi daha tənha deyiləm. İndi daha qəlbimi tənhalıq sıxmır. Bircə cümlə ilə deyilən fikri bütün aydınlığı ilə duyan, hələ yenicə ömürdən qanad istədiyim illərdə özünün ruhu ilə mənə qanad vermək istəyən və qısaca, bircə görüşlə o qanadı əsirgəməyən İsa İsmayılzadənin parlaq, aydın görünən obrazı mənim yanımdadırsa, mənim qəlbimdədirsə, demək, tənha deyiləm, demək, doğmalarımın yanındayam. İndi bizdən uzaq Qarayazıdan özü ilə birgə gətirdiyi Qara Yazını süd kimi bizə içirdi.

Dilimizm, mənəvi tariximizin südü kimi.

***Əli Rza XƏLƏFLİ***

# ◆ P o e z i y a



***Göyərçin KƏRİMİ***

## QAR GƏLİR

Səmanın yaxası açılıb yenə,
Göydən çiçək-çiçək təzə qar gəlir.
Dünyaya ağ şəfəq saçılıb yenə,
Torpağı salama düz ilqar gəlir...

Çiçəklər əlimi üşüdür, niyə?
Üşümək qəlbimin işidir, niyə?
Qar da məqamında isidir, niyə?
Sanki bəyaz donlu bir bahar gəlir.

Qarı təbiətin varı bilmişəm,
Ömrümü hicranla yarı bölmüşəm,
Yarımı göylərdə qoyub gəlmişəm,
Qoy qardan soruşum, görüm, yar gəlir?

## GÖYƏRÇİN

Göyərçin, zavallı quş,
Həyat məğlub etdiyi
kimsələri unutmuş.
Savaş üçün qaşınır
zülmün müdhiş əlləri.
Dünya sülhsevərləri
məsləkdə sənə borclu.
Xəyanətdən oruclu,
Ədalətdir ip ucu-
Zamanın sonu gələ,
haqqın əyilmiş beli
bəlkə, o vaxt düzələ...
Qiyamətdən düzə nə?

Göyərçin, vəfalı quş,
Ata-baba yurdundan
Səni yadlar uçurmuş...
Yuvasından qovulmuş
Hər kəs bizim ellidir.
Xocalıdan keçmisən,
Ayağından bəllidir.
Baxışın elə yorğun,
Duruşun elə məğrur...
Sanki bəyaz bir yumaq
ağacda bardaş qurub.
Üst-başına qar yağıb,
Gəl, könlümdə yuva qur.

## ZƏMİNXARƏ

Tuğdan bəd xəbər almışam,
Qarqardan solğun mənzərə.
Qoşqara həsrət qalmışam,
Dərin imiş Arpa dərə,
Zəminxarə...

Çiçək valsı çaldırmıram,
Toylarda qol qaldırmıram,
Kuzəmə mey doldurmuram,
Göz yaşlarım axar yerə,
Zəminxarə...

Zağaaltı, Ağcayazı...
Qara geysin belə yazı.
Ağoğlanın ümid qızı,
Qarıyıb, getməyib ərə,
Zəminxarə...

Hanı Şuşa, hanı Laçın?
Daş da göynər Vətən üçün.
Ağlayıram için-için,
Ağlamıram yadlar görə,
Zəminxarə...

Cıdır düzü - Govurqala,
... Şeytanbazar, Ballıqaya,
Çətin bizi bağışlaya,
Çətin xeyir-dua verə
Zəminxarə.

## YANVAR

İlin zaman başlığı soyuğuyla öyünür,
Rüzgarlar üşüdür günahı.
Daxmalar şüppük uclu qarğıların

cil üstü salğarı,
qovaqlar oyuğu ilə öyünür,
Quşların ümid yeridir, axı...
Hər tərəf yanvardır;
buludlar köhnə arzulara ağlayır,
kölgələr vicdanın şübhəsinə.
Başqa yol yoxdur,
borcun tələb etdiyi işi görməliyəm.
Əvəl-əvvəl xəstə şəhərin ürəyində
tonqallar qalamışdılar,
Sonra tırtıllı təkərlərlə üstündən
adlamışdılar.
İnsanlar ulamışdılar...
Əllər, ayaqlar, burunlar,
dodaqlar... başlar - hərəsi bir tərəfdə
qana bulaşmışdılar.
O vaxtdan ayları rənginə görə tanıyıram,
Hər gülün də öz ayı dəbdədir.
Nə qədər qar yağa,
Yer üzü, Göy üzü ağara,
Yanvar qərənfil rəngdədir.

## ÖZÜMÜ TƏBRİK

Baharın ürəyindən sevgi oğurlayan qız,
doğum günün mübarək!
Ömür yoluna baxıb başını tovlayan qız,
Hədiyyən iki çiçək, iki xoş sözdür, amma
həyat gözəldir, gərək
səadət toplayasan göylərdən ətək-ətək.
Qayalara çırpılıb sel kimi çağlayan qız,
ayın, ilin mübarək!
Könlünə dəyən olsa, saçı qucaqlayan qız,
fikrinin ulduzları göylərə naxış vurur,
həsrətinin dalğası sahilə qan uddurur,
bir az eşq, bir az qürur ürəyə oyun qurur,
ayrılıqlar ayırmır, əzab bəxş edir, amma
dünya gəldi-gedərdir...
Gənclik xatiratını bir dəftərə yığan qız,
vərəqlər arasında gül qurudub saxlayan,
taleyin istisinə, soyuğuna baxmayan,
kainata sığmayıb, bir zərrəyə sığan qız,
olum günün mübarək!
Təbiət öz sirrini hamımızdan gizləyir,
sevgidən sancmır gülə arılar iynəsini.
Vaxt gələcək ruhunu didişdirib durnalar
torpaqdan daşıyacaq,
Köç dövrü başlayacaq.
Bilmirəm, niyəsini,
amma batmazdan əvvəl
Günəş səni dağların arxasında gözləyir.

## DİNC SABAHI NƏ?

Həyat üzə gülsün, ya üz çevirsin,
Bilməzsən aşiqin gizli ahı nə?
Kim kimə istəyir könlünü versin,
Arada güllərin bəs günahı nə?

Sevir, sevmir deyə çiçəyi yolur,
Ləçək yağışıyla gözləri dolur,
Bir sübhün eşqinə min gecə solur,
Min yorğun gecənin dinc sabahı nə?

Başını qaldırmır torpaqdan ağac,
Üst qatı sevgidir, altı ehtiyac.
Sadə ol, müdrik ol, tapmazsan əlac,
Sevgi aləmində dəli, dahi nə?

Dilbər guşəsində yadlar gəzirsə,
Həsrət pillə-pillə ruhu əzirsə,
Tikanı, daşı da bizə əzizsə,
Vətənin yaylası, düzəngahı nə?

Hamının özünə qarışıb başı,
Məzhəb oyununda din dinə qarşı,
Ay aya qarşıdır, gün günə qarşı,
İki zidd dünyanın bir Allahı nə?

## ÖLƏCƏYƏM

Mən səni yenə sevəcəyəm,
Hotelin vestibülündə həyəcandan
çətirin millərini sayan müsafir qız kimi
dəqiqələri izləyəcək,
liftin aşağı enməsini gözləyəcəyəm.
Gələcəksən,
Ətrin saçlarımı sığallayacaq,
Utancaq görkəmin baxışlarını
aşağı sallayacaq.
Yenidən "Salam!" deyəcəyəm,
ayrıldığım isti rüzgarlara.
Yaylıq xatirələrin nağıl uclarında
köçəcəyəm uzaqlara.
Dibçəkdə gözləri yol çəkən gəncliyimin
yaşıllığını içəcəyəm,
Pəncərədən boylanıb küçəni adlaycaq,
Düşüncəmin şəklini çəkdiyin divarın
o biri üzünə keçəcəyəm.
Ayrılıq ağacının günah budağını
boynuma keçirəcəyəm
və hər an nəfəsimin kəsiləcəyini
bilə-bilə, gecəni səninlə böləcəyəm.
Tərk edilmiş gözlərinin
qaranlıq bir küncünə çəkilib
öləcəyəm...



*Nuranə NUR*

## AĞLINA GƏLMƏYƏN YERDƏ

Çox canlar yaxmışdın,
Sənin canını da yaxan oldu, canım...
Əvəzində,
Tac elədin onu qürurlu başına,
Soyundun qarşısında
Ömür boyu soyunmaqdan utandığın
İki kəlməlik
o ən uzun cümləni.
Çox canlar yaxmışdın,
Sənin canını da yaxan oldu, canım...
Əvəzində,
Gündüzlərindən Gün,
Gecələrindən Ay,
Ruhundan can,
Ciyərindən nəfəs,
Ümüdsüzlüyündən ümüd,
imkansızlığından imkan ayırdın ,
ona bağışlamağa .
Həyatlandın səsinin qucağında,
Günəşləndin kölgəsində.
Çox canlar yaxmışdın ,canım,
İndi səni odlayan bu közdən,
bircə ovuc əksilərsə,
Ciyərlərimə batar bu küt nəfəs,
Gülməz uzumə aynalar,
Gülməz bir də...
Mümkün olsa gizlədərdim bu dünyanı,
Ağlına gəlməyən yerdə.

## SONRALAR ...

Yaşanmış bir ömür,
işlənmiş bir əşyanın qutusu kimi.

Gedilmiş yol,
izləri süpürülmüş küçələr,
Adiləşir, bütün qəribələr.
İlk dəfə məni görəndə,
roman oxuyarkən, qəflətən,
diqqətini aparan xəyal kimi,
maraqlandırmışdım səni.
İtirmişdin özünü,
Belə deyirdin ,sonralar...
Bir elan da vermişdin -
"Məni tapana mükafatım var."
Nə? ...bilmirdim.
Bilə bilməzdim,
O, mən ola bilməzdim,
tutduğu balığı
dənizə bağışlayacaq ...
Nuhun gəmisində də yer qalmamışdı bizə.
Sonralar...
heç bir romanda,
rast gəlmədim özümüzə.
Unutduğum qədər xatırladım səni sonralar...

## HƏYAT

Yordum səni, HƏYAT,
Üz çevirsən də məndən,
düz gözlərinin içinə baxıram...
Gözlərinin dilini yaxşı bilirəm.
Rahat olsun başqasına verəcəyin könlün,
Bir öpüş də almağa qıymadım,
Başqasını sevərsən deyə...

## UNUT GETSİN !

Daha mən o mən deyiləm,
Sənin də həsrətin bitsin .
Daha nəyinə lazımam?
Əgər xatırlayırsansa,
Unut getsin!

Nazik saxladım, ürəyim soyuqladı,
Sonra bilmədim heç nə geydiyini.
Ömrüm boyu "unutmaram" dediyini,
Əgər xatırlayırsansa,
Unut getsin !

Qoyub gəldiyim izə qayıdımmı?
O demədiyim sözə qayıdımmı?
Ürəyim də gəlmir, yolundan etsin,
Əgər xatırlayırsansa,
Unut getsin!

Əlini üzəndən üzü bu yana,
Eləcə durmuşam , durduğum yerdə.
Yerim yaddaşından , itib, qoy itsin,
Əgər xatırlayırsansa,
Unut getsin!

Körpələr yuxuda böyüyər , sən de ,
Könlünə yatanı belə , böyütsün.
Gözləmə ta hamı unudanacan,
Əgər xatırlayırsansa,
Unut, getsin!

## YOL VER

Misralar neyləsin,
Qafiyə tapmıram sənə gəlməyə.
Sözlər nə bilsin,
Yenisini axtarıram sənə deməyə.
Yollar nə bilsin,
Yenisini axtarıram ölçülməyən, gedilməyən,
Xətrimə dəyən küləklər,
Otların yaşıllığını diz çökdürüb,
Havanı əyən küləklər.
Havanın ayağı üzülür yerdən.
Ömrünü Günəşə bağışlayan günlərə
and olsun !
Bəlkə, min dəfə, min yol axtarmısan
O anı qucaqlamağa,
Qucağını tapmamısan.
Qolların axtarır səni,
Öz boynuna dolanmağa
Səni yola bağışladım,
Çəkil yolumun üstündən,
Yol ver sənə yollanmağa.

## ƏSLİNDƏ

Kimsə kimsəni tərk etməz əslində,
Yalqızlıq zamanın işidir.
Şairlərin paylaşa bilmədiyi bəd duası,
Hər gün yanından keçib getdiyin,
quş yuvasını bu gün görməkdi.
Boy atdı yenə sözlər,
yaşanmamış sevgilərə yazılan şeirlər kimi…
Boyatdı yenə sevgilər,
ulduzları baxışlarınla söndürürmüş kimi…
Bir çılpaq fəsildə düşmək zamanın ayaqlarına ,
Yalvarmaq, yalvarmaq,
Mümkünsə, düm ağ geyinənə kimi…
Yalqızlığını basıb bağrına
Bu şəhərin ən qaranlıq küçəsində belə,
gizlənə bilməmək səhərə kimi…

Üst başından təmizləmək sevgiləri,
Üstündə bir ümüd də cücərməyən,
Gələcəyə könül vermək, can verənə kimi…

## ƏMİM FÜZULİNİN XATİRƏSİNƏ

Bir də Günəşi görməyə imkanın olmayacaq, yəqin,
Bəlkə də Günəşi görməkdən başlayardı
Yenidən dünyaya qayıtmaq,
Sevdiklərini görmək istəyin.
Arzularını udmuşdun, ondan idi köksünün ağrısı.
Əsmər bir ayrılıq sevdirirdi özünü,
Yaman inandın, o ağzı torpağa.
Əyninə biçilmiş ömürü daraltmışdı,
Qoymurdu daha qorxduğundan qorxmağa.
Alın tərini, əcəl tərinə qatırdı əzizləyə-əzizləyə
Vergül qoyurdu, alnındakı yazıya...
Apardı,arxasıyca qırdı göyləri saxlayan ipləri,
Heç olmasa aldatmayaydı,
Çatan kimi atmayaydı qara yerin qucağına,
Biri var imiş, biri yox imiş kimi...

## DARIXMAQ KİMİ

Darıxmaq kimidir hər şey,
Günüm də mənim günümdə
Bu gün deyə bilməmişəm,
Adın islanıb dilimdə.

## FOTO

Nə vardi gözlərindən gələcəyi oxumağa,
keçmişini xatırlatmasaydı.
Həyatıma yaxın durmasaydı,
nəsə uydurmasaydı...
özündən gizlənməsəydi, bu baxışlar.
Düşüncələr qucağından qoymur yerə,
bu dəcəl uşağı.
Qoysa yoxuşlara yuvarlanar.
Xəstələnib sakit durunca dəcəl uşaqlar,
Anaları yalvararlar Allaha,
Tez sağalıb, dağıtsın ev eşiyi.
Ən sevdikləri, qoruduqları əşyaları verərlər əllərinə.
Bax, elə vermişəm könlümü bu adama
Bircə mən bilirəm,
Ən yaxşı fotosu ömür boyu çəkdikləridi bu adamın.

## İŞARƏ

Barmağına bir işarə qoy,
Unutmaq üçün...
Ayağına küçələri dola,

Qaçmaq üçün...
Dərin bir nəfəs al,
Boğulmaq üçün...
Vəssalam.

## BU GECƏYƏ

Bu gecənin qaranlığı,
Qaranlıq qalırdı mənə.
Oydum gözlərini,
Yırtdım ulduzlayan bətnini,
Odlayıb söndürdüm ayazını...
Bu gecənin hər misrası,
Nağıl rəngdə kabus imiş.
Süfrə açdım göy üzünə,
Buludlar iştaha gəldi,
Yuxuların qarnı toxdu.
Axtardım səhərə qədər,
Bu gecənin
Cini var, lampası yoxdu.

## GETMƏK

Getmək…
Arxanca baxacaq bir cüt
sevdiyin gözün olduğunu bilə-bilə
rəsmlərinlə,
sözlərinlə,
gözlərinlə,
xatırlanacağını bilə-bilə
getmək…
Ayrı-ayrı ürəklərdə eyni kədəri bölmək,
Ayrı- ayrı kəlmələrlə eyni sözu eşitmək
və getmək…
kəpənək ömrü ilə kifayətlənmək
yaşanacaq çox şeyin olduğunu bilə-bilə
tərk etmək
və getmək…
hələ doğulmayanlarla,
hələ ölməyənlərin
heç birinin həyatda olmadıqlarını
dərk etmək
və getmək…

*Elnarə AKİMOVA*



# MÜASİR POEZİYADA ÇÖKÜŞ FƏLSƏFƏSİ

Müstəqillik dövrünün poeziyası daha çox minor motivlər üstə köklənən, insanın mənəvi-ruhsal tənəzzülünü sərgiləyən ovqat şeirləri ilə xarakterizə olunur. Bunu təbii ki, həmin dönəmin özünün mürəkkəb mahiyyəti, kəskin çaları ilə əlaqələndirmək lazımdır. Zaman və onunla bağlı ideyaların deqradasiyaya uğraması cəmiyyətdə son problematikasını labüdləşdirir, şəxsiyyətin iflasına, onun içindəki çöküş fəlsəfəsinin yaranmasına rəvac vermiş olur. Amma nəzərə almaq lazımdır ki, həmin çöküş fəlsəfəsi milli poeziyada yalnız 90-cı illərin bəhrəsi olmayıb, özündə daha əvvəkli dönəmi qapsayır. Yəni, bu gün şair içinin, mənəvi dünyasının təkliyi, tənhalığından nəşət tapan çağdaş şeirimiz birmənalı təfsirə gəlmir, onun kökləri bir qədər dərinlərə işləyib var-varlığını bir neçə onillik əvvəldə, sovet ədəbiyyatı daxilində yaranmağa cəsarət etmiş dekadans ovqatlı poeziya mətnlərində tapır.

Dekadans ruhun çöküşüdür, insanın həyat, dünya, bəşər rifahı, xoş gələcəklə bağlı ideyalarının "xəyali-inkisarə" uğraması, insanın içində yaranan "son" problematikasıdır. İlk dəfə XIX əsrin axırlarında Fransada meydana çıxan dekadentizm cərəyanı simvolizm, surrealizm, kubizm kimi cərəyanları özündə ehtiva edir. Rus tənqidçisi V.V.Stasov "Şeir aləminin sərgisindən" adlı məqaləsində dekadentizmin ilk dəfə Fransada yaranması və fərqləndirici cəhətlərinə dair yazır: "Dekadentlər fransız səmiyyətinin müasir durumuna müxalif olanlardır. Onların poeziyasının xarakterik xüsusiyyəti - aydın olmamaq, qeyri-müəyyənlik, yalnız ürəyin hərəkətinə və həssaslığına aid olan sirli suallara can atma nəticəsində yaranan mistisizmdir" (V.Stasov. S parnasskoy vıstavki. "Novosti", 23 iyun 1898). Dekandentlərin 1885-ci ildə "Le Dekadent" adlanan ilk jurnalları çap olunur. Zamanında heç də hamı tərəfindən qəbul olunmayan dekadentizm imperializm dövrünün mürtəce cərəyanı kimi inkar olunmuşdur. Əziz Mirəhmədov "Ədəbiyyatşünaslıq terminləri lüğəti" kitabında dekadentizmi belə xarakterizə edir: "Əksər hallarda ictimai həyatdan uzaq, xalq mənafeyinə xidmət etmək istəməyən sənətin təbliği, mövhumat və xürafat, dünyanı təbiət xaricindəki qüvvələrin idarə etməsi haqqında cəfəngiyyata inam, ifrat fərdiyyətçilik, sadə əmək adamlarına nifrət, "incə" hisslərlə əylənmək, ölümü, pozğunluğu və əxlaqsızlığı tərənnüm etmək, zahiri gözəlliyə və bədii formaların ala-bəzək olmasına çalışmaq və s. cəhətlər dekadentlərin başlıca xüsusiyyətləridir." (Ədəbiyyatşünaslıq terminləri lüğəti (tərtib edəni Ə.M.Mirəhmədov). Bakı, "Maarif", 1988, səh. 62) Qərb ədəbiyyatının özündə belə dekadentizmi təxminən elə bu ittihamlarla inkar edirdilər. Bu cərəyanın ənənələri qırmaq zərurətindən doğan yenilikçi meyllərini "zahiri gözəlliyə və bədii formaların ala-bəzək olmasına çalışmaq", dünyadan təcrid olub içinə çöküşünü, şəxsi "mən"indən

çıxış etməsini "ifrat fərdiyyətçilik", real təsvirdən uzaqlaşıb İlahi Məqama canatımını "mövhumat və xürafat, dünyanı təbiət xaricindəki qüvvələrin idarə etməsi haqqında cəfəngiyyata inam" kimi səciyyələndirmişlər. Lakin zamanla özünə qarşı maraq doğuran və intişar tapmağa başlayan bu cərəyanın nümayəndələri artıq qəbul olunmağa başlamışlar. Rus ədəbiyyatşünası Roman Dubrovkin "Lev Tolstoy, Mallarme və "zamanın xəstəliyi" adlı kitabında qeyd edir ki, "Yaradıcılığının müəyyən mərhələsində dekadentləri inkar edən, "dekadentizm tam dəlilikdir" deyən L.Tolstoy məlum olmayan səbəblərdən sonradan simvolist ədəbiyyatın aktiv oxucularından olmuş, etiraf etmişdir ki, "dekadentlərə daha çox diqqət ayırmaq lazımdır, necə ki, bunu edirlər, çünki dekadentlik özünə qarşı ciddi münasibətə layiq olan zamanın xəstəliyidir." (Roman Dubrovkin . Lev Tolstoy, Mallarme i "bolezn vremeni". (http://www.persee.fr/web/revues/home/prescript/article/slave_0080-2557_1999_num_71_2_6599 <http://www.persee.fr/web/revues/home/prescript/article/slave_0080-2557_1999_num_71_2_6599>)

Birinci dünya müharibəsindən sonra insanların bəşəriyyətin gələcəyi ilə bağlı ümidlərində bir boşluq yarandı, heç bir texnoloji inkişaf onları ruhlandırmadı. Bu bütün Qərbdə özünü göstərən hərəkatın göstəriciləri idi. XX əsr kifayət qədər dünya proseslərinə açıq olan bir zaman kəsimi idi və dövrün aydınları potensial olaraq belə bir qarşılıqlı bəhrələnməyə hazır insanlar idilər. "Bu dövrü ən çox "Qərb yönlü Azərbaycan ədəbiyyatı" adı ilə öyrənmək praktikası yayılıb. Termini dürüst hesab etməsəm də (məgər Qərbyönlü - Şərqyönlü Azərbaycan ədəbiyyatımı var, yoxsa vahid bir milli ədəbiyyat", milli ədəbiyyatın inkişaf əhatəsini çevrələyir və istər-istəməz, Azərbaycan ədəbiyyatının son əsrlərini, məhz Qərb ədəbiyyatları ilə müqayisədə öyrənmək təcrübəsini irəli gətirir." (Tehran Əlişanoğlu. "Tənqid.net" jurnalı, 2013, N-9, s. 71) Qərb ədəbiyyatında XIX əsrin sonu XX əsrin əvvəllərində başlanan modernizə cəhdlərinin Şərq ədəbiyyatlarına, konkret isə milli ədəbiyyatımıza təsiri ədəbiyyatın özünün inkişaf qanunauyğunluğundan, məntiqi gedişindən doğurdu. Heç vəchlə razılaşmamaq olmur, ədəbiyyatşünas T.Əlişanoğlu Əlibəy Hüseynzadənin 1905-ci ildə yazdığı "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" məqaləsini "Dekadent olmadığımız və olamadığımız halda məqaləmizin sərlövhəsi dekadentizm qaydasında oldu" fikrinə görə "bizdə Avropa modernizmi hadisəsinə nəzəri olaraq diqqət cəlb etmiş ilk yazı" hesab edir. ( Tehran Əlişanoğlu. Tənqid.net jurnalı, 2013, N-9, s.72) Burada dəqiq olan həm də Ə.Hüseynzadənin fikridir: "Dekadent olmadığımız və olamadığımız halda...". Həmin dövrdə fəaliyyət göstərən sənətkarlar dekadent deyildilər, daha çox realist-romantik ədəbiyyatın nümunələrini yaradırdılar, modernist cərəyanlara meyl eləcə stixiyalı şəkildə, dəb, maraq səviyyə-səciyyəsində təsdiqini tapırdı. Amma o xüsusda ki, müəllif yazısının sərlövhəsinin "dekadent qaydasında olmasına" diqqət çəkir, bu da səbəbsiz deyil. Romantik-realist ədəbiyyatın getdikcə "doyğunluq"u (T.Əlişanoğlu), eyni zamanda romantizmin puç olmuş, fiaskoya uğramış sonucları milli ədəbiyyatda belə bir durumun, "dekadent olmanın" yetişməsi üçün zəmin yaradırdı. "Fəlsəfi mənada dekadans ideoloji həmlələrin hədəfi olmaqdan çox, milli romantik-realist ədəbiyyatın tükənməsi, ədəbiyyatda XX əsr tempinin, ölçülərinin axtarılması meylləri ilə bağlı idi." (Tehran Əlişanoğlu. Tənqid.net jurnalı, 2013, N-9, s.73)

Bu, bütün dünya ədəbiyyatında belədir. Sənətkarın insan, dünya və zamanla bağlı idealları heçliyə yuvarlananda onun adı çəkilən fiqurlarla yeni dialoqu başlayır. Amma bu proses heç də birbaşa, sənətkar içinin asan "çevrilişi" hesabına başa gəlmir. Romantik ideralların çöküşü ardınca ruhun tənhalığını, son problematikasını, dekadans durumunu gətirmiş olur. XX əsrin əvvəllərində H. Cavid, C.Cabbarlı, M.Hadi, M.Müşfiq, Ə.Cavad şeirlərindəki bədbin çalarlar həmin dekadansın əlamətləri idi. Zaman imkan versəydi, bu dekadansın ardınca modernist cərəyanların prosesə yeriyəcəyi şübhəsiz idi. Sovet ideologiyasının bərqərar olması isə başlanan prosesləri yarıda qoydu və bildiyimiz kimi, yalnız bir cərəyanın - sosialist realizmin intişarına imkan yaratdı.

1970-ci illərdən poeziyada başlanan yeni dalğanın - ədəbi cərəyanların prosesə yeriməsi həmin yarıda qalmış, qırılmış missiyanın davamı olmaqla bərabər, əslində həm də onun bir növ təkrarı idi. Həmin sosialist realizmin insana, sənətkara vəd etdiyi işıqlı həyat, işıqlı gələcək sevdası özünü doğrultmadıqca özü ilə böhran həddini yetirmiş olurdu. Sovet ədəbiyyatının pomantik arzulara doğru qanadlanan sənətkarı hər şeyin “hepsi rəng” olduğunun fərqinə varır və onun özü ilə mənəvi dünyası arasında uçurum, böhran zolağı yaranmış olurdu. 1970-ci illərdən başlayaraq milli poeziyanın dekadans durumunu yaşaması onun belə bir böhran zolağına düşməsinin əyani göstəricisi idi.

Əslində, XX əsrin əvvəllərində öz yaradıcılıq imkanlarını tükətmiş realizm və romantizm cərəyanlarının ardınca modernist cərəyanların yetişəcəyi gözlənilirdi. Lakin sovet ideologiyasının başlıca cərəyanı olan sosialist realizmin sənətə tətbiqi bu prosesi dayandırdı. Ədəbiyyat işıqlı gələcəklə bağlı arzular və ümidlər ardınca qoşmağa, sənəti ideolojiyə tabe tutmağa başladı. Sovet insanının dünyanın ən xoşbəxt insanı olması, sovet cəmiyyətinin isə cənnətməkan olması ilə bağlı illüziyalar həqiqətlər sırası qismində cəmiyyətin bütün sferalarına ötürülürdü. O şəkildə ki, sovet dövrü Azərbaycan ədəbiyyatında “ələmdən nəşəyə” deyə bəyan edib, gələcək inkişafın manifestini cızır və gələcək inkişafı bu nüansa kökləmək missiyasını qarşıya qoyurdular - tarix sübut etdi ki, bu, heç də səmərəli nəticə vermir. Bəlkə, ən əvvəl ona görə ki, süni pafos və gülüşdən doğmuşdu, sənətkar içinin cəmiyyət həyatı, gerçəkləri önündə fiaskoya uğraması, ziddiyyət təşkil eləməsi ilə təbiiliyini itirirdi.

Nəhayət, 1960-cı illərdən başlayaraq sənət öz gerçəkləri ilə qabaq-qənşər durdu. Ədəbiyyat, sənət içinə yönəldi, içinin, ruhunun başlanğıc götürdüyü məqamları bədiiyyata gətirməyə başladı və bu məqamdan onun mahiyyəti göründü. Yalnız bu zaman, ədəbiyyatın öz stixiyasına dönüşündən sonra gerçək zamanla, gerçək dünya ilə oxucunu üzbəsurət qoya bildi. Bu mənada, belə bir fikirlə razılaşmamaq olmur ki, “...bu gün milli mədəniyyətin real dirçəlişini heç də tarixi tərəqqi ideyalarının təntənəsinə bağlamaq olmaz, bəlkə də əksinədir: dekadans durumu milli varlıq fəlsəfəsi üzərində daha da dərindən düşünməyə sövq edir, milli mədəniyyətin gəlişməsinə stimul olur.” (Nigar Rüstəmova. “Milli mədəniyyətin bugünü: tərəqqi, yoxsa dekadans (bəzi ideyalara səyahət)”. "Tənqid.net" jurnalı, Bakı, N-4, 2007, s.105)

Azərbaycan ədəbiyyatının 1960-cı illərində qabarmağa başlayan yeni dalğası öz bədiilik meyarlarına mühafizəkarlığı ilə diqqət çəkir. Sovet dövrü epoxası daxilində 60-cı illər ədəbiyyatının əlahiddə əhəmiyyət kəsb etməsi ilk növbədə, sənətin pafosdan real həqiqətə, sırf bədii-estetik meyarlara dönüşü, ümumbəşəri dəyərlərə doğru meyllənməsi ilə şərtlənir. 60-cı illər ədəbiyyatında başlanan bu təbəddülatlar həm də cəmiyyət miqyasında olan yumşalmanın nəticəsi idi. Qəribə bir paradoksallıq da məhz, bu zaman(dan) başlayır. Rejimin sərtliyi nisbətən, yumşalmağa doğru getdikcə, ədəbiyyatın içindəki ağrı simvolikası, ruhun təklik, tənhalıq çalarları daha çox üzə çıxır. Bu bəlkə də əsrin 20-30-cu illərində yarımçıq qalmış, yarıda qırılmış ədəbiyyat, azadlıq ideallarının içinə hopmuş kədəri idi, yaxud 1937-ci ildə qırğına verilmiş bütöv bir ədəbi nəslin səssiz fəryadı idi - indi, zamanı gəldikcə boy verməyə başlayırdı. Həmin xaotik durumun rəvac verdiyi neqativlər sonucda ən böyük zərbəni insana vurdu, onunla zamanın, mənəvi-əxlaqi dəyərlərin sabitliyi arasındakı əlaqənin pozulmasına gətirib çıxardı: qlobal tənhalıq insanın özgələşməsini, özündən ayrılmasını, yadlaşmasını şərtləndirmiş oldu. Bu mənada, sovet rejiminin İnsanı yalnız müharibələrin əzdiyi insan deyildi, o, həm də tək qalmış, təcrid olunmuş, cəmiyyət tərəfindən təbii bir proseslə uzaqlaşmış, yadlaşmış çarəsiz insan idi. Həmin dönəmin mahiyyəti, onun yaddaş strukturunda yer almış görüntüləri ilə çağın insanının düşüncəsi arasında dialoq bədii təfəkkürə yansımaya bilmədi. Bədii düşüncə yeni təfəkkür modelləri axtarışında fərqli fəaliyyət sferasına daxil oldu. Qərbdə bu sosial anomaliya ilə ekzistensialist fəlsəfə məşğul olurkən, postsovet məkanı ölkələrinin dünya ilə, insanla yeni münasibətlər sistemi yaratmağa çalışan fəlsəfi-estetik fikrində

sərt realistik boyalar üstünlük qazanmağa başladı. Bu mənada, 60-cı illərdən başlayaraq, dünya ədəbiyyatının yükləndiyi İnsan ağrısının ədəbiyyatın mərkəzinə çəkilməsi yalnız rejimin yumşalması səbəbindən hasilə gəlməmişdi, həm də puç olmuş, bada getmiş xəyalların yazıçı psixolojisində yaratdığı məntiqi nəticədən qaynaqlanmışdı. Ələmdən nəşəyə doğru yön almış sənət trayektoriyası yenidən əksinə, nəşədən ələmə doğru meyllənməyə başlayırdı. Təbii ki, hələ o qədər də açıq-aydın yox, bir qədər gizli işarələr, mifik-mistik kodlarla. Belə bir durum (dekadans) yalnız ədəbiyyat sahəsi üçün deyil, ümumən mədəniyyətin bütün sferaları üçün səciyyəvi idi. Rəssamlıqda Səttar Bəhlulzadənin rəsmlərində (məsələn, "Kəpəzin göz yaşları" tablosu) ehtiva olunan altqatlığı, rənglərin bətninə çökən, daxilinə hopdurulan dərinlik ideyaları, ağrı simvolikasını virtual olaraq hiss eləmək çətin olmurdu. Musiqidə Qara Qarayevin çoxqatlı musiqisi - "Üçüncü simfoniya", "Skripka ilə orkestr üçün konsert"də "gur, çılğın, əsəbi notlar arxasından axıb-gələn dərin bəşəri kədərin səsi aydın eşidilir"di. (Nigar Rüstəmova. "Milli mədəniyyətin bugünü: tərəqqi, yoxsa dekadans (bəzi ideyalara səyahət)". "Tənqid.net" jurnalı, Bakı, N-4, 2007, s. 110) Yaxud teatr sahəsində Vaqif İbrahimoğlunun yaratdığı "Yuğ" teatrının tamam özgə məzmun, mündəricə arayan, tamaşaçını yepyeni dünya ilə üzbəüz qoyan estetikası əslində, ənənəvi teatr baxışlarını dəyişməyə, yeniləşdirməyə yönəlmiş bir missiya idi və palimpsest olan (yəni, qat altından qat verən) fəaliyyətində bu missiyanı realizə edirdi.

Bu illərdə yaranmış əsərlər artıq cəmiyyət həyatına oppozisiyada meydana gəlirdi. Sənət artıq həqiqətlərin yaşamını verməyə, bədii qəhrəmanın mənəvi dünyasına varmağa çaba göstərirdi. Sovet dövrünün tələbləri tamam özgə hava-havacat üstə köklənsə də, 60-cı illərdə artıq sosial gerçəklərin təsviri əks qütbdə meydana çıxırdı. Bu toqquşma əsərlərin forma və məzmununda çoxqatlılığa gətirib çıxarırdı. Bu əsərlərdə bədii ideoloji rakurs öz yerini daha çox insanın və onun həyatının dərinliklərinə varan süjetlərə verir, bununla da sənətin neçə onillik ərzində qurama illüziyalar içrə aldanışı üzə çıxırdı. 70-ci illərdən başlayaraq bu aldanışın əzabları - ümidlərin gerçək yalanlar önündə fiaskosunun əlamətləri sızmağa başladı. Yaradıcılığın realist və romantik tipində meydana çıxan əsərlərin artıq insanın mənəvi dünyasının təfərrüatlı inikasında keçilmiş mərhələ olaraq sona vardığı məlum oldu. "(Təsadüfi deyil ki,) 1970-ci illərdən milli ədəbiyyat eyni zamanda dekadans durumunu yaşamağa başlayır. Mündəricə etibarilə bu, "sovet ədəbiyyatı"nın ömrünün süni-ideoloji vasitələrlə uzadılması, digər tərəfdən romantik-realist ədəbiyyatın təcrübəsinin "dolğunluğu", sona çatması şəraitində baş verir. Və postrealist təcrübə zəruri olur... O zamandan az qala əsrin sonunacan bizim ədəbiyyatda dekadans hökm sürür və bütövlükdə milli modernizmi gəlişdirə bilir." (T.Əlişanoğlu. Çağdaş Azərbaycan ədəbiyyatında modernizmin gəlişməsi. "Müqayisəli ədəbiyyatşünaslıq" I Beynəlxalq elmi konfransının materialları, B., 2004, səh. 30) Nəzərə alsaq ki, sovet cəmiyyətində başlanan durğunluq, eniş məqamı elə bu zamanlardan, 1970-80-ci illərdən başlayır, o zaman məsələnin mahiyyəti dekadans hadisəsinə yanaşmada hakim olan bir prinsipi təsdiq eləməyi labüdləşdirir; yəni, "cəmiyyətdə ikili standartlar mədəniyyətdə mənəvi böhran yetişdirir" (Nigar Rüstəmova. "Milli mədəniyyətin bugünü: tərəqqi, yoxsa dekadans (bəzi ideyalara səyahət)". "Tənqid.net" jurnalı, Bakı, N-4, 2007, s. 111). Mədəniyyət inkişaf, tərəqqi ilə bağlı ideyaların cəmiyyət gerçəkləri önündə fiaskoya uğradılmasını hiss etdikdə çöküş başlayır. Belə bir hal XX əsrin əvvəlləri üçün necə səciyyə daşıyırsa, əsrin sonucuna yaxın eyni aqibəti yaşamağa ürcah olur.

Poeziyada bu ovqat daha çox V.Səmədoğlu, R.Rövşən, V.B.Önərin yaradıcılığında intişar tapmışdır. "Əlli ilin toy-bayram poeziyasından sonra insanın mənəvi yaşantılarının o biri tayına baş vuran bu şairlər dünya poeziyasının həmişəyaşar ənənələri ruhunda kədərin kamilləşdirici, yüksəldici önəmini daha dəyərləndirirdilər." (Nizaməddin Mustafa. Şeytan qulluğundan Tanrı dərgahına. "Cahan" jurnalı, 1997, N-2, s. 52) Bu şairlərin şeirlərində başlıca hədəflər absurd

situasiyalar, insan təkliyi, mənəvi böhran təsvirləri olur. Həyat və ölüm, dünya və mən, təbiət və insan - bu dəfə artıq özgə problematika və mündəricədə poetik müstəviyə gətirilir. V.Səmədoğlunun şeirinə diqqət edək:

***Məzara bənzəyir yaxşı insan...***
***Məzar kimi***
***yaya, qışa dözümlü,***
***məzar kimi dinməz.***
***Gözə az-az görünür yaxşı adam,***
***ildə bir-iki kərə baş çəkilən***
***məzar kimi.***

“Şairin başlıca hədəfi həyatda absurd situasiyalardır; və heç təsadüfi deyil ki, uzun susqunluqdan sonra, 1980-ci illərdən başlayaraq bu məqam onun yaradıcılığında fəlsəfi rəng alır, poeziyamızda düşkünlük fəlsəfəsinin, əsl dekadansın başlandığına işarə olur.” (T.Əlişanoğlu. “Azərbaycan şeirinə rezüme” məqaləsi. Azərbaycan poeziyası əsrlər mərzində (XX-XXI əsrlər). 2006, s.16) 60-70-ci illərdən yaradıcılığa başlayan bu şairlərlə poeziyamızda başlanan yenilik, çevriliş əzmi başqa xarakter, məzmun almağa başladı. Deyək ki, R.Rzadan başlanan sərbəst şeirin təmsilçiləri İnsana marağı ədəbiyyatın mərkəzinə çəkməyə nail oldularsa, yaxud heca şeirinin nümayəndələri ilə poeziyanın klassik mövzu və formaları qorunub saxlandısa da, bu arada milli şeirimizdə tamam yeni xətt ayrıldı ki, onlardan özəl olaraq danışmağa imkan verdi. V.Səmədoğlu, R.Rövşən, V.BOdərin adı ilə səciyyələnən bu qol ümumən sovet şeirinin daxilində başlanan yeni bir təmayülün göstəricisi idi. “...tribun səciyyəli toplumsal-siyasi tematikadan imtina; inadkar, amma əksərən boşluqla sonuclanan Allah axtarıcılığı; taleyin biganəliyi və hətta amansızlığı; dünyanın faniliyi və insan ruhuna yabançılığı; tənhalıq və bundan doğan çözümsüz kədər; ölümü həyat, sevgini iztirab kimi yaşamaq və s. məsələlərin leytmotivə çevrilməsi; lirizmin epizmi maksimum üstələməsi; başlıca poetik qəhrəmanın toplumdan fərdə, bizdən mənə keçməsi...” (Əsəd Cahangir. Kim yatmış, kim oyaq. Bakı, “Yazıçı” nəşriyyatı, 2012, s.366), - bu şairlərin poeziyamızda açdıqları çığırın əlamətləri idilər:

***Batan***
***gəminin suya atılan***
***yükü kimi***
***kənara atıram ümidlərimi.***
***Ömrümün divarında***
***bu gün yenə kəndir dayanıb***
***qapı yerinə...***

Ümidlər tükənib, dünya ilə bağlar qırılmış kimidir, şair üçün qurtuluş görünmür. İşıq ucu düşməyə yeri - qapısı belə olmayan ömrün son məqamı intihar - kəndirdir. V.Səmədoğlunun lirik “mən”i dünya ilə dialoqa girməyə çaba belə göstərməyən, yorğun, mübarizəni sevməyən, qaranlığa alışqan qəhrəmandır. “Vaqif Səmədoğlunun poetik dünyası” adlanan tədqiqat əsərində tənqidçi-ədəbiyyatşünas İradə Musayeva haqlı sual (heyrət!) edir ki, “Sosializm quruculuğu illərinin qaynar təbiətli, qəhrəman obrazları sırasında bu cür qəhrəmanlar necə baş qaldıra bilib?” (İ.Musayeva. Vaqif Səmədoğlunun poetik dünyası. Bakı: “Elm”,1999, s.37). Məsələ bundadır ki, ədəbiyyatımızın 60-cı illərdə yetişən nəsli sovet dövrünün istismara məruz qalan yazar ordusunun içində boğulub qalan azaqlıq nidası kimi ərsəyə gəlmişdilər və içlərindəki yanğı, dərd, lirik-fəlsəfi düşüncə tərzinə görə klassik şairlərimizin, XX əsrin əvvəlində yazıb-yaradan sənətkarlarımızın varisi kimi çıxış edirdilər. V.Səmədoğlu şeirinin mayasında Nəsimi, Füzuli, Vaqif, Sabir lirikasından süzülüb gələn ifadə, deyim, dəst-xətt vardı və dünya ilə barışmazlıq, küskünlük motivləri sələfləri kimi onun

əsas yaradıcılıq istiqamətini təşkil edirdi. Təsadüfi deyil ki, tədqiqatçı İ.Musayeva da şairin sələfləri sırasında dayanan ünvanları təyin edərkən heç bir yanlışlığa yol vermir, kədər fəlsəfənin mənalandırılmasına gəlincə isə, onun ilk ruşeymlərini XX əsrin əvvəllərinə, xüsusilə H.Cavid yaradıcılığına bağlayır: "Ölüm gəlir, ömür, sonun mübarək!" - deyən Vaqif kədərinin fəlsəfi hikməti Cavid lirikasının fəlsəfiliyi ilə canki üst-üstə düşür. Yaradıcılığının ilk dövründən kədərlə qol-boyun olan hər iki şairin dünyaya baxışında, həyat fəlsəfəsində, "İnsan və dünya" konfliktinə münasibətdə ideya paralelləri və başqa bənzərliklər tapmaq olar. (İ.Musayeva. Vaqif Səmədoğlunun poetik dünyası. Bakı: "Elm", 1999, s.48)

***Ömrümün***
***çarpaz düyünlənən bağlamasında***
***beş-on yaxşı günümün***
***ucu çıxacaq bəlkə.***
***Ümidlərimi buza qoyun,***
***fəqir-füqəraya paylayın***
***arzularımı...***

Yeni epoxaya da bu şairlər yaradıcıqlarının məntiqi sonucu kimi üç müxtəlif kitabla daxil olmuşdular. V.Səmədoğlu "Mən burdayam, İlahi", V.B.Odər "Ən gülməli ölü" və R.Rövşən "Nəfəs" kitabları ilə. Bu kitablarda sürrealizm cərəyanının izləri gərəyincə aydın, amma müəyyən naturfəlsəfi çalarları ilə poetik mətnə gətirilir. Hər biri müəllifinin tənhalıq, kədər, Tanrı, ölümlə bağlı düşüncələrini dominanta çevirir. Simvolik qatda ifadəsini tapan mətləblər əslində, dekadans durumunun başlanğıcı kimi önəm daşıyır. Bəllidir ki, simvolizm dekadansın təzahürü, məhz modernist ədəbiyyatı gətirən ilk cərəyandır. Bu şeirlərdə qabarıqlaşan Tanrı başlanğıclı məqamların, ruhsal-mənəvi dəyərlərin inikasında simvolist çalarları görməmək mümkün deyil. Bu şairlər hətta sevgi, həyat mövzularının inikasına varanda belə son məqam metafizik qata açılır, daha çox realist təsvirin iflası və için çöküşünün əlaməti kimi mənalanır:

***Kağızın üstünə düşüb***
***İki əlimin kölgəsi.***
***Yenə də lap zilə qalxıb***
***Təkliyin yalquzaq səsi.***

***Vaxtdan yaxa qurtarmışam***
***bilmirəm saat neçədi,***
***Ay yarımçıq, ulduzlar yox,***
***Yaman ölməli gecədi...***

***Nə varım var, nə barxanam,***
***Ömür yükü bağlamağa.***
***Allah, məni yarı öldür,***
***Yarı saxla ağlamağa...***

"Vaqif Səmədoğlunun bu misraları klassik Şərq poeziyasında göz yaşının təmizləyici rolunu yeni məzmun və biçimdə üzə çıxarmaqla həm də söz açdığımız dönəmdə şeirimizdə rişələnən bütöv bir cərəyanın təzahürü kimi maraqlıdır." (Nizaməddin Mustafa. Şeytan qulluğundan Tanrı dərgahına. "Cahan" jurnalı, 1997, N-2, s. 53)

V.Səmədoğlu lirikasındakı dünya ilə küskün mövqedə dayanan "mən" Vaqif Bayatlı Odərin poeziyasında ümumiyyətlə Tanrı, ruhsal dəyərlər fonunda əriyir, itir, görünməz olurdu. V. Səmədoğlu qəhrəmanının İlahi başlanğıca bağlılıq və

məhrəmliyi, hətta "mən burdayam, İlahi" deyərək özünü Allahın yadına salacaq qədər cəsarəti onun daha çox dünyadan küskünlüyündən qaynaqlanır. Odər qəhrəmanı isə dünya, yer üzü ilə bütün bağlarını, bağlılıqlarını qırmış insandır. Odur ki, "Gizlənməyə Bir Yer Göstər, Gizlənim" şeirində müəllifin bilərəkdən görünməzliyə, gizlinlərə can atdığını görmək çətin deyil. Poeziyada dekadans durumu yaşamağa başlayan şairlərin bu jestləri - onların gizlinlərə, kimsəsizliyə meyl etmələri 70-ci illər şeirinin ümumi stixiyası kimi gəlişirdi.

***Gizlənməyə bir yer göstər,***
***gizlənim,***
***Səhər-axşam, axşam-səhər***
***gizlənim,***
***Oğlumdan da, qızımdan da***
***gizlənim,***
***Hamıdan da, özümdən də***
***gizlənim,***
***Kağızdan da, qələmdən də***
***gizlənim,***
***Ömürdən də, ölümdən də***
***gizlənim.***

***Bir yer göstər,***
***nə ev olsun, nə qəbir,***
***Bir daş altda, bir daş üstdə,***
***gizlənim.***
***...Allah, harda gizlənmisən?***
***Cavab ver!...***
***Çıx, mənə də bir yer göstər,***
***gizlənim...***

Əgər V.B.Odər şeirində şair sadəcə hamıdan qaçmağa niyyətli olub gizlinlərə meyl edirdisə, Ramiz Rövşən şeirində şairin gizlənə biləcəyi məkanın özü belə darmadağın olurdu. Bu şeirlərdə şairin özündən, öz "mən"indən uzaqlaşması halları qabarıq idi, dünya, insan, təbiət - hər bir məkan və varlıq göstəriciləri boşluq içərisində olan şair üçün sanki öz mövcudluqluğunu itirir. Son sığınacaq, son istinad görünmür, hər şey məhvərindən çıxmış təsiri bağışlayır.

***Gəl əl ələ tutub gedək,***
***Gedək biz olmayan yerə.***
***Hər dərdi unudub gedək***
***Dərdimiz olmayan yerə.***

***Burda qoyaq özümüzü,***
***Bu qırışan üzümüzü,***
***Bu köhnəlmiş sözümüzü.***
***Gedək söz olmayan yerə.***

***Bir kimsə tutmasın xəbər,***
***Gəl çıxıb gedək birtəhər.***
***Bu ev, bu kuçə, bu şəhər,***
***Bu dəniz olmayan yerə...***

Ramiz Rövşən poeziyası, ümumiyyətlə, insanın fizioloji varlığını Tanrının əbədi Varlığına tabe tutur, ona yetmək üçün ölümü vəsf edirdi. Bu şeirlərdə ölümə çox

doğma, məhrəmcəsinə münasibət vardı və bu məhrəmlik şairi öz çağdaşlarından daha çox sələfi Füzuli ilə birləşdirirdi. XVI əsr qəm şairinin məşhur “Mənəm ki, qafiləsalari-karivani-qəməm”! misrasını XX əsrin sonunda poeziyanın refreninə çevirmək qisməti Ramiz Rövşən şeirinin boyuna biçilmişdi. Maraqlıdır ki, şairin poeziyasındakı bu çaların sirayətedici gücünü onun bütün tədqiqatçıları qeyd eləməyi unutmamışlar: “Ölməyi sevmək fəlsəfəsi, öldürmək tipajı və simvolikası (cəllad və qatil, yalquzaq və canavar metaforaları, məzar, meyit, bayquş, tabut təfərrüatı) cavan poeziyaya bir həyatdan, bir də ... Ramiz Rövşənin poeziyasından sızılıb yayıldı.” (XXI yüzilə nə ilə gedirik (Tənqidçi Yaşar Qarayevlə müsahibə) “Ədəbiyyat qəzeti”, 1997, 30 oktyabr).

***Deyirlər, yuxuda ölmək asandı…***
***Özün də bilmirsən necə ölürsən.***
***Səhər tezdən eşidirsən əzandı,***
***Yuxundasa kirimişcə ölürsən.***
***Bir göz qırpımında qurtulur canın,***
***Ruhun bədənindən uçur quş kimi.***
***Əlində qalmırsan dərdin, dərmanın,***
***Dərdə də salmırsan evdə heç kimi.***

“Xeyri şərin sınağında, həyatı isə ölümün guşə daşında səhvsiz dəyərləndirmək mümkündür. Odur ki, cavanlar ölümdən dünyaya baxdılar və onda ona həyatdan baxarkən görmədikləri təzə, məchul, sehrli qatlar da tapdılar. Diriliyə retroskopik bucaqdan - ölüm rakursundan baxanda adi gözlə görünməyənlər də onlara göründü. Odur ki, belə şeirlərin ən uğurlu nümunələrində mən ölümlə bağlı rəmzlərə irreal, mistik, təhtəlşüur simvolika kimi baxmıram. Əsl poeziyada ölüm də həyatın yox, harmoniyanın, halallığın ictimai və sosial, mənəvi və əxlaqi müvazinətdə ahəngin qurtardığı sərhəddə başlayan ərazidir.” (XXI yüzilə nə ilə gedirik. (tənqidçi Yaşar Qarayevlə müsahibə) “Ədəbiyyat qəzeti”, 1997, 30 oktyabr) 70- ci illər poeziyasında ölüm məfhumu diriliyində, canlılığında şeirə gətirilir, əbədi başlanan ömrün məntiqi labüdlüyü kimi dəyərləndirilirdi. V.B.Odər “Ölümdən başlar şair ömrü” manifesti ilə öz kredosunu açıq elan edir, ölümün onunçün “xoş bir çağırış” olduğunu yazırdı:

***Qardaşlar, ölüm mənimçün***
***bir xoş çağırışdı ancaq***
***Kürəyimi babalarımın kürəyinə söykəməyə,***
***kürəyimi analarımızın***
***ayaqları altına verməyə.***

Maraqlıdır ki, 70-ci illərdən etibarən poeziyamızda başlanan yeni dekadans çalar poeziyamızda çevrilmənin başlanğıcı kimi səciyyəvi olur. Məsələn, şair Vaqif Bəhmənlinin həmin dövr şeirləri ruhun zamanla toqquşması zəminində meydana çıxır və müəllifinin yeni bir dönəmə adlamasını bəlli edirdi. Bu toqquşma əsərlərin forma və məzmununda çoxqatlılığa, fikri ekspressivliyə, poetik konstruksiyalılığa gətirib çıxarırdı.

***Günlərim qismətmiş qara saçlara...***
***Canımı süpürmə közünə tərəf.***
***Cismimi yem elə yalavaclara,***
***Ruhumu çək apar özünə tərəf-***
***Məni bu darlıqdan qurtar, İlahi!***
***Məni bu varlıqdan qurtar, İlahi!***

Hələ 1987-ci ildə yazdığı “Çəkilməmiş şəkillər” poemasında Vaqif Bəhmənlinin poetik təsvirə çəkdiyi tərcümeyi-halının məqamları müəllifinin ekzistensional

düşüncəsini görükdürür, insanın daxili "mən"inə enişinin son dərəcə həssas və səmimi nöqtələrinə ayna tuturdu.

***Ömründə bircə yol olubmu, dostum,***
***Çıxsın yaddaşından dünya büsbütün?***
***Başın ayrılıbmı hər cürə səsdən...***
***Laldı dörd tərəfin guya büsbütün?***

***Elə bil indicə göydən enmisən***
***Nə ata, nə ana, qardaş-bacı var.***
***Bircə yol olubmu düşünməyəsən***
***Dünyada kədər var, qəm var, acı var!***

Uzun illərin nikbin ovqatla süslənmiş poeziyasından sonra insanın iç yaşantılarının o biri üzünə varan bu şairlər fərdin mənəvi dünyaduyumunda kədərin kamilləşdirici, yüksəldici önəmini də dəyərləndirirməyə başlayırdılar. Bu dünyaduyum, mənəvi böyüməyə aparan dəyərlər sistemi Vaqif Bəhmənli poeziyasında əbədi-əzəli missiyasında öz rolunu davam etdirirdi. Şair yenə də qəm, kədər motivindən öz dünyasının əzəli-əbədi sakini kimi nəinki bəhs edir, həm də özünü bəlaya aşina sayırdı:

***Kafərlərin eldən ayrı suyu var-***
***imkan varsa tök dibimə qəm suyu.***
***Füzulinin qəmdən ayrı nəyi var?***
***Nəsimini qıyma-qıyma qəm soyub.***

***Qəmi məndən almaq olmaz davasız.***
***Xəyal etmə qəmi sənlə bölərəm.***
***Ölüm-zülüm tablayaram havasız,***
***əgər qəmim çatışmasa ölərəm!***

90-cı illərdə sovet buxovundan bilmərrə azad olmuş poeziya öz keçmişindən heç də gülə-gülə ayrılmır. Daha doğrusu, təbəssüm üçün zaman yer buraxmır. 1990-cı illərin xaotik mərhələsini keçib gələn nəsil üçün aldıqları psixoloji travma bədii yaradıcılıqda izi qoyur. 1980-ci illərin dekadans şeirindəki minor motivlərə yetərincə dərindən bələd olan ədəbiyyatşünas-alim Y.Qarayev 1990-cı illərdəki poeziyanın eyni ritmə köklənməsini nəzərdə tutaraq yazırdı ki, "... əsas bədii ovqatı xüsusən şeirdə hələ də tragik məqamlar təşkil edir. Heçlik, o dünya, məzar, təklik, intihar... leksikonu, gözəl ölüm mələyi və sevgili ölüm obrazı xüsusən gəncliyin poeziyasında baş alıb gedir. "Azərbaycan, haran ağrıyır?" - bu suala cavab artıq verilib və cavan poeziya indi ağrıdan sonrakı halı, məqamı, itkini, fəryadın özünü təsvirə və təhlilə gətirir." (Y.Qarayev. Azərbaycan ədəbiyyatı: XIX-XX yüzillər. Bakı, "Elm", 2002, s.733) Məsələn, heç təsadüfi deyil ki, uzun illərdən sonra, 1990-ci illərdən başlayaraq, yuxarıda bəhs etdiyimiz dünyaduyumu məsələsi V.Bəhmənlinin yaradıcılığında fəlsəfi rəng alır, həyat və ölüm, dünya və mən, təbiət və insan - bu dəfə artıq özgə problematika və mündəricədə poetik müstəviyə gətirilir. Niyə də olmasın, şair ruhu zamana müvafiq davranır, içindən keçib gəldikləri onda iz buraxmırsa, ruhən dəyişmirsə, demək ki, heç yaşanmamış sayılır. V.Bəhmənlinin bu dövr şeirlərində təklik mövzusu yeni təzahür məqamına yüksələ bilir, ölümə xəfif istehza sərgilənir, meditativ düşüncə qabarıqlaşırdı :

***Əkizə də Tanrı tikir damı tək,***
***Hər adamın dad alıbdı tamı - tək.***
***Hamı təkdi bu dünyada, hamı tək!***
***Mən də təkəm, mən də təkəm, hamı tək...***

***Hər kimsənin payı ayrı camı tək,***
***Südü ayrı, damarının qanı tək…***
***Oğrun-oğrun daşıyıram canı - tək***
***Başlar kəsib, suçlar yığan cani tək!***

90-cı illərin gənc ədəbi qüvvələrinin şeirlərində də əsas poetik ovqat çöküş ritmi üzərində köklənir, şairlər daha çox “darıxmaq”, “təklik”, “tənhalıq” düşüncəsinin təsiri altında yazırdılar:

***darıxmadan yaşamaq olmur***
***adam bir udum havadan***
***bir içim sudan ötrü***
***darıxıb yaşayır***
*(Sevinc Pərvanə)*

Bu dövür poeziyasında “darıxmaq”, demək olar ki, gənclərin həyat tərzini təşkil etməyə başlayır. “Bir udum havaya, bir içim suya” darıxacaq qədər dərinləşir məsələ:

***Bir addım irəli***
***və yaxud geriyə.***
***Heç bir dəyişiklik yox***
***Günlərimizdə***
***... qapalı bir dünya***

Heç də yaşamağa dəyməz. (Yaşar Əsən)

Yaxud:

***hələ də üzümüzdə***
***donuq ifadə varsa,***
***heç nə dəyişmirsə ömrümüzdə,***
***nədən danışım?***
*(Zahir Əzəmət)*

Poeziyanın əlvan mənzərəsini daha sərt, kəskin boyalar əvəz eləməyə, baharın yerini payız simvolikası tutmağa başlayır: “payız gələndə saralmış yarpaqlara ehtiyac olmur/sarı yarpaqlar gözəl olsa belə/utanc verir ağacların dəmir qüruruna/yuvarlandı ömrümün baharı/içimin qaranlıq uçurumuna” (S.Pərvanə).

Şeirimizdə daha çox qaranlıq - “günəşsizlik” hakim olur. Maraqlıdır ki, “qaranlıq” məfhumu 90-cı illər şeirinin əsas obrazlarından birinə çevrilir. Bu dəfə günəşin, işığın əksi, neqativi kimi...

***torpağı şəhidlər oyadar***
***şəhidləri qan***
***qanı sevgilər oyadar***
***sevgiləri çiçəklər***
***çiçəkləri quşlar oyadar***
***quşları balıqlar***
***şeytana lənət!***
***günəşi neylədiniz bə***
*(Zahir Əzəmət)*

Poeziyada "günəş"in qürubu, yoxa çıxması insan ömrünün heçliyə, boşluğa yuvarlanması kimi simvolik məna kəsb edir. "Mən günəşin batmağını seyr edirəm/ Günəş də mənim batmağımı" (R.Qaraca) - bu iki misrada içini qaranlıq, təklik bürüyən insanın əhvalı uğurlu əksini tapır, mənzərə tamamlanır. Həmin müəllifin digər misralarına diqqət edək: "günəşə nə etdiniz pis adamlar.../bir az erkən batmağa başladı". "Bir az erkən".... Yəni gəncliyin yaşanmayan illəri, itirilən zamanın acısından bəhs edir şair.

90-cı illər şeirində hakim olan çöküşün səbəbləri içərisindən əsas ana xətt kimi keçir bu nisgil. Şairlər bəzən üsyankarcasına hayqıraraq: "Yaşım qədər yaşamadım,/Hər zaman hər yerə tələsən quşlar kimi,/Ürəyimdən çıxmağa tələsdim./Tələsdiyimdən/Bir az gəncliyimə gecikdim,/Bir az yetkinliyimə,/Bir az qocalığıma gecikdim/Tələsə-tələsə özümə, ömrümə /Gecikdim." (Nisəbəyim); bəzən də pıçıltı ilə, səssizcəsinə zamanın amansız işləklərinə, yarıtmaz talelərinə lənət oxuyurdular:

***Özümü ümidə çırpıram***
***hər səhər,***
***ümid -***
***arzulardan cızıq-cızıq olmuş***
***bir qaya,***
***çırpılıb ümidə***
***çəkilirəm yorğun ürəyimə.***
***İçimdə çiliklənmiş bir ömür***
***gözlərimdə sınmış bir sevginin***
***yarasından qan damır,***
***qırış-qırış olmuş bəxtim***
***ütüyə gəlməz daha...***
*(Kənan Hacı)*

90-cıların poeziyasında əsas bədii ovqatı təşkil edən çöküş həyatın bozluğunu yaşayan, sabahına heç bir ümidi qalmayan ruhun çıxılmazlıq duyğusundan yaranırdı. "Küləyi, yağışı, qarı" özünə dost bilən qəhrəmanın ağrılar önündə tərksilah olmaqdan başqa çarəsi qalmırdı. Zənnimcə, bu dövr poeziyasını 70-80-ci illərin dekadans ovqatından ayıran amillər də bununla əlaqədar idi. Düzdür, məsələn, V.Səmədoğlu 1968-ci ildə "Görüşdük/İçdik./Bir az/süfrədə olandan yedik,/bir az xatirələrdən./Gələcəyə də uzatdıq/əlimizi hərdənbir.../Çörək boyat/xatırələr acı,/gələcək yanıq çıxdı..." - deyərək eyni ovqatla yaşamın mənasızlığına işarə edir, zamana tutunma gerçəkliyinin itirilməsindən bəhs edirsə, 90-cı illərin şairi eyni nisgillə həyatın boşluğuna, yaşanılan ömrün mənasızlığına nəinki işarə edir, onu olduğu kimi, daha sərt, epataj səciyyəli tonla nəzərə çarpdırırdı: "otuz il yolların bağrını yortdum/günəşin necə doğduğunu/necə batdığını seyr etmədən yaşadım/xəyallarım narkotik/sevgilərim nevroz/həyatım boz" (Zahir Əzəmət).

Bu ağrıdakı nisgilin ünvanları da başqa idi. 70-80-ci illər şeirinin çöküşünün səbəbləri daha çox bəşəri, qlobal ümidsizlikdən doğan tənəzzüllə əlaqədar idi. 90-cıların misralardakı "boz", "nevroz" ifadələrini gətirən səbəblər isə başqa idi. Təbii ki, burada da qlobal problemlərdən doğan ümidsizlik öndə idi. Amma bura həm də fərdin başqa ağrıları əlavə olunmuşdu: müharibədə itirilən gəncliyin nisgili, gələcəklə bağlı illüziyaların yoxa çıxması, sosial problemlərin məngənəsində çırpınan şair həyatı, gün-güzəran dərdi, heç yerdən boy göstərməyən işığa həsrətlik və s. və i.

***sənin də uşaqların***
***qumluqda ev şəkilləri cızırsa***
***kirayə qaldığın evlərin pəncərələri***
***boşluğa açılırsa***

***qadının xəyanət edirsə***
***ya hələ dözürsən qəhrəman kimi,***
***nədən danışım?***

***tanış mənzərədir***
***hər kəsin həyatı -***
***hər döngəsində özümüz.***
*(Zahir Əzəmət)*

Tənqidçi Ə.Cahangir məqalələrinin birində yazır: "Çağdaş şeirdəki düşüklük şairin dünyaya tabe olması, onun axarına düşməsidir. Çünki o, dünyanın kor gedişinə qarşı dayanmaq üçün söykənəcək nöqtəsindən məhrumdur. ... O, xırıltılı səsini dünyanın mənəvi tənəzzül ritminə kökləyir, ona züy tutur, onun havasına oynayır. O, tarixi enişin əlində əsirdir, kor əsasına möhtac olduğu kimi." (Əsəd Cahangir. Kim yatmış, kim oyaq. Bakı, "Yazıçı" nəşriyyatı, 2012, s. 89-90) R.Rövşənin "çətini dünyayla barışmaq imiş" fikirini təqib etsək, bəli, tutacaq bir şey, dirənəcək bir arxa hiss etməyən insan depressiyaya düşür, dünyaya qarşı direniş-duruş əzmini itirir və öz "mən"indən çıxış edən şair poeziyanın ritmini də dəyişməyə müvəffəq olur. Bu mənada, tənqidçinin fikirləri uyar səslənir. "İnsan düşüncəsindəki gedən çürümə, tənəzzül, deqradasiyanın mənbəyində Allahdan uzaqlaşma durur." (yenə orada, s.95)

Hərçənd bu fikri 70-80-ci illər şeirinin ümumi mənzərəsinə şamil etmək o qədər də özünü doğrultmur. Nədən ki, bu şeirlərdə Allah son istinadgah, son mənəvi sığınacaq kimi dominant müstəvidədir. Bəlkə də bu istinad şairlərin sonucu - tənəzzülü dərk edib də ondan qaçmaq üçün başlanğıca - Tanrı məqamına qayıtmaq istəyindən doğurdu. Əsrin sonlarının poeziya mənzərəsini isə tənqidçinin fikirləri yetərincə qapsayır. 90-cı illərdən başlayaraq, poeziyada güclənən modernist dalğanın təsiri ilə bədii fiqur nəinki insandan, cəmiyyətdən, hətta son (bəlkə də ilk) tutunma səbəbi sayılan Allahdan belə imtina etdi, ondan uzaqlaşdı, bütün bağları qırmağa çalışdı. Hətta bəzi şeir nümunələrində boy göstərən ilahi başlanğıca, "ilkin təkan"- Allaha (Aristotel) inamın varlığına rəğmən, məsələn, Şərif Ağayarın aşağıdakı şeirində olduğu kimi:

***axşam olar...***
***yerə çökər göylər elə bil***
***axşam olar...***
***pıçıltılar səni dinşəyər,***
***bu nə nurdu misqal-misqal dolar könlümə,***
***bu nə nurdu bir İlahim yoxsansa əgər?...***

Bu, 90-cı illər postmodernist şeirindəki Allahla bağlı nihilist yanaşmanı pərdələyə bilmədi.

*Asif RÜSTƏMLİ*

# İSTİQLAL POEZİYAMIZIN DAİSİ

*(Arxiv materialları və məxfi sənədlər əsasında ilk dəfə)*

"Dai" - ərəb mənşəli söz olub dörd məna qatını özündə birləşdirir: dua edən, səbəbkar olan, tələb edən və arzu edən. Uzaqgörənliklə seçilmiş bu təxəllüsün məna çalarları onun kəşməkəşli, dolanbac ömür yolunda, məşəqqətlər məcrasında çırpınan əzabkeş taleyində qabarıq təcəssümünü tapmışdır.

Yaradıcılığa Rusiya imperiyası dövründə başlayan, Azərbaycan Xalq Cümhuriyyəti dönəmində nəşr olunan kitablarının sevincini, həyatının xoşbəxt anlarını yaşayan Əbdül Rəhman Dai (Əbdülov Rəhman Əbdül Rəhman oğlu) sovet rejimi zamanında gizli siyasi fəaliyyətə görə 1923-cü ildə Azərbaycan Fövqəladə Komissiyası (Az.ÇK) tərəfindən həbs olunmuş, 13 il amansız repressiyaya məruz qalmış, vətəndən uzaqlarda dünyasını dəyişmişdir. Həyat və yaradıcılığı ciddi elmi araşdırmalardan kənarda qalan Ə.R.Dai Cümhuriyyət dövrü İstiqlal poeziyasının istedadlı nümayəndələrindən biri, eyni zamanda, dövrünün tanınmış folklor tədqiqatçısı və mətbuat xadimi idi.

Əbdül Rəhman Dai 1898-ci ildə Bakı yaxınlığındakı Bülbülə kəndində Əbdül Rəhman və Gülsüm xanım Əbdülovların ailəsində dünyaya göz açmışdır. Rəhman ailənin yeganə oğul övladı idi və anadan olanda atasının 58, anasının isə 40 yaşı vardı. XX əsrin əvvəllərində Əbdülovlar Bülbülə kəndindən Bakıya köçmüş, Bondarnaya (indiki Şəmsi Bədəlbəyli) küçəsi, 92 sayli ünvanda yaşamışlar. Rəhman Əbdül Rəhman oğlu Əbdülov 1905-ci ildə Bakıda Ali-ibtidai məktəbin 1-ci sinfinə daxil olmuş, 1908-ci ildə yüksək qiymətlərlə bu ibtidai təhsil ocağını bitirmişdir.

Bir müddət qoca atasına təsərrüfat işlərində kömək edən gənc Rəhman mətbəə sahəsində çalışmağa daha böyük həvəs göstərirdi. O 1914-cü ildə zəmanəsinin ziyalısı və xeyirxahı kimi tanınan Qasım bəy Qasımbəyovun (bəzi mənbələrdə Qasımzadə - A.R.) redaktorluğu ilə nəşrə başlayan "Bəsirət" qəzeti ilə əməkdaşlıq edir, "Məktəb" elektrik mətbəəsində mürəttib peşəsinə yiyələnirdi. İlk yazı nümunələri "Bəsirət", "Açıq söz" qəzetlərində işıq üzü görən Əbdül Rəhman Dainin uşaqların rəvan qiraəti üçün yazdığı "Rəhimli səyyah" adlı ilk nəsr kitabı Kazım Vəlizadənin naşirliyi ilə 1917-ci ildə "Məktəb" elektrik mətbəəsində nəşr edilmişdir. Memuar səpkisində yazılmış ilk kitabı sadə və aydın üslubda qələmə alındığı üçün müəllifinə böyük uğur qazandırmışdır.

Əbdül Rəhman Dai Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasını böyük sevgi və sevinclə qarşıladı. İstiqlal duyğuları, azadlıq arzuları onun bədii yaradıcılığında da təcəssümünü tapırdı. Bu dövrdə onun üç kitabı işıq üzü gördü. Mürəttiblik fəaliyyətini Ağabala Quliyevin "Şura" mətbəəsində davam etdirən Dai 1918-ci ildə uşaqlar üçün yazdığı, tərbiyəvi əhəmiyyət kəsb edən, sərlövhəsi atalar sözü ilə başlayan "Qurunun oduna yaş da yanar" adlı kitabçasını oxucuların ixtiyarına verdi. Nəbi adlı uşağın nadincliyindən və ədəbsizliyindən bəhs edən bu əsər dilinin saflığı, poetikliyi və bədii mənzərənin inandırıcılığı ilə diqqəti cəlb edir.

Ə.R.Dai 1919-cu ilin əvvəllərində Kərbəlayi Vəli Mikayılovun dəvətilə onun rəhbərlik etdiyi "Hökumət" mətbəəsində naşirlik fəaliyyətinə başlayır və özünün iki

kitabını burada nəşr etdirir. "Qanqal" Əbdül Rəhmanın ilk satirik şeirlər toplusudur. "Ay Baba!" müraciətilə başlayan satiralar çox güman ki, fədakar mətbuat xadimi Əlabbas Müznibin redaktorluğu ilə nəşr edilən "Babayi-Əmir" (1915-1916) gülgü dərgisinə ünvanlanmışdır. Dainin satirik şeirlərinin formalaşmasında "Molla Nəsrəddin" ədəbi məktəbinin güclü təsiri olub.

27 aprel çevrilişindən sonra Ə.R.Dai bir müddət naşirlik fəaliyyətini dayandırmış, işsiz qalmışdır. Yalnız 1921-ci ilin baharında o, Əli Həsən Babayev və Əbdül Vahab Məmmədzadənin dəvətilə gizli fəaliyyətə başlayan "İstiqlal" qəzetinin nəşrinə cəlb olunmuşdur. Dai 1921-1923-cü illərdə 19 sayı məxfi şəraitdə çaplanan qəzetin əksər mətnlərinin mürəttibi, xüsusilə Azərbaycanın işğal günü - 27 aprel münasibətilə milli ruhda yazılan, sovet istilasını yamanlayan bəyannamələrin yığıcısı idi.

Əbdül Rəhman Dai 1923-cü ilin fevral ayında fəaliyyətə başlayan "Gənc işçi" qəzetinin məsul katibi vəzifəsinə irəli çəkilmiş, avqust ayında Süleyman Sani Axundov, Hüseyn Cavid, Seyid Hüseyn, Məmməd Əli Sidqi, Hənəfi Zeynallı, Məmməd Səid Ordubadi, Nemət Bəsir, Salman Mümtaz və b.-nın iştirakilə yaradılan "Türk ədib, şair və ədəbiyyat həvəskarları" cəmiyyətinin katibi seçilmişdir. Onun xalq ədəbiyyatına dair tədqiqat xarakterli məqalələri, xüsusilə "El şairi Aşıq Cavad", "El şairəsi Ağa Sənəm", "El şairi Xələf", "El şairi Dəli Mehdi", "Bakı tarixində el şairləri", eləcə də çoxsaylı şeirləri o dövrün "Kommunist", "Gənc işçi", "Yeni yol" qəzetlərində, "Maarif və mədəniyyət" jurnalında dərc olunmuşdur. Onun "İki məktəbli" adlı mənzum pyesi M.Əzizbəyov adına kitabxanada həvəskarlar tərəfindən oynanılmışdır. Əbdül Rəhmanın "Kommunist" qəzetinin 12 oktyabr 1923-cü il tarixli sayının ədəbiyyat səhifəsində çap olunmuş bir bayatısı xüsusilə diqqəti cəlb edir.

***Şəftəliyəm, kalam mən,***
***Dilim yoxdur, lalam mən,***
***Çərxi-fələk qoymadı***
***Arzu-kamım alam mən.***

Çox keçmir ki, "çərxi fələk" - bolşevik rejimi gənc ədibi "arzu-kam" almağa, milli ədəbiyyata xidmət etməyə imkan vermir. Azərbaycan Fövqəladə Komissiyasının (Az.FK) hərbçiləri 1923-cü il oktyabrın 5-dən 6-na keçən gecə vətənpərvər, hürriyyətçi, istiqlal fədailərnin böyük və fəal bir qrupunu həbs edir. Qəfil həbslər zamanı sol müsavatçıların gizli nəşr etdiyi və 19 sayı işıq üzü görmüş "İstiqlal" qəzetinin və bəzi məxfi kitabçaların çap olunduğu mətbəə aşkar edilir. Kütləvi həbslər zamanı saxlanılan azadlıq mübarizlərindən Rəhman Əbdül Rəhman oğlu Əbdülov (təxəllüsü Dai), Əbdül Vahab Məmmədzadə, Cəfər Cabbarlı, Rəhim bəy Vəkilov, Kərbəlayi Vəli Mikayılov, Novruz Ağayev, Qurban Musazadə, Ağa Səlim Rəhimov, Əli Abbas Əliyev, Əli Həsən Babayev, Nəsrulla İsrafilov, Məşədi İslamov, Salman Rəhimov, Hacı Baba Cəbiyev, Ağa Kərim Əliyev və başqaları o dövrün tanınmış ziyalıları, mətbuat nümayəndələri və vətənpərvər qüvvələri idilər.

Əbdül Rəhman adları çəkilən məsləkdaşları ilə müqayisədə xeyli gec - 1923-cü il dekabrın 11-də ordersiz həbs olunub. Onun adına verilən 475 saylı orderi və 1588 saylı məhkumluq vərəqini Az.FK-nın sədr müavini Qaber Korn yalnız dekabrın 24-də imzalamağa "vaxt tapmışdı". Dainin ilk müstəntiqi məxfi və xüsusi şöbənin müdiri, sonralar Azərbaycan Ali Məhkəməsinin (1934-1937) və Nazirlər Sovetinin sədri (1937-1954) işləmiş Teymur Quliyev idi. Müstəntiq 11 dekabr 1923-cü il tarixli protokola əsasən Əbdülov Rəhman Əbdül Rəhman oğlundan suallarına cavab alır. Müttəhim təsdiqləyir ki, mətbəə müdiri Əli Həsən Babayevin dəvəti ilə Qurban Musazadənin (yazıçı Qılman İlkinin qardaşı - A.R.) evində "Müsavat" təşkilatının üzvü olmuş, gizli "İstiqlal" qəzetinin antisovet intibahnamələrinin çapında fəal iştirak etmişdir. Sonrakı ifadələrində və üzləşmələrdə ilkin izahatını Rəhman Əbdül Rəhman oğlu dəyişmir. Ailənin yeganə oğlunu və çörəkqazananı yuxarılara yazdığı fəryad dolu məktubları ilə Gülsüm Allahverdi qızı Əbdülova müdafiəyə qalxır. O, Rəhmanın həbsindən 26 gün sonra ilk məktubunu Az.FK-nın sədri Mir Cəfər Bağırova ünvanlayır. Məktub 1924-cü il yanvarın 5-də Bağırova çatır və cavab üçün məxfi

şöbəyə göndərilir. Gülsüm xanım 2-ci məktubunu yanvarın 19-da Azərbaycan MİK-nin sədri Səmədağa Ağamalıoğluna göndərir. Ərizədə yazılırdı: "Oğlum Rəhman Əbdülov təxminən bir ay yarım əvvəl Az.FK tərəfindən həbs edilib, işi müstəntiq Nikolayevə verilib. Mənim oğlum vərəmə yoluxub, hər bir həkim bunu təsdiqləyə bilər. Qorxuram ki, o ağır şəraitdə xəstəliyə dözə bilməyə, ölə, onda qoca atası və anası üçün necə olacaq? Bizi oğlum saxlayırdı. Hökumət evində yaşayırıq və ayda 1 çervon istəyirlər, haradan ödəyək?! Mən gözləri yaşlı qadın sizə yalvarıram, qoca ata-anaya yazığınız gəlsin, hansı ki, heç yaşamaq imkanları da yoxdur. Əllərimi açıb sizə yalvarıram, oğlumu mənə qaytarın" (AR MTN Arxivi. İş-25703, Pr-19881, vərəq-18).

S.Ağamalıoğlu ərizəyə şəxsən "Baxılmaq üçün" dərkənar qoyaraq Az.FK-ya ünvanlayır. Gülsüm Allahverdi qızı müraciətinə müsbət cavab almayıb növbəti ərizəsini Mir Bəşir Qasımovun adına göndərir. Müstəntiq Malçenkova verilən ərizənin üstünə qırmızı mürəkkəblə "İmtina edilsin" dərkənarı qoyulur. Fəryad edən köməksiz ananın ümidləri Azərbaycan rəhbərliyindən üzülür...

Rəhman Əbdül Rəhman oğlu Birləşmiş Dövlət Siyasi İdarəsi (BDSİ) Kollegiyası yanında Xüsusi Müşavirənin 25 aprel 1924-cü il tarixli qərarı ilə üç il müddətinə Ağ dənizdə yerləşən Solovetski həbs düşərgəsinə - "Buzlu cəhənnəm"ə sürgün edilir. Məhkumun anası ahıl yaşında yeganə oğlundan ayrı 3 il məşəqqətlər yaşayır. Lakin bütün gözləntiləri puça çıxır. Əbdül Rəhmanın həbsindən üç il yarıma yaxın vaxt keçsə də onu azad etmək istəmirlər. Ana həyəcan siqnalı çalır, fəryad qoparır. Növbəti göynərti dolu, göz yaşları ilə yazılmış 29 may 1927-ci il tarixli məktubunu İ.V.Stalinə göndərir. ÜK(b)P MK-nın Məxfi şöbəsi Gülsüm Əbdülovanın məktubunu iyunun 3-də alır. Ertəsi gün MK Məxfi şöbəsinin müdir müavini Berzanovski G.Əbdülovanın müraciətini BDSİ-yə ünvanlayır. Dainin 83 yaşlı atası Əbdül Rəhman kişinin ağır yataq xəstəsi olduğu ərizədə vurğulansa da, daş qəlbli sovet məmurları şairə azadlıq vermək əvəzinə həbs müddətini əlavə üç il də uzadaraq onu Ural vilayətinin İşimski rayonunun Vikulov kəndinə göndərirlər. Gülsüm xanımın oğluna qovuşmaq üçün yalvarış və ümid dolu məktubları keçmiş SSRİ-nin əksər rəhbər şəxslərinə ünvanlanır. Onun NKVD-yə yolladığı 12 noyabr 1927-ci il tarixli məktubu fərqli biçimdə idi; oktyabrın 10-cu ildönümü münasibətilə oğlunun əfv olunmasına ümid bəsləyən Gülsüm xanım həyat yoldaşının bu dərdə dözməyərək yenicə dünyasını dəyişdiyini, özünün də ağır, dözülməz vəziyyətdə olduğunu vurğulayırdı. G.Əbdülovanın ərizəsini Bülbülə kənd sakinlərindən yüz nəfər - Ağaəli, M.Dəmirov, K.Babayev, S.Rəhimov, İ.Nağıyev, D.Kərimov, S.Kərim, Həmid Ağazadə və b. imzalamışdı (AR MTN Arxivi. İş-25703, Pr-19881, vərəq-24).

Bəlkə də bu məktub ömrünün son anına qədər yeganə oğlunu görmək arzusu ilə yaşayan Gülsüm xanımın sonuncu cəhdi idi. O da həqiqətdir ki, yorulmadan Azərbaycan və SSRİ rəhbərliyinə müraciət edən Gülsüm Allahverdi qızı oğlu Rəhman Əbdül Rəhman oğlu Əbdülovu görmədən həyatla vidalaşmışdır.

Əbdül Rəhman Dai isə Ural vilayətinin İşimski rayonunda əlavə üç illik sürgün müddətini başa vurduqdan sonra Birləşmiş Dövlət Siyasi İdarəsinin Kollegiyası yanında Xüsusi Müşavirənin 1930-cu il 13 yanvar tarixli qərarı ilə Moskva, Leninqrad, Kiyev şəhərlərində və Zaqafqaziyada üç il yaşamaq hüququndan məhrum edilməklə DSİ-nin Aşqabad şöbəsinin sərəncamına göndərilir: qərardan xəbərsiz olan Rəhman 1930-cu il fevralın 6-da Moskvaya BDSİ sədrinə və prokuroruna teleqram vuraraq yazırdı: "Sürgün müddətim noyabrın 13-də başa çatsa da, sənədlərimi almamışam. Xahiş edirəm aydınlaşdırın və məlumat verin. Siyasi məhkum Əbdülov Rəhman" (AR MTN Arxivi. İş-25703, Pr-19881, vərəq-31).

Teleqram 1930-cu il fevral ayının 9-da BDSİ-də qeydə alınmış, prokuror Kondratyev iki gün sonra SSRİ Ali Məhkəməsinin Siyasi İdarə üzrə nəzarət prokuroruna müraciət edərək Əbdülov Rəhmanın sürgün müddəti bitdiyi üçün müraciətin yoxlanılması və sərəncam verilməsi üçün sənədləri göndərdiyini bildirmişdir.

Rəhman Əbdülovun və prokurorun müraciətinə BDSİ Kollegiya Katibliyində Novruz bayramı günü - 21 mart 1930-cu ildə yenidən baxılmış və qərardad qəbul

olunmuşdur. Qərardadda R.Əbdülovun 32 yaşı olduğu, "Müsavat" partiyasının gizli fəaliyyətində iştirak etdiyi və onun haqqında müvafiq orqanlar tərəfindən üç dəfə qərar qəbul olunduğu nəzərə çatdırılaraq gələcəkdə də sosial müdafiə istiqamətində dəyişikliyin məqsədəuyğun olmadığı vurğulanmışdır.

Teleqramına müsbət cavab almayan Rəhman Əbdülov Aşqabada göndərilsə də onun sənədlər qovluğu müvafiq siyasi idarəyə təhvil verilməmişdi.

Türkmənistanın Dövlət Siyasi İdarəsinin sədr müavini Amelin 18 may 1931-ci ildə BDSİ-nin İşimski rayon şöbəsinin rəisinə göndərdiyi məktubda yazırdı: "Türkmənistan SSR DSİ Sizin 18.III.1930-cu il 8112 saylı vəsiqə ilə Aşqabad şəhərinə inzibati sürgün olunan Əbdülov Rəhman Əbdüloviçin şəxsi işini göndərməyi beşinci dəfədir xahiş edir" (AR MTN Arxivi. İş-25703, Pr-19881, vərəq-34).

BDSİ-nin İşimski rayon şöbəsinin rəisi Balaxonuyev 5.VI.1931-ci ildə yazdığı 416 saylı cavab məktubunda bildirirdi: "BDSİ-nin dairə şöbəsi ləğv edilərkən Əbdülovun işi Fəal Bölməyə göndərilmiş, indi Əbdülov Rəhmanın şəxsi işinin harada olması barədə İşimski rayon şöbəsinin arayış vermək hüququ yoxdur" (AR MTN Arxivi. İş-25703, Pr-19881, vərəq-35).

Sovet rejimi tərəfindən Azərbaycanın milli istiqlal ədəbiyyatına sanballı töhfələr vermiş Əbdül Rəhman Dainin yalnız sənədləri, azadlıq vəsiqəsi itirilməmişdi, vətənindən, ailəsindən didərgin, dərbədər salınmış, bütövlükdə həyatı məhv edilmişdi. Ömrünün son 13 ilini ölüm düşərgələrində, "Buzlu cəhənnəm"lərdə keçirən Əbdülov Rəhman Əbdül Rəhman oğlu (Dai) 39 yaşında, 1937-ci ildə sovet repressiyasının qurbanı olmuşdur.

* * *

Əbdül Rəhman Dainin ədəbi-bədii irsi ədəbiyyatşünaslar, araşdırıcılar tərəfindən uzun illər tədqiq edilməmiş, əsərləri zamanın, mühitin dumanlığında görünməz olmuşdur. Xalqımız dövlət müstəqilliyini bərpa etdikdən sonra onun "Uşaq və quş", "Aslan və qurd" şeirləri "Azərbaycan uşaq ədəbiyyatı antologiyası"na (Bakı, "Öndər" nəşriyyatı,2004, II cild) daxil olunsa da, bütövlükdə külliyyatı hazırlanıb müasir oxucuya çatdırılmamışdır.

Əbdül Rəhman Dai yaradıcılığa çox erkən başlamış, səkkiz il ərzində (1915-1923) dəyərli əsərlərinin bir qismini nəşr etdirməyə nail olmuşdur. Onun ilk qələm təcrübələri arasında lirik və satirik şeirlər üstünlük təşkil etsə də, 1915-ci ilin aprel ayında uşaqlar üçün yazdığı "Rəhimli Səyyah" didaktik hekayəsi gənc və istedadlı bir sənətkarın ədəbiyyata gəlişindən xəbər verirdi. Kitabın üz qabığında "Birinci əsər" yazılan bu nəsr nümunası çox aydın bir dil ilə qələmə alınmış və avtobioqrafik səciyyə daşıyır.

Hekayədə xeyirxahlıqla bədxahlıq, zəhmətsevərliliklə müftəxorluq, ziyalılıqla nadanlıq ziddiyyətli prosesdə verilmiş, dövrün qaranlıq mühitindən, sosial, mənəvi bürküsündən, dalanından yeganə xilas yolunu müəllif elmin və təhsilin inkişafında olduğunu nişan vermişdir.

"Fəhlənin nitqi" Əbdül Rəhman Dainin 1917-ci ildə nəşr olunan kiçikhəcmli, ikinci kitabıdır. İlk misralardan Rusiya inqilablarının ideoloji küləyi oxucunun çöhrəsinə çırpılır:

***Görürəm halını yaman, xozein,***
***Səbəbin gəl eylə bəyan, xozein.***
***Gələcək günlərin üçün heç də sən,***
***Ağlayıb, eyləmə fəğan, xozeyin.***

*(Ə.R.Dai. "Fəhlənin nitqi". "Baku" qəzetinin mətbəəsi, 1917, s.2)*

Əbdül Rəhmanın mənsub olduğu fəhlə sinfinin təəssübünü çəkməsi, mənafeyini müdafiə etməsi təbii və başadüşüləndir. Lakin, fəhlənin sahibkarı ittiham etməsi, öz sinfini onlardan intiqam almağa çağırması əsərin məlum siyasi xətt tərəfdarlarının sifarişilə yazıldığını göstərir. Əsər satirik üslubda, məsnəvi şəklində yazılmış və

zamanında ciddi əks-sədaya səbəb olmuşdur.

Ə.R.Dainin Cümhuriyyət dövrü yaradıcılığı daha məhsuldar olmuş, 23 ayda 3 kitabı işıq üzü görmüşdür. Onun uşaqlar üçün yazdığı digər nəzm parçası "Qurunun oduna yaş da yanar" (1918) adlanır. Şair bu kitabında da epik mənzərənin poetik imkanlarını məsnəvi biçimində təqdim etmiş, təhkiyə yolu ilə uşaqlar üçün oxunaqlı, didaktik əsər yarada bilmişdir.

Şairin Cümhuriyyət dövründə işıq üzü görən növbəti kitabı "Qanqal" (1919) satirik şeirlər toplusudur. "Molla Nəsrəddin" ədəbi məktəbinin satirik ənənələrinə sadiq qalan Dainin şeirlərində ictimai-siyasi, təlim-tərbiyə və ailə-məişət mövzuları mühüm yer tutur.

Xalq Cümhuriyyəti dövründə Əbdül Rəhman Dainin istiqlal məfkurəsinə, milli dövlətçiliyə ən böyük xidmətlərindən biri onun "Əsgəri nəğmələr" adı ilə toplayıb 1919-cu ildə Hökumət mətbəəsində nəşr etdirdiyi ordu marşlarıdır. Doğrudur, burada çap olunan mətnlərin müəllifləri və yazıldığı tarix göstərilməmişdir. Lakin güman etmək olar ki, "Əsgəri nəğmələr"in müəyyən bir qismi Dainin qələminə məxsusdur. Şairin şeirləri ilə "nəğmələr" arasındakı üslub yaxınlığı belə qənaətə gəlməyə əsas verir.

"Azərbaycan əsgəri" adı ilə tanıdığımız məşhur mahnı mətni bu kitabda "Marş" adı ilə verilmişdir. Məlumdur ki, Balaqardaş Səttaroğlunun tərtibilə 1919-cu ildə çap olunan "Ordu marşları"nda (Toplu 1993-cü ildə filologiya üzrə fəlsəfə doktoru Sədaqət Məmmədovanın transfoneliterasiyası ilə işıq üzü görmüşdür - A.R.) bu mətnin müəllifi türkiyəli şair Əli Kamidir. Hər iki əsgəri nəğmələr kitabında eyni şeir cüzi fərqlərlə çap olunmuşdur. "Əsgəri nəğmələr" (tərtibçi Ə.R.Dai) kitabında adı çəkilən marş mətninin təfiləsi "Qafqazın şanlı əsgəri"dirsə, "Ordu marşları"nda (tərtibçi B.Səttaroğlu) "Azərbaycan əsgəri"dir. Etiraf edilməlidir ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli ordumuz tərəfindən sevilə-sevilə oxunan "Marş"ın mətnini Əli Kami Ağüz (1873-1945) yüksək vətənpərvərlik ruhu ilə qələmə almışdır.

Böyük sənətkarlıqla yazılmış "Əsgəri nəğmələr"də vətənə, xalqa sədaqət andı, məhəbbət himni səsləndirilmiş, Azərbaycanın görkəmli sərkərdələri, hərbi xadimlərindən general Səməd bəy Mehmandarov, Həbib bəy Səlimov sevgi və sayğı ilə tərənnüm olunmuşdur. Əsgəri nəğmələrdən birində "Səməd paşa sərdarımız, qan axıdar xəncərimiz" misrasında komandanlıqla sıravi heyətin birliyindən yaranan gücə, qüdrətə qəti bir inam vardırsa, həmin şeirin digər beytində:

***Düşmənləri qəhr edəriz,***
***Yurdlarını məhv edəriz,***
***Aslan kimi cəng edəriz,***
***Biz bir tabor aslanlarız!***

- deyən gənc döyüşçülərin özünə inamı, düşmənlərə nifrəti qabarıq ifadə olunmuşdur.

Əbdül Rəhman Cümhuriyyət dövrü mətbuat orqanlarında çap etdirdiyi lirik şeirlərində də yurdsevərlik, dövlətçilik duyğusu aşılayan mövzulara üstünlük vermişdir. Məlumdur ki, 1920-ci ilin Novruz bayramı gecəsi Xankəndində və Əsgəranda erməni bandaları Azərbaycan ordusunun qışlalarına xaincəsinə soxularaq çoxsaylı zabit və əsgərlərimizi qətlə yetirmişdilər. Səməd bəy Mehmandarovun komandanlığı altında az bir müddətdə üsyan yatırılmış, Qarabağ erməni bandalarından azad edilmişdir. Həmin dövrda Ə.R.Dainin döyüş meydanına yola düşən əsgərlərimizə müraciətlə yazdığı şeir diqqətəlayiqdir:

***Ey vətənin dilavər əsgərləri!***
***Ey vətənin aslanlanı, nərləri!***
***Şanlı, şücaətli, igid ərləri!***
***Tanrı sizə kömək olsun, yar olsun!***

***...Ey ucaya qaldıranlar bayrağı!***
***Hifz eyləyin bu müqəddəs torpağı!***
***Gedin, qovun, xainləri, alçağı!***

***Düşmənlərmiz vətəndən kənar olsun.***

*(Ə.R.Dai. "Əsgərimizə". "Azərbaycan" qəzetəsi, 1920, 28 mart, № 61)*

Ə.R.Dainin "Azərbaycan" qəzetində çap etdirdiyi "Əsgəranın alınması münasibətilə" (7 aprel 1920-ci il), "Qaçqınlar" (5 aprel 1920-ci il), "Çalışmaq" (20 aprel 1920-ci il), "Bir yaralı əsgərin dilindən" (21 aprel 1920-ci il) və b. şeirlərində də dövrün, zamanın ən aktual problemlərinə şair, ziyalı münasibəti bildirilmiş, vətənə və dövlətçiliyə sevgi, sədaqət hissi aşılanır.

Cümhuriyyətin süqutundan sonra Əbdül Rəhman Dai bir müddət işsiz qalır. Gizli "İstiqlal" qəzetindəki fəaliyyəti isə qoca ata-anasını dolandırmaq üçün yetərli deyildi. Onun "Kommunist", "Gənc işçi", "Maarif və mədəniyyət" və b. mətbuat orqanlarında çap etdirdiyi şeirləri, xalq yaradıcılığına dair araşdırma xarakterli, günümüzlə səsləşən məqalələri Dainin istedadlı və vətənpərvər bir aydın, yorulmaz qələm sahibi olduğunu təsdiqləyir. Dai bəzi lirik duyğularında narahatlığını dilə gətirir, sabahını görür, bədbinliyə qapılır. Keçirdiyi hissləri həmyaşıdları ilə bölüşməkdən çəkinmir. Onun "Maarif və mədəniyyət" jurnalında nəşr etdirdiyi "Bulunmaz" sərlövhəli lirik şeirində sovet rejiminin amansızlığı, qəddarlığı üstüörtülü şəkildə olsa da vurğulanır, yaxınlaşan təhlükəöncəsi yaşanan çarəsizlik hissi büruzə verilir.

***Məgər mənim dərdim birmi, ikimi?***
***Öylə dərddir onun yoxdur həkimi.***
***Sağaltmağa bilməm çağırım kimi,***
***Dərman bulunsa da loğman bulunmaz!***

*(Ə.R.Dai. "Bulunmaz". "Maarif və mədəniyyət" jur., 1923, № 4-5, səh.50)*

Dai azadlıq və müstəqillik dərdinin dərmanını xalqda görürdü, arayırdı, millətin öz yarasına məlhəm tapacağına inanırdı. Lakin, bu dərdin loğmanları, siyasi liderləri rejim tərəfindən ya qətlə yetirilmiş, ya da vətəndən didərgin salınmışdı. Xalqın yeni bir lider yetirməsi prosesi uzun çəkə bilər, onu gözləməyə lirik qəhrəmanın nə səbri, nə də ömrü yetişməz. Şair dərddən, istiladan xilas olmağın yeganə yolunu kiminsə, hansı loğmanınsa (M.Ə.Rəsulzadəninmi, Ə.M.Topçubaşovunmu-A.R.) vətənə çağrılmasında görürdü.

Əbdül Rəhman Dainin həbsdən əvvəl "Maarif və mədəniyyət" jurnalında çap etdirdiyi digər bir əsəri - "Qürbət ellərdə" adlı şeiri elə bil müəllifin düçar olacağı məşəqqətlərin öncədən qələmə alınmış antisipasiyasıdır:

***Çıxmaqdadır ərşə ahım, fəğanım,***
***Qəribəm, kimsəyə yoxdur gümanım.***
***Yurdsuzam, nə evim var, nə məkanım,***
***Məcnun kimi çöllərdə qalmışam mən.***

***Qürbətdə yaşamaq sanki zindandır,***
***Pəjmürdə halıma səbəb hicrandır.***
***Könlüm el tənəsindən dolu qandır,***
***Ah, nə edim, dillərdə qalmışam mən!***

*(Ə.R.Dai. "Qürbət ellərdə". "Maarif və mədəniyyət" jur., 1923, № 8-9, s.44)*

Rəhman Əbdül Rəhman oğlu on üç il qürbətdə, sovet rejiminin ölüm düşərgələrində, qapalı, soyuq zindanlarında ah-fəğan içərisində yaşadıqdan sonra 1937-ci ildə, 39 yaşında qırmızı terrorun qurbanı olmuşdur. Milli istiqlal poeziyamızın görkəmli nümayəndəsi, folklorşünas, mətbuat xadimi, Cümhuriyyət şairi Əbdül Rəhman Dai özündən sonra yaşadığı dövrün ümumi mənzərəsinə işıq sala biləcək ədəbi-bədii irs qoyub getmişdir. Onun mübarizələr, tufanlar içərisindən keçən ömür və yaradıcılıq yolu, milli istiqlal məfkurəsinə bəxş etdiyi dəyərli töhfələr çağdaş gəncliyimiz üçün qürur mənbəyi, mücadilə örnəyidir.

# "GÖZƏL DÜNYADI, VALLAH..."




## *Fikrət Qocanın dördcildliyini vərəqləyərkən*

Bu yaxınlarda "Uni Print" nəşriyyatı Fikrət Qocanın "Seçilmiş Əsərləri" nin dördcildliyini nəşr etmişdir . Qeyd edək ki, I və II cildlər 2014-cü ildə, III - IV cildlər isə, 2015-ci ildə tərəfindən çap olunmuşdur. Bu nəşrlər bizə iki əsrin sınağından çıxan, tarixi yaddaşa çevrilən Fikrət Qoca şəxsiyyəti, sənəti haqqında müəyyən fikir yürütmək imkanı yaradır.

Şairin bu vaxta qədər onlarla kitabı çap olunub, əsərləri bir çox dillərə tərcümə edilib, haqqında kitablar, monoqrafiyalar yazılıb. "Seçilmiş Əsərləri" şairin 50 illik yaradıcılıq yolu və bu fonunda XX əsrin 60-cı illərinin əvvəllərində durulma, yeniləşmə dövrünün ab-havası , bu havanın gətirdiyi qayğılar, problemlər; tarixin inkişaf mexanizminin "vinticiyi" və "təkərciyi" kimi unudulmuş, yaddan çıxarılmış insana qayıdış da var, bu qayıdışda "fırlanıb özünü günə verən yer kürəsi"nin sakininə, yaşadığı zamana, əhatə olunduğu təbiətə qarşı həssaslığın artması və planetimizin gələcəyindən narahatlıq da. Beynəlxalq aləmdə cərəyan edən ictimai-siyasi proseslər, müharibələr, xalqımızın 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində inqilab, müstəqillik yaşantısı; keçid dövrünün çətinlikləri və qazandıqlarımızla bərabər, itirdiyimiz əxlaqi-mənəvi dəyərlərimiz, işğal olunmuş torpaqlarımızın ağrı-acısı da Fikrət Qoca poeziyasında əks olunub.

Fikrət Qocanın poeziyası zamanın simasıdır. Burada şairin yaşadığı hər bir dövrün, mərhələnin nəbzi döyünür, zamanın ab-havası, ruhu, problemləri, qayğıları boylanır.

Şairin yaradıcılığa başladığı ilk illərdə poeziyanın mövzu-ideyası, istiqaməti, ədəbiyyatın inkişaf meyilləri, prinsipləri yeniləşmiş; zamana, poeziyanın əsas predmeti olan insana baxış prizması dəyişilmiş; sxolastik təsvir üsulu yerini əyaniliyə, konkretliyə vermiş, poeziya qəhrəmanına monoton üslubdan sıyrılıb qurtulmaq, fərqlənmək, fərdi lirik "mən"in tanınmasına real imkan yaranmışdı.

Milli ruhda, milli ənənələrin qorunub saxlandığı bir ailədə tərbiyə almış Fikrət Qocaya təhsil illərinin Moskva mühiti, M.Qorki adına Ədəbiyyat İnstitutunda Lev Oşanin, Pospelov, Avtomonov, Sidelnikov kimi tanınmış şair və alimlərdən aldığı dərslər istedadını üzə çıxarmaqda, yaradıcılıq yolunu tapmaqda doğru-düzgün istiqamət verib. F.Qoca yaradıcılığının tez bir zamanda əks-səda doğurması, tanınmış şair və ədəbiyyatşünasların onun yaradıcılığı haqqında vaxtında mülahizə yürütmələri şairə ədəbi qayğı hissindən də irəli gəlirdi. Təbii ki, o zamanlar "atalar-oğullar" arasındakı əlaqə, mənəvi bağlılıqlar çağdaş günümüzdən fərqlənirdi. Belə ki, o dövrdə nəsillər arasında sıx bağlılıq mənəvi varislik əlaqəsi var idi. Poeziyaya yeni gələn ədəbi qüvvələrin istiqamətlənməsində yaşlı nəsil önəmli rol oynayırdı. F. Qocaya da bu dönəmdə ilk dayaq duran xalq şairi R.Rza olmuşdur. R.Rza 1963-cü ildə "Ümid və arzular" məqaləsində

şeir yazan cavanların yaradıcılığını dəyərləndirərkən F.Qoca şeirinə də toxunur və onun özəlliklərini qeyd edərək yazırdı: "Fikrət Qocanın şeirlərində məni sevindirən bu şeirlərin əksəriyyətində olan qüvvətli yenilik hissidir. ....ən yaxşı şeirlərində mədəni bir şairin, ürəyi sözlə dolu bir insanın nəyə isə məhəbbət, nəyə isə nifrət aşılamaq istəyən bir şairin səsini eşidirik. ...Fikrət Qocanın şeirlərində xoşbəxt bir səmimiyyət, bir yapışıq, bir sadəliklə bərabər, yığcam, tutumlu ümumiləşdirmələr də az deyildir".

Onun poeziyası mövzuya baxış prizmasının genişliyi, insana müxtəlif, çeşidli münasibət, bəzən ilk baxışda əlaqəsi olmayan, yalnız assosiativ baxımdan bir- biri ilə bağlanan predmetlər arasında uyarlıq tapmaq, avanqard, gəzlənilməz obrazları, poetik deyimi ilə R.Rza ədəbi məktəbinin ənənəsi üzərində köklənmişdir. Bunlar Fikrət Qocanın yaradıcılığının ilk mərhələlərində daha qabarıq nəzərə çarpan əlamətlər idi. Şairin "Bir nəğməyəm", Telefonla söhbət", "Azad insanıq", "Xirosima", "Mənim əsrim" şeirlərində bu təsirin izlərini görmək mümkün idi.

***Çiynimdə ulduzlu səma,***
***İslanmış səkilərdə***
***Rəngarəng reklamların əksini***
***Geyirəm ayaqlarıma.***
***Bürkülü günlərdə sərin***
***Ağac kölgəsində sərinləyirəm,***
***elə bil***
***çimirəm.***

Kimdir Fikrət Qoca? - sualının cavabını şairin hələ o dövrdə yazdığı bir şeirindən almaq mümkün idi:

***Mən ayaq açıb anamın yanından***
***məzarıma kimi gedən bir yolçuyam.***
***Atamın məsləkinə, anamın laylalarına***
***qaravulçuyam.***
***Məni yandırıb - yaxan***
***ən böyük hicranımın səbəbi***
***görüşlərimdir.***
***Böyük, kiçik, yaxşı, pis,***
***bütün əməllərim,***
***yolüstü gördüyüm işlərimdir.***

Poeziya dil - üslub, şair fərdiyyətini üzə çıxaran, onun əsl simasını təqdim edən, göstərən hisslər, duyğular, fikirlər toplusudur. Fikrət Qocanın da yaradıcılığında diqqət çəkən məqamlardan biri məhz bu poeziyada şair şəxsiyyətini göstərmək, təqdim etmək bacarığıdır. Şair - Vətəndaş -- bu iki məfhum Fikrət Qoca obrazının bir-birini tamamlamasıdır.

***Bir nəğməyəm,***
***Sözlərim bütün gözəlliklərdir -***
***Onların adını düzün yan-yana,***
***Mən bir nəğməyəm,***
***Bütün gözəlliklərə parçalanıb***
***Səpilmişəm***
***Cahana!..***

Fikrət Qoca üçün ən doğma məfhumlardan biri də azadlıqdır! Azadlıq hər bir şairin yaradıcılığında müxtəlif assosiasiyalar doğurub. Əslində, 1990 - cı illər -- bizi müstəqilliyə aparan yolun, azadlığın başlanğıcı da neçə onilliklər qabaq şairlərimizin poetik dünyasında doğulub, boy atıb, müstəqilliyə qədər böyük bir zaman, məsafə qət edib. Lakin mövzuya baxış, bədii dərk Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Fikrət Qoca, Vaqif Səmədoğlu və başqalarının poeziyasında tam fərqli biçimdə əyaniləşib. Xəlil Rza Ulutürkün bədii üslubunda azadlıq yüksək pafosla, qəzəb və həyəcan hissi ilə, siyasi kəskinliklə, ruhi-psixoloji tələbat kimi

***Azadlığı istəmirəm zərrə - zərrə, qram - qram,***
***Qolumdakı zəncirləri qıram gərək,***
***Qıram,***

***Qıram!***
***Azadlığı istəmirəm bir həb kimi, dərman kimi,***
***İstəyirəm səma kimi!Günəş kimi!***
***Cahan kimi***

- misralarında üzə çıxırdısa, Vqaif Səmədoğluda bir agrı, nisgil, kədər, göynərti kimi gerçəkləşirdi.

***Sən mənim***
***doğma anamsan, Azadlıq,***
***mən sənin***
***yad qapısında böyümüş, balan...***

***Sən son ümidimin qaldırdığı***
***Ağ bayraqsan, Azadlıq,***
***mən səni***
***yellədən külək...***

Fikrət Qoca üslubunda isə, azadlıq məfhumun semantik tutumundan daha çox, problemin ilkin olaraq insan amilindən başlanğıcı, bəşəriliyi diqqət doğururdu:

***Başının üstündə səma,***
***ayağının altında torpaq,***
***İnsan, yaşaya bilmirsənsə, öl!***

Bəzən azadlıq nisbi anlayışa çevrilir, azadlıq sufi-təssəvvüfi baxışda ruhun bədəndəki halı ilə birləşir, "insanın ruhu azad olmur, öz ruh həyatında" qənaəti, daxili suallarla düşündürücü, dərin fəlsəfi məzmun kəsb edir.

Boğulmuş azadlıq, əsrin insanının faciəsi, milli kədər şairin "Qaragül dərili quzu" şeirində də maraqlı assosiasiyalar yaradıb.

***Qaragül dərili quzu,***
***Təbiətin qəşəng qızı.***
***Elə ki, sən***
***Bu dünyaya gəlirsən***
***Çoban başının üstünü kəsir***
***əli bıçaqlı,***
***O da özünü bilir haqlı.***

Çobanın bıçağı altında "bir dünya gözəlliyə həsrət" qalan gün görməmiş qaragül dərili quzu simvollaşır - göz açmamış, arzularını gerçəkləşdirməmiş, azad həyatın nə olduğunu dərk etməmiş, azadlığından qoparılmış xalqın, millətin, insanın faciəsinə çevrilir.

***....heyhat!***
***Bilmədin dağ var, dərə var,***
***Min cür mənzərə var.....***
***Görmədin ömrün enişini, yoxuşunu,***
***uzağını, yaxınını.***
***Bilmədin, dərini kimsə çiynində daşıyacaq.***

Bu məqamda Fikrət Qoca üslubu üçün xarakterik olan bir cəhəti də qeyd etmək istərdim. Şair ən ağrılı, kədərli məqamları əks etdirərkən, ən fəci anlarda belə, sakit axarını, təmkinini qoruyub saxlayır, əsib-coşmur. Bu cür ifadə tərzi şeirdəki daxili dramatizmi daha qabarıq verir.

***Bulud gördüm Astarada,***
***bir sərhədsiz bulud idi.***
***Baxdım ona, düşdüm oda***
***yağışını ələyirdi***
***O taya da, bu taya da.***

***Günəş gördüm Astarada,***
***İki yerə bölünmədi.***
***Nə sərhədçi, nə də sərhəd***
***Saydı günəş.***

***İşığını o taya da,***
***Bu taya da yaydı günəş.***

Fikrət Qoca həm də ovqat şairidir. Bu poeziyada şairin gözəllik düşüncələrini, gözəl həyat arzularını heç bir qüvvə, xoşagəlməz məqam təlx edə bilmir. Bu gözəlliklə o, “torpağın qoynunda toxum cücərdir”, “soyuq bir baxışda ümid yandırır”, “ürəkdə buzu əridir”, “daş üstündə çiçək bitirir”. İnsanlara hədsiz sevgi, mehribanlıq göstərən, cahanda gözləri yalnız gözəllik axtaran şairin lirik “mən”i ağrısını da, yuxusuz gecələrini də gözəllikdə əridə bilir. Dünyasını dəyişməyi, başqa dünyaya köçməyi şair görün necə gözəl ifadə edib. Bu son deyil, yeni həyatın başlanğıcıdır.

***Bir gün mən gecədən - gecəyə keçsəm***
***dünyadan köçsəm***
***Günəş nəğməsini yenə çalacaq.***

Fikrət Qoca poeziyasında insan amili xüsusulə güclüdür. Maraqlı cəhət odur ki, insana baxış fəlsəfəsi şairin həyata baxışını, mənəvi - əxlaqi kamilliyini, insana verilən dəyəri və bütövlükdə insanlığın mahiyyətini əks etdirir. Şairin dünyaya səyahət silsiləsindən “Afrikanın gecələri” adlı bir şeiri var. O burada gecənin zahiri obrazını təsvir etmir, onun gözəlliyini və yaxud əksinə, müdhişliyini göstərir.

Qara rəngin doğurduğu assosiasiyalarla gecənin fonunda Afrikalı insanın bədii obrazını yaradır, bu qitədə yaşayan qara dərili insanın faciəsini ümumiləşdirir.

***Afrikanın zülmət,***
***qara gecələri***
***hopub insanların dərisinə,***
***gözlərinin qarasına....***
***Elə gözlər var,***
***Gecələrdən ulduzlar da***
***qopub qalıb.***
***Elə gözlər var,***
***zülmətində itmək olar.***
***Elə qara gözlər var ki,***
***işığında yol getmək olar.***

F.Qoca yaradıcılığında təbiətin gecə məqamının maraqlı, bənzərsiz təsvirləri kifayət qədərdir. “Ay işığında lümlüt soyunub gecə”, “Meh qara bir pişik kimi, gecənin ayağı altında yatıb”, “ulduzlarla mıxlanıb göyə bir topa bulud” və s.

Fikrət Qoca Azərbaycan şeirinin bütün vəznlərində -- hecada da, sərbəstdə də, əruzda da kifayət qədər gözəl şeirlər yazıb. Məsələn, klassik şeirin əsas vəzni olan əruza sadəlik, özünəməxsus ritm çevikliyi gətirməyə çalışıb.

Xalq yaradıcılığının forma və bədii xüsusiyyətlərindən bəhrələnən şairin poeziyasında danışıq tərzinə uyğun söz və ifadələrə, bayatılardakı dərin və yığcam məna effekti verən tutumlu misralara da rast gəlmək mümkündür. Bu xüsusda şairin ənənəvi gəraylı formasında yazılmış “Gedir”, “Günüm”, “A dünya”, “Keçdi getdi” və onlarla belə şeirlərini misal çəkmək olar. Çox zaman janrın tələblərindən kənara çıxaraq, bəzən bölgü sistemini dağıdır, bəzən dörd misralıq şeirə yeni misra artırır, bəzən isə gəraylı formasının bölgüsünü, ritmini, ahəngini üç misrada saxlasa da, sonuncu misranı yeddiliklə verir. Bu cəhətdən şairin “Günüm” şeiri maraqlı nümunələrdəndir.

***Qarı külək bulud sağır,***
***Baxışına yağış yağır.***
***Günəş gülür, bic-bic baxır,***
***günlü, yağışlı günüm.***

***Ömrümdə var bir nazlı yar,***
***Ürəyi od, baxışı qar.***
***Məni oda, buza salan,***
***baharlı, qışlı günüm və s...***

Göründüyü kimi, səkkizliklə yazılmış əvvəlki üç misradakı 4+4 bölgüsü sonuncu misrada “ pozulmuş”, janrın tələblərindən kənara çıxaraq yeddiliklə --5+2 şəklində verilmişdir. Digər bir maraqlı məqam isə ifadə tərzi ilə bağlıdır ki, buna da F.Qocanın

bir çox şeirlərində təsadüf olunur; qabarıq təzad, antonim sözlərin və yaxud eyni sözün müxtəlif variantlarda işlədilməsi ovqat, əhval-ruhiyyə müxtəlifliyi yaradır.

Onun üslubunda “kədər dolu gözümdə şam yandırır arzular”, “sahilə yıxılır yorğun dalğalar”, “söyüd budağından sallanır bahar”, “yollar fikrim kimi qarma-qarışıq”, “saatda damcı - damcı əriyir vaxt”, “divarda zamanın döyünən nəbzi”, “nəhəng külqabıya bənzəyir yer kürrəsi”, “tale qoyun kimi bizi güdürdü” kimi yeni, orijinal obrazlar, ifadələr, poetik deyimlər istənilən qədərdir, yetərincədir.

Şair ağrısını da, dərdini də ətəyindən möhkəm yapışdığı ümidlə ovundura bilir. Bu, hədsiz həyatsevərlikdən, həyata bağlılıqdan irəli gəlir. Ümid işıqdır, ümid həyatdır, ümid son deyil, başlanğıcdır. Ona görədir ki, ürəyinin ağrısına yuxudan ayılan şair ürəyi ilə çox rahat və müdrikcəsinə söhbət edir. Ağrının səbəbləri məlum olur. Sonda:

***Vallah, mən ölməklə***
***düzələn deyil həyat.***
***Gəl sənə bir həb verim,***
***üstündən də ümid***
***at, yat.***

İnsanı yaşadan ümiddir. Bəlkə də, hər bir zaman hər şeyin yaxşı olacağına inam bəsləyən insanın özünə yaxın bilməyə can atdığı Allahın adıdır bu -- ümid.

Fikrət Qoca poeziyası başdan - başa inamdan, işıqdan, ümiddən yoğrulmuş poeziyadır. Nikbinlik, həyat eşqi, sevgi adına insan deyilən məxluqun ən ali məqamı kimi dəyərləndirilir.

***Hər səhər***
***bir ümid oyadır məni yuxudan,***
***Bir vərdiş***
***aparır məni işə.***
***Bir inam***
***yaşadır məni bütün günü...***
***Yıxıl yat!***
***Yenə səhər oyadır məni***
***ümid, inam,***
***başlayır həyat!***

Şeirin, Sözün bəlkə də ən böyük gücü elə budur;insanı yaşamağa səsləyir.

Şair insan kimi yaşamağın düsturunu da verir. Həyata bəxş olunan nemətlərdən sevgiylə bəhrələnmək, ətrafa qayğı, sevgi, nəvaziş, mehribanlıq, xeyirxahlıqla yanaşmaq, ən adi bir anda, məqamda da gözəlliyi görüb dəyərləndirmək, yaxşı işlər, əməllər görmək və s. insan üçün həyatda yaşamağın və yaşatmağın proqramıdır.

***Sən bir büllur suya bax,***
***Qara, canlı torpağa,***
***Mavi, təmiz göyə bax.***
***Min-min aydın gözlərə,***
***Nur ələnən üzlərə,***
***Vüqarlı ellərə bax.***
***İnsan kimi yaşasaq***
***Yaşamalı dünyadı,***
***Gözəl dünyadı, vallah!***

Min beş yüzillik Azərbaycan şeirinin yeni minilllikdə, yeni yüzillikdə yeri, mövqeyi, çəkisi ilə bağlı - bir - birini inkar edən, bir - birini təkrar edən yanaşmalar bəzən insanı bədbinliyə çəksə də, əksər hallarda şeirin duru, təmiz nəfəsi “kədər dolu gözlərdə şam yandırır arzular” müqayisəsini yada salır. XX əsr azman poeziyamızın istedadlı nümayəndələrindən biri, müasir şeirimizin müdrik ağsaqqallarından olan Fikrət Qocanın “Seçilmiş Əsərləri”nin dördcildliyində oxucunu sirayətləndirən həm də budur; ”İnsan kimi yaşamaq” çağırışıdır. İşığıyla, sevinciylə könül almaq istəyən, “qəzəb söndürən, kin əridən” Fikrət Qocanın poeziyası həyatın gözəlliklərinə parçalanıb dünyamıza səpələnib. Nəğmə kimi.

***Günay QARAYEVA***

# Kitab rəfi




**İSA MUĞANNA**
**TÜRFƏ**
**Bakı, "Hədəf nəşrləri", 2015**

Böyük ustad sənətkar İsa Muğannanın 2009-cu ildə yazdığı, sağlığında müəyyən səbəblərdən çap edilməmiş "Türfə" romanı ilk dəfə nəşr edilir. Roman müəllifin SafAğ elmi silsiləsində yazılan əsərlərinin sonuncusudur. Dini-fəlsəfi mövzuda olan bu əsərdə islam dinində olan təhriflərdən və Nəqşibəndilikdən bəhs olunur.

Kitaba Şəmil Sadiqin "Redaktordan" və İsa Muğannanın qızının "Sevinc Muğannadan" yazıları da daxil edilib.




**ANAR**
**GÖZ MUNCUĞU**
**Bakı, "Yazıçı" nəşriyyatı, 2014**

Xalq yazıçısı Anarın yeni povesti - "Göz muncuğu" kitab şəklində nəşr olunub. Uzun müddət nəsr yaradıcılığına fasilə vermiş Anar bu yeni əsərində həyat, ölüm, dünyanın, zamanın dərki, insanın keçmişə, mif dünyasına baxışı ilə bağlı problemləri bədii obrazlar, real həyat lövhələri ilə təqdim edir.

Kitabın redaktoru və "Anar nəsrinin göz muncuğu..." adlı ön sözün müəllifi gənc yazıçı Pərvindir.

Kitab Azərbaycan Yazıçılar Birliyinin "aybKitab" layihəsinin növbəti nəşridir.




**NƏRİMAN HƏSƏNZADƏ**
**NABAT ANANIN ÇÖRƏYİ (türk dilində)**
**Ankara, "Tiydem" nəşriyyatı, 2014**

Xalq şairi Nəriman Həsənzadənin hələlik yeganə nəsr əsəri "Nabat xalanın çörəyi" "Nabat ananın çörəyi" adı ilə türk dilində nəşr olunub. Halallığı, anaya, yurda, el - obaya, folklorumuza məhəbbəti təbliğ edən əsər bu gün də öz aktuallığını hifz edir.

Əsəri türkcəyə Sevinc Uçgül uyğunlaşdırıb.




**TÜRKAN ƏSGƏROVA**
**NƏSİMİ DİLİNİN FRAZEOLOGİYASI**
**Bakı, "Elm və təhsil" nəşriyyatı, 2015**

Dilçi alim Türkan Əsgərovanın bu monoqrafiyası Nəsimi dilinin frazeologiyasına həsr olunub. Müəllif tutarlı dəlillərlə Nəsimi dilində frazeoloji vahidlərin linqvistik mənalarına, semantik-üslubi xüsusiyyətlərinə diqqəti yönəldir.

Kitabın elmi redaktoru və "Ön söz"ün müəllifi filologiya elmləri doktoru, professor Sevil Mehdiyevadır.




**SƏADƏT VAHABOVA**
**CƏLİL MƏMMƏDQULUZADƏ NƏSRİNİN POETİKASI**
**Bakı, "Elm və təhsil" nəşriyyatı, 2014**

Ədəbiyyatşünas Səadət Vahabovanın "Cəlil Məmmədquluzadə nəsrinin poetikası" monoqrafiyası görkəmli ədibin bədii poetik vasitələrlə zəngin olan nəsrinin sistemli təhlilinə həsr olunub. Tədqiqatçı C.Məmmədquluzadə nəsrində süjet və kompozisiya vəhdəti, portret janrı, satirik üslub və s. məsələlərdən ətraflı söhbət açıb.

Monoqrafiyanın elmi redaktoru və "Mirzə Cəlil nəsrinin poetikasına elmi töhfə" adlı ön sözün müəllifi professor Alxan Bayramoğludur.




**"ŞEYPUR" JURNALI (1918 -1919-cu illər)**
**Bakı, "Elm və təhsil" nəşriyyatı, 2014**

XX əsrin əvvəllərində maarifçi ədib kimi tanınmış M.T.Sidqinin oğlu, pedaqoq və jurnalist Məmmədəli Sidqinin redaktorluğu ilə çap olunan "Şeypur" jurnalı Azərbaycan satirik mətbuatı tarixində mühüm yer tutur. Bu kitabda "Şeypur" jurnalının 1918-1919-cu illərdə çap olunmuş sayları oxuculara təqdim edilib.

Kitabı çapa hazırlayan və "Milli mətbuat tariximizin dəyərli səhifəsi" adlı ön sözün müəllifi filologiya elmləri doktoru Hüseyn Həşimlidir.




**ADİL CƏMİL**
**SEÇİLMİŞ ƏSƏRLƏRİ, (2 CİLDDƏ) I CİLD**
**Bakı, "Elm və təhsil" nəşriyyatı, 2014**

Çağdaş Azərbaycan poeziyasının tanınmış nümayəndəsi Adil Cəmilin seçilmiş əsərlərinin I cildinə onun müxtəlif illərdə qələmə aldığı şeirləri daxildir. Kitabdakı şeirlər "İşıqlar, pərvanələr", "Gündoğandan günbatana", "Aylı gecələr", "Sözümün canı var", "Ürəyimdə bir haray var" başlıqları ilə təqdim edilir.

AMEA-nın müxbir üzvü, professor Nizami Cəfərov kitaba "Halal sözün halal adamı" adlı ön söz yazıb.




**10 ŞAİR - 100 ŞEİR**
**Bakı, "Azpoliqraf" nəşriyyat-poliqrafiya birliyi, 2014**

"10 şair - 100 şeir" toplusu AYB və Azərbaycan Naşirlər və Poliqrafçılar İctimai Birliyinin birgə layihəsi əsasında hazırlanıb. Kitabda on şairin (İbrahimxəlil, Qəşəm Nəcəfzadə, Fərqanə Mehdiyeva, Emin Piri, Həyat Şəmi, İntiqam Yaşar, Səyyarə Məmmədli, Adil Cəmil, Şəbnəm Xeyrulla, Ələmdar Cabbarlı) hər birindən 10 şeir təqdim olunur.

Müəlliflərin sırası "Ən yaxşı şeir müsabiqəsi - 2014"də ilk on yeri tutmuş qaliblərin ordakı ardıcıllığı ilə düzülüb.




**CƏFƏR BAĞIR**
**XOŞBƏXT O ADAMDIR Kİ...**
**Bakı, "Ulu", 2014**

Cəfər Bağırın adı ədəbiyyatşünaslara yaxşı tanışdır. O, ədəbiyyatımızda ən çox miniatür hekayələri ilə tanınır. Oxuculara təqdim olunan "Xoşbəxt o adamdır ki..." kitabına müəllifin yaradıcılığını əks etdirən hekayələri, oçerkləri və miniatürləri daxil edilib.

Kitab Xalq yazıçısı Qılman İlkinin vaxtilə yazdığı "Dost haqqında söz" adlı məqaləsi ilə açılır.




**VÜQAR ƏHMƏD**
**CƏNUBİ AZƏRBAYCAN POEZİYASI**
**Bakı, "MBM", 2014**

Filologiya elmləri doktoru Vüqar Əhmədin bu kitabı 1950-2010-cu illər Cənubi Azərbaycan poeziyasının tədqiqinə həsr edilib. Müəllif Cənubi Azərbaycan şeirinin tarixi - milli zəmində inkişafından, xalq adət - ənənələrinin bədii əksindən, 2001-2010 - cu illərdə Cənubi Azərbaycan poeziyasında yeni mərhələdən, janr və forma müxtəlifliyindən, ictimai fikrin tərəqqisindən söz açır.

Monoqrafiyanın elmi redaktoru akademik Teymur Kərimlidir.




**NƏZAKƏT**
**SARALMIŞ YARPAĞA BƏNZƏYİR ÖMRÜM**
**(türk dilində)**
**Türkiyə, Eskişəhər, 2014**

Bir neçə kitabın müəllifi Nəzakət Məmmədova çağdaş şeirimizdə öz dəst-xətti olan şairlərimizdəndir. "Saralmış yarpağa bənzəyir ömrüm" kitabı onun türk oxucuları ilə ilk görüşüdür. Kitabda Müharrem Kubatın, Fatma Baharın, Müzəyyən Buttanrının, Halil Gürkanın, Regina Hofərin, Şərifə Gündoğdunun, Mevlüt Kaplanın, Tamilla Abbasxanlının və başqalarının Nəzakətin şeirləri haqqında rəyləri də öz əksini tapıb.

Şeirləri türkcəyə Tamilla Abbasxanlı uyğunlaşdırıb.




**ETİBAR KƏRİMLİ**
**ŞOR QIRAĞININ RƏNGLİ YUXULARI**
**Bakı, "V-Print", 2014**

Yazıçı-publisist Etibar Kərimlinin bu kitabına ədəbi yaradıcılığının ilk on beş ili ərzində qələmə aldığı povestlər, hekayələr, oçerk və esselər daxildir. Müəllif kitabdakı povest və hekayələrində əsasən Bakının Şor gölü ətrafı qəsəbələrində baş verən hadisələrdən söhbət açır. Oçerk və esselərdə isə, soydaşlarımızı narahat edən problemlər qabardılıb.